BİR ALİM ÖMRÜNÜN HEKAYƏTİ

Tərtib edən:
Şəfa Əhmədova – doktorant
Redaktor:
Zahid Xəlil,
filologiya üzrə elmlər doktoru,
professor
Rəyçi:
Əzizxan Tanrıverdi,
filologiya üzrə elmlər doktoru,
professor

Bir alim ömrünün hekayəti. – Bakı,
Pedaqoji Universitetin nəşri, 2015, 286 səhifə

Bu kitabda tanınmış ədəbiyyatşünas-tənqidçi, uşaq ədəbiyyatı tədqiqatçısı, tərcüməçi, filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlinin elmi-nəzəri monoqrafiyaları, bədii tərcümə yaradıcılığı haqqında yazılan məqalələr və 70 illik yubileyi ilə bağlı səmimi ürək sözləri toplanmışdır.

Tərtibçidən

Mənalı ömür keçirmiş, bu günün özündə də qələmini bir an yerə qoymayan ədəbiyyatşünas alim, uşaq ədəbiyyatının tanınmış tədqiqatçısı, tənqidçi və tərcüməçi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru, Füzuli Feyruz oğlu Əsgərlinin 2015-ci il mart ayının 18-də 70 yaşı tamam oldu. Alimin bu əlamətdar yubileyini – "Yeni Azərbaycan", "525-ci qəzet", "Kredo", "Kaspi", "Təhsil işçisi", "Zaman", "Bizim yol", "Türküstan", "Gənc müəllim", "Müəllim sözü", "Tumurcuq", "Azərbaycan müəllimi", "Naşir" və respublikanın digər mətbuat orqanları qeyd etdilər.

Ədəbiyyatşünas alim son beş ildə bir sıra iri həcmli fundamental monoqrafiyalar ("Bədii təhlil və ədəbi tənqid", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Sehrli dünyanın memarı"), dərslik və dərs vəsaitləri ("Uşaq ədəbiyyatı", "Azərbaycan uşaq ədəbiyyatı", "Dünya uşaq ədəbiyyattı"), fənn proqramları ("Uşaq ədəbiyyatı", "Ədəbi əsərlərin təhlili"), uşaq ədəbiyyatının müasir problemlərinə həsr etdiyi elmi-nəzəri məqalələr ("Problemlər, düşüncələr", "Müasir uşaq ədəbiyyatının inkişaf mərhələləri" və sair) qələmə alıb çap etdirmişdir.

Ədəbiyyatşünas Füzuli Əsgərli yorulmaq bilmədən çalışır, Beynəlxalq elmi konfranslarda, Respublikada keçirilən uşaq ədəiyyatı ilə bağlı bir çox tədbirlərdə öz fəallığı ilə seçilir, elmi çıxışları ilə maraq doğurur.

O, həm də bədii tərcümə ilə müntəzəm məşğul olur, dünya ədəbiyyatının ən yaxşı nümunələrini dilimizə tərcümə edir. Bu günə qədər onun etdiyi bədii tərcümələri oxucular tərəfindən maraqla qarşılanmışdır. Con illərdə A.Tolstoyun "Qızıl açar, yaxud Buratinonun macəraları", Yan Larrinin "Karik və Valyanın qeyri-adi macıraları", K.Sergiyenkonun "Ağ qüllə", A.Vestlinin "Ata, ana, nənə, səkkiz uşaq və yük maşını", Y.Oleşanın "Üç Gonbul", M.Yusufzayın "Mənəm Malala" kimi əsərlərin tərcüməsində onun peşəkar tərcüməçi kimi fəaliyyətini görmək mümkündür.

Bu kitaba ədəbiyyatşünas alim Füzuli Əsgərlinin əsərlərinə həsr olunmuş elmi məqalələr, onun 70 illik yubileyi ərəfəsində Respublikamızın ayrı-ayrı mətbuat səhifələrində dərc edilmiş ürək sözləri, müxtəlif illərdə dünya yazıçıları tərəfindən ona ünvanlanmış məktublar daxil edilmişdir.

Şəfa Əhmədova,
doktorant

ƏDƏBİYYATŞÜNAS ALİM FÜZULİ ƏSGƏRLİ HAQQINDA ÜRƏK SÖZLƏRİ

NİZAMİ XUDİYEV,
filologiya üzrə elmlər doktoru, professor,
Əməkdar elm xadimi

Uşaq ədəbiyyatının dəyərli tədqiqatçısı, tələbələrin sevimli müəllimi

Azərbaycan uşaq ədəbiyyatının tanınmış tədqiqatçılarından biri, istedadlı filoloq alim, tərcümə nəzəriyyəçisi, tərcüməçi Əsgərli Füzuli Feyruz oğlunun 70 yaşı tamam olur.

Onu tələbəlik illərindən tanıyıram. Mən APİ-nin dördüncü kursunda oxuyanda o, birinci kursa üç il əsgəri xidmətdən sonra qəbul olunmuşdu. Əla qiymətlərlə oxuyurdu, ictimai işlərdə fəal iştirak edirdi. Birinci kursdan "Məşəl" tələbə teatrının bədii rəhbəri təyin edilmişdi.

Onun keçdiyi həyat səhifələrini vərəqləyək: 1945-ci il martın 18-də Masallı rayonunun Çaxırlı kəndində anadan olmuşdur.1952-1963-cü illərdə Çaxırlı kənd orta məktəbində təhsil almış, Azərbaycan dili və ədəbiyyatı müəllimləri Məmməd Nəbiyev və Leyla xanım Əliyeva onun filologiya sahəsinə gəlişnin təməlini qoymuşlar. 1973-cü ildə Azərbaycan

Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin əyani şöbəsini bitirmiş, həmin ildən də orada "Məşəl" tələbə teatrının bədii rəhbəri kimi fəaliyyət göstərmiş və sonra pedaqoji fəaliyyətlə başlamışdır. "Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi problemləri (1950-1980)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktorudur.

Bütün ömrünü uşaq ədəbiyyatının tədqiqinə və təbliğinə, bədii tərcüməyə və onun nəzəriyyəsinə həsr etmiş, bununla yanaşı, həm də təhsil aldığı və işlədiyi döğma ali məktəbdə müəllimlik sənətinin şərəfini həmişə uca tutmuş Füzuli Əsgərlinin çoxşaxəli fəaliyyətinə bir nəzər salaq.

Ədəbiyyatşünas alim Füzuli Əsgərli: bir çox elmi kitabların, 100-dən çox elmi-nəzəri, publisistik məqalənin müəllifidir. "Çənətkarın uşaq dünyası", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Ömrün sözü, sözün ömrü", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehrli dünyanın memarı" monoqrafiyalarının, "Ədəbi düşüncələr", "Zahid Xəlilin sənət dünyası", "Problemlər, düşüncələr...", "70 ilin işığında" məqalələr toplusunun

müəllifidir. Bir sıra maraq doğuran silsilə məqalələr qələmə almışdır: “Azərbaycan uşaq şeiri və ədəbi tənqid”, “Azərbaycan uşaq nəsri və ədəbi tənqid”, “Azərbaycan uşaq dramaturgiyası və ədəbi tənqid”, “Cəlil Məmmədquluzaqənin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi”, “Cəlil Məmmədquluzadə əsərlərinin dili və sənətkarlıq xüsusiyyətləri”, “Cəlil Məmmədquluzadənin tərcümeyi-halı və nəsr əsərlərinin öyrədilməsi” və sair. O, həmçinin, “Qızıl qələm” mükafatı laureatıdır.

Ədəbiyyatşünas alim Füzuli Əsgərlinin monoqrafiyaları haqqında müxtəlif adlı respublika mətbuatlarında – “Ədəbiyyat qəzeti”, “Respublika”, “Azərbaycan müəllimi”, “Gənc müəllim”, “525-ci qəzet”, “Türküstan”, “Mədəniyyət”, “Azad Azərbaycan”, “Kaspi”, “Gəncənin səsi” və digər qəzetlərdə məqalələr çap edilmiş, onun alimlik fəaliyyəti və əsərləri haqqında dəyərli fikirlər söylənilmişdir.

Müəllim Füzuli Əsgərli – 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirəndən sonra “Məşəl” tələbə teatrının bədii rəhbəri kimi burada saxlanılmış, 1974-cü ildən isə dərs deməyə başlamışdır. Bu gün onun “Uşaq ədəbiyyatı” və “Ədəbi əsərlərin təhlili” fənnindən oxuduğu mühazirələr və apardığı seminar məşğələləri tələbələrin böyük marağına səbəb olur. Mühazirələrində milli ədəbiyyatın

motivlərini dünya ədəbiyyatı motivləri ilə sintez halında birləşdirən Füzuli müəllim tələbələri elmi axarışlara cəlb edə bilmiş, nəticədə bu sahədə böyük uğurlar qazanmışdır. Onun rəhbərliyi ilə Tələbə Elmi Cəmiyyətində iştirak edən tələbələrin bir çoxu birinci və ya müxtəlif dərəcəli diplomlara layiq görülmüşdür.

Füzuli müəllim həmçinin, ali və orta ixtisas məktəbləri üçün "Uşaq ədəbiyyatı" dərsliyinin, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" adlı dərs vəsaitlərinin, dərs proqramlarının ("Uşaq ədəbiyyatı", "Ədəbi əsərlərin təhlili") müəllifidir. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin tədris prosesinə daha fəal cəlb edilməsi, dərslik və dərs vəsaiti ilə təminatı, yeni təlim texnologiyalarının tətbiqi sahəsində qazandığı nailiyyətlərinə görə bir neçə il "İlin müəllimi" müsabiqəsinin qalibi olmuş, "İlin nüfuzlu ziyalısı" fəxri adına layiq görülmüşdür. Bilik səviyyəsinə, təşkilatçılıq bacarığına, Universitetdə keçirilən tədbirlərdə və ictimai işlərdəki fəallığına, prinsipial səmimi xarakterinə görə professor-müəllim kollektivinin və dərs dediyi tələbələr arasında böyük nüfuz qazanmışdır.

Tərcüməçi-nəzəriyyəçi Füzuli Əsgərli – Son illər bu sahədə müəyyən dərəcədə boşluq hiss edən Füzuli Əsgərli "Bədii tərcümə prinsipləri" (2009)

monoqrafiyasını qələmə almış, bu günümüzə qədər çap edilmiş nöqsanlı uşaq nəsr əsərlərinin təshih olunmasını və yenidən tərcümə edilərək nəşrini tövsiyə etmişdir. Bu elmi monoqrafiyada bədii tərcümədə daha zəruri olan obrazların mənəvi-psixoloji aləminin təcəssümü, bədii tərcümədə üslub orijinallığının və milli xüsusiyyətlərin saxlanılması, atalar söləri, məsəllər və idiomlardan istifadə üsulları problemlərinin düzgün həlli yollarını göstərmişdir.

Qırx il tərcümə sənətinə sadiq qalan, bu gün də fəaliyyətini davam etdirən Füzuli Əsgərli bir sıra dünya xalqları yazıçılarının əsərlərini dilimizə məharətlə tərcümə edərək Azərbaycan oxucularına ərməğan etmişdir. Onun indiyə qədər tərcümə etdiyi Aleksey Tolstoy, Nikolay Nosov, Yan Larri, Konstantin Sergiyenko, Eduard Vilde, Anton Tammsaare, Paul Kuusberq, Andres Yaaksoo, Albertas Laurinçukas, Miroslav İrçan, Filip Mironov, Karlo Lorensini-Kollodi, Berdinəzər Xudaynəzərov, Kaldarbay Naymanbayev, Nodar Dumbadze, Anne Vestli və digər qələm sahiblərinin əsərləri çap olunmuş, bəziləri isə Dövlət televiziya və radiosuna təqdim edilmişdir.

Əsasən, 70 illik yaşamının 40 ilini uşaq ədəbiyyatının tədqiqinə həsr etmiş Füzuli Əsgərlinin monoqrafiyalarını oxuduqca hiss edirsən ki, böyük

səbr sahibi olan müəllif bu sahəni araşdırarkən tədqiqatın ən incə və zəruri məqamlarına fikir vermiş, bu sahəni yeni elmi məlumatlarla zənginləşdirmişdir. Onun "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" adlı monoqrafiyasını xüsusi qeyd etmək lazımdır. Milli uşaq ədəbiyyatımızın təşəkkülü və maarifçilik dövrü inkişafından başlayaraq, müstəqillik illərində milli uşaq ədəbiyyatında bədii forma axtarışlarına qədər dövrü əhatə edən bu elmi əsərdə bir çox mənbələr diqqətlə araşdırılmış, müxtəlif illərin ədəbi mühitinə obyektiv qiymət verilmiş, təzadlı inkişaf yolu keçmiş, ifrat siyasi ideologiyaya daha çox önəm vermiş, sovet hakimiyyəti illərində yazılmış Azərbaycan uşaq ədəbiyyatının yaradıcılıq mühiti mənbələr və məntiqi elmi mülahizələr əsasında bitkin şəkildə şərh olunmuşdur. Bu əsərin əsas elmi dəyəri ondan ibarətdir ki, müəllif bir sıra yeni mənbələri üzə çıxarmış, tədqiqata cəlb edilmiş ədəbi yaradıcılıq mühitinin dəqiq obyektiv qiymətini verə bilmişdir. Bu əsərdə həmçinin, bir çox rus ədəbiyyatşünas-tədqiqatçıların əsərlərinə istinad edilmiş, hər ədəbi inkişaf mərhələsinin obyektiv dəyərləndirilməsi və ardıcıl şərhi üçün onlardan uyğun sitatlar gətirilmişdir.

Ədəbiyyatşünas alim Füzuli Əsgərlinin həmçinin, "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qay-

naqları” adlı monoqrafiyası isə mən deyərdim ki, indiyə qədər müraciət olunmayan bir mövzu dairəsini əhatə edir. Bu əsərdə yüksək ideyalılığı və estetik dolğunluğu ilə uşaq ədəbiyyatının əsas qaynaqlarından biri olan xalq yaradıcılığı yazılı ədəbiyyatın bir mənbəyi kimi tədqiq olunmuş, milli uşaq ədəbiyyatının yaradıcılıq ənənələrindən söz açılmış, klassik ədəbiyyatımızda folklor motivli uşaq oxusu nümunələri geniş araşdırılmış, Xaqani Şirvani, Nizami Gəncəvi, Qazi Bürhanəddin, Əssar Təbrizi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və digər sənətkarların əsərlərindəki uşaq oxusu nümunələri üzə çıxarılmışdır. O çümlədən, XIX əsrin birinci yarısında N.Gəncəvi ənənələrini orijinal şəkildə davam və inkişaf etdirən A.Bakıxanov və Q.Zakirin mənzum hekayə və təmsilləri bir uşaq oxusu kimi tədqiqata cəlb edilmişdir.

Müəllif XIX əsrin ikinci yarısı, XX əsrin ilk iki onilliyində yaranmış milli uşaq ədəbiyyatındakı qarşılıqlı yaradıcılıq qaynaqlarını üzə çıxarmış, hind xalq yaradıcılığı olan “Kəlilə və Dimnə”nin Azərbaycan sənətkarlarına göstərdiyi təsir gücünü uyğun gələn misallarla sübut etmişdir. Həmçinin, S.M.Qənizadə, M.Ə.Sabir, A.Səhhət, S.S.Axundov, R.Əfəndizadə, A.Şaiq, A.Divanbəyoğlu, İ.Musabəyov və digər qələm sahiblərinin yaradıcılığında dünya uşaq

ədəbiyyatı motivlərinin təsir gücünü ədəbi nümunələrdən gətirdiyi misallarla göstərmişdir.

Qabaqkı illər ədəbi prosesdən fərqli nəzərə çarpan sovet dövrü uşaq ədəbiyyatına müxtəlif ədəbi mənbələrin təsiri maraqlı faktlarla şərh olunmuşdur. A.Şaiq, M.Seyidzadə, M.Müşfiq, Mir Cəlal, Ə.Vəliyev, S.Vurğun, M.Dilbazi, R.Rza, Ə.Cəmil, M.Pzaquluzadə və sair qələm sahiblərinin qarşılıqlı yaradıcılıq mühitində ədəbi fəaliyyəti geniş təhlilə cəlb edilmişdir.

Tədqiqatçı alim Füzuli Əsgərli yorulmaq bilmədən çalışmış, bir-birinin ardınca gərgin zəhməti hesabına başa gətirdiyi monoqrafiyalarını çap etdirmişdir. Müəllif qələmə aldığı "Bədii təhlil bə ədəbi tənqid" adlı monoqrafiyasında müxtəlif problemlərə toxunmuş, ədəbi proseslər haqqında daha geniş təsəvvür yaratmaq üçün janrlar üzrə bədii təhlillərə geniş yer vermiş, tənqidi fikirlərə öz münasibətini bildirmişdir. Bu kitaba daxıl edilmiş "Azərbaycan nəsri və onun ədəbi tənqiddə yeri", "XX əsrin 80-ci illərində Azərbaycan roman janrı ədəbi tənqiddə", "Milli uşaq nəsrində obraz problemi və ədəbi tənqid", "Dramaturji əsərlər ədəbi tənqidin güzgüsündə", "Azərbaycan uşaq dramaturgiyasının inkişaf mərhələləri", "XX əsrin 60-90-cı illərində uşaq şeiri və ədəbi tənqid", "XX əsrin 50-ci illərində Azər-

baycan ədəbi tənqidinin inkişaf yolu” adlanan fəsillərdən də görmək olur ki, tədqiqatçı müxtəlif illərdə mövcud olan ədəbi prosesləri, nəzəri məsələləri dərindən duyduğuna görə yanlışlığa yol vermədən ədəbi əsərləri obyektiv təhlil etmək, geniş mülahizələr yürütmək və elmi fikir söyləmək qüdrətinə malikdir.

Zahid Xəlilin anadan olmasının 70 illik yubileyinə həsr etdiyi “Sehrli dünyanın memarı” adlı monoqrafiyasında Füzuli Əsgərli sənətkarın poeziya, nəsr və dramaturji fəaliyyətini elmi-nəzəri aspektdə araşdırmış, tədqiqata cəlb etdiyi əsərlərin ideya-bədii və sənətkarlıq məziyyətlərinin açılmasına xüsusi diqqət yetirmişdir. Kitabda Zahid Xəlil poeziyasının musiqi ilə ahəngdarlığı, tərcümə yaradıcılığı və qarşılıqlı ədəbi əlaqələri daha geniş yer almış, müxtəlif qəzet və jurnallarda çap olunan Azərbaycan və rus tənqidçilərinin şairin yaradıcılığına münasibətini əks etdirən məqalələr toplanmışdır. “Sehrli dünyanın memarı”na nüfuz etdikcə düşünürsən ki, Zahid Xəlil yaradıcılığı janrdan asılı olmayaraq hansı dəyərə malikdir, həmçinin, kiçik yaşlı oxucuların onu bu qədər sevməsinin səbəbləri üzə çıxır. Çünki mahir tədqiqatçı Zahid Xəlilin uşaq dünyasına bu həzinlikdə bələdçiliyinə, bədii nüfuz dairəsini yaxından tanıdığına görə belə bir bitkin tədqiqat əsərini ərsəyə gətirə bilmişdir: “Uşaqları söz sehrinə salan şair”, “Həm də

böyüklərin həmdəmi”, “Uşaq şeirləri musiqi qanadlarında”, “Milli uşaq nəsrinin novatoru”, “Milli uşaq ədəbiyyatımızda ilk macəra roman janrı”, “Uşaq dramaturgiyasının inkişafında fəaliyyəti”, “Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu” və “Azərbaycan-rus ədəbi tənqidi bədii yaradıcılığı haqqında” fəsilləri dediklərimizi bir daha təsdiq edir. Kitabda həmçinin, Azərbaycanın və dünyanın bir çox tanınmış yazıçı və şairlərinin Zahid Xəlilə və kitabın müəllifi Füzuli Əsgərliyə ünvanladığı məktub və teleqramlar bunu deməyə əsas verir ki, bu ədəbi mühitdə tədqiqatçının qələm sahibləri arasında nüfuz dairəsi geniş olmuşdur.

Təqdiqatçı alim Füzuli Əsgərli 70 yaşı haqlasa bu gün də öz elmi yaradıcılığı üzərində yorulmadan çalışır, müasir uşaq ədəbiyyatındakı problemlərin həlli üzərində düşünür və gələcəkdə bu ədəbiyyatın yeni istiqamətdə inkişafı üçün orijinal fikirlər irəli sürür. Milli uşaq ədəbiyyatını daha da zənginləşdirmək üçün dünya uşaq ədəbiyyatını da dilimizə tərcümə edir.

Mən tələbə dostuma uzun ömür, can sağlığı, ailə səadəti, elmi-pedaqoji sahədə və bədii tərcümə yaradıcılığında uğurlar arzulayıram!

70 yaşın mübarək, əziz dostum!

“Yeni Azərbaycan” qəzeti, 2015, 14 mart.

ZAHİD XƏLİL,
filologiya üzrə elmlər doktoru,
professor, uşaq yazıçısı

Ömrün yetmişinci yazı

Uşaq ədəbiyyatı tədqiqatçısı Füzuli Əsgərliyə Açıq Məktub

Hörmətli Füzuli müəllim! 70 yaşın mübarək! Tale elə gətirib ki, hər il ikimiz də yaşımızı eyni gündə qeyd etməli oluruq. Hər il bahar gələndə, lalələrin ləçəkləri yazın qələbə bayrağı kimi yellənəndə, Novruz bayramı günlərində bizim də qəlbimizdən qəribə hisslər keçir. Yaşımızın üstünə bir yaş da gəldi! Sonra yəqin ki, sən də kitab rəfinə boylanırsan. Ömrün ötən illərinin kitablara çevrilmiş günlərinə baxırsan və dərindən nəfəs alırsan: Ötən illər o qədər də havayı getməyib.

Sənin son illər fəaliyyətin uşaq ədəbiyyatının problemlərinin araşdırılması ilə bağlı olub. “Ömrün sözü, sözün ömrü”, “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları”, “Bədii təhlil və ədəbi tənqid”, “Problemlər, düşüncələr”, “Sehrli dünyanın memarı” və sair kitablar yazmısan. Üst-üstə yığanda bu kitabların ümumi həcmi 300 çap vərəqindən çoxdur və onların xeyli hissəsi uşaq ədəbiyyatının problemlə-

rinə həsr olunmuşdur. Sən zəhmətkeş bir ziyalı kimi bu əsərlərin hamısını makinada və ya bilgisayarda özün yazır, onun üzərində dönə-dönə işləyir, ifadə edəcəyin fikirlərin tam elmi ifadəsini tapandan sonra növbəti cümləyə keçirsən. Sən ömrünün ən qiymətli vaxtını elmə və tədrisə həsr etmisən. Ali və orta ixtisas məktəb tələbələri üçün dərslik, dərs vəsaiti, proqram, metodik kitablar yazır, həyatını mənalı edirsən.

Uşaq ədəbiyyatından bəhs edərkən sən təkcə ayrı-ayrı yazıçıların nə yazdığını, necə yazdığını müəyyənləşdirməklə kifayətlənmirsən. Sən mövzuların haradan qaynaqlandığını müəyyənləşdirməyə çalışır və beləliklə, öz qənaətlərini elmin predmetinə çevirirsən. Bu sahədə "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" adlı kitabın maraqlı fikirlərlə zəngindir.

Sənin "Ömrün sözü, sözün ömrü" adlı monoqrafiyan tədqiqatın əhatə dairəsinə görə çox genişdir. Bu kitabda sən uşaq ədəbiyyatının sirlərini dərindən bilən bir mütəxəssis olduğunu sübut edirsən. Həmin kitab haqqında məqalə yazan filologiya üzrə elmlər doktoru Himalay Ənvəroğlu yazır: "Uzun illər bu sahəyə soyuqluq gətirən "buz qatları", nəhayət ki, tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru Füzuli Əsgərlinin yeni elmi yanaşması və araşdırması nəticəsində

əriməyə başladı. Müəllifin bu cəhdi milli uşaq ədəbiyyatı sahəsinə əsl elmi baxışların daha da formalaşdığını və müasir ədəbiyyatşünaslıqda bu sahəyə nəzəri marağın gündən-günə artdığını göstərir".

H.Ənvəroğlu "Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində" (Bakı, "Elm və təhsil", 2011, səh.302-305) kitabında sənin əsərinə belə qiymət verir: "Biz inanırıq ki, ədəbiyyatşünas alim Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası Azərbaycan uşaq ədəbiyyatının tədqiqi istiqamətində əvəzsiz mənbə rolunu oynayacaqdır".

Həmin kitab haqqında tanınmış jurnalistlərin fikri də, alimlərin qənaətləri də üst-üstə düşür. "Azərbaycan müəllimi" qəzetinin əməkdaşları, jurnalist Elman Əbdülov və əməkdar jurnalist, mərhum Şamxəlil Məmmədov "Ömrü sözə köçürülmüş sənətkar" məqaləsində də professor Himalay Ənvəroğlunun fikirlərini bir daha təsdiq edərək yazırlar: "Bütövlükdə filologiya üzrə fəlsəfə doktoru Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası ömrünü bədii sözə köçürmüş sənətkar və alim haqqında sağlığında ucaldılmış bir abidədir".

Əziz Füzuli müəllim! Sən tərcümə ilə də məşğul olursan. Eston yazıçıları Eduard Vildenin, Anton Tammsaarenin, Paul Kuusberqin, Andres Yaaksoonun, Litva dramaturqu Albertas Laurinçukasın,

qazax yazıçısı Kaldarbay Naymanbayevin, Moldav yazıçısı Filip Mironovun, rus yazıçıları Aleksey Tolstoyun, Konstantin Sergiyenkonun, Yan Larrinin, türkmən yazçısı Berdinəzər Xudaynəzərovun, ukrayna yazıçısı Miroslav İrçanın, gürcü yazıçısı Noqar Dumbadze və başqalarının əsərlərini Azərbaycan dilinə tərcümə etmisən. Tərcümələr maraqla qarşılanıb. Hazırda Norveç yazıçısı Anne Vestlinin uşaqlar üçün yazdığı povestinin tərcüməsi ilə məşğulsan. Bu faktlar göstərir ki, sən bədii tərcüməni öz həyatının mühüm bir fəaliyyət sahəsinə çevirmisən. "Bədii tərcümə prinsipləri" adlı monoqrafiyan da təsadüfi yaranmayıb. Sən bu əsərində bədii tərcümədə "Obrazların mənəvi-psixoloji aləminin təcəssümü", "Bədii tərcümədə üslub orijinallığı", "Bədii tərcümədə milli xüsusiyyətlərin saxlanılması", "Atalar sözü, məsəllər və idiomlardan istifadə üsulları" kimi xarakterik problemləri şərh edir, maraqlı mülahizələr irəli sürürsən. Sən haqlı olaraq, tərcüməçinin əməyini yüksək qiymətləndirərək yazırsan: "Yaradıcılıq təfəkkürü baxımından yazıçının əməyi nə qədər yüksəkdirsə, məzmun və formanı iki dildə düşünmək cəhətdən tərcüməçinin zəhməti daha çoxdur". Tərcümə sənətinin bilicilərinin də qeyd etdiyi kimi, müəllif bir dilin, tərcüməçi isə iki dilin sənətkarı olmalıdır.

Sənin özünün bir tərcüməçi kimi fəaliyyətin və onun problemləri ilə bağlı kitab və məqalələrin göstərir ki, sən dünya ədəbi prosesində əldə olunan ən yaxşı əsərlərin dilimizə çevrilməsini xüsusi bir həvəslə təbliğ edirsən. Sənin "Dünya uşaq ədəbiyyatı" adlı dərs vəsaitində də həmin ənənə izlənir. Haqlı olaraq düşünürsən ki, qoy dünyanın Hans Xristian Andersen, Karlo Lorensini Kollodi, Canni Rodari, Şarl Perro, Mark Tven, Antuan de Sent Ekzüperi və sair nəhəng söz sərraflarının əsərləri ilə uşaqlarımız tanış olsunlar. Yalnız bu yolla oxucuya əsl uşaq ədəbiyyatının necə olduğunu anlatmaq mümkündür.

70 yaşın mübarək, əziz dost! Hələ qabaqda yaşanılası günlər, yazılası və tərcümə olunası əsərlər, oxunulası mühazirələr durur. Bu vəzifələri layiqincə yerinə yetirmək üçün insana birinci növbədə can sağlığı lazımdır. Sənə uzun ömür və can sağlığı arzusu ilə...

"Kaspi" qəzeti, 2015, 07 fevral.
"Zaman" qəzeti, 2015, 13 mart.

HİMALAY QASIMOV,
"Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor

Öz inamına bağlı ədəbiyyatşünas

1945-ci il mart ayının 18-də dünyaya göz açan, 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) əyani şöbəsini bitirən Əsgərli Füzuli Feyruz oğlu ilə mən filologiya fakültəsinin auditoriyasında tanış oldum. Bir fərqlənən tələbə kimi diqqətimi cəlb etdi. Məlum oldu ki, o, hərbi xidmətini başa vurduqdan sonra tələbə adını qazanmışdır. Sonrakı prosesdə aydın oldu ki, Füzuli Əsgərli təkcə dərs əlaçısı deyil, eyni zamanda erudisiyalı, universitetin ictimai və mədəni həyatında fəal iştirak edən və son dərəcə çalışqan bir gəncdir. Fitrətində olan gerçək dəyərlər zaman-zaman öz bəhrəsini verməyə başladı. Tələbəliyi uğurla başa vuran Füzulinin istedadının şahidi olan universitet rəhbərliyi onun təhsil aldığı ali təhsil müəssisəsində saxlanmasına qərar verdi. Aramsız elmi axtarışlar yolunda uğurla irəliləyən Füzuli Əsgərli hal-hazırda Azərbaycan Dövlət Pedaqoji Uni-

versitetinin “Ədəbiyyat və onun tədrisi metodikası” kafedrasının dosenti olaraq gənc nəslin təlim və tərbiyəsində fəal iştirak edir. Filologiya üzrə fəlsəfə doktoru Füzuli Əsgərli ədəbiyyatşünaslıq düşüncəmizin, ümumən filoloji elmimizin yüksələn xətlə inkişaf etməsində çeşidli, bir-birindən dəyərli dərslik, dərs vəsaiti, monoqrafiyaları və konseptual səciyyə daşıyan məqalələri ilə yaxından iştirak edir. Füzuli Əsgərli universitetin, təhsil ictimaiyyətinin güvəndiyi şəxsiyyətlərdəndir. Təhsil prosesini mükəmməl bilən universitetin və Təhsil Nazirliyinin təşkil etdiyi komissiyalarda işgüzar fəaliyyəti kollektivdə məmnunluq doğurur. Ötən əsrin səksəninci illərində “Tələbə inşaat dəstələri”nə rəhbərlik etdiyi çağlarda nümayiş etdirdiyi işgüzarlıq, doxsanıncı illərdə filologiya fakültəsində dekan müavini və bir müddət dekan kimi nümayiş etdirdiyi bacarıq bu gün hər kəsin yaddaşında qalmaqdadır. Ədəbi ictimaiyyət bu gün Füzuli Əsgərlini uşaq ədəbiyyatının görkəmli tədqiqatçısı kimi təqdir edir, mahiyyətə yönəlik konseptual açıqlamalarını yeni ədəbiyyatşünaslıq üçün səciyyəvi olduğu qənaətinə gəlirlər. Filologiya üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün “Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi problemləri (1950 -1980-ci illər)” mövzusunda yazdığı dissertasiya işinin uğurla müdafiəsi deyilənlərə əyani sübutdur.

Daxili problemləri, məxsusi rakursları, mürəkkəb keçidləri və layları ilə fərqlənən belə bir mövzunun fundamental tədqiqi əlbəttə ki, gənc araşdırmaçının yeni elmi ədəbiyyatşünaslıq düşüncəsi müstəvisində uğurla irəliləyişi üçün münbit zəmin yaratmış oldu. Bu uğurlu başlanğıcın dalğası sonrakı çağlarda öz bəhrəsini verdi. Belə ki, onun bir-birinin ardınca mühüm elmi-pedaqoji əhəmiyyət kəsb edən "Uşaq ədəbiyyatı" (2007, 2009, 2011) dərsliyi, "Sənətkarın uşaq dünyası" (2003), "Ədəbi düşüncələr" (2004), "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" (2009), "Ömrün sözü, sözün ömrü" (2008), "Bədii tərcümə prinsipləri" (2009), "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" (2010), "Bədii təhlil və ədəbi tənqid" (2010) monoqrafiyaları meydana gəldi, 100-dən çox elmi-nəzəri və publisistik məqaləsi, "Zahid Xəlilin sənət dünyası" (2010) adlı məqalələr toplusu nəşr olundu. Yazıçı Zahid Xəlilin anadan olmasının 70 illik yubileyi münasibətilə qələmə aldığı "Sehirli dünyanın memarı" (2012) monoqrafiyası müəllifinin həm də "Qızıl qələm" mükafatının laureatı olması, "İlin müəllimi" (2009), "İlin nüfuzlu ziyalısı" (2010) fəxri adlarına layiq görülməsi, bədii tərcümənin nəzəri sahəsində qazandığı uğurlar, dünya xalqlarının bir çox əsərlərini dilimizə tərcüməsi sahəsində göstərdiyi fəaliyyət heyrətamiz yaradıcılıq

əzmindən və düşüncə çevrəsinin genişliyindən xəbər verir.

Milli-mənəvi dəyərlərimizin daşıyıcısı, keşmə-kəşli taleyimizin dönüm və döngələrini tarixləşdirən və bu günümüzlə ilgiləyən "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsində yer alan və möhtəşəm məna kəsb edən bir misra Füzuli Əsgərlinin tale yollarındakı uğurları ilə kontekst təşkil edir: "Qadir Tanrı verməyincə ər bayımaz (varlanmaz)".

Füzuli Əsgərlinin "Sehirli dünyanın memarı" monoqrafiyasında filologiya üzrə elmlər doktoru, professor, görkəmli şair, uşaq dünyasının mahir bilicisi Zahid Xəlilin ədəbi yaradıcılığı (poeziya, nəsr və dramaturgiyası) geniş müstəvidə, bütün mümkün rakursları ilə, Füzuli Əsgərlinin özünəməxsus elmi baxış bucağı altında təhlil predmetinə çevrilir. Açıqlamalarını elmi-nəzəri axarda inkişaf etdirən ədəbiyyatşünas, sonucda yazıçının müxtəlif janrlı, özəl biçimli əsərlərinin sənətkarlıq xüsusiyyətləri haqda bitkin təsəvvür yaradır. Monoqrafiyada Zahid Xəlil poetik örnəklərinin musiqilə həmahəngliyi, ədəbi əlaqələr və tərcümə sahəsindəki uğurlu fəaliyyəti, eyni zamanda Azərbaycan və rus ədəbi tənqidçi və yazıçılarının şairin yaradıcılığının önəmini xüsusi vurğulamaları müstəviyə çıxarılır ki, bu da birbaşa monoqrafiya müəllifinin görkəmli ədibin yaradıcılıq la-

boratoriyasının sirlərinə dərindən bələdliyindən soraq verir.

Füzuli Əsgərlinin “Bədii təhlil və ədəbi tənqid” monoqrafiyasında (nəzm, nəsr və dramaturgiya) konkret tarixi dönəmin örnəkləri təhlil müstəvisinə çıxarılır və bu əsərlərin poetikası, sənətkarlıq xüsusiyyətləri barədə ciddi elmi-nəzəri mühakimələr yürüdülür. Kitab müəllifi gerçək ədəbi proses haqda daha geniş təsəvvür yaratmaq, konseptual fikir formalaşdırmaq üçün janrların bədii təhlilinə önəm vermiş, kontekstdə tənqidi açıqlamalarında öz mövqeyini sərgiləmişdir. Eyni zamanda, sözü gedən kitabda bir sıra elmi-tənqidi məqalələrin, xatirə yazılarının yer alması da bu baxımdan mühüm maraq kəsb edir. Müəllifin müxtəlif illərdə nəşr olunmuş kitabları haqqında yazılan məqalələr monoqrafiyaya xüsusi dəyər verir. Ümumən monoqrafiyada Azərbaycan ədəbiyyatına baxış özünün konseptuallığı ilə fərqlənir. Ədəbi-elmi qiymətləndirmədə tarixilik prinsipinə söykənən alim təhlil predmetinə çevirdiyi əsərlərin müasirlik baxımından qüvvətli və zəif cəhətlərini aşkarlayan zaman bədii istedaddan qaynaqlanan məqamları daim diqqət mərkəzində saxlayır.

Ədəbiyyatımızın yeni keyfiyyətlərlə zənginləşdiyi indiki mərhələdə nəsr, poeziya, dramaturgiya və

tənqidimizin ardıcıl elmi tədqiqi xüsusi əhəmiyyətə malikdir.

Elmi düşüncələrini, bədii mətnlərlə bağlı təhlillərini məntiqi mühakimələr axarında təqdim edən Füzuli Əsgərlinin açıqlamalarında fikirlər bir-birini təkanlayır və sonucda bir-birini tamamlayır. Düşünürük ki, onun tələbə auditoriyası üçün nəzərdə tutulmuş dərsliklərinin dərki üçün bu çox vacib şərtdir. Onun bu səpgidə yazdığı əsərlərinin əlbəttə ki, fənnin tədrisində əhəmiyyətli bir vasitəyə çevriləcəyinə, bu istiqamətdə yeni dərslik və dərs vəsaitlərinin yaradılmasında örnək olacağına əminik.

Ədəbiyyatımızın çox mühüm bir sahəsinin aparıcı yazarlarından olan Zahid Xəlilin sənət dünyasını tədqiq obyektinə çevirən "Sehirli dünyanın memarı" monoqrafiyasının fundamental bir elmi-nəzəri tədqiqat əsəri olaraq dəyərini bir qədər təfsilata varmaqla səciyyələndirmək zənnimcə aramsız axtarışları ilə fərqlənən Füzuli Əsgərlinin əməyinə həm də layiqli qiymət vermiş olarıq.

Bu bir həqiqətdir ki, ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərlinin uşaq ədəbiyyatı probleminə yeni tərzdə elmi yanaşmaları, analitik araşdırmaları nəticəsində bu sahədə bir dirçəliş başladı. Milli uşaq ədəbiyyatı sahəsində nəzəri baxış formalaşdı, müasir ədəbiyyatşünaslıqda bu sahəyə maraq artdı. Bariz

nümunəsi Zahid Xəlil bədii yaradıcılığına həsr edilən "Sehrli dünyanın memarı" çox sanballı monoqrafiyadır.

Füzuli Əsgərli bu monoqrafiyası ilə bir daha göstərir ki, yalnız iri həcmli əsərlərin müəlliflərini tədqiqata cəlb etməklə milli ədəbiyyatımızı və ədəbiyyat tariximizi zənginləşdirmək mümkün deyildir. Monoqrafiya isbat etdi ki, yarandığı vaxtdan nəsillərin və şəxsiyyətlərin formalaşmasında əvəzsiz rol oynayan uşaq ədəbiyyatını dərindən tədqiq etməyin vaxtı artıq gəlib çatmışdır.

"Sehrli dünyanın memarı" monoqrafiyası səkkiz fəsildən ibarətdir və hər birində Zahid Xəlilin müxtəlif janrlı zəngin yaradıcılığı (poeziya, nəsr, dramaturgiya və həmçinin digər ədəbi sahələr) özünün geniş əksini tapmışdır.

Açıqlamalardan məlum olur ki, Zahid Xəlilin şeirləri həssas müşahidələrin poetik ifadəsidir. Şairin uşaqlara məxsus saflığı, şirinliyi yaradıcılığında daim qoruyub saxlaması fərəh doğuran hal kimi səciyyələndirilir. Şairin bu gün də eşidilən gur səsi, təravətli nəfəsi bizə bu qənaətə gəlməyə tam haqq verir.

"Uşaqları söz sehrinə salan şair" adlanan birinci fəsildə müəllif Zahid Xəlilin uşaq şeirində lirizmin və obrazlılığın səciyyəvi xüsusiyyətləri geniş təhlil müstəvisinə çıxarır.

“Həm də böyüklərin həmdəmi” adlanan ikinci fəsildə müəllif şairin böyükləri də unutmadığını, lirik-poetik misralarla onların qəlbini ovsunlamaq iqtidarını göstərir. Şairin fəlsəfi məna kəsb edən obrazlı ifadələri dəyərləndirilərək bədii yaradıcılığının özəl xüsusiyyətləri üzə çıxarılır.

“Uşaq poeziyası musiqi qanadlarında” adlı üçüncü fəsildə tədqiqatçı şairin şeirlərinin uşaqlarda heyrət doğuran ahəngdarlığını, melodik zənginliyini, ecazkarlığını xüsusi qeyd edir, uyarlıqların sintezindən yaranan mahnıların bu gün də populyar olduğunu vurğulayır.

“Milli uşaq nəsrinin novatoru” adlı dördüncü fəsildə isə Zahid Xəlilin nəsr əsərlərinin orijinallığını önə çəkən müəllif, dünya uşaq ədəbiyyatı ilə ilgili yaradıcılıq yolu keçən, orijinal fərdi üslub sərgiləyən nasirin sənətkarlıq xüsusiyyətlərini konkret faktlar əsasında aşkarlayır. Tədqiqatçının yüksək elmi-nəzəri hazırlığı, mükəmməl filoloji biliyə malik olması ona, yazıçının kiçik yaşlı uşaqları əfsunlayan nəsr əsərlərinin bədii-estetik mahiyyətini, fərdi bədii üslubunun bənzərsizliyini məharətlə aça bilməsinə imkan vermişdir.

Tədqiqatçı “Milli uşaq nəsrində ilk macəra roman janrı” adlanan beşinci fəsildə yazıçının “Orxan və dostları” əsərini təhlilə cəlb etmiş, bu əsərin

klassik roman poetikası üstündə köklendiyi qənaətinə gəlmişdir.

"Uşaq dramaturgiyasının inkişafında fəailiyəti" fəslində müəllif Zahid Xəlilin dramaturgiyasından bəhs etmiş, milli folklor motivlərindən bəhrələnərək qələmə aldığı "Lampacıq", "Küp" və mövzusu müasir həyatdan götürülmüş "Ata ocağı" pyeslərinin sənətkarlıq xüsusiyyətlərini üzə çıxarmışdır.

Zahid Xəlil ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda qərar tutan, dünya xalqları tərəfindən sevilən və təqdir olunan ustad bir sənətkardır. Şeirlərinin dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunaraq yayılması, bir sıra kitablarının kütləvi tirajla nəşr olunması da tədqiqatçının nəzərindən yayınmamışdır.

"Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu" fəslində sənətkarın dünya xalqları ilə qarşılıqlı ədəbi əlaqələrin yaranmasında fəaliyyəti geniş işıqlandırılmış, məqamlara obyektiv qiymətini vermişdir. Tədqiqatçı Zahid Xəlilin bədii tərcümə sahəsindəki fəaliyyətini də təhlilə cəlb etmiş, bunun uşaq şeirimizin inkişafında açıq-aşkar görünən təsirini xüsusi vurğulamışdır.

"Azərbaycan-rus ədəbi tənqidi Zahid Xəlil yaradıcılığı haqqında" adlanan səkkizinci fəsildə tanınmış Azərbaycan-rus tənqidçi və tədqiqatçılarının sə-

nətkarın yaradıcılığına verdiyi qymət, onların şairin müxtəlif janrlı əsərlərinə münasibəti diqqət mərkəzinə çəkilmişdir. Tanınmış tənqidçilərin Zahid Xəlilin yaradıcılığına verdikləri dəyər müasir Azərbaycan uşaq ədəbiyyatına verilən qiymət qismində səciyyələndirilir.

Uşaq ədəbiyyatına aid bir sıra zəruri problemləri özündə əks etdirən müsahiblərin də monoqrafiyada yer alması əbəs deyil. Bu müsahibələrdə milli uşaq ədəbiyyatımızın keçdiyi şərəfli yol və gələcək inkişaf perspektivləri haqqında söylənilən bir sıra elmi fikir və mülahizələrin özü də polemik xarakter daşıdığına görə mühüm maraq kəsb edir.

Ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərli yazıçı Zahid Xəlilin 70 illik yubileyinə həsr etdiyi “Sehrli dünyanın memarı” adlı monoqrafiyasını həm də arxiv materialları əsasında qələmə almışdır. İnanırıq ki, bu bitkin elmi-tədqiqat əsəri milli uşaq ədəbiyyatı tarixini araşdırmaçılar, o cümlədən də, müasir milli uşaq yazıçılarımızın tədqiqi üçün əvəzsiz mənbə rolunu oynayacaqdır.

15 mart 2015-ci il.

YAQUB BABAYEV,
filologiya üzrə elmlər doktoru,
professor

Bir alim ömrünün hekayəti, yaxud 70-ci ilin baharı ərəfəsində

1945-ci ilin martın 18-i idi. Bahar bayramına cəmi üç gün qalırdı. Həm də ilin sonuncu çərşənbəsi idi. Təbiətdə bayram ovqatı açıq aydın hiss olunurdu. Amma insanların özəl həyatında, güzəranında, qəlblərdə bu hiss o qədər də hiss olunmurdu. Çünki müharibə hələ qurtarmamışdı. Cəbhədən qara kağızlar gəlməkdə, ölkə müharibənin vurduğu maddi və mənəvi acıları hələ yaşamaqda idi...

Belə bir gündə, Azərbaycanın gözəl guşələrindən olan Masallı rayonunun Çaxırlı kəndində Feyruz Mir Əsgər oğlunun ailəsində bir oğlan uşağı dünyaya gəldi. Bu Feyruz kişinin ilk oğlan övladı idi və elə ona görə də təkcə Feyruz kişinin ailəsi deyil, bütün qohum-əqraba bu körpənin dünyaya gəlməsinə sevindi. Sonralar da həmin körpə böyüdükdə hamının sevimlisinə çevrildi. Bütün qohum-əqrabadan nəvaziş, diqqət gördü.

Sonuncu çərşənbədə, bayram ərəfəsində dünyaya göz açdığı üçün atası əvvəl ona Bayram adı qoymaq istədi. Ancaq sonra fikrini dəyişib Füzuli adını verdi. Atanın yenicə doğulmuş oğluna belə bir ad seçməsi onun ustad şairimiz Məhəmməd Füzuliyə rəgbətindən irəli gəlirdi. Belə ki, böyük ədəbiyyat, poeziya həvəskarı olan Feyruz kişi özü də arabir şeirlər yazırdı. Onun hədsiz məhəbbətlə sevdiyi və vurğunu olduğu şairlərdən biri də elə birincisi Məhəmməd Füzuli idi. Həmin vurgunluq və məhəbbətin təzahürü kimi oğluna da Füzuli adını qoydu.

Çaxırlı kəndi qədim tarixə malik olsa da, onun nə vaxt salındığı məlum deyil. Kənd rayon mərkəzindən 9 kilometr aralıda, Bakı-Astara yolundan 2 kilometr məsafədə yerləşir. Səfalı, gözəl təbiətə, saf, təmiz qəlbli, qonaqpərvər, insanpərvər, xeyirxah insanlara malik olan bu kənd varlı-bərəkətli münbit torpağı ilə də diqqəti cəlb edirdi. Elə bu səbəbə görə, müharibədən sonrakı ağır illərdə kənd kolxozunun məhsulu həmişə rayonunun başqa kolxozlarından çox olar, o, dövlətə daha çox məhsul verdiyinə görə kolxozçulara hər əməkgünü üçün müəyyən miqdar taxılla bərabər pul da verilərdi.

Müharibə qurtarsa da, onun ağrı-acıları, vurduğu yaralar, törətdiyi çətinliklər hələ davam etməkdəydi. Bir çoxlarının gözləri hələ də yollardaydı. Gü-

zəran çətin, dolanışıq ağır idi. Stalin reyiminin yaratdığı represiya xofu da şüurlara hakim kəsilmişdi. Həyat insanı sıxanda, dövran onu əzəndə ümid ancaq gələcəyə qalır. Füzuli müəllimin uşaqlıq həyatı da onu əhatə edən insanların ümid işığıyla yaşadıqları bir dövrə təsadüf edir.

Füzuli müəllim gözlərini açanda, evdə atasının az-çox toplayıb yıpdığı kitabları, yəni balaca bir kitabxana görüb. Bir tərəfdən bu kitablar, bir tərəfdən də təbiətində yaranan elmə, ədəbiyyata həvəs onda oxumağa çox erkən maraq oyadıb. Hələ məktəb yasına çatmamış artıq o, hərfləri tanıyır, kiçik həcmli kitabları oxuya bilirdi. Bu zaman onun beş yaşı var idi. Atası Feyruz kişi beş yaşlı oğlunun bu qabiliyyətini görüb onu məktəbə göndərmək istədi. Hətta balaca Füzuli bir neçə gün məktəbə də getdi. Amma boyu balaca olduğundan, partada oturanda yazı lövhəsini görə bilmirdi. Elə buna görə də qaygıkeş bir insan olan, sonralar Füzuli müəllimin ehtiramla xatırladığı Abıhüseyn müəllim məsləhət gördü ki, hələ tezdir, uşağı məktəbə yeddi yasında göndərmək münasibdir. Belə də oldu.

Yeddi yaşında məktəbə gedən Füzuli şagird yoldaşlarından fərqli olaraq yazmağı və oxumaqı kifayət qədər bacarırdı. Bu səbəbə sinif müəllimi Abıhüseyn Xəlifəli tapşırdı ki, o, sinfə “Əlifba” kitabını

yox, “Ana dili” kitabını gətirsin. Çünki, onun “Əlifba” kitabında olanları öyrənməyinə ehtiyac yoxdur.

Balaca Füzulinin kitab oxumağa sonsuz həvəsi vardı. Hətta yemək yeyəndə belə onları əlindən yerə qoymurdu. Bunun üstündə anası onu tez-tez danlayardı. O, evlərindəki bir cildlik “Azərbaycan nağılları”nın fantaziyasına dalır, burdakı əhvalatlar və qəhrəmanların taleyi ona dərin təsir göstərir, xəyalən onu uzaqlara, sirli-sehirli bir dünyaya aparırdı. Həmin nağıllardan çoxu indi də onun yaddaşına həkk olunub. Məsələn: “Qaraqaşın nağılı”, “Beykəsin nağılı”, “Tumar pəhləvanın nağılı”, “Balıqçının nağılı”, “Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi” və s.

Füzuli müəllimin anası Xeyransa xanım zəhmətkeş, istiqanlı, açıqgöz bir bir qadın idi. Çoxlu sayda xalq ədəbiyyatı nümunələrini sinəsinə yazmışdı. Nə qədər desən bayatı bilirdi. Xeyransa xanım toylarda qadın məclislərində gözəl folklor bilicisi kimi həmişə fərqlənərdi. Yaxşı yaddaşı, duzlu-məzəli söz-söhbətləri, könülaçan zarafatları vardı. Toy məclislərində qadın halayının başında durar, “A yordu, yordu, yordu, Görək kim kimi yordu” şəklində başlanan mahnı-deyişmədə həmişə qalib olardı.

Xeyransa xanım doqquz uşaq anası olub. Bu böyük ailənin cəfasını çəkmək, əlbəttə, asan iş deyildi. Lakin Xeyransa xanım əzabkeş, qayğıkeş ana-

lıq şərəfini ləyaqətlə qoruyub, övladlarına fədakarlıqla analıq edib. Füzuli müəllimin bir ziyalı kimi yetişməsində anasının əvəzsiz rolu olub. İllər ötüb keçsə də, o, ana şəfqətini yenə də üstündə hiss edir. Qayibanə olsa da.

Nənə kimi sevilən, kimsəsiz Tamam qarı da xeyirxah insan idi. Feyruz kişinin evi ikimərtəbəli, çoxotaqlı idi və o, otaqlardan birini Tamam nənəyə ayırmışdı. Tamam nənə zahirən bu otağın tək sahibı olsa da, uşaqlar həmişə onun başına yığışardılar. Tamam nənə də folklor nümunələrini bilməkdə sinədəftər idi. Xalq təbabətini, türkəçarələri gözəl bilir, bir sıra xəstəlikləri müalicə edirdi. O, qərib həyatı sürsə də kiçik Füzulinin doğma nənəsini əvəz edirdi. İndi də onu şirin və xoş xatirələrlə yada salır. Bu mehriban, həlim və istiqanlı qarı uşaqları həmişə başına yığar, onlara şirin nağıllar danışar, folklor örnəkləri deyərdi. Onun danışdığı və indi də Füzuli müəllimin hafizəsində yaşayan "Tiləpəpirin nağılı", təəssüf ki, hələ də heç bir yerdə çap olunmayıb. Sinəsi söz xəzinəsi olan bu həlim nənədən Füzuli müəllim çox şey öyrənmişdir. Tamam nənədən öyrəndiyi xalq yaradıcılığı nümunələrindən o, bu gün də yeri gəldikcə auditoriyalarda da istifadə edir.

Füzuli müəllimin ilk dəfə kənd kitabxanasına getdiyi gün də yadındadır. Onda onun cəmi səkkiz

yaşı var idi. Çaxırlı kəndində bir kitabxana və bir qiraətxana vardı. Atası balaca Füzulinin kitaba olan sonsuz marağını görüb oğlunu kitabxanaya üzv yazdırdı. İlk dəfə o, kitabxanaçı Manisə xanımın məsləhəti ilə S.S.Axundovun "Qorxulu nağıllar" kitabını aldı. Xeyirxah bir insan olan Manisə xanım Füzulinin səliqəli, həvəskar bir oxucu olduğunu, tez-tez kitab aldığını görüb, ona daha böyük həcmli kitablar təklif etməyə başladı. Artıq 10-11 yaşlarında Füzuli öz tay-tuşlarından fərqli olaraq daha çox kitab mütaliə etmişdi.

Kitabxana ilə əlaqəli maraqlı bir əhvalat da onun indiki kimi yadındadır. Belə ki, bir dəfə Füzulinin, 10-11 yaşlı uşağın adına iri həcmli kitabların olduğunu görən Bakıdan gələn komissiya üzvləri belə hesab edirlər ki, həmin kitabları kitabxanaçı saxta şəkildə anketə özü yazıb. Kəndin kuryeri ilə Füzulini çağırtdırırlar. Anketdən oxuyurlar ki, Füzuli sonuncu dəfə L.Kassil və M.Polyanovskinin qələmə aldıqları "Kiçik oğul adına küçə" əsərini götürüb. Həmin əsərdən Füzuliyə suallar verirlər. Balaca Füzuli həmin suallara utana-utana, lakin doğru-dürüst cavablar verir. Onlar Füzuliyə: "Sağ ol, oğlum", - deyə minnətdarlıq edirlər. Bu əhvalat onun kitaba həvəsini bir az da artırır. Komissiya üzvləri kitabxanaçının işindən də razı qalırlar.

Füzuli müəllim Çaxırlı kəndində ancaq ibtidai təhsil ala bildi. Çünki kənddə yalnız ibtidai məktəb fəaiyyət göstərirdi. Sonra o, qonşu Kəbləhüseynli kəndindəki yeddillik məktəbin 5-ci sinfinə yollandı. Bir kilometr aralıqda yerləşən qonşu kənd məktəbinə qışın soyuğunda, yazın, payızın yağışında, palçıqda, suda həmişə piyada gedib gələrdi. Özü də paltosuz və çantasız. Ailə maddi cəhətdən o qədər də təmtaraqlı olmadığından valideynlərin buna imkanı yox idi. Balaca Füzuli kitablarını qışın soyuğunda da qoltuğunda daşıyardı. Məktəbə palto ilə gedib gələn şagirdlərə həvəslə baxardı. Amma oxumaqda hamıdan üstün idi. Bədii kitabları daha çox mütaliə edərdi. Hətta valideynləri arabir onu danlayardı ki, dərslərinə fikir ver, bədii kitablara az vaxt ayır.

Orta məktəb müəllimlərindən Azərbaycan dili və ədəbiyyatı fənlərini müxtəlif illərdə tədris edən Məmməd Nəbiyev və Leyla xanım Əliyevanı Füzuli müəllim daha çox xatırlayır. Onun ədəbiyyata marağının artmasında, bir ədəbiyyatşünas kimi yetişməsində bu müəllimlərin müəyyən rolu olub. Füzuli müəllim indi də onları hörmət və sevgi ilə xatırlayır. Elmə, maarifə həvəsi olan şagird yoldaşları da Füzuli müəllimin xatirindədir. Həmin şagirdlərdən Sərdar Allahyarlı, Sabir Xəlifəli, Musa Əhmədov, Vəkil Ağayev, Hekayət Əsgərov, Tofiq Hüseynov və sair.

Onlardan bəziləri elmi axtarış yolunu sonra da davam etdirdilər. S.Xəlifəli iqtisad, M.Əhmədov isə texniki elmlər üzrə namizədlik dissertasiyaları müdafiə edərək elmlər namizədi elmi dərəcəsini aldılar.

Orta məktəbi bitirib 18 yaşına çatdıqda gənc Füzulini həqiqi xidməti göndərdilər. O, üç il Çelyabinsk vilayətində məxfi hərbi hissədə xidmətdə oldu. Mülki həyata qayıtdıqdan sonra Bakı şin zavodunda yığıcı, leytenant Şmidt adına zavodda (sonra Səttarxan adına oldu) tornaçı işlədi.

1969-cu ilin 8 mart günü Füzuli müəllimin həyatında ən əlamətdar günlərdən biri oldu. Həmin gün o, orta məktəb müəlliminin qızı Elmira xanımla ailə həyatı qurdu. Bu nəcib və sədaqətli Azərbaycan qızının ayagı düşərli oldu. Məhz həmin il gənc Füzuli ADPİ-nin (indiki ADPU-nun) filologiya fakültəsinin əyani şöbəsinə daxil oldu. Cəfakeş, ailəcanlı, səmimi bir ömür-gün yoldaşı olan Elmira xanım həyat yoldaşının uğurla təhsil alması üçün heç nəyi əsirgəmədi. Müxtəlif istehsalat müəssisələrində işlədi, ailənin maddi təminatı yolunda cəfakeşliklə çalışdı.

Tələbəlik illərində gənc Füzuli elmi, savadı və ictimai fəallığı ilə diqqəti cəlb etdi. Qrup nümayəndəsi, komsomol komitəsinə büro üzvü seçildi. “Məşəl” tələbə teatrına bədii rəhbər təyin edilməsi isə onun bacarığının, istedadının yeni keyfiyyətlərini

üzə çıxardı. O, həvəskar tələbələrin iştirakı ilə N.Hikmətin “Unudulan adam”, A.Safronovun “Kişilərə inanmayın”, S.Rəhmanın “Toy”, “Xoşbəxtlər”, A.Məmmədovun “Həmyerlilər”, “Kişilər” və sair əsərləri müvəffəqiyyətlə tamaşaya qoydu. Teatr dərnəyinin üzvləri tələbə teatrlarının respublika müsabiqəsində, radio və televiziya verilişlərində uğurlu çıxış etdilər. Azərbaycan Respublikanın xalq artisti Ramiz Novruz da “Məşəl” tələbə teatrının yetirmələrindəndir. Bu gün onunla bir yerdə çalışan həmkarları – Qüdrət Umudov, Kamil Bəşirov da o dərnəyim fəal üzvlərindən olublar. Teatr sahəsindəki uğurlarına görə Füzuli müəllim Moskvadan “Bədii özfəaliyyətdəki uğurlarına görə” döş nişanı ilə təltif edilib.

Gənc Tamaşaçılar Teatrında Məmmədhüseyn Təhmasibin “Rübailər aləmində” əsərinin tamaşası ilə bağlı müzakirədə etdiyi çıxış Füzuli müəllimin həyatının dönüş nöqtəsi oldu. Mərhum professor Xeyrulla Məmmədovun məsləhəti ilə müzakirəyə qatılan Füzuli Əsgərli orada tənqidi məzmunlu, sağlam düşüncəli çıxışı ilə iştirakçıların, o cümlədən, xeyirxah insan, gözəl alim, pedaqoq-tənqidçi Əhəd Hüseynovun diqqətini cəlb etdi. Əhəd müəllim ona elm dalınca getməyi tövsiyə etdi, onu elmə həvəsləndirdi.

Həm elmi potensialına, həm də teatrdakı uğurlu fəaliyyətinə görə 1973-cü ildə Füzuli müəllim ADPU-da işə qəbul edildi. O, elmi-publisistik, teatr və bədii tərcümə ilə bağlı daha intensiv fəaliyyətə başladı. Maraqlı tərcümələr edir, qəzet və yurnallar üçün publisistik və elmi məqalələr yazır, Azərbaycan radiosu və televiziyası ilə mütəmadi əlaqə saxlayırdı. Xalq yazıçısı İsmayıl Şıxlı onun tərcümə yaradıcılığı ilə məşğul olduğunu bildikdə Füzuli Əsgərlini bu işə həvəsləndirdi, tərcümənin nəzəri əsaslarını da öyrənməyi, bu istiqamətdə dissertasiya da yazmağa tövsiyə etdi. Tövsiyə öz səmərəsini verdi və yorulmaq bilmədən çalışan Füzuli müəllim səviyyəli bir dissertasiya yazdı, uğurla müdafiə edərək filologiya elmlər namizədi elmi dərəcəsi aldı. 1994-cü ildə isə "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasına dosent vəzifəsinə seçildi. 1991-1997-ci illər ərzində həmin ali məktəbin filologiya fakültəsində dekan müavini vəzifəsində çalışdı.

Füzuli müəllim sovet dönəmində yeddi il institut və respublika üzrə tələbə inşaat dəstəsinin komandiri təyin edilmiş, təşkilatçılıq bacarığına, səmərəli fəaliyyətinə görə bir sıra mükafatlarla, fəxri fərmanlarla təltif edilmişdir.

Pedaqoji işlə yanaşı yorulmadan və həvəslə elmi istiqamətdə də fəaliyyətini davam etdirmiş, bu

istiqamətdə uğurlar qazanmışdır. Onun uşaq ədəbiyyatına aid "Sənətkarın uşaq dünyası", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Ömrün sözü, sözün ömrü", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehrli dünyanın memarı", "Bədii tərcümə prinsipləri" adlı monoqrafiyaların, ali məktəblər üçün "Uşaq ədəbiyyatı" dərsliyinin, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitinin, "Ədəbi düşüncələr", "Zahid Xəlilin sənət dünyası", "Problemlər, düşüncələr", "70 ilin işığında" məqalələr toplusunun müəllifidir.

Füzuli Əsgərli Azərbaycanın ədəbi meydanının təcrübəli, peşakar və məhsuldar tərcüməçilərindən biridir. Bir sıra xalqların dəyərli ədəbiyyat nümunələrini milli dilimizə çevirərək Azərbaycan oxucusuna təqdim etmişdir. Onun mütərcim xəritəsi milli baxımdan rəngarəngdir. Moldav yazıçısı Filip Mironov, Litva dramaturqu Albertas Laurincükas, eston yazıçıları Anton Tammsaare, Raul Kuusberq, Andres Yaaksoo, türkmən yazıçısı Berdinəzər Xudayanəzərov, qazax yazıçısı Kaldarbay Naymanbayev, gürcü yazıçısı Nodar Dumbadze, rus yazıçıları Aleksey Tolstoy, Konstantin Sergeyenko, Aleksey Osipov, Nikolay Nosov, Yan Larri, norveç uşaq yazıçısı Anne Vestli və digər qələm sahiblərinin bir sıra bədii

yaradıcılıq örnəkləri Füzuli müəllimin qələmi ilə ana dilimizə çevirmiş və nəşr edilmişdir.

Ədəbiyyatşünas alim 2010 və 2013-cü illərdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin tədris prosesinə fəal cəlb edilməsi, tələbələrin dərslik və dərs vəsaiti ilə təminatı, yeni təlim texnologiyalarının tətbiqi sahəsində qazandığı nailiyyətlərə görə humanitar və pedaqoji elmlər üzrə "İlin müəllimi" nominasiyasının qalibi olmuşdur. 2009-cu ildə "Qızıl qələm" media mükafatı laureatı, 2010-cu ildə isə "İlin nüfuzlu ziyalısı" fəxri adına layiq görülmüşdür.

Füzuli Əsgərli həm də gözəl, nümunəvi ailə başçısıdır. Böyük qızı Şəfa ADPU-nun filologiya fakültəsini bitirib, hazırda Azərbaycan ədəbiyyatı ixtisası üzrə doktorantdır. Şəfa xanımın həyat yoldaşı Rasim dövlət qullugunda məsul vəzifədədir. Füzuli müəllimin böyük oğlu Cavid Mərkəzi Bankın İnformatilka Texnologiya Depatamentində proqramçı kimi fəaliyyət göstərir. Kiçik oğlu Ceyhun isə filoloqdur, ingilis və rus dillərini mükəmməl bilir. Hər iki oğul övladının gözəl ailəsi var. Cavid Sevil xanımla, Ceyhun isə Lalə xanımla ailə qurub. 70 yaşlı alim beş nəvənin babasıdır: Rəmzi, Roya, Rəvan, İlkin və Kənan.

Ədəbiyyatşünas alim, tənqidçi, tərcüməçi və fədakar pedaqoq Füzuli Əsgərli indi ömür karvanının

70-ci ilinə qədən qoymuşdur. Daha dəqiq desək, ömrün 70-ci baharı ərəfəsindədir. Biz ona həyat yollarında xoşbəxtlik, ailə səadəti və yaradıcılıq uğurları arzulayırıq!

"Türküstan" qəzeti, 2015, 15-21 fevral.
"Gənc müəllim" qəzeti, 2015, fevral.
"Təhsil işçisi" qəzeti, 2015, 02 mart.

BULUDXAN XƏLİLOV,
filologiya üzrə elmlər doktoru,
professor, filologiya fakültəsinin
dekanı

Yaxşı müəllim, yaxşı alim olmaq qəhrəmanlıqdır

Füzuli müəllimi necə tanımışam, elə də qalıbdır. İllərin üstünə illər gəlib, çoxlu hadisələr baş verib, hətta dünya da dəyişibdir. Ancaq Füzuli müəllim 80-ci illərdə tanıdığım enerjidə, görkəmdə, əhval-ruhiyyədə, yaşamaq, qurub-yaratmaq həvəsindədir. Düzdür, üz-gözündə həyatın, ömrün ona bəxş etdiyi cizgiləri də görməmək olmur. Ancaq bunlar da Füzuli müəllimin özünəməxsusluğunda elə də ciddi dəyişiklik yaratmayıb. Onun özünəməxsus özəl xüsusiyyətləri hər şeyi elə üstələyibdir ki, o, mənim gözümdə elə 80-ci illərdə gördüyüm, tanıdığım Füzuli müəllimdir. Məncə, onun bu dəyişməzliyinin kökündə duranlardan biri də sağlamlıqdır. O, sağlamdır. Sağlamlıq isə ən böyük dövlət və xoşbəxtlikdir. Belə bir fransız atalar sözü var: “Sağlam olmaq varlı olmaqdan yaxşıdır”. Başqa bir monqol atalar sözü də var: “Borcun yoxdursa, dövlətlisən, canın sağlamdırsa, xoşbəxtsən”. Bu mənada Füzuli müəllimin maddi

cəhətdən heç kəsə borcu yoxdur, canı sağlamdır, deməli, xoşbəxtdir. Hərdən fikirləşirəm ki, belə insanlar bəlkə də hər şeyi – həyatı, fəaliyyəti, ömür-günün hər anını və məqamını dönə-dönə ölçüb-biçirlər. Onlar ölçü və biçimi elə tənzimləyirlər ki, ömürlərinin hər ilinə və gününə çata bilsin. Bəlkə də ona görə dəyişməz qalırlar. Hətta belələri uşaqlıqdan, yeniyetməlikdən, cavanlıqdan başlayaraq sabahkı günlərini, gələcək ömürlərini fikirləşirlər. İngilis şairi, tənqidçisi, leksikoqrafı Samuel Conson yazır: "Bütün ömrünü namusla yaşamaq istəyən insan cavanlıqda nəzərə almaldır ki, bir vaxt onun özü də qoca olacaq və qocalanda yadında saxlamalıdır ki, vaxtı ilə onun özü də cavan olub". Bu mənada Füzuli müəllim cavan olanda fikirləşib ki, vaxt gələcək onun 70, 80, 90... yaşı olacaq. Hal-hazırda isə 70 yaşı var. Fikirləşir ki, onun özü də cavan olub. Ona görə də o, bütün yaş mərhələsində hər yaşın yaxşı tərəflərini özündə ehtiva edir. Fəaliyyətində, davranışında və hərəkətlərində bunu büruzə verir.

Yaxşı yadımdadır: 80-ci illər... 1988-1989-cu tədris ilində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin) tələbə-inşaat dəstəsi Rusiyanın Həştərxan vilayətinə getmişdi. Həmin vaxt keçmiş Sovetlər İttifaqında hadisələr bir-birinə qarışmışdı. Bir tərəfdən də

ermənilərin Azərbaycana olan haqsız iddiaları, soydaşlarımızın öz dədə-baba yurdlarından – Ermənistandan qovulması, Dağlıq Qarabağda baş verən hadisələr və sair və ilaxır. Belə bir qarışıq vaxtda tələbə-inşaat dəstəsinin Həştərxana getməsi və bu dəstəyə rəhbərlik etmək o qədər də asan deyildi. Ancaq belə bir gərgin vəziyyətdə Füzuli müəllim tələbə-inşaat dəstəsinin rəhbəri (komandiri) kimi xeyli işlər gördü. O vaxt tələbə-inşaat dəstəsində filologiya, riyaziyyat, tarix, məktəbəqədər fakültələrinin tələbələri iştirak edirdi. Hər fakültənin öz rəhbəri olmaqla yanaşı, ümumi rəhbər də vardı. Fakültələrin tələbə-inşaat dəstələrinə hər fakültənin nüfuzlu tələbəsi rəhbərlik edirdi.

Füzuli müəllim isə bütün bu tələbə-inşaat dəstəsinin ümumi rəhbəri idi. Tələbələrimiz Podu adlanan bir qəsəbədə yerləşmişdi. Mən o vaxt bir tələbə kimi filologiya fakültəsinin tələbə-inşaat dəstəsinə rəhbərlik edirdim. Yaxşı mənada fakültələr arasında yarış, rəqabət yaranmışdı. Biz sahələrə işləməyə gedirdik: pomidor, qarpız yığırdıq. Bu, işin bir tərəfi idi. İkinci və əsas tərəfi o idi ki, həmin ərazidəki ruslara Dağlıq Qarabağla bağlı məlumatlar verirdik. Füzuli müəllim bu işlərin ideoloji rəhbəri və təşkilatçısı idi. O, işi elə qururdu ki, biz həm işimizlə, həm davranışımızla, həm də yerli camaat arasında apardığı-

mız söhbətlə Azərbaycanımızı yaxşı mənada təqdim edə bilirdik. Tələbə-inşaat dəstəsinin tərkibində olanların 90%-dən çoxu qızlar idi. Onları qorumaq, sağ-salamat geri – İnstituta (indiki Universitetə) gətirmək böyük qabiliyyət, təəssübkeşlik tələb edirdi. Məhz bu keyfiyyətlər Füzuli müəllimdə vardı.

Füzuli müəllim öz istəyinə nail olmaq üçün həmişə səy göstərib, işləyib və nəticədə istəyini həyata keçiribdir. İnsan üçün ən böyük xoşbəxtlik də budur. Xoşbəxtlikdən söhbət düşmüşkən ingilis dramaturqu, şairi Uilyam Şekspirin belə bir fikrini xatırlamaq yerinə düşər: "Məndən xoşbəxtliyimin səbəbini soruşdular. Mən də əlimdəki və üzümdəki qırışları göstərib dedim: "Həyatda çox müsibətlər görmüşəm, bununla belə heç kimin qabağında əyilməmişəm, heç bir siyasi təşkilata daxil olmamışam, həmişə işləmişəm və nəticədə istəklərimin hamısına çatmışam. Bunun özü elə xoşbəxtlikdir". Bu mənada Füzuli müəllimin xoşbəxtliyi ondadır ki, o, həyatda öz ömrünü yaşayıb və yaşayır, öz istəklərini həyata keçirmək üçün işləyir, elmi-pedaqoji fəaliyyəti ilə məşğul olur. Vaxtilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU-nun) filologiya fakültəsinin əyani şöbəsini bitirən Füzuli Feyruz oğlu Əsgərli öz istəklərini həyata keçirmək üçün işlədi, çalışdı və "Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi

problemləri (1950-1980-ci illər)" mövzusunda dissertasiya müdafiə etdi. Filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatın tədrisi metodikası kafedrasının nüfuzlu dosenti oldu. O, bu gün də yorulmadan çalışır, gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olur. Dəfələrlə çap olunmuş (2007, 2009, 2011, 2012-ci illərdə) "Uşaq ədəbiyyatı" dərsliyinin müəllifidir. Onun "Sənətkarın uşaq dünyası" (2003), "Ədəbi düşüncələr" (2004), "Ömrün sözü, sözün ömrü" (2008), "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" (2009), "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" (2010), "Bədii təhlil və ədəbi tənqid" (2010), "Sehrli dünyanın memarı" (2012) monoqrafiyaları gərgin zəhmətin və uzunmüddətli araşdırmaların nəticəsidir. Füzuli müəllimin 2009-cu ildə çap etdirdiyi "Bədii tərcümə prinsipləri" adlı monoqrafiyası bədii tərcümə məsələlərinin nəzəri əsaslarını zənginləşdirməkdə mühüm rol oynayır.

Füzuli müəllimin tərtib etdiyi "Zahid Xəlilin sənət dünyası" (2010) məqalələr toplusu, "Azərbaycan uşaq ədəbiyyatı" (2012), "Dünya uşaq ədəbiyyatı" (2012) dərs vəsaitləri zəhmətin və yuxusuz gecələrin bəhrəsidir. Zəhmət, yuxusuz gecələr, əzab və əziyyətlərə qatlanmaq Füzuli müəllimi "Qızıl qələm" mükafatı laureatı olmağa, "İlin nüfuzlu ziyalısı" fəxri adını almağa layiqli edibdir. O, bir neçə

dəfə Azərbaycan Dövlət Pedaqoji Universitetində (2009,2013-cü illərdə) "İlin müəllimi" adına layiq görülübdür. Füzuli müəllimin elmi-pedaqoji fəaliyyəti, ədəbiyyatımızın nəzəri problemləri ilə məşğul olması, eləcə də dünya ədəbiyyatından tərcümələri indi də uğurla davam etdirilir. Onun fəaliyyətinin qoşa qanad olan iki qolu var. Biri elmi fəaliyyəti, ikincisi isə pedaqoji fəaliyyətidir. Füzuli Əsgərli pedaqoji fəaliyyətində öz imici ilə fərqlənən müəllimdir.

Müəllim olmaq təkcə bilik, bacarıq tələb etmir, həm də kifayət qədər səliqəli olmağı tələb edir. Ümumiyyətlə, səliqəli olmaq çətindir. Məşhur fransız yazıçısı Jül Renar (1864-1910) yazırdı: "Bir həftə boyu səliqəli olmaq on beş dəqiqə qəhrəman olmaqdan çətindir". Bu mənada Füzuli müəllim səliqəli bir müəllimdir. Geyim-keçimindən tutmuş davranışına qədər o, səliqəli müəllimdir. Bu qəbildən olan insanlar barədə düşünürsən ki, onlar dünyaya yenidən gəlsəydilər kim olardılar, hansı peşəyə sahib olardılar? Cavab birmənalı olur. Belələri eyni həyatı yaşayar, eyni istəkləri yerinə yetirər eyni peşənin sahibi olardılar. Fərq bircə ondan ibarət olardı ki, onlar gözlərini bir az da geniş açaraq dünyaya baxar, öz peşələrinin sirlərinə dərindən bələd olar, istək və arzularının həyata keçməsi yolunda daha da qətiy-

yətli görünərdilər. Belələri dönə-dönə oxuduqlarını, dönə-dönə yazdıqlarını yorulmadan, səliqə ilə vərəq-ləməkdən, sahmana salmaqdan yorulmur, hər gün məşğul olduqları eyni işdən bezmir, əksinə sevirlər. Hər gün məşğul olduqları işin də, peşənin də dərin-liklərini anlayır, qəribə və qeyri-adi tərəflərini hiss edirlər.

Füzuli müəllim müəllimliyindən zövq alan bir insandır. O, fikirləşmir ki, bu yaşa gəlib çatıb və bu illərdə nəyi itirib. Fikirləşir ki, bu yaşda böyük təcrübə, mənalı həyat yolu qazanıb. Ömür-gününü yeyən pis nə varsa, onların hamısı onu bərkidib, həyata dözümlü edibdir. Füzuli müəllim özünə tə-ləbkar adamdır. Belələri bəzən müvəffəqiyyəti də özlərinə təhlükə hesab edirlər. Ona görə ki qorxurlar ki, birdən müvəffəqiyyət onları tənbəlləşdirər. Bu mənada Füzuli müəllim özünə tələbkarlığı da, bəzən müvəffəqiyyətin təhlükə olduğunu da unutmur.

Füzuli müəllim ədəbiyyatı tədqiq edən bir alim kimi mifologiyaya da, yazılı ədəbiyyata da re-allıq, gerçəklik kimi baxıbdır. Bu da onun xəyal-lardan uzaq bir alim-vətəndaş olması ilə bağlıdır. Onun üçün mifologiya da, yazılı ədəbiyyat da yaxşı mənada təhlükəlidir. Çünki, bunların hamısı insanın mənəvi cəhətdən zənginləşməsi və kamilləşməsi üçündür.

Ədəbiyyat aləmində nüfuz qazanmaq üçün təkcə yazmaq, ya da yazılanları tənqid etmək əsas deyildir. Əslində müasir dövrdə başqalarını tənqid etmək hamını yorubdur. Başqalarını tənqid etmək-dənsə, yenə də yazmaq yaxşıdır. Bu mənada Füzuli müəllim ədəbiyyatdan, onun problemlərindən, dünə-nindən və bu günündən yazır. Elə tarixdə qalanlar da bunlar olacaqdır.

Füzuli Əsgərlinin anadan olduğu 1945-ci il martın 18-dən 2015-ci ilin mart ayının 18-nə qədər 70 il keçir. 70 il... Arxada böyük bir tarix, həyat yolu və təcrübə var. Qarşıda isə yeni-yeni uğurlar və nai-liyyətlər.

Əziz və hörmətli Füzuli Əsgərli, 70 yaşınız mübarək olsun!

18 mart 2015-ci il.

FƏRRUX RÜSTƏMOV,
Pedaqoji fakültənin dekanı,
pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar Elm Xadimi,

Ziyalı ömrü

Ədəbiyyatşünas alim Füzuli Əsgərli çağdaş ədəbi-mədəni mühitdə öz imzası ilə daha çox görünən tədqiqatçılardan və Universitetimizin sayılıb-seçilən müəllimlərindəndir. Müxtəlif vaxtlarda mətbuat səhifələrində çıxan məqalələrini, mənə bağışladığı monoqrafik araşdırmalarını oxumuşdum. Bu yaxınlarda isə onun haqqında professor dostum Yaqub Babayevin bir məqaləsini oxudum. Yazının ümumi ruhu təbrikə, gördüyü işlərin təhlilinə, keçib gəldiyi 70 illik mənalı ömür yolunun təqdirinə hesablanmışdı. Əlbəttə yetmiş yaş, yetmiş illik ömür az vaxt deyil, illah da zamanın, ictimai, siyasi mühitlərin qarışdığı bir dövrdə bunun ağırlığı bir qədər də artır. Ziyalı üçün isə bunun ağırlığı daha da artır. Ancaq təsəlli tapılmalı nələrsə var. Ən birincisi, Ulu Tanrının verdiyi bu əvəzsiz ömür sərvətindən lazımı qədər bəhrələnməkdir. Füzuli Əsgərli məhz gördükləri, etdikləri ilə bu yetmiş ildən yetərincə yararlanmışdır.

O, sözün həqiqi mənasında əsl ziyalı ömrü yaşamışdır.

İnsanlar, talelər, xarakterlər müxtəlifdir. Hərə həyatı özünün düşündüyü, bildiyi qədərində dərk edir və bunun üzərində də həyatı nizamlayır. Öz işləri, etdikləri ilə bir insan tarixini, tale kitabını yazır. Füzuli müəllim də bu tarixi yaşamış və bir alim, müəllim ömrünü zinətləndirmişdir. Belə şərəfli, iftixar olunmalı ömürlər təkrar deyək ki, hər kəsə də nəsib olmur. Ədəbiyyatşünas Füzuli Əsgərlini yaxından tanıdığım, tələbəlikdən bu yana gördüklərim əsasında deyirəm. İndi isə artıq neçə illərdir ki, müəllim kimi bir yerdə çalışırıq. İyirmi ilə yaxındır ki, dekanı olduğum Pedaqoji fakültədə "Uşaq ədəbiyyatı" fənnindən dərs deyir. Həftədə ən azı iki-üç dəfə qarşılaşırıq. Müxtəlif problemlər ətrafında söhbətlərimiz, diskussiyalarımız olur. Mən onun müəllimliyini daha çox dəyərləndirirəm. O, müəllimliyin klassik ənənələrini özündə yaşadan çox az müəllimlərdən biridir. Tələbələrimizin sevimlisidir. Onların Azərbaycan və dünya ədəbiyyatının ən yaxşı nümunələrini oxumaları üçün sözün həqiqi mənasında mücadilə edir. Tələbə Elmi Konfranslarında onun tələbələri həmişə nümunəvi yer tutur, fəxri fərmanlarla, diplomlarla təltif olunurlar. Hətta bir dəfə tələbələrindən birinin məqaləsinin "Azərbaycan məktəbi" jurnalında nəşrinə nail

olmuşdu. Söhbətlərimizin birində dedi ki, istəyirəm tələbələrimizlə uşaq yazıçılarının görüşünü keçirək. Yaxşı təşəbbüsdür, - deyib, ona dəstək olacağımı bildirdim. Qısa bir müddətdə Universitetimizin Böyük akt zalında mükəmməl bir görüş keçirtdik. Uşaq yazarları Zahid Xəlil, Rafiq Yusifoğlu, Qəşəm İsabəyli, Sevinc Nuruqızı tələbələrimizin qonağı oldu. Musiqi sədaları altında qonaqlarımızın və tələbələrimizin söylədiyi poeziya nümunələri iştirakçılarda xoş əhval-ruhiyyə yaratdı. Füzuli müəllimin təşəbbüsü ilə reallaşan şeir və musiqi məclisi ömrümüzün unudulmaz anlarından biri kimi yaddaşımızda bu gün də yaşayır.

Mən Füzuli müəllimə kitablarındakı zənginliyə, davranış və münasibətlərindəki səmimiyyətə görə həmişə rəğbət bəsləmişəm. Sevinmişəm ki, Azərbaycan balalarına insanlığı, xalqımızın mənəvi dəyərlərini, xeyirxahlığı, vətən, torpaq, el-oba sevgisini öyrədən, onları universitet auditoriyalarında aşılayan belə ziyalı müəllimlərimiz var. Bu gendən, el-oba dəyərlərindən, ailədən, əvvəlki nəsillərin aşıladıqlarından gəlir və Füzuli Əsgərli kimi şəxslər onu nümunə kimi yaşadırlar. İndi Azərbaycanımızın elə bir kəndi, qəsəbəsi olmaz ki, Füzuli müəllimin orada tələbəsi olmasın. Onlar ədəbiyyatşünas alimimizdən təkcə ədəbiyyatımızı öyrənməyiblər, həm də insanlı-

ğı, ədəb-ərkanı, bir müəllim kimi uca olmağı mənimsəyiblər. Bu, insanda böyük dəyərdir. Mahiyyətinə fikir verdikdə onun arxasında daha dərin qatlar dayanır.

Füzuli Əsgərli nümunəvi insan, nümunəvi müəllimdir. Onun bu cür boy artımında əlbəttə ki, ailəsinin, anadan olduğu Masallı rayonunun Çaxırlı kəndinin böyük rolu vardır. Masallı Azərbaycanımızın füsunkarlığı, təbiətinin əsrarəngizliyi ilə seçilən gözəl diyarlarındandır. Elə dünyaya göz açdığı fəsil, füsunkar bahar da (18 mart) ona özünün bahar təravətini əlavə etmişdir. Mart bizim böyük şövqlə keçirdiyimiz bayramlar ayıdır. Novruz kimi möhtəşəm bayramımız bu aya təsadüf edir. Zamanın, günün, ayın insan xarakterinin, taleyinin müəyyənləşdirilməsində böyük rolu vardır. Azərbaycan elminə, xalqımızın mədəniyyət tarixinə Masallı dəyərli ziyalılar bəxş edibdir. Onlar öz gərəkli işləri ilə el-obasını, özlərinin adını zinətləndiriblər. Məhz Füzuli Əsgərli də fəaliyyəti, yetmiş illik gəldiyi yolla bu ucalığa xidmət etmişdir. Digər bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır. Bu Füzuli müəllimin anadan olduğu 1945-ci illə bağlıdır. Böyük şairimiz S.Vurğun bu ilin (1945-ci ili) tarixə qızıl xətlə yazılmasını xüsusi bir şövqlə, olmazın bir ilhamla təsvir edirdi. Çünki Füzuli Əsgərlinin anadan olduğu 1945-ci il

bütünlükdə dünya üçün uğurlu oldu, qırğınların, qanqadaların qarşısı alındı. Əlbəttə bunları təsadüfi xatırlamırıq və bu dünyaya gəlişin özündə bir sevinc, uğur, müsbət örnəklər olduğunu görürük. Füzuli Əsgərli də məhz bu örnəklərin, yaxşılıqların üzərində yol başlamış və bu yolun yetmiş yaşını yaşamışdır. Sevinməyə dəyər.

Biz onun müəllimlik fəaliyyəti, insan kimi xarakterik keyfiyyətləri haqqında danışdıq. Bu bir tərəfidir. Digər tərəfdən Füzuli Əsgərlini səciyyələndirən istiqamət onun məqalələri, tədqiqatları, monoqrafik əsərləridir. Yuxarıda bir məsələni xüsusi olaraq qeyd etdik ki, Füzuli Əsgərli çağdaş ədəbi mühitdə ən çox çap olunan, yazdıqları ilə marağa səbəb olan tədqiqatçılardandır. Əsərləri haqqında qənaətlərimizə keçməzdən öncə bir məsələni vurğulayaq ki, Füzuli Əsgərlinin həyat yolu məhz zəhmətlə, möhkəm iradə, çətinliklərə əzmlə sinə gərmək duyğusu ilə yoğrulmuşdur. Onun həyat yolu bu mənada işıqlı olmuşdur. Xalqa, millətə xeyir vermək duyğusuna hesablanmışdır. O, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir (1973). Həmin vaxtdan elə taleyini də bu universitetlə bağlamışdır. Elmi-pedaqoji sahədəki uğurlarına görə bir neçə dəfə "İlin müəllimi", "İlin nüfuzlu ziyalısı" adına layiq görülmüşdür. Əlbəttə bu, az qiymətlən-

dirmə deyildir. Müəllim kimi fəaliyyətinə, apardığı araşdırmalara görə böyük bir ziyalı, müəllim kollektivinin arasından seçilmişdir. Son illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, AMEA-nın muxbir üzvü, prof.Y.Ə.Məmmədov bir sıra istiqamətlərdə gözəl ənənələrin başlanğıcını qoymuşdur. Bu "İlin müəllimi", "İlin alimi" və sair müsabiqələrinin keçirilməsidir. Artıq, demək olar, ənənəviləşmişdir. Bir-birindən istedadlı, bacarıqlı müəllimlər bu müsabiqəyə qatılır və sonda ən bacarıqlılar qalib gəlir. Çox yaxşı haldır, ziyalı qiymətləndirilməsidir. Füzuli Əsgərli də məhz gərgin, yorulmaz fəaliyyəti sayəsində bu müsabiqələrdə seçilmiş, qalib adını qazanmışdır. O, "Qızıl qələm" mükafatı laureatıdır.

Bu zəngin yaradıcılıqda bir istiqaməti xüsusilə vurğulamaq lazımdır. O da ədəbiyyatşünas alimin tərcüməçilik fəaliyyəti ilə bağlıdır. Bu, Füzuli Əsgərlini tanıdan sahədir. Əlbəttə, tərcümə özü bir qabiliyyətdir. Füzuli Əsgərli özünün zəngin yaradıcılığı müstəvisində xarici ölkə ədəbiyyatlarının qapısını azərbaycanlı oxucuların üzünə açmışdır. Elə dissertasiya işi də bir problem olaraq tərcümə məsələlərinin öyrənilməsinə yönəlmişdi. "Rus uşaq nəsri nin Azərbaycan dilinə tərcüməsi problemləri (1950-1980-ci illər)" mövzusunda namizədlik dssertasiyası müdafiə etmişdir. Bu gün də o, ayrı-ayrı sənətkarla-

rın əsərlərindən tərcümələri ilə və müxtəlif problem mövzular istiqamətində araşdırmaları ilə seçilir.

Füzuli Əsgərli Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasında çalışır. Lazımı qədər güclü, istedadlı, həm də intellekti ilə seçilən bu kafedra, adından da göründüyü kimi, ədəbiyyatımızın tədrisinin müxtəlif problemlərinin araşdırılmasına istiqamətlənmişdir. Müasir dövrdə bu cür kafedraların gördüyü gərəkli işlərin əvəzi yoxdur. Zəngin tarixi olan bu kafedra uğurlu ənənələr üzərində köklənmişdir. Bu gün həmin ənənəni kafedra səviyyasində yaşadanlardan biri də Füzuli müəllimdir.

Azərbaycan ədəbiyyatının zənginliyində mühüm bir hissəni uşaq ədəbiyyatı tutur. Məlum olduğu kimi, uşaq ədəbiyyatı günümüzə qədər şərəfli bir yol keçmiş, özü üçün güclü baza yarada bilmişdir. Bu ədəbiyyatın klassiklərimizdən bu yana M.Mahmudbəyov, A.Səhhət, A.Şaiq, S.S.Axundov, R.Əfəndiyev, F.Köçərli, M.Hadi, M.Ə.Sabir və sair kimi onlarla nümunəsi vardır. İyirminci əsr boyu isə bu zənginlik həmişə artan istiqamətə getmişdir. İndi bu siyahını bəlkə də yüzlərlə sadalamaq olar. Füzuli Əsgərlinin yaradıcılığının ana xəttini, demək olar, uşaq ədəbiyyatı sahəsində yazdığı tədqiqatlar, gördüyü böyük işlər təşkil edir. "Sənətkarın uşaq dünyası"

(2003), “Ədəbi düşüncələr” (2004), “Ömrün sözü, sözün ömrü” (2008), “Bədii tərcümə prinsipləri” (2009), “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları” (2010) monoqrafiyaları, “Uşaq ədəbiyyatı” (Z.Xəlillə birgə, 2011) dərsliyi, “Zahid Xəlilin sənət dünyası” (2010) və sair araşdırmaları bunun nümunəsidir. Əlbəttə bunlar hər birisi ciddi araşdırmaların, təhlillərin, zəhmətin və sonsuz həyat sevgisinin hadisəsi kimi yaranmışdır.

Füzuli müəllim yetmiş illik şərəfli və mənalı ömür yaşamışdır. Belə bir ömürlə fəxr eləməyə dəyər.

25 mart 2015-ci il.

ƏZİZXAN TANRIVERDİ,
filologiya üzrə elmlər doktoru,
professor

Filologiyamızda Füzuli Əsgərli imzası

Füzuli! Bu ad mənim üçün çox doğmadır: birincisi, ona görə ki, XVI əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Şərq ədəbiyyatının ən məşhur qəzəl ustadlarından biri Mövlana Molla Süleyman oğlu məhz bu adla, bu təxəllüslə tanınıb; ikincisi, Füzuli təxəllüsünün əsl şəxs adına çevrilməsinin XVIII əsrə təsadüf etməsidir (bax: Tiflis əyalətinin müfəssəl dəftəri. Bakı, 2001); üçüncüsü, 1968-ci ildə anadan olmuş kiçik qardaşımın Füzuli adını daşımasıdır; dördüncüsü, bu doğmalıq 38 il əvvəl tanıdığım filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Feyruz oğluna görədir. Bəri başdan deyim ki, Füzuli Əsgərlinin çoxşaxəli elmi-pedaqoji fəaliyyətini, eyni zamanda bir insan kimi xarakterik cəhətlərini kiçik bir məqalə çərçivəsində işıqlandırmaq mümkünsüzdür. Bu mənada onun müəllimliyi və alimliyi ilə bağlı bəzi detalların üzərində dayanmağı gərəkli hesab edirik.

Füzuli Əsgərli bir müəllim kimi ADPU-da fəaliyyət göstərir, bakalavr tələbələrə "Uşaq ədəbiyyatı" və magistrantlara "Ədəbi əsərlərin təhlili" fənlərinin sirlərini öyrədir. Tələbələri də onun haqqında həmişə ürəkdolusu danışır. Burada bir həqiqəti söyləmək lazım gəlir: bir neçə gün əvvəl Azərbaycan dili və ədəbiyyatın tədrisi metodologiyası və metodikası ixtisası üzrə I tədris ili magistrantlarla fikir mübadiləsi aparırdıq. Onlar Füzuli Əsgərlinin mühazirə və seminarlarında həvəslə iştirak etmələrindən, onun dərslərindən xüsusi zövq almalarından fəxrlə danışdılar. Bu, müəllim əməyinə verilən ən böyük qiymətdir!

Füzuli Əsgərli bir alim kimi daha çox uşaq yazıçısı Zahid Xəlilin yaradıcılığını tədqiq edib. Hətta mübaliğəsiz deyirik ki, Zahid Xəlilin bədii yaradıcılığını Füzuli Əsgərli qədər geniş və sistemli şəkildə araşdıran ikinci bir tədqiqatçı tapmaq çətindir. Bu da səbəbsiz deyil. Belə ki, Füzuli Əsgərli Zahid Xəlilin poeziyasına, nəsrinə, dramaturgiyasına, ümumən poetik dünyasına bütün varlığı ilə, ruhu ilə bağlıdır. Bu gün də mənəvi qidasını onun yaradıcılığından alır, sanki onun naminə yaşayır. Bu müstəvidə Füzuli Əsgərli bütün mənalı ömrünü "Dədə Qorqud kitabı"nın tədqiqinə həsr etmiş görkəmli türk alimi Orxan Şaiq Gökyayı xatırladır.

Füzuli Əsgərlinin 2008-ci ildə çap olunmuş "Ömrün sözü, sözün ömrü" monoqrafiyasında Zahid Xəlilin zəngin yaradıcılıq yoluna işıq salınır. Yazıçının bədii yaradıcılığına, eləcə də bədii tərcümələrinə müxtəlif bucaqlardan yanaşan Füzuli Əsgərli irəli sürdüyü tezislərin hər birini tutarlı faktlarla arqumentləşdirir. Bu cəhət aşağıdakı istiqamətlərdə qabarıqlığı ilə görünür:

– "Uşaq aləmini kəşf edən poeziya ustası". Z.Xəlilin "Çəmən", "Yalançı İmran", "Çəmənin xalı", "Mən rəngləri tanıyıram", "Arılar" kimi şeirlərini təhlil süzgəcindən keçirən Füzuli Əsgərli ən kiçik detala belə diqqət yetirib, şeirlərdəki şeiriyyəti, poetik siqləti zərgər dəqiqliyi ilə müəyyənləşdirib. Məsələn, Füzuli Əsgərli Zahid Xəlili "uşaq qəlbini ehtizaza gətirən şeirlər" müəllifi kimi dəyərləndirəndə diqqəti onun "Arılar" şeirinə yönəldir:

Vızıldayıb çəmənləri
Gəzir bir-bir arılar
Çiçəklərin qulağına.
Nəğmə deyir arılar.

Füzuli Əsgərli Zahid Xəlilin uşaq şeirləri ilə bağlı belə bir hökm verir: "...Onun şeir kitablarında həm folklor ənənələrinə, klassik sənətkarlarımızın yaradıcılıq yolunun davamına, həm də müasir Qərbi Avropa ədəbi ənənələrinin izlərinə də rast gəlmək

mümkündür” (səh.90). Müəllif bu fikirləri şairin yaradıcılığından gətirdiyi parçalarla əsaslandırır. İstər-istəməz burada bir məqam yada düşür: Füzuli Əsgərli, bəlkə də, yeganə Azərbaycan tənqidçisidir ki, Zahid Xəlilin uşaq şeirlərini Aristotel, V.Q.Belinski kimi alimlərin əsərlərinə söykənməklə təhlil edir. Açığını deyək ki, təhlilin məhz bu müstəvidə aparılması Füzuli Əsgərlinin “Ömrün sözü, sözün ömrü” monoqrafiyasının elmi dəyərini xeyli artırıb.

– “Uşaq nəsrinin novatoru”. Burada Zahid Xəlil Azərbaycan uşaq nəsrinin Mir Cəlal, Mikayıl Rzaquluzadə, Qılman İlkin kimi nümayəndələrinin layiqli davamçılarından biri kimi dəyərləndirilir. Yazıçının “Ballıca” (1981) kitabında toplanmış “Cırtdanın nağılları” və “Azmanın nağılları” silsiləsinə daxil olan nağılların hər birinin mövzusunu, süjetini, eyni zamanda qeyri-adi obrazlarını müxtəlif bucaqlar altında izah edən Füzuli Əsgərli göstərir: “...Cırtdan Azərbaycan xalq nağılından gələn Cırtdan deyildir, xarakterinə görə də ondan tamamilə fərqlidir. Çünki bu obraz Zahid Xəlilin bədii təxəyyülünün, fantaziyasının məhsuludur... Azman obrazı da nağıllardan gəlmədir, o da yazıçının fantaziyasından doğulmuşdur” (səh.132-133). Bu o deməkdir ki, Füzuli Əsgərli həm yazıçının yaradıcılığına, həm də Azərbaycan ədəbiyyatına dərindən bələddir.

– “Uşaq dramaturgiyası sahəsində fəaliyyəti”. Füzuli Əsgərli yazıçının folklor motivləri əsasında qələmə aldığı “Lampacıq”, “Kür”, eləcə də müasir həyatımızdan bəhs edən “Ata ocağı” pyeslərini təhlil edərkən problemə tarixiliklə müasirliyin sintezi kontekstində yanaşır. Diqqətçəkən məqamlardan biri də budur ki, Füzuli Əsgərli Zahid Xəlilin müxtəlif nağıl motivlərindən məharətlə istifadə etdiyini, Danimarka yazıçısı, “nağıllar kralı” adını almış Hans Xristian Andersenin (1805-1875) əsərlərindən bəhrələnərək uşaqlar üçün səhnə əsəri yaratdığını xüsusi olaraq vurğulayır.

– “Ədəbi əlaqələrin və bədii tərcümənin inkişafında rolu”. Rus uşaq şairlərindən Aqniya Barto və Yuri Kuşakın şeirlərinin Azərbaycan dilinə tərcümə olunmasından söhbət düşərkən ilk olaraq Zahid Xəlilin adı çəkilir. Bu mənada Füzuli Əsgərlinin tərcüməçi Zahid Xəlildən bəhs etməsi olduqca təbii qarşılanır. O, həmin tərcümələrin bədii-estetik məziyyətlərini işıqlandırarkən Zahid Xəlilə yüksək qiymət verir, onu Abbas Səhhətə bərabər bir tərcüməçi hesab edir: “...Onun (A.Səhhətin – Ə.T.) orijinal və tərcümə əsərlərinin bənzərsizliyi, bədii təsir qüvvəsi necədirsə, Zahid Xəlilin bu iki sahədə göstərdiyi ədəbi fəaliyyətinin nəticəsinə də eyni prizmadan baxmaq mümkündür” (səh.225).

– “Rus və Azərbaycan ədəbi tənqidi Zahid Xəlilin yaradıcılığı haqqında”. Füzuli Əsgərlinin araşdırmalarından bəlli olur ki, o, Zahid Xəlilin yaradıcılığı barədə tənqidi yazılar yazmış İqor Motyaşov, Yuri Kuşak, Marianna Yampolskaya, Pavel Ulyaşov, Bəkir Nəbiyev, Tofiq Ağayev kimi tanınmış tənqidçilərin əsərlərini təhlil süzgəcindən keçirərək maraqlı mülahizələr söyləyib. Bütün bunlar, heç şübhəsiz ki, Zahid Xəlil yaradıcılığına sonsuz məhəbbətin nəticəsidir.

Füzuli müəllim! Sizi anadan olmağınızın 70 illiyi münasibətilə təbrik edirəm! Qələminiz həmişə iti olsun!

“Müəllim sözü” qəzeti, 2015, mart.

RAFİQ YUSİFOĞLU,
filologiya üzrə elmlər doktoru,
professor, "Göyərçin" uşaq
jurnalının baş redaktoru

Uşaq ədəbiyyatının keşiyində dayanan əsgər

Füzuli Əsgərli deyəndə mənim ilk ağlıma gələn söz bu oldu: uşaq ədəbiyyatının keşiyində dayanan əsgər. Füzulinin 70 yaşı tamam olsa da onda uşaq saflığı, uşaq sadəlövhlüyü var. Görünür bütün bunlar onunla əlaqədardır ki, Füzuli müəllim uzun illərdən bəridir ki, bütün günü uşaq ədəbiyyatı nümunələrini oxuyur, onlar haqqında məqalələr yazır, dərsliklər, monoqrafiyalar yaradır, uşaq ədəbiyyatından mühazirələr oxuyur, kurs işlərinə, buraxılış işlərinə rəhbərlik edir. Elə buna görə də onun bütün yazılarına uşaq dünyasının ətri, hərarəti, səmimiyyəti hopub. Elə buna görə də onun yazılarının hər sətrindən bir-birinə bənzəməyən uşaq obrazları boylanır. Bu obrazların yaradıcıları isə o qədər də az deyil… Sanni Rodari, Qrimm qardaşları, Hofman, Hauf, Şarl Perro, Jül Vern, Cerard Kiplinq, Mark Tven, Mixail Prişvin, Boris Jitkov, Samuel Marşak, Korney Çu-

kovski, Nikolay Nosov, Aqniya Barto, Sergey Mixalkov, Abbas Səhhət, Abdulla Şaiq, İlyas Tapdıq, Zahid Xəlil, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Məmməd Namaz, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Reyhan Yusifqızı və başqaları bir-birlərindən necə fərqlənirsə, onların balaca qəhrəmanları da eləcə. Füzuli Əsgərli kimdən yazırsa-yazsın, məhz bu məsələləri ön plana gətirməyə, haqqında söhbət açdığı yazıçının yaradıcılıq üslubunu müəyyənləşdirməyə çalışır, təkcə bədii əsərdəki ideya məzmuna yox, sənətkarlıq məsələlərinin şərhinə də xüsusi önəm verir.

Füzuli Əsgərli çox zəhmətkeş alimdir, daim axtarır, arayır, yorulmaq bilmədən yazıb-yaradır, ancaq bir az utancaqdır, təvazökardır. Uşaq ədəbiyyatı ilə bağlı tədbirlərdə həmişə iştirak etsə də, çox zaman danışmır, dinləyir, elə ki, tədbir qurtardı, düşür ərki çatan şairlərin, yazıçıların üstünə, gərək onu belə deyəydin, bunu elə deyəydin və sair. Ancaq ən önəmli fakt ondan ibarətdir ki, uzun illərdən bəri ADPU-da uşaq ədəbiyyatından dərs deyən, filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlinin müəllimlik fəaliyyəti ilə elmi fəaliyyəti bir-birini tamamlayır.

Müəllifin qələminin məhsulu olan “Sənətkarın uşaq dünyası”, “Ədəbi düşüncələr”, “Ömrün sözü, sözün ömrü”, “Azərbaycan uşaq ədəbiyyatının mər-

hələli inkişafı”, “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları” və sair kitabları göstərir ki, uşaq ədəbiyyatının yaradıcılıq problemləri daim Füzuli Əsgərlinin diqqət mərkəzindədir. Uşaq ədəbiyyatına sonsuz sevgi onun bütün monoqrafiya və məqalələrinin başlıca leytmotivini təşkil edir. Bu sevgi Füzuli müəllimi daim axtarıb-aramağa, uşaq ədəbiyyatının təəssübkeşi, havadarı kimi çıxış etməyə səsləyir.

Azərbaycan uşaq ədəbiyyatının elə istedadlı nümayəndəsi yoxdur ki, Füzuli Əsgərli onun yaradıcılıq nümuənələri haqqında söz söyləməsin. Ən yaxşı cəhətlərdən biri də ondan ibarətdir ki, Füzuli Əsgərli istedadsız yazıçılar haqqında ümumiyyətlə heç nə yazmamağa üstünlük verir ki, bu da onun ədəbi məramı haqqında müəyyən təsəvvür yaradır.

Füzuli Əsgərli ən çox görkəmli uşaq yazıçısı, filologiya elmləri doktoru Zahid Xəlil yaradıcılığınına daha çox üstünlük verir. Onun Zahid Xəlil yaradıcılığı haqqında bir neçə monoqrafiyası, saysız-hesabsız məqalələri çap olunmuşdur. “Sənətkarın uşaq dünyası”, “Ömrün sözü, sözün ömrü”, “Sehrli dünyanın memarı”, “Zahid Xəlilin sənət dünyası” və sair kitablarda görkəmli uşaq yazıçısının əsərləri geniş təhlil olunur, onun müxtəlif janrlı yaradıcılıq nümunələri bədii təhlil predmetinə çevrilir.

“Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcümə problemləri” (1950-1980-ci illər) mövzusunda dissertasiya yazıb uğurla müdafiə edən Füzuli Əsgərli təkcə Azərbaycan yox, eyni zamanda dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələri haqqında da maraqlı məqalələrin müəllifidir. O, həm yaxşı tərcüməçi, həm də tərcümə işinin nəzəri problemləri ilə məşğul olan bir ədəbiyyatşünasdır. Onun “Bədii tərcümə prinsipləri” (2009) adlı monoqrafiyası göstərir ki, Füzuli müəllim bu məsələ ilə də daim ciddi məşğul olmuşdur. Dünya uşaq ədəbiyyatı haqqında illər boyunca müəllifdə yaranan dolğun təsəvvür Füzuli Əsgərliyə Azərbaycan uşaq ədəbiyyatına da məhz dünya uşuq ədəbiyyatı prizmasından baxmaq, onun məziyyət və nöqsanlarını bu meyarlarla dəyərləndirmək imkanı vermişdir. Eyni zamanda bu nəzəri hazırlıq “Bədii təhlil və ədəbi tənqid” monoqrafiyasının yaranmasına yardımçı olmuşdur.

Füzuli Əsgərli qələminin, səmərəli axtarışlarının bəhrəsi olan “Uşaq ədəbiyyatı” adlı dərslik ali və orta ixtisas məktəblərinin tələbələri üçün nəzərdə tutulmuşdur. Bu kitabı oxuyan tələbələr Azərbaycan uşaq ədəbiyyatı, onun inkişaf tarixi haqqında dolğun, əhatəli təsəvvürə malik olmuşlar. Təsadüfi deyil ki, Azərbaycan uşaq ədəbiyyatının tədrisində mühüm rol oynayan bu kitab 2007, 2009, 2011 və 2012-ci

illərdə nəşr olunub tələbələrin, gələcəyin ibtidai sinif müəllimlərinin istifadəsinə verilmişdir. İldən ilə bu dəyərli vəsaitini zənginləşdirən müəllif Azərbaycan və dünya uşaq ədəbiyyatı haqqında iki sanballı kitab çap etdirmişdir. Azərbaycan Respublikası Təhsil nazirinin əmrinə əsasən çap olunan "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitlərinin ən əsas məziyyətlərindən biri ondan ibarətdir ki, müəllif təkcə görkəmli uşaq yazıçılarının həyat və yaradıcılığı haqqında oçerklər yazmaqla kifayətlənməmiş, kitaba onların əsərlərindən seçmə nümunələr də daxil etmişdir ki, bu da tələbələrin işini əhəmiyyətli dərəcədə azaltmışdır. Bu iki kitabı oxuyan hər bir kəsin dünya və Azərbaycan uşaq ədəbiyyatı haqqında dolğun təsvvür alması qətiyyən şübhə doğurmur. Müəlllifin uşaq oxusu üçün xüsusi əhəmiyyət kəsb edən folklor nümunələrindən söhbət açması, folklorun mahiyyətini, uşaqlarda milli ruhun formalaşmasında onun əvəzsiz rolunu elmi şəkildə dəyərləndirə bilməsi kitabın digər uğuru sayıla bilər. Bu kitabda həm klassiklərimizin yaradıcılığından, həm XIX, həm XX əsr uşaq ədəbiyyatından söhbət açması müasir uşaq ədəbiyyatının hansı ənənələr zəminində formalaşmasını öyrənmək baxımından maraq doğurur. Müəllif Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Sultan Məcid Qəni-

zadə, Rəşid bəy Əfəndizadə kimi görkəmli maarif-pərvərlərin Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında mühüm rol oynadıqlarını vurğuladıqdan sonra Azərbaycan sovet uşaq ədəbiyyatının Abdulla Şaiq, Mir Cəlal, Mirmehdi Seyidzadə, Əli Vəliyev, Səməd Vurğun, Mirvarid Dilbazi, Əhməd Cəmil, Mikayıl Rzaquluzadə, Rəsul Rza, Əyyub Abbasov, Zeynal Cabbarzadə, Xanımana Əlibəyli, Teymur Elçin, Tofiq Mütəllibov, İlyas Tapdıq, Məstan Günər, Hikmət Ziya, Tofiq Mahmud, Fikrət Sadıq, Nəriman Süleymanov, Əzizə Əhmədova və başqa bu kimi görkəmli nümayəndələrinin hər birinin həyat və yaradıcılığı haqqında zəngin informasiya tutumlu məlumatlar verir, onların yaradıcılıq nümunələrini bədii təhlil süzgəcindən keçirir, bu yazıçıların əsərlərinin məziyyt və nöqsanları haqqında mülahizələrini söyləyir. Təhlillər ədəbi faktlara istinadən aparıldığından inandırıcı təsir bağışlayır.

Müəllifin müstəqillik illərində yaranan Azərbaycan uşaq ədəbiyyatı, onun görkəmli nümayəndələrinin yaradıcılıq nümunələri haqqında fikir və mülahizələri də maraq doğurur.

Füzuli müəllimin “Dünya uşaq ədəbiyyatı” kitabının coğrafi əhatə dairəsi çox genişdir. Burada rus, italyan, alman, fransız, ingilis, Skandinaviya ölkələri, ABŞ və türk ədəbiyyatının görkəmli nüma-

yəndələri haqqında geniş məlumat verilir. Görkəmli dünya uşaq yazıçılarının əsərlərindən verilən nümunələr nəzəri mülahizələri daha da dolğunlaşdırmaq missiyasını yerinə yetirir. Füzuli müəllimin elmi arqumentləri, fikir və mülahizələri inandırıcı təsir bağışlayır. Ona görə ki, o, tədqiq etdiyi ədəbi materialı həm mükəmməl bilir, həm də uşaq ədəbiyyatına daim məhəbbət gözü ilə baxmağı bacarır.

Tez-tez mətbuatda uşaq ədəbiyyatı, tərcümə problemləri, maraqlı elmi-publisistik məqalələri ilə çıxış edən Füzuli Əsgərli öz əməyinin bəhrəsini dadan ziyalılarımızdandır. O, "Qızıl qələm" mükafatı laureatıdır. Təsadüfi deyil ki, yorulmaq bilmədən elmi-pedaqoji fəaliyyətlə məşğul olan Füzuli müəllimin əməyinə həmişə yüksək dəyər verilmişdir. Onun "İlin müəllimi", "İlin nüfuzlu ziyalısı" fəxri adlarına layiq görülməsi də təsadüfi səciyyə daşımır. Füzuli müəllim daha yüksək mükafatlara layiqdir.

Ömrünün yetmişinci baharını arxada qoyan Füzuli Əsgərli yenə gənclik eşqiylə yazıb-yaradır, tələbələrə uşaq ədəbiyyatının mahiyyətini, məqsəd və vəzifələrini izah etməkdən yorulmur. Müasir Azərbaycan uşaq ədəbiyyatı isə həmişə onun diqqət mərkəzindədir. Bu şərəfli ömür yolunda Füzuli Əsgərliyə can sağlığı və yeni-yeni uğurlar arzulayırıq.

"Azərbaycan müəllimi"qəzeti, 2015, 25 aprel

NƏBİ ƏSGƏROV,
filologiya üzrə elmlər
doktoru, professor

Yaddaşlarda qalan ziyalı ömrü

Keçən əsrin 70-ci illərində Azərbaycan Dövlət Pedaqoyi İnstitutunun filologiya fakültəsi Ketsxoveli deyilən bir küçədə yerləşirdi. Dörd mərtəbəli bu binada yalnız filologiya fakültəsinin tələbələri təhsil alırdı. Demək olar ki, tələbələrin hamısı bir-birini tanıyırdı. Əsasən də oğlan tələbələr. Ona görə ki, elə o zaman da filologiya fakültəsində oğlanlar azlıq təşkil edirdi. 1975-ci ildə birinci kursda təhsil alırdım. O vaxt dekan, dekanlığın nümayəndələri auditoriyalara gələr, xüsusən də birinci kurs tələbələrini müxtəlif dərnəklərə yazılmağa həvəsləndirərdilər. Dekanlığın nümayəndələri arasında bir cavan oğlan diqqətimi cəlb elədi. O, tələbələrə dram dərnəyinə yazılmağı tövsiyə edirdi. Sonradan öyrəndim ki, bu səliqəli geyimli, ziyalı libaslı gənc Füzuli Əsgərlidir. Düzdür, o vaxt mən dram dərnəyinə üzv yazılmadım, ancaq tələbə yoldaşlarımdan bir çoxu bu dərnəyin – "Məşəl" tələbə dram dərnəyinin üzvü oldu. Onlar yataqxanada hərdən dərnəyin rəhbəri Fü-

zuli müəllim haqqında ağızdolusu danışır, onun tamaşaya qoyduğu əsərləri təhlil edirdilər.

Füzuli müəllimlə mənim yaxınlığım 1984-cü ildən sonra yarandı. Mən onda institutun pedaqoji təcrübə rəhbəri vəzifəsində çalışırdım. Füzüli müəllim tez-tez tədris şöbəsinə gələr, şöbədə fəaliyyət göstərən əməkdaşlarla söhbət eləyərdi. Öyrəndim ki, Füzuli müəllim bir müddət əvvəl tədris şöbəsində fəaliyyət göstərib. Ona görə də o, tədrisin təşkilini, tədris planlarının qurulmasını mükəmməl bilir. Mən deyərdim ki, bu gün də Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris işlərinin incəliklərini Füzuli müəllim qədər bilən alim-pedaqoq çox azdır. Keçən əsrin 80-ci illərindən başlayaraq bu günə kimi təhsildə gedən proseslər, dəyişikliklər, Pedaqoji Universitetin bir qocaman ali məktəbi olaraq özündə gedən tədris yenilikləri Füzulu Əsgərli tərəfindən sistemə salınıb, yenidən işlənib. Füzuli müəllimin indi də əsas işlərindən biri bakalavriat və magistratura pillələri üçün tədris planları hazlrlamaq və ya təkmilləşdirməkdir. Bir sözlə, Füzuli müəllim həm də çox yaxşı təhsil bilicisidir.

1991-1997-ci illərdə Füzuli Əsgərli ilə birbirimizi daha yaxından tanıdıq. Bu illərdə o, filologiya fakültəsində dekan müavini vəzifəsində çalışırdı. Tədrisi dərindən bilməsi bu vəzifədə onun kömə-

yinə daha çox çatırdı. Müəllimlərin dərs cədvəlini peşəkarcasına hazırlayar, tədrisin keyfiyyətinə ciddi fikir verərdi. Dərsə yubanmanın qarşısını öz mədəni davranışı ilə alardı. Bəzən zəngin səsi eşidilmir, müəllimlər dərsə bir-iki dəqiqə gecikirdi. Füzuli müəllimi dəhlizin o biri başında görən kimi bilirdik ki, artıq zəng vurulub, dərsə girmək vaxtıdır. Əyani şöbəyə rəhbərlik edən professor Qəzənfər Kazımov bütün işləri Füzuli müəllimə həvalə edir, özü isə filologiya fakültəsində keçirləcək tədbirlərə (yazıçı, şairlərlə görüş, alim və ziyalıarın yubileylərinə hazırlıq və sair) hazırlaşırdı. Füzuli müəllim dekan müavini işləyən zaman həmçinin qiyabi şöbəninin də qeyri-rəsmi dekan müavini idi. Qiyabi şöbəyə professor Xeyrulla Məmmədov rəhbərlik edirdi. Xeyrulla müəllimin bütün tədris işlərini də təmannasız Füzuli müəllim icra edirdi. Ona görə ki, hamı onun bu sahədəki bacarıq və istedadına inanırdı.

Füzuli müəllim ölkəmizdə uşaq ədəbiyyatı mütəxəssisi kimi tanınan alimlərdəndir. Onun "Rus uşaq nəsrunin Azərbaycan dilinə tərcüməsi problemləri (1950-1980-ci illər)" mövzusunda müdafiə etdiyi dissertasiya mövzusu sonrakı yaradıcılıq fəaliyyətinə yeni stimul verdi. Müəllifin "Sənətkarın uşaq dünyası" (2003), ali və orta ixtisas məktəbləri üçün "Uşaq ədəbiyyatı" (2007, 2009, 2011, 2012)

dərsliyi, “Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı” (2009), “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları” (2010), “Azərbaycan uşaq ədəbiyyatı” və “Dünya uşaq ədəbiyyatı” (2012) və sair monoqrafiya, və dərs vəsaitləri öz elmiliyi və pedaqoji-psixoloji yetkinliyi ilə fərqlənir.

Füzuli müəllimin tərcümə sahəsindəki uğurları da az deyildir. Onun dünya ədəbiyyatı klassiklərindən və müasir dövr yazıçılarından etdiyi bədii tərcümələr öz peşəkarlığı ilə diqqəti cəlb edir. Onun bədii tərcümə prinsipləri” (2009) adlı əsəri tərcüməçilik fəaliyyətinin nəzəri, praktik ifadəsidir.

Füzuli müəllim ziyalı səviyyəsinə çatmış əsl bir Azərbaycan kişisidir. Onun oturuşunda, duruşunda, geyimində, insanlara yanaşmasında, söhbətlərində həmişə ziyalılıq görünür. O, bir mədəniyyət mücəssəməsidir. Artıq-əskik söhbətə şərait yaratmaz, qeri-mədəni ifadələr işlətməz, kiminlə oturduğunu, əyləndiyini dərindən duyan və o səpkidə fəaliyyətini quran ziyalı-alimdir. Onun ziyalılığı yaşadığı bina sakinləri tərəfindən də qəbul edilib. Uzin müddət yaşadığı kooperativ binanın idarə heyətini sədri olub. Bütün qonşularının hörmətini qazanıb. İmkanı daxilində hamıya köməklik göstərib.

Eşitdim ki, bu günlərdə Füzuli müəllimin 70 yaşı tamam olur, inanmadım. Axı, Füzuli müəl-

limə bu yaşı vermək olmaz. Mən Füzuli müəllimi 30 il bundan qabaq necə görmüşəmsə, nəzərimdə indi də o formada, o biçimdə qalıb. Ancaq günlər keçir, aylar ötür, illər dolanır, bir də görürsən ki, on illəri arxada qoymusan. Füzuli müəllim bu illəri kişi kimi yaşamış, hansı sahədə fəaliyyət göstəribsə, işinin peşəkarı səviyyəsinə qalxıb.

Füzuli müəllimi, "əmioğlumu" bu doğum günü münasibətilə ürəkdən təbrik edir, onun ailəsinə gözünüz aydın olsun deyir, sonrakı ömür pillələrini ağrısız, acısız keçirməyini o Uca Tanrıdan diləyirəm.

17. 03. 2015

(axır çərşənbə).

İBRAHİM BAYRAMOV,
filologiya üzrə elmlər doktoru, professor

Sənətinin vurğunu

Füzuli müəllimlə eyni fakültədə işləyirəm – Azərbaycan Dövlət Pedaqoji Universitetnun filologiya fakültəsində. Onu yaxından 1995-ci ildən tanıyıram. İlk baxışda qaraqabaq, adamayovuşmaz, təkəbbürlü insan təsiri bağışlayır. Adama elə gəlir ki, heç kimi bəyənmir. Amma onunla həmsöhbət olanda, istər tədbirlə bağlı, istərsə də elmi söhbət edəndən sonra fikrimdən daşındım. Həlim xasiyyətli, geniş dünyagörüşlü hərtərəfli eridusiyalı bir ziyalını tanıyırsan və rahat nəfəs alırsan, yaxşı ki, belə bir elm adamını tapmısan.

Füzuli müəllim tapşırılan işin öhdəsindən layiqincə gəlir. O, tədrisə yaxından bələddir. Filologiya fakültəsində dekan müavini işlədiyi illərdə bunu yaxından müşahidə etmişəm. Dərslərin – mühazirə və seminarların düzgün təşkilində, tənzimlənməsində onun xüsusi rolu və əməyi vardı: özü də olduqca çox. İlk növbədə həm professor-müəllimlərin, həm də tələbələrin tədris prosesində keçirilən tədbirlərin

məzmunlu olmasını təmin edərdi. Bu, dərs cədvəllərinin tərtibindən başlayırıdı. Dərs cədvəlini pedaqoji cəhətdən elə tərtib edərdi ki, tədris prosesində anlaşılmazlıq yaranmazdı. Mən onun həm də tələbələrə xüsusi qayğı ilə yanaşdığını və baş verəcək subyektiv amillərin qarşısını həmin anda alardı.

Füzuli müəllim peşəsini sevən, ona hörmət edən bir ziyalıdır. Dekan müavini işlədiyi dövrdə bir saat belə dərsinin boş keçdiyini müşahidə etmədim. Bu ənənəsinə bu gün də əməl edir. İstər bakalavlara, istərsə də magistrlərə eyni həvəslə, eyni sövqlə mühazirələr oxuyur, onları həyata düzgün istiqamətləndirir. Özü bir müəllim kimi dərs dediyi tələbələrinə nümunə olur.

Füzuli müəllim ali məktəbin tədris prosesini yaxşı bilənlərdəndir. Tədrisin bir çox məsələlərinin tənzinlənməsində onun bacarığından həmişə istifadə edilir. Və o heç bir vaxt öz bacarığını əsirgəmir. Tədrislə bağlı əldə etdiyi təcrübələri həmkarlarına öyrətməkdə xəsislik etməyib. Bu da onun geniş ürəyə malik olduğunu göstərir.

Füzuli Əsgərli imzası elmi ictimaiyyətə yaxından tanışdır və həmkarları bu imzaya bir qayda olaraq böyük hörmətlə yanaşırlar. Bu da onun qələmindən çıxan hər bir məhsulun – əsərin təsadüfən yazılmadığı ilə bağlıdır.

Füzuli müəllim Azərbaycan uşaq ədəbiyyatının, həm də dünya uşaq ədəbiyyatını sistemli şəkildə araşdıran alimlərimizdəndir. Onun ali və orta ixtisas məktəbləri üçün "Uşaq ədəbiyyatı" (2007, 2009, 2011, 2012-ci illərdə nəşr olunub) dərsliyi, "Sənətkarın uşaq dünyası" (2003), "Azərbaycan uşaq ədəbiyyatının mərhələləri inkişafı" (2009), "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" (2010) monoqrafiyaları, "Azərbaycan uşaq ədəbiyyatı", "Dünya uşaq ədəbiyyatı"(2012) dərs vəsaitləri və sair əsərləri araşdırıcılar tərəfindən rəğbətlə qarşılanmış və təqdir edilmişdir.

Füzuli müəllim dost qədri bilən ziyalıladandır. O, ürək açıqlığı ilə uzun müddət bir yerdə işlədiyi gözəl şairimiz, həlim xüsusiyyətli, elm və ürfan sahibi, yüksək insani keyfiyyətlərə malik olan, filologiya üzrə elmlər doktoru, professor Zahid Xəlillə bağlı dörd monoqrafiya, "Zahid Xəlilin sənət dünyası" və "70 ilin işığında" adlı məqalələr toplusunu ustalıqla tərtib etmişdir.

Füzuli müəllim yaşının müdrik cağına çatıb. Ömrünün yetmişinci baharını yaşayır. Bu gün də yaradıcıılıqla məşğul olur. Bədii tərcümənin nəzəri problemləri ilə bağlı ciddi tədqiqat işləri aparır. Bu baxımdan "Bədii tərcümə prinsipləri" əsəri də elmi əhəmiyyət kəsb edir və lazımlı əsərlərdən biridir.

Dünya xalqları ədəbiyyatının bir sıra ədəbi nümunələrini Azərbaycan dilinə tərcümə etməklə oxucuları sevindirir.

Füzuli müəllimə can sağlığı, bir həmkar kimi yaradıcılıq uğurları arzulayıram. Obrazlı ifadə ilə desək, qələmi iti olsun deyirəm.

20 aprel 2015-ci il.

VAQİF ƏLİYEV,
Həmkarlar İttifaqı Komitəsinin sədri,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Xeyirxah insan, səmimi dost, gözəl pedaqoq-alim

Bu bir həyati gerçəklikdir ki, istedadlı və qurub-yaradan insanlar sözün həqiqi mənasında hər bir xalqın qürur mənbəyi, güvənc yeri, örnəyidir. Azərbaycan xalqının belə övladlarından biri də xeyirxah insan, səmimi dost, istedadlı pedaqoq-alim, dəyərli ziyalı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının dosenti Füzuli Feyruz oğlu Əsgərlidir.

Mübaliğəsiz deyə bilərəm ki, istedadlı və tanınmış alim, tənqidçi, tərcüməçi və təcrübəli pedaqoq Füzuli Əsgərli mənalı və ibrətamiz bir həyat yolu keçmişdir. Hələ gənc yaşlarından öz dərin istedadı, çalışqanlığı, əməksevərliyi və elmə olan böyük marağı sayəsində elmin yollarında pillə-pillə yüksəlmiş, və xalqımızın tanınmış bir alim-ziyalısına çevrilmişdir.

Qeyd etmək istəyirəm ki, yüksək intellekt səviyyəsinə, zəngin erudisiyaya və geniş dünyagörü-

şünə malik olan təcrübəli pedaqoq-alim Füzuli Əsgərli 1973-cü ildən ADPU-da çalışır. O, elmi-publisistik, teatr və bədii tərcümə ilə bağlı səmərəli fəaliyyət göstərmişdir. Maraqlı tərcümələr, qəzet və jurnallar üçün yüksək səviyyəli çoxsaylı publisistik və elmi məqalələrin müəllifidir. Onun radio və televiziya, eləcə də mətbuat vasitəsilə etdiyi çıxışlar soydaşlarımız tərəfindən yüksək qiymətləndirilir. 1994-cü ildə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının dosenti seçilən Füzuli Əsgərli 1991-1997-ci illərdə filologiya fakültəsində dekan müavini vəzifəsində çalışmışdır. O, dekan müavini işlədiyi illərdə fakültədə tədris, elmi-tədqiqat və tərbiyə işlərinin lazımi səviyyadə təşkil edilməsi, həmçinin, daxili nizam-intizam qaydalarının qorunması üçün əzmlə çalışmışdır.

Dosent Füzuli Əsgərli uşaq ədəbiyyatına aid "Sənətkarın uşaq dünyası", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Ömrün sözü, sözün ömrü", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Bədii tərcümə prinsipləri" və sair mükəmməl monoqrafiyaların, ali məktəb üçün "Uşaq ədəbiyyatı" dərsliyinin, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitlərinin, "Ədəbi düşüncələr", "Zahid Xəlilin sənət dünyası", "Problemlər, düşüncələr",

“70 ilin işığında” məqalələr toplusunun müəllifi kimi tanınır.

Dosent Füzuli Əsgərli təcrübəli, peşəkar və məhsuldar tərcüməçilərdən biridir. O, bir sıra dünya xalqlarının dəyərli ədəbiyyat nümunələrini dilimizə uğurla tərcümə edərək oxuculara təqdim etmişdir. Füzuli Əsgərlinin elmi-pedaqoji fəaliyyəti, publisistik yazıları və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamışdır. 2009-cu ildə “Qızıl qələm” media mükafatına, 2010-cu ildə isə “İlin nüfuzlu ziyalısı” fəxri adına layiq görülmüşdür. Bunlarla yanaşı, ədəbiyyatşünas alim Füzuli Əsgərli ADPU_da 2010 və 2013-cü illərdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin tədris prosesinə daha fəal cəlb edilməsi, tələbələrin dərslik və dərs vəsaiti ilə təminatı, eləcə də yeni təlim texnologiyalarının tətbiqi sahəsində qazandığı nailiyyətlərə görə humanitar və pedaqoji elmlər üzrə “İlin müəllimi” nominasiyasının qalibi olmuşdur. Digər tərəfdən, o özünəməxsus yaradıcılıq dəst-xətti ilə fərqlənən, zamanın nəbzini həssaslıqla tutan, cəmiyyətin sürətlə dəyişən tələblərini yaxşı anlayan və filoloji elmin gələcək inkişaf perspektivlərini aydın görən ziyalılarımızdan biridir.

Dosent Füzuli Əsgərli daim cəmiyyətdə öz yüksək mənəvi-əxlaqi keyfiyyətləri, zəngin daxili aləmi, şəxsi nümunəsi, nəcibliyi, alicənablığı, mahir

pedaqoqluğu və digər müsbət insani xüsusiyyətlərilə seçilir. Füzuli müəllimi tanıyanlar onu yalnız bacarıqlı pedaqoq-alim, səmimi dost, mehriban iş yoldaşı kimi deyil, həm də mehribanşılığı, ağıllı məsləhətləri, xeyirxah tövsiyələri ilə çoxlarından fərqlənən bir insan kimi tanıyırlar.

"Yaxşı insan" və "Yaxşı alim" anlayışlarını öz şəxsində qoşa qanad kimi birləşdirən Füzuli müəllimi qələm dostları, tanışları və iş yoldaşları həm də gözəl ailə başçısı, nümunəvi övladlar böyütmüş bir ata kimi tanıyırlar.

Mart ayının 18-də istedadlı və tanınmış pedaqoq-alim, dəyərli ziyalı, xeyirxah insan, səmimi dost Füzuli Əsgərlinin 70 yaşı tamam olur. Mən də ömrünün müdrik dövrünü yaşayan Füzuli müəllimi bu əlamətdar yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, elmi-pedaqoji fəaliyyətində və bədii yaradıcılığında yeni-yeni uğurlar arzulayıram.

17 mart 2015-ci il.

MƏLAHƏT BABAYEVA,
filologiya üzrə fəlsəfə doktoru

Füzüli Əsgərli bədii tərcümə nəzəriyyəçisi və ustadı kimi

XX əsrin ikinci yarısı, XXI əsrin əvvəllərində Azərbaycanın mədəniyyət və ictimai fikir tarixində özünəməxsus yeri olan şəxsiyyətlərdən biri də tanınmış tədqiqatçı-alim, tənqidçi, publisist, sənətşünas, pedaqoq və tərcüməçi Füzuli Əsgərlidir.

Füzuli Əsgərlinin Azərbaycan ədəbiyyatında, mədəniyyətində ən böyük xidməti müxtəlif sahələri əhatə etdiyi monoqrafiyaları, tədqiqat əsərləri, bədii tərcümələridir. Dəyərli alimizin bütün məqalə və monoqrafiyaları ölkə ictimaiyyətinin, alim və ziyalılarımızın, uşaq ədəbiyyatı tədqiqatçılarının, sənətşünas alimlərin, tərcümə mütəxəssislərinin böyük marağına və diqqətinə səbəb olmuşdur.

Füzuli müəllim ədəbiyyatşünaslığın, ədəbi tənqidin müxtəlif problemlərinin tədqiqi ilə ardıcıl və səmərəli məşğul olan çox istedadlı alimlərimizdəndir. O, ədəbiyyatımızın aktuallıq kəsb edən mühüm nəzəri-metodoloji problemlərinin öyrənilməsinə

həsr olunmuş bir çox dəyərli monoqrafiya və elmi məqalələrin müəllifidir. Zəngin Azərbaycan ədəbiyyatına, onun ayrı-ayrı nəzəri-estetik məsələlərinə, müxtəlif ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığına, yaradıcılıq üslublarına, Azərbaycan uşaq ədəbiyyatına və sair problemlərə həsr etdiyi dəyərli araşdırmaları ilə yanaşı dünya ədəbiyyatına, onun ayrı-ayrı görkəmli nümayəndələrinin yaradıcılığının tərcümələrinə dair qələmindən çıxmış çoxsaylı elmi əsərləri, dərslik, dərs vəsaiti və məqalələri də Füzuli Əsgərlinin yaradıcılıq diopazonundan, elmi maraq dairəsindən və eredusiyasindan xəbər verir.

Füzuli Əsgərli özünün "Bədii tərcümə prinsipləri" adlı kitabdında müxtəlif mütərcimlər tərəfindən dilimizə tərcümə edilmiş dünya uşaq nəsri geniş tədqiqata cəlb edilmiş, nəzəri və praktik əhəmiyyəti üzə çıxarılmışdır. Nəzəri-analitik təhlil prosesində ortaya çıxan tərcümə uğurları, eləcə də nöqsan və təhriflər, müxtəlif dərəcəli əyintilər elmi-nəzəri prinsiplər əsasında araşdırılmış, adekvat tərcümənin məlum yaradıcılıq yolu ilə düzgün səmtə istiqamətləndirilmişdir. Görkəmli alimimizin bu kitabı yazmaqda əsas məqsəqi müxtəlif ədəbi nəsillərə, istedadlara məxsus olan tərcüməçilərin bu sahədəki xidmətlərini elmi-nəzəri və praktik əsasda üzə çıxarmaq, yol verilmiş qüsur və təhrifləri müəyyən et-

məklə bu sahənin inkişafına müəyyən dərəcədə kömək göstərməkdir.

İlk öncə qeyd etmək lazımdır ki, “Bədii tərcümə prinsipləri” adlı monoqrafik tədqiqat çox mühüm bir problemi yeni baxış bucağı altında və çağdaş düşüncə müstəvisində incələmək iqtidarında olan fədakar bir elm adamının qələminin məhsuludur.

Monoqrafiya sanki birnəfəsə yazılıb. Burada fikir qırıqlığına, dolaşıq elmi mülahizələrə rast gəlinmir. Monoqrafiya giriş, beş fəsil, nəticə və istifadə olunan ədəbiyyatın biblioqrafiyasından ibarətdir.

Monoqrafiyada dünya və Azərbaycan uşaq ədəbiyyatının qarşılıqlı ədəbi əlaqələri geniş şərh edilmiş, bu sahəyə həsr olunmuş klassik və müasir elmi-nəzəri fikirlərə münasibət bildirilmiş, bədii nümunələr təlqiqata cəlb edilmişdir. Bununla yanaşı, Azərbaycan dilində canlandırılmış dünya uşaq nəsrinin tərcümə prinsipləri araşdırılmış, tərcüməçilərin tarixi xidmətləri nəzəri və praktik əsasda üzə çıxarılmış, yol verilmiş təhriflər və nöqsanlar müəyyən edilmişdir. Həmçinin, tərcümədə orijinala məxsus spesifik cəhətlər, obrazların mənəvi-psixoloji aləminin təcəssümü, bədii üslub sənətkarlığı, milli xüsusiyyətlərin saxlanılması, atalar sözü, məsəllər və idiomların dürüst canlandırılmasına düzgün prinsiplər əsasında münasibət bildirilmişdir.

Tədqiqatın ilk fəsli "Qarşılıqlı ədəbi əlaqələr və tərcümə tarixindən" adlanır. Burada tədqiqatçı, Azərbaycan ziyalılarının Avropadan bəhrələnmiş rus ədəbi mühitilə daha yaxından tanış olaraq ictimai-siyasi fikrin mütərəqqi meyllərini Azərbaycanda geniş yaymağa, bununla yanaşı, milli ədəbiyyatımızı yeni janrlarla zənginləşdirmələrindən bəhs etmişdir. Fəslin sonunda isə Füzuli Əsgərli haqlı olaraq qeyd edir ki: "Qarşılıqlı ədəbi əlaqələr zəminində yaranan hər bir əsər, o cümlədən, uşaq əsərləri tarixin bizə bəxş etdiyi ən qiymətli mirasdır və bu sahənin inkişafında düzgün istiqaməti qoruyub saxlamaq məsuliyyəti ədəbi ictimaiyyətin üzərinə düşür".

Monoqrafiyanın ikinci fəsli isə "Tərcümə sənətkarlığı məsələləri. Obrazların mənəvi-psixoloji aləminin təcəssümü" adlanır. Burada alim, bədii ədəbiyyatın ən başlıca məziyyətlərindən birinin, obrazların mənəvi-psixoloji aləminə nüfuz etmək, onun daxili xarakterik xüsusiyyətlərini açmaqdan ibarət olduğunu qeyd edir. Doğrudan da, yaradıcılıq təfəkkürü baxımından yazıçının əməyi nə qədər yüksəkdirsə, məzmun və formanı iki dildə düşünmək cəhətdən tərcüməçinin zəhməti daha çoxdur.

Kitabın III fəsli "Bədii tərcümədə üslub orijinallığı" adlanır. Burada da araşdırmaçı bədii tərcümə prosesində obrazların real canlandırılması üçün

əsasən üç şərtə əməl etmək zəruri olduğunu vurğulayır: 1.Obrazın zahiri portretini yaratmaq; 2.Obrazın fəaliyyət dairəsinin ictimai mühitlə əlaqəli təsviri; 3.Obrazın danışıq dilinin (nitqinin) canlandırılması.

Dördüncü fəsil "Bədii tərcümədə milli xüsusiyyətlərin saxlanılması" kimi səciyyələndirilmişdir. Füzuli Əsgərlinin dediyi kimi, "dünya bədii uşaq nəsrinin dilimizə tərcüməsi prosesində milli koloritin saxlanılması əsasən üç kateqoriyada özünü göstərə bilir: 1.Milli həyat tərzi ilə bağlı olan bayramlar, dini və matəm mərasimləri, toponimlər, dövrü əks etdirən müxtəlif realiyalar; 2.Milli kolorit komponentli, spesifik dil strukturlu atalar sözləri, məsəllər, idiomlar, vulqar sözlər, dialektik ifadələr; 3.Əsas kateqoriyalardan biri, bu və ya digər xalqa məxsus xarakter və psixologiyanı əks etdirən amillər, xalqın təfəkkür tərzi, fəaliyyət dairəsi". Bundan sonra tədqiqatçı-alim tərcüməçilərə öz işlərinin peşəkarı olmaq üçün bir sıra qaydalara əməl olunmasının vacib şərt olduğunu da vurğulamışdır: 1.Bəzən orijinal süni şəkildə "milliləşdirilir", lakin milli kolorit isə kölgədə qalır; 2.Milli xüsusiyyətləri nizama salan realiyalar tərcümədə öz orijinallığını saxlaya bilmir; 3.Obraz və ya personaj adlarının tərcüməsi orijinalın milli koloritinə xələl gətirir; 4.Məişət, adət-ənən və milli-sosial psixologiyanın real tərzdə dərk edilməsi milli kolo-

riti qüvvətləndirir, əksinə olanda isə zəiflədir; 5.Bəzən tərcümədə orijinalın milli frazeoloji şəkli əks etdirilmir və ya ona uyğun gələn ekvivalnt axtarılmır və sair.

Sonuncu fəsil isə "Atalar sözü, məsəllər və idiomlardan istifadə üsulları" deyə adlandırılmışdır. Burada isə Füzuli Əsgərli forma və məzmuna görə başqa dillərdə ekvivalenti olan atalar sözü və məsəlləri; məzmunca uyğun gələn, lakin formaca fərqlənən atalar sözləri; nə məzmunca, nə də formaca uyğun gələn atalar sözü və məsəlləri konkret misallarla tərcüməyə necə cəlb olunmasından bəhs etmişdir. Alim burada da tərcüməçilərə ən çox yol verilmiş nöqsanları göstərərək, onları təkrarlamamağa çağırmışdır: 1.Bəzi tərcüməçilər orijinaldakı atalar sözü, məsəllər və idiomların ekvivalentini dürüst verə bilməmişlər; 2.Bədii təsvir və ifadə vasitələrinə düzgün yanaşılmadığına görə fikir və ya məna təhrifləri özünü göstərmişdir; 3.İdiomlar ya adi sözlərlə əvəz edilmiş, bəzən isə hərfi tərcüməyə məruz qalmışdır.

Sonda tədqiqatçı gələcəkdə bədii uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsində aşağıdakı prinsipləri əsas götürməyi zəruri hesab edirək aşağıdakı nəticələrə gəlmişdir: 1.Bədii tərcümə orijinal əsər səviyyəsində anlaşıqlı və oxunaqlı olmalıdır; 2.Bunun üçün orijinal müəllifinin fərdi bədii üslubuna xə-

ləl gəlməməlidir; 3.Tərcümədə hər bir xalqın milli koloriti olduğu kimi saxlamanılmalıdır; 4.Obrazların mənəvi-psixoloji aləminə və xarakterik xüsusiyyətlərinə dərindən nüfuz edilməlidir; 5.Tərcümədə bədii təsvir və ifadə vasitələrinin dürüstlüyünə diqqətlə yanaşılmalıdır; 6.Orijinalın əsas ideyasının saxlanılması əsas məziyyətlərdən birı olmalıdır; 7.Tərcümədə lüzumsuz əlavələrə (qondarmalara) və ixtisarlara yol verilməməlidir və sair.

Görkəmli alimimiz bu monoqrafiyada yalnız bədii tərcümənin prinsiplərini təsnifata ayırmır, bədii ədəbiyyat, uşaq ədəbiyyatı və sair haqqında bir sıra qanunlar və təriflər də söyləmiş olur. Özü də alim bu tərifləri tərif xatirinə yazmır. İşin gedişatında o və ya bu mətləbi izah edərkən öz düşncəsini sərgiləyir. Lakin bu fikirlər, lakonik, yığcam və eyni zamanda o qədər də elmi tutumludurlar ki, biz onu tərif adlandırsaq zənnimizdə əsla yanılmarıq. Misal üçün tədqiqatçının bədii ədəbiyyat haqqında söylədiklərinə nəzər yetirək: “Bədii əsər mövcud həyatın, ictimai varlığın inikası olmaqla yanaşı, həm də obrazlar dünyasıdır. Real insan həyatı bu dünyada öz əksini tapır, mövcud həyatın cizgilərini və psixoloji detallarını dərindən araşdıran, onu bədii süzgəcdən keçirən yazıçı həmin varlığı özünəməxsus boyalarla canlandırır”.

Onu da qeyd edim ki, Füzuli Əsgərlinin zəngin irsi gələcəkdə tədqiqatçılara araşdırmaq üçün çoxlu aktual mövzular yaradır:

1. Füzuli Əsgərli Azərbaycan uşaq ədəbiyyatının tədqiqatçısı kimi
2. Füzuli Əsgərlinin publisistikası
3. Füzuli Əsgərli bədii tərcümə ustası kimi
4. Füzuli Əsgərlinin yaradıcılıq yolu
5. Füzuli Əsgərlinin tənqidi görüşləri
6. Füzuli Əsgərlinin sənətşünaslığa dair tənqidi görüşləri və sair.

Sonda fikrimizi Çingiz Aytmatovun "Yaxşı kitab müəllifin bəşər nəslinə hədiyyəsidir" sözləri ilə yekunlaşdıraraq öz növbəmizdə hörmətli alimi 70 illik yubileyi münasibətilə bir daha təbrik edir, ona yeni-yeni nailiyyətlər və möhkəm can sağlığı arzulayırıq.

16 mart 2015-ci il.

ƏLƏMDAR QULUZADƏ,
Azərbaycan radiosu "Uşaq verlişləri redaksiyası"nın baş redaktoru, şair

Füzuli səltənətinin əsgəri

Əlimin altında olan kitabları cəmləyib vərəqlədikcə, dəfələrlə oxuduğum ayrı-ayrı məqalələrə ötəri nəzər saldıqca ağlıma bir fikir gəldi: kaş, şəxsiyyətinə və qələminə böyük hörmət bəslədiyim bu söz adamı ya şair olaydı, ya da yazıçı. Mən də onun kitabları barədə tutarlı söz deməkdə çətinlik çəkməyəydim. Yoxsa "Sənətkarın uşaq dünyası", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Bədii təhlil və ədəbi tənqid", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Zahid Xəlilin sənət dünyası", "Problimlər, düşüncələr", "Ömrün sözü, sözün ömrü", "Sehrli dünyanın memarı" və sair və ilaxır kitabları barədə azçox şeirə bələd olan şair nə deyəsidir ki? Tələsməyin, yaxamı kənara çəkmək fikrində deyiləm. Sadəcə olaraq, sizə sözün, sənətin əzəməti qarşısındakı məsuliyyəti dərk elədiyimi çatdırmaq istəyirəm... Bununla tənqidçi və ədəbiyyatşünas qardaşım Füzuli

Əsgərlinin işini, əməyini, zəhmətini kölgədə qoymaq barədə qətiyyən fikirləşmirəm. Eyni zamanda, öz borcuma hansı məsuliyyətlə yanaşmalı olduğumu etiraf etmək niyyətindəyəm.

Kim istəyər ki, ya kefi göynən gedəndə, ya da alt dodağı yer, üst dodağı göy süpürəndə sevincini bölməyə, dərdini yüngülləşdirməyə ürək dostu, mehriban və qayğıkeş qonşusu olmasın. Bu mənada mənimki gətirib. Allaha şükür, Füzuli müəllimlə paytaxtımızın eyni ünvanında – Cavanşir küçəsində qonşuluqda yaşayırıq. Bir-birimizin telefonunu da bilirik, o baş-bu başa addımladığımız yola da bələdik, Bakının cırhacırında sərin və noxudlu pivə verilən sakit kafeyə də. Belə görüşlərdəki söhbətimiz barədə qısaca söz açmaq da yerinə düşər – Füzuli müəllim ən çox yazıdan-pozudan danışır. Axı, Füzuli Əsgərli əsl sənət vurğunu, elm fədaisi, söz sərrafı, ədəbiyyatın ağır-yüngülünü qızıl tərəzisində çəkən bir az əliaçıq, bir az xəsis, bir az ərköyün, ən vacibi daha çox tələbkar alimdir. Onu quru gülüşünlə, yalançı səmimiyyətinlə, ögey doğmalığınla, soyuq istiqanlılığınla özünə inandıra bilərsən, lakin boğazdan yuxarı yazdığın hər hansı bədii yazı ilə çaşdıra bilməzsən. Çünki Füzuli müəllim üzə yox, sözə inanır.

Mən “tənqid” sözünü təhlil edəndə, yaxud hər hansı tənqidi məqalə oxuyanda, uzaqbaşı, onun

obyektiv və ya qeyri-obyektiv olduğu barədə düşünə bilirəm. Amma Füzuli Əsgərlinin "Azərbaycan nəsri və onun ədəbi tənqiddə yeri" adlı geniş araşdırmasında "dişsiz tənqidlərin özü də obyektiv ədəbi tənqidin haqlı qınağına tuş gəlməli idi" deyiminə, inamına inandım.

Yaradıcılığının bir hissəsini şair Zahid Xəlilin yaradıcılığına, əsərlərinin təhlilinə həsr edən ədəbiyyatşünas alimi başa düşmək qətiyyən çətin deyil. Axı, o, haqqında bəhs etdiyi müəllifin qələm məhsullarından əvvəl müəllifin özünə, onun şəxsiyyət və xarakterinə bələddir. Bu, Füzuli müəllimin işini asanlaşdırır, yoxsa məsuliyyətini artırır? – sualının ikinci tərəfinə üstünlük verirəm. Tanımadığın qələm sahibi barədə qanadlı, yaxud qanadsız cümlələr uydura bilərsən, yaxından tanıdığın, yaradıcılığına və şəxsiyyətinə bələd olduğun şair barədə süni və yalançı nəyisə quraşdırmaq mümkün deyil.

Hərdən Füzuli müəllimin həvəsinə, məsuliyyətinə, zəhmətinə qibtə edirəm. Bu qədər vaxtı, həvəsi haradan alır bu qələm sahibi, söz adamı? Yazılan kitablar barədə yazılan tənqidçi kitabı bilirsiniz nədən xəbər verir? Ondan soraq verir ki, bu mülk, bu səltənət, bu sənət sahibsiz, yiyəsiz deyil. Burada hər təsadüfi adam at oynada bilməz. Batman söz yarı-

şında, sənət meydanında qurşaq tutmaq dil pəhləvanının yox, söz xiridarının, sənət cəngavərinin işidir.

Bir də mənə elə gəlir ki, belə sənət adamları dadlı-duzlu söz bağçasını ötəri qurd-quşdan qoruyurlar, sözün varsa, buyur söz meydanına, sözün yoxdusa, bu bağın, bu bağçanın həndəvərinə yaxınlaşma, çəpərinə toxunma, bədii sözü hörmətdən, qiymətdən salma.

Füzuli müəllim Azərbaycanın ilk ali təhsil ocaqlarından birində – Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərir, sözün əsl mənasında, gənclərə dərs deyir, təlim verir. Onun özünə dərsi tədris edənlərlə də işləyir, elmə bağlanan tələbə yoldaşları ilə də və dərs dediyi üzağardan, baş ucaldan tələbələri ilə də. Bu xoşbəxtlik və bəxtəvərlikdir. Bütün bunları 70 yaşlı Füzuli müəllim məndən də yaxşı bilir. Sadəcə olaraq, mən yada salıram.

Qaldı Füzuli Əsgərlinin ad və soyadının ətrafında gediş etməyə: Füzuli babamız bizim söz Tanrımızdır, ondan sonra gələn söz adamları onun əsgərləridir. İstər şair olsunlar, istər yazıçı, istərsə də tənqidçi və ədəbiyyatşünas. Ona görə də, Füzuli Əsgərlinin 70 yaşı ərəfəsində yazdığım yazının adını "Füzuli səltənətinin əsgəri" qoydum. Adına etirazınız yoxdursa, yaşını məndən soruşmayın.

"525-ci qəzeti, 06 mart 2015-ci il.

QƏŞƏM İSABƏYLİ,
Beynəlxalq Andersen
Fəxri diplomçusu, yazıçı

Ədalət hissi və ya ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərli

"Şərq" sözü hər xəyalıma gələndə gözlərimin önündə, vücudu rəssamların təxəyyül və əl işləriylə bizə doğmalaşdırılan Dədə Qorqud simalı bir müdrik dayanır. Bu nurani varlıq ki, dilimizdə "Qoca Şərq" adıyla ucalıq qazanıb, çox dəyərlərin sahibi olsa da, təəssüf ki, onların çoxuna sahiblik eləməyib. Ruhu Allahdan gələn Tanrı vergisi – ilhamla əkiz bildiyimiz belə yiyəsiz dəyərlərdən biri də, mənim aləmimdə söz fəhləliyi anlamını verən yazıçılıqdı. Avropadan fərqli olaraq bizdə, "Necə yəni Allahın kəlamını satıb, pul qazanasan?!" küfriylə yazıçılığl heç vədə peşə saymayıblar.

"Türkü ərəbü əcəmdə əyyam
Hər şairə vermiş idi bir kam", –

deyən Məhəmməd Füzulinin təbiriylə götürsək, görərik ki, şahlar ustad qələm sahiblərinə hami olub, yasdıqları sözün müqabilində onlara hədiyyə verib, kənd bağışlayıb, qoymayıblar ehtiyac içində boğula,

amma bu da sözü peşə səviyyəsinə qaldıra bilməyib. Axı, söz üztündə dərisi soyulan, dara çəkilən, dili kəsilən də az olmayıb.

Ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərli haqqında yazmaq istəyinə düşəndə bu fikirlər mənə yol yoldaşlığı elədi. Ona görə ki, sözün sayəsində dolanışıq əldə eləmək mümkün olsaydı, ən azından Füzuli müəllim indi kamil yazıçılarımızdan biriydi. Lakin papağını qabağına qoyub, yaşamaq uğrunda düşünməyə dalanda, üstünə ley kimi şığıyan mülahizələr, yüz faiz inanıram ki, onu indiki mövqeyə çəkilməyə məcbur eləyib – yazmaq istəyindəsən?! Elmi işini yaz, dərsini de, məvacibini al, ailəni dolandır. Necə deyərlər, bu da sənə söz!

Soruşa bilərsiniz, bu qənaət hardandı səndə?! Axı, Füzuli Əsgərliylə yaşdaş deyilsən, yoldaş olmamısanbir parta arxasında əyləşməmisən.

Bəs, Həzrət Əli (ə) nahaqmı deyib: “Danış – səni görüm!”

“Beş yaşında atam kitab oxumağımı bilib, məktəbə qoymaq istəyib məni. Boyumun balacalığından oturduğum partadan yazı lövhəsini görə bilməyəcəyimi deyən mərhum Abıhüseyn müəllim Xəlifəlinin tövsiyəsilə yeddi yaşımda məktəbə getmişəm. Birinci sinifdə “Əlifba” oxumamışam, sərbəst

mütaliə etdiyimi nəzərə alan müəllimin “Ana dili” dərsliyini gətirməyimi istəyib.

Kitablara o qədər həvəsliydim ki, hətta yemək yeyəndə belə bir gözüm kitabda olardı. “Azərbaycan nağılları”nı dinclik bilmədən oxuduğumdan, səhifələri qopmuşdu. Bu nağılların qəhrəmanları hərdən yuxuma da girirdi”.

Füzuli müəllimin bu xatirəsi yadıma xalqımızın bir çox elm və mədəniyyət xadimlərinin yetişməsində böyük xidməti olan İsa bəy Abakarovla bağlı bir hadisəni saldı – jurnalist İsa bəydən soruşur:

– Təhsiliniz nədir?

İsa bəy nə desə yaxşıdır:

– Mütaliə!

Mütaliə, bu mənim kəşfim deyil, hər kəs üçün, xüsusən də yazıçıdan ötrü əvəzolunmazdı. Nahaq yerə Edison deməyib ki, bir faiz istedad, doxsan doqquz faiz zəhmət. Yazıçı olmaq üçün isə ilk zəhmət mütaliədi. Bütün qələm sahibləri ədəbiyyata məhz güclü mütaliədən gəlib. Axı, Füzuli Əsgərli də elə indiki kimi ehtiraslı oxuculardan olub. Sonralar telefon danışığımızda düşüncələrimi Füzuli müəllimlə bölləndə, fikirlərimizin arasında bərabərlik işarəsi gördüm:

– Satirik şeirlər yazırdım, – dedi, – çap etdirirdim də. Sonra fikir məni götürdü – bir gün kimsə özünü bu şeirdə görəcək, kimsə sözümdəm söz çıxarıb, misralarıma siyasi yarlıq da yapışdıracaq, beləcə Sabir olmasam da, Sabirin çəkdiklərindən bir pay mənə də düşəcək. Odur ki, qəti qərara gəldim – tənqidçılık həvəsinə düşmüsən, buyur, bu da sənə ədəbi cəbhə. Burda isə "ağ"a "ağ", "qara"ya "qara" deməyin özü də balaca hünər deyil.

Zaman Füzuli müəllimin bu qənaətini axır ki, dəstəklədi. Ədəbi cızmaqaraların və cici-bacı prinsipi üstdə onlara köklənən korafəhm təriflərin nəşrlərimizi ağzına alıb getdiyi indiki vaxtda Füzuli Əsgərli öz qələmini təmiz saxlaya bilirsə, vaxtında sözünü deyirsə, əslində bu da bir cəsarətdi. Tənqidçi yarlığı altında gizlənənlər var ki, əlinə qələm alıb, söz demək istəyinə düşən yüzlərlə gənci ən azından çaşdırmaqla məşğuldu. İş o yerə gəlib ki, kəkliyi azmış – iştahı pozulmuş xəstə kimi hələ də sözün dadınıtamını duymayan birini – "Astrid Lindqren" eləyib, nəyinsə xatirinə ali məktəb dərsliyinə salıb, münsiflər heyətinə gətirib çıxartdılar. Buna isə azından vicdansızlıq demək olar.

Bu yaxınlarda Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu ilə Azərbaycan Yazıçılar Birliyinin birgə tədbiri – uşaq ədəbiyyatı ilə bağlı

yığıncaq keçirildi. Alqışlanmalı olan həmin tədbirdə təəssüf ki, məruzəçilərin Azərbaycan uşaq ədəbiyyatından xəbərsiz olduqları ilk baxışdan üzə çıxdı. Yenə də hansısa məruzəçı hansısa həvəskar rəfiqəsini təriflə qabağa itələmək prinsipini əsas götürüb, əsl uşaq yazıçılarını kölgədə qoymağa çalışırdı. Belə gözə kül üfürmələr əslində bəhrəsini də verir. Ona görə ki, indi yüzdə bir adamı çıxmaq şərtiylə insanlar, istər alimi olsun, istər yazıçısı olsun, istərsə də sıravi oxucusu, adı yaxşıya çıxmışları yaxşı hesab eləyir.

Biz uşaq yazıçıları isə Azərbaycan uşaq ədəbiyyatı barədə söz demək haqqının Zahid Xəlilə, Füzuli Əsgərliyə, Rafiq Yusifoğluna yox, qeyri-peşəkarlara verilməsinə açığı ağrınırdıq. Sanki narazılığımızı duyub çıxış eləyən Rafiq Yusifoğlu bu tədbirin uşaq ədəbiyyatımız haqqında təəssürat yaratmadığını ortaya qoydu. Axı, o, ədəbiyyatşünas-tənqidçi olmaqla yanaşə həm də şairdir.

Sizə, özümlə bağlı, olduqca faciəvi bir faktı deməyimə də dəyər – həmin yığıncağın məruzəçilərindən biri bu yaxında mənə zəng eləyib nə soruşsa yaxşıdır:

– Qəşəm müəllim, sizin “Elnur, Əkil və onların başına gələnlər” nağıl-povestinizdəki şeirləri Zahid Xəlil yazıb?!

O dəqiqə istiləndim – anladım ki, cavabı gecikdirsəm, xanım məruzəçi müəlliflik hüququmu əlüstü Zahid müəllimin ayağına yazacaq, ustadıdn şeirlərimə ehtiyacı olmasa da, bu fikir ötür-ötür oyununa dönəcək, kitab oxumayan, lakin sitatdan sitat gətirən tənqidçilər həmin bədii parçaları mənim kurasiyamdan çıxaracaq. Ürəyimdə "Aman, Allah!" deyib, dodağım təpiyə-təpiyə az qala beynimə işləyən bu iddiadan tənqidçi xanımı yayındırmaq istəyilə dil boğaza qoymadım:

– Xeyir, xeyir, nə danışırsınız, xanım, Zahid Xəlil kitabımın redaktorudur, şeirləri, vallah, özüm yazmışam!

Buyurun...

Gizli deyil ki, Rafiq Yusifoğludan sonra hər an Füzuli müəllimin kürsüyə qalxacağını gözləyirdim. Əgər bu istəyim doğrulsaydı, ədəbi-tənqidi fəaliyyətində ədalət hissini özünə meyar eləyən alim, 40-50 ilin uşaq yazıçılarını küncə sıxıb, təzə-təzə əli qələm tutan və utanmadan onun-bunun şeirini, misrasını, fikrini çırpışdırıb özünə "əsər" eləyənləri tərifləyib, Azərbaycan uşaq ədəbiyyatı barədə səhv təəssürat oyadanların dərsini verəcəkdi.

Yeri gəlmişkən, balaca bir etiraf eləyim – bəzən mən kiminsə subyektiv, hətta səhv fikriylə, "əşi, bu, prinsipcə nəyi dəyişir ki" təsəllisini əsas götürüb,

ürəyimdə doğru mövqeyimdən çəkilməsəm də, üzdə başımı yelləməklə razılaşıram. Füzuli müəllim isə əksinə, məqamında öz sözünü deyib, mövqeyini müdafiə etməyi daha üstün tutur. Əslində, tənqidçi üçün bu, ali keyfiyyətdi.

– Yeni uşaq mahnıları adı altında bir layihə var, – Füzuli müəllim telefon söhbətlərimizin birində mənimlə öz təəssüratını bölüşdü. – Yığıncaqlara məni də dəvət edirlər. Bir müddət bundan əvvəl yenidən bir yerə toplamışdılar bizi. Layihə rəhbəri "Yeni uşaq mahnıları 2013" adıyla nəşr edilmiş iki kitabdan ibarət toplu da verdi bizə. Açdım ki, görüm, burdakı yenilik nədən ibarətdir, fikrim gözümə dəyən əcayib-qərayib misraların üstündə toxdayanda elə bildim "tok" vurdu məni. Mənə söz veriləndə əlüstü ayağa qalxdım. Az qaldı layihə rəhbərini məhşər ayağına çəkmək istəyi keçdi ürəyimdən:

– Ay xanım, bu nə misralardı burda vermisiniz?!

– Nə misralar?! – Döyükdü.

– Məsələn, "ko... ko... ko...".

– O nə deməkdi?!

– Mən də sizdən soruşuram da – bu nə deməkdi?! Məgər toyuq qaqqıldayanda "ko...ko... ko..." deyir?!

Hiss elədim ki, xanım səhv edib, mənə söz verdiyinə peşmandı:

– Bilirsiniz, müəllif rusdillidi...

Dözmək olardı bu sözün qabağında:

– Müəllif rusdillidi, rusdillidi, bəyəm, toyuq da rusdillidi?!

Zalda necə gülüş qopdusa, hətta əl də çaldılar mənə.

İclasdan sonra bəstəkar Oqtay Zülfüqarov dedi, ay oğul, böyüklər üçün yazılan musiqilərimizin də sözləri bu vəziyyətdədir...

Mən Füzuli müəllimin bu söhbətini sonralar Zahid müəllimə xatırladanda özünəməxsus zarafatla dedi:

– Füzuli Əsgərli bu tədbirdən də ayağımızı kəsdi.

Gülüşdük...

İstər-istəməz özünə özünə sual verirsən: – Ədəbi əsərlərimizdə, musiqimizdə baş alıb gedən səviyyəsizliyin günahkarı kimdir?!

Cavabı da öz dilindən qopur: – Tənqidçilər!

Məhz tənqidin öz yerini mədhiyyəyə verdiyi verdiyi indiki zamanda oğurluq-doğurluq aşağı səviyyəli əsərlər yazan həvəskarlar qabağa düşüb, mükafat alır, ad alır, uğura sahib çıxırlar. Əsl yazıçının,

əsl bəstəkarın, əsl müğənninin isə belə haqsızlıqları kənardan seyr eləməkdən başqa çarəsi qalmır.

Yazımın əvvəlində ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərlinin haqsızlığa qarşı barışmaz olduğunu təqdir eləmişdim. Amma qardaşımızın istisnaları da olur. Necə deyərlər, o da həsləyir hərdən. Çox da uzağın söhbəti deyil. Respublika Tərcümə Mərkəzinin "Aydın yol" qəzetində bir xanım tənqidçinin üzgörənlik və naşılıq səviyyəsində Azərbaycan uşaq ədəbiyyatı haqqında iddialı çıxışlarını hamımız, o cümlədən, Füzuli müəllim də qeyzlə izləyirdik. Təəssüf ki, heç birimiz nədənsə bu xanıma yerini göstərmədik. Bu isə haçansa özümüzə qarşı çevriləcək.

Bəlkə də mən tələsik rəy verirəm. Bəlkə də vaxtı gələndə Füzuli müəllim adını ədəbiyyat bilicisi qoyan beləsinin cavabını həmişə əsərində artıqlamasıyla verəcək. Amma gözləyirik. Çünki xanım elə ilk yazısında Füzuli müəllimin də bostanına daş atmışdı.

Öz qətiyyətli çıxışları ilə diqqəti cəlb edən, mövqeyinə, nüfuzuna kölgə düşəcəyindən çəkinməyən, bədxahların tənəsindən qorxmayan ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərlidə xarakterə dönmüş ən başlıca keyfiyyət, cəsarətlə deyə bilərəm ki, ədalət hissidir. Ədalət hissi hamıdan ötrü, xüsusən də tənqidçi üçün başlıca üstünlükdür. Gəlin onu da etiraf eləyək ki, adı "məsuliyyət" sözü ilə əkiz çəkilən bu

hiss yaşından, vəzifəsindən asılı olmayaraq hər kəsdə rast gəlinən keyfiyyət deyil. Füzuli müəllim bu keyfiyyətlə uşaq ədəbiyyatımız haqqında fikir deyir, bədii yaradıcılığı ilə məşğul olur və peşəkarcasına tərcümələr də edir.

Heç yadımdan çıxmaz, mərhum yazıçı-publisist Ələviyyə Babayeva bir dəfə mənə dedi: "Heydər Əliyevə ona görə rəhmət düşür ki, o, bilirdi, kim kimdi". Bu fikri mən əminliklə Füzuli Əsgərliyə də şamil edə bilərəm – o, Azərbaycan uşaq ədəbiyyatında kimin kim olduğunu bilən, özü də yaxşı bilən üç-dörd tənqidçidən biridir.

Sözümün əvvəlində Füzuli müəllimi yazıçılığa aparan tale barədə, sonu həqiqətə gətirib çıxara bilən münəccimlik duyğularına varmışdım. Ağlı kəsəndən yaşayışın hər üzünü görmüş, keşməkeşlərdən keçib gəlmiş Füzuli Əsgərlinin öz həyatı isə, mənim aləmimdə təpərli müəllifini gözləyən yaxşı bir əsər mövzusudur. Nə bilmək olar, bəlkə də bu əsəri özü yazacaq.

"Kredo" qəzeti, 2015, 06 mart.

ŞƏHLA QƏMBƏROVA,
F.Köçərli adına Respublika
Uşaq Kitabxanasının direktoru

Uşaq ədəbiyyatı tədqiqatçısı, mahir bədii tərcümə ustası

Uşaq ədəbiyyatı kiçik yaşlı oxucuların qəlbində nəcib hisslər oyadan, onların gələcəyi haqqındakı arzu və istəklərinə qanad verən, şəxsiyyət kimi formalaşdıran zəruri bir sahədir. Bu ədəbiyyat özündə güclü ideya-estetik və mənəvi tərbiyə yükü daşıyır. Ona görə, uşaq ədəbiyyatı ilə məşğul olanların hamısının çöhrəsində, uşaqların məsumluğunu, mənəvi saflığını xatırladan qəribə bir ifadə olur. Düşünürsən ki, əgər onlarda bu xarakterik xüsusiyyətlər olmasa onlar bu sahədə fəaliyyət göstərə bilməzlər. Çünki uşaq ədəbiyyatının dərinliklərinə bələd olmaqdan ötrü bu sahənin spesifikasını, təsvir olunan obrazlarının psixologiyasını, əsas xarakterik xüsu- siyyətlərini bilmək lazımdır.

Bu gün haqqında söhbət açacağımız ədəbiyyatşünas alim, uşaq ədəbiyyatı araşdırıcısı Füzuli Əsgərli də qələmə alınan bədii nümunələrdə yaradılmış uşaq obrazlarının psixologiyasını dərindən bilən

qələm sahiblərimizdəndir. Bu günlərdə istedadlı ədəbiyyatşünas alim, bədii tərcümə nəzəriyyəçisi və tərcüməçi Füzuli Əsgərlinin 70 yaşı tamam olur.

Füzuli Əsgərli əsl sənət vurğunu, elm fədaisi, söz sərrafı, ədəbiyyatın ağırlığını və yüngüllüyünü qızıl tərəzisində çəkən çox tələbkar bir alimdir. O, ədəbiyyatşünaslıq və ədəbi-tənqid sahəsində bir sıra qiymətli monoqrafiyaların, elmi məqalələr toplusunun müəllifidir. Uzun illər bədii tərcümənin nəzəri problemlərilə yaxından məşğul olmuş, bir sıra dünya xalqlarının (eston, Litva, moldav, qazax, rus, türkmən, gürcü və sair) bədii nümunələrini Azərbaycan dilinə səlis ifadələrlə tərcümə etmişdir.

Həmçinin, Füzuli müəllim özünün fundamental əsərlərində xalqımızın tarixi zənginliyinə, mədəniyyətinə, tanınmış ədəbiyyatşünasların yaratdıdıqları bir çox elmi mənbələrə, şair və yazıçılarımızın qələmə aldığı əsərlərə öz obyektiv və qərəzsiz münasibətini bildirmişdir.

Onun iri həcmli "Sənətkarın uşaq dünyası", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Ömrün sözü, sözün ömrü", "Bədii təhlil və ədəbi tənqid", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Sehrli dünyanın memarı" monoqrafiyaları, "Ədəbi düşüncələr", "Problemlər, düşüncələr" məqalələr top-

lusu, ali və orta ixtisas məktəbləri üçün yazdığı "Uşaq ədəbiyyatı" dərsliyi, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitləri həm bakalavr, həm magistrlər, həm ədəbiyyat sahəsində çalışan mütəxəssislər, ədəbiyyatla yaxından maraqlananlar üçün sadə, eyni zamanda asan anlaşılan səlis dillə yazılmış qiymətli əsərlərdir. Füzuli müəllimin gündəlik fəaliyyətində elmi-tədqiqat işlərindən başqa dünya ədəbiyyatından tərcümə etdiyi bədii nümunələr də xüsusi əhəmiyyətə malikdir.

Hər bir xalqın öz mədəniyyəti, öz ədəbiyyatı vardır. Amma milli ədəbiyyatı ayrıca, dünya ədəbiyyatından təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyildir. Başqa xalqların ədəbiyyatları ilə biz yalnız səlis dilə malik olan bədii tərcümələr vasitəsilə tanış oluruq. Füzuli müəllim özünün "Bədii tərcümə prinsipləri" adlı monoqrafiyasında yazır: "Dünya xalqları ədəbiyyatının ən yaxşı nümunələri nin dilimizə tərcümə edilməsi həmişə təqdirəlayiq bir iş kimi qiymətləndirilmiş və dövrümüzə qədər bədii tərcümənin imkanlarından geniş istifadə olunmuşdur". Füzuli müəllim tərcümə nəzəriyyəsi meydana gələndən sonra Azərbaycanda bu sahədə elmi-tədqiqat işləri aparmaqda olan ədəbiyyatşünas alimlərimizdən biridir. Füzuli Əsgərli maraqlı ədəbiyyat nümunələrini – rus, eston, qazax, gürcü və digər

xalqların yazıçılarının bir sıra bədii əsərlərini böyük ustalıqla, Azərbaycan dilinin zəngin imkanlarından məharətlə istifadə edərək dilimizə çevirmişdir.

Füzuli müəllim uşaqların hərtərəfli inkişafına nail olmaq üçün onların dünyagörüşlərinə, əqidəsinə təsir edən əsərlər yaratmağı vacib bir vəzifə hesab edir. Bu zəruri vəzifələrin yerinə yetirilməsində uşaqlar üçün yazılan ağıllı kitabların – hadisələri müasir baxımdan real əks etdirən əsərlərin rolunu əvəzsiz hesab edən Füzuli Əsgərli uşaq ədəbiyyatı sahəsində çox böyük elmi axtarışlar aparmış, öz monoqrafiyaları ilə uşaq ədəbiyyatının tədqiqi sahəsində yaranmış boşluğu doldura bilmişdir.

Bu gün Füzuli müəllimin uşaq ədəbiyyatına həsr etdiyi kitabları bizim kitabxananın fondunda qiymətli sərvət olaraq saxlanılır, qorunur və tələbkar oxucularımızın istifadəsinə verilir.

"Azərbaycan uşaq nəsri və onun ədəbi tənqiddə yeri" adlı geniş araşdırması ilə tanış olarkən Füzuli müəllimin topladığı faktlara, obyektiv təhlili imkanlarına, elmi məsuliyyətinə, çəkdiyi zəhmətinə qibtə etməmək olmur. Bu vaxt bizim gözəl şairimiz Ələmdar Quluzadənin bu sözləri istər-istəməz yada düşür: ”Füzuli babamız bizim söz Tanrımızdır, ondan sonra gələn söz adamları onun əsgərləridir. İstər şair olsunlar, istər yazıçı, istərsə də tənqidçi və ədə-

biyyatşünas”. Mən onun bu fikirlərilə tamamilə razıyam. Doğrudan da, Füzuli müəllim uşaq ədəbiyyatının tədqiq olunmasında nizam-intizamlı bir əsgər olduğunu qələmə aldığı əsərləri ilə sübut etmişdir.

Füzuli müəllimin "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" adlı monoqrafiyasında milli uşaq ədəbiyyatımızın bu günə qədər olan inkişafı mövcud olan saysız-hesabsız elmi mənbələrə istinad edilməklə tədqiq edilmişir. Bu kitabı incələdikcə dəyərli tədqiqatçı alimimizlə fəxr etməyi özümüzə borc bilirik. Qələmini bir an belə yerə qoymayan Füzuli müəllim hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Ədəbiyyat və onun tədrisi metodikası” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktorudur. Bütün mənalı ömrünü uşaq ədəbiyyatının ardıcıl tədqiqinə və təbliğinə, bədii tərcüməyə və onun nəzəriyyəsinə həsr etmiş Füzuli Əsgərli bununla yanaşı, həm təhsil aldığı, həm də işlədiyi doğma ali məktəbdə müəllimlik sənətinin şərəfini həmişə uca tutmuşdur. Bu gün də onun ali məktəbin auditoriyalarında böyük gənclik həvəsilə “Uşaq ədəbiyyatı”ndan oxuduğu mühazirələr və fəal-interaktiv təlim üsulu ilə apardığı seminar məşğələləri tələbələrin böyük marağına səbəb olur. Bütün mühazirələrində milli uşaq ədəbiyyatının motivlərini dünya uşaq ədəbiyyatı motivləri ilə sintez halında

birləşdirən Füzuli müəllim daha çox özünün kəşf etdiyi, ən istedadlı tələbələri elmi axtarışlara cəlb edir, nəticədə bu sahədə böyük uğurlar qazanır.

Universitetdə tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin tədris prosesinə daha fəal cəlb edilməsi, dərslik və dərs vəsaiti ilə təminatı, yeni təlim texnologiyalarının tətbiqi sahəsində qazandığı nailiyyətlərə görə Füzuli müəllim bir neçə il "İlin müəllimi" müsabiqəsinin qalibi olması, "İlin nüfuzlu ziyalısı" fəxri adına layiq görülməsi onun geniş elmi-pedaqoji fəaliyyətindən xəbər verir. İşlədiyi Pedaqoji Universitetdə və xüsusilə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən çoxsaylı maraqlı tədbirlərdə fəal iştirakı onun işgüzarlığına, bu sahəyə olan sonsuz marağına bir işarədir. İştirak etdiyi tədbirlərdəki səlis nitqi və maraq doğuran, məzmunlu çıxışı ilə seçilən Füzuli müəllim məclisi ələ almaq qabiliyyətinə malik olan ədəbiyyatşnas alimdir.

Tərcüməçi-nəzəriyyəçi Füzuli Əsgərli son illər bu sahədə boşluq hiss edərək "Bədii tərcümə prinsipləri" (2009) monoqrafiyasını qələmə almış, bu günümüzə qədər müxtəlif illərdə çap edilmiş nöqsanlı uşaq nəsr əsərlərinin təshih olunmasını və yenidən tərcümə edilərək nəşr olunmasını tövsiyə etmişdir. Monoqrafiyada obrazların mənəvi-psixoloji

aləminin təcəssümü, bədii tərcümədə üslub orijinallığı, milli xüsusiyyətlərin saxlanılması, atalar sözləri, məsəllər və idiomlardan istifadə üsulları problemlərinin düzgün həlli yollarını göstərmişdir.

Füzuli müəllimin qələmə aldığı "Azərbaycan uşaq ədəbiyyatı", "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitləri bizim kitabxananın oxucuları tərəfindən ən çox istifadə olunan ədəbiyyat siyahısındadır.

Ədəbiyyatşünas F.Əsgərlinin "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" adlı monoqrafiyası bu günə qədər müraciət olunmayan bir orijinal mövzu dairəsini əhatə edir. Bu əsərdə yüksək ideyalılığı və estetik dolğunluğu ilə uşaq ədəbiyyatının əsas qaynaqlarından biri olan xalq yaradıcılığı yazılı ədəbiyyatın bir mənbəyi kimi tədqiq olunmuş, milli uşaq ədəbiyyatının yaradıcılıq ənənələrindən söz açılmış, klassik ədəbiyyatımızda folklor motivli uşaq oxusu nümunələri araşdırılmışdır.

Tədqiqatçı alim Füzuli Əsgərli bu gün də yorulmaq bilmədən çalışır, bir-birinin ardınca gərgin zəhməti hesabına başa gətirdiyi monoqrafiyalarını çap etdirir. Müəllif qələmə aldığı "Bədii təhlil və ədəbi tənqid" adlı elmi monoqrafiyasında ədəbiyyatın müxtəlif problemlərinə toxunmuş, bir sıra ədəbi proseslər haqqında daha geniş təsəvvür yaratmaq

üçün janrlar üzrə təhlillərə geniş yer vermiş, tənqidi fikirlərə öz münasibətini bildirmişdir.

Kitabxana sahəsində topladığım illərin təcrübəsi göstərir ki, oxucuların sevgisini qazanmaq elə də asan deyil. Bunun üçün yüksək təcrübə, kamil bilik, gələcəyimiz olan uşaqlara sevgi olmalıdır. Mən Sizi 70 illik yubileyiniz münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının kollektivinin və tələbkar oxucularının adından Sizi ürəkdən təbrik edirəm və Sizə uzun ömür, can sağlığı diləyirəm.

15 mart 2015-ci il.

SEVİNC NURUQIZI,
uşaq yazıçısı

Uşaq ədəbiyyatında və ədəbi tənqiddə Füzuli Əsgərli imzası

Uşaq ədəbiyyatı uşaqlar üçün böyüklər tərəfindən asanlaşdırılan, bədiiləşdirilən, adiləşdirilən həyat hekayətləridir. Başqa sözlə desək, mürəkkəb həyatın uşaq təfəkkürünə sığacaq dərəcədə sadələşdirilmiş modelidir. Hər bir uşaq ədəbiyyatı nümunəsi real həyatdan edilmiş müşahidələrin nəqlidir. Əlbəttə, çox yəqin ki, məşhur yazıçı Alan Milnin sevimli oğlu və oğlunun hər kəsdən çox sevdiyi yumşaq tüklü oyuncaq ayısı olmasaydı, dünya uşaq ədəbiyyatının nadir incilərindən biri "Vinni Pux və hamı, hamı, hamı" əsəri, daha məşhur uşaq yazıçısı Tuve Yansonun uşaqlıqda begemota bənzətdiyi gonbul qardaşı olmasaydı, çox sevimli "Mumi-Trollar"ı və yaxud, əvəzedilməz Canni Rodarinin hər gecə ondan yeni nağıl istəyən balaca qızı olmasaydı, "Telefonla danı şılan nağıllar"ı yaranmazdı. Müşahidələr məhz uşaq yazıçısının köməyi ilə bədiiləşdirilib ədəbi nümunəyə çevrilir. Hər bir uşaq elə doğulan andan vətəndaşdır. Məhz bütün digərləri kimi həyatının ilk çağ-

larında hələ hüquq və vəzifələrinin nə olduğunu bilməyən bu vətəndaş da bütün bunları daha obrazlı, əyləncəli və yığcam şəkildə qavramalıdır. Bu işdə isə uşaq ədəbiyyatının xidməti qeyri-şərtsiz və danılmazdır.

Bütün zamanların uşaq ədəbiyyatı gələcəyə ünvanlanıb. Çünki bu ədəbiyyat böyüklərin öz gələcəyi üçün tədarükü təsirini bağışlayan uşaqlardan ötrü yazılıb. Hər əsr bu ədəbiyyatın tarixində bir iz qoyub gedib. Və əslində, uşaq ədəbiyyatı nümunəsi kimi tanınan hər bir əsər özündə böyük fəlsəfə, dərin səmimiyyət, daxili intuziazm ehtiva etməlidir. Uşaq əsərləri uşaqlara dünya və onun yaranışından tutmuş, insan və onun formalaşmasına qədər ən böyük hikmətləri ən adi dillə çatdırmalıdır.

İnsanlıq öncə öz uşaqlarına heç nə vəd etməmişdi. Torpağın dərin qatlarından tapılan yunan uşaqlarından birinin ilk taxta oyuncağının tarixi o qədər də uzağa aparmadığı insanın uşaqları çox gec anladığından xəbər verir. Bəlkə də bu xüsusda insan övladını günahlandırmağın özü belə yanlış olardı. Çünki bu zamanlar insan hələ ki, vəhşi canlı təbiətlə öz yaşamı arasındakı boşluqları doldururdu. Təbiəti dərk etməyə, ona uyğunlaşmağa çalışırdı. Və yalnız bunu bacarandan sonra o bir qədər vəhşi, bir qədər soyuq nəzərlərlə yanı ilə dolaşan Tanrı övladına nə-

zər yetirmiş, onu anlamağa çalışmışdı. Və Tanrının insan üçün göndərdiyi ilk meyvələr haqqında çox qədim əfsanələrdən birinə istinad etsək, hətta uşağın böyüyə daha çox diqqət yetirdiyinin şahidi olarıq. Aclıq və soyuqların bir-bir məhv edib seyrəltdiyi qəbilə üzvlərindən biri, qoca qarı acından və xəstəlikdən taqətdən düşmüş halda ömrünün son günlərini yaşayır. Onun əzablarına dözməyən balaca qızcığaz nənəsi üçün nə isə tapmaq ümidi ilə meşəyə gedir. Və ətrafında mələklər uçuşan bir ağaca rast gəlir. Əncir ağacına...Bu ağacın kəhrəba rəngli, şirəli meyvələrindən yığıb nənəsinə gətirir... Bəli, təbiəti ram edən insan nəzərlərini körpəsinə doğru çevirmişdi. Nəticədə, ilk nağıllar, nağıl qəhrəmanları yaranmışdı. İnsan öz təsəvvüründən kənarda uşağına nə isə danışmağa cəhd edəndə isə bunu mifikləşdirmiş, divlərin, əcinnələrin, qızıl almaların, yeddibaşlı əjdahaların köməyinə qaçmalı olmuşdu. Beləcə, danışdığı nağılların fonunda o, yaxşı ilə yamanın, pislə yaxşının ilk ədəbi portretlərini yarada bilmişdi. Və bəlkə də ilk uşaq əsərlərinin yaradıcısına çevrilmişdi.

20-ci əsr Azərbaycan uşaq ədəbiyyatının inkişafında mühüm mərhələ oldu. Ədəbiyyatın digər sahələri ilə müqayisədə bu o qədər də qənaətbəxş hesab edilməsə də, ümumilikdə, bu inkişafdan danışmamaq haqsızlıq olardı. Məhz bu əsrin əvvəllərindən

uşaq ədəbiyyatında bu günə qədər sevilə-sevilə oxunan Cəlil Məmmədquluzadə, Abbas Səhhət, Süleyman Sani Axundov ədəbi nümunələri göründü. Sonralar bu siyahı bir qədər də zənginləşdi. Abdulla Şaiq, Süleyman Rəhimov, Mir Mehdi Seyidzadə, Qılman İlkin, Zeynal Cabbarzadə, Xanımana Əlibəyli, Teymur Elçin, Hikmət Ziya, Tofiq Mahmud, Tofiq Mütəllibov, Əzizə Əhmədova, Məstan Günər, Elçin, İlyas Tapdıq, Zahid Xəlil, Rafiq Yusifoğlu, Qaçay Köçərli, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Ələkbər Salahzadə, Rəfiqə Məmmədova və sair qələm sahibləri əvəzedilməz yaradıcılıq nümunələri ilə tanındılar. Bu gün Azərbaycan uşaq ədəbiyyatının sıralarında Aygün Bünyadzadə, Reyhan Yusifqızı, Gülzar İbrahimova var.

Amma çox təəssüf ki, bu gün Azərbaycan uşaq ədəbiyyatı ədəbiyyatın ən problemli, ağrılı sahəsidir. Uşaq kitabının çap və tərtibatı səviyyəsi çox aşağıdır. Uşaq ədəbiyyatına gənclər demək olar ki, gəlmir. Yuxarıdakı siyahını gənc uşaq yazıçıları hesabına davam etdirmək qeyri-mümkündür. Az-çox bu sahədə qələmini sınayanlara rast gəlinsə də, onların arasında bu adı doğrulda biləcək namizəd çox azdır. Kiminsə adını çəksəm, əvvəlinci və sonuncu olacağından ehtiyat etdiyim üçün bu sırada susmaq məcburiyyətindəyəm. Ümumiyyətlə, bu günün uşağı

ilə bu günün yazıçısı arasında əlaqə yavaş-yavaş qırılmaq üzrədir. Yeni qəhrəmanlar yaranmırsa, yeni oxucunun ideallaşdıracağı heç bir bədii qəhrəman olmadığı fikri haqlı olaraq irəli sürülür. Rus mətbuatı 90-cı illərdən üzü bəri "sonuncu" uşaq kitabının Qriqori Osterin "Zərərli məsləhətlər"i olduğunu iddia edirsə, onda bizdə "sonuncu" uşaq kitabının tarixi haqqında təzadlı fikirlər mövcud ola bilər.

Belə uzun-uzadı giriş bu günün uşaq ədəbiyyatı mənzərəsini yaratmaq məqsədilə edildi. Az və yaxud çox sayda mövcud olan uşaq ədəbiyyatı nümunələrinin ədəbi tənqid meyarları hansı səviyyədədir?! Ümumiyyətl, bu sahədə kim var?! Uşaq ədəbiyyatı tənqidi ilə əsaslı məşğul olan varmı? Qarşıya çıxan bu və ya digər sullara cavab axtararkən yalnız bir tədqiqatçının gördüyü işlərin üzərində dayanmaq olar – filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasının dosenti, fililogiya üzrə fəlsəfə doktoru Füzuli Əsgərlinin "Sənətkarın uşaq dünyası", "Ədəbi düşüncələr", "Ömrün sözü, sözün ömrü", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehrli dünyanın memarı" adlı monoqrafiyaların, ali və orta ixtisas məktəbləri üçün "Uşaq ədəbiyyatı"

dərsliyinin (professor Zahid Xəlillə birlikdə), çoxsaylı elmi məqalələrin müəllifi olan Füzuli Əsgərli ömrünün ən mənalı illərini məhz uşaq ədəbiyyatını araşdırmağa sərf etmiş, əldə olan ədəbi nümunələrə qərəzsiz, professional, yüksək bədii meyarlara əsaslanaraq yanaşmış alim və tədqiqatçıdır. "Müasir uşaq ədəbiyyatının inkişaf mərhələləri" adlı məqaləsində Fizuli Əsgərli respublikamızın müstəqilliyinin ilk illərində uşaq ədəbiyyatı mənzərəsini belə xarakterizə edir:"Müstəqilliyimizin ilk illərində əlinə qələm götürənlərin çoxluğu, lakin yaxşı bədii nümunələrin nisbətən azlığı ədəbi prosesi bir qədər zəiflətmişdi. Nədənsə, hamı şeir yazmaq, bu illərə münasibətini poeziya ilə bildirmək istəyirdi. Lakin bu emosional yazıların hamısı özünü yaşada bilmədi, çünki bədiilik baxımından ölçüyəgəlməz idi. Zaman keçdikcə ədəbi mühitdəki proses duruldu, tədqiqatlar və analitik təhlillər ən yaxşı bədii nümunələri üzə çıxartdı. Bu məqalədə adları çəkilən qələm sahiblərinin yaradıcılığında müasir ədəbi prosesinin tələblərinə cavab verən əsərlər, demək olar ki, durğunluq dövrünü keçirən milli uşaq ədəbiyyatına "soyuqluq gətirən buz qatlarını" əritməyə başladı". Məqalədə müəllif Azərbaycan uşaq ədəbiyyatının müasir dövrünün təhlilini aparır. Bu təhlil əsnasında Fizuli Əsgərlinin bədii zövqu, onun ədəbiyyata baxışı aydınlaşır. Mü-

əllif uşaq ədəbiyyatı nümayəndələrinə məsuliyyətlə, qayğı və hörmətlə yanaşır, onların yaradıcılığını araşdırır, onlar haqqında öz fikirlərini söyləyir. O, bir tədqiqatçı alim olaraq yaxşını pisdən seçməyi bacarır, müasir bədii ideya və hər bir yazıçını sənətkarlıq baxımından tədqiq edir, onun ədəbi irsini lazımlılıq, millilik və bəşərilik süzgəcindən keçirir. Araşdırmalarının məntiqi nəticəsini belə ifadə edir: ”Azərbaycan uşaq ədəbiyyatının son illər meydana gəlmiş ədəbi yaradıcılığını araşdırdıqda belə bir nəticəyə gəlmək olur ki, uşaqlar üçün yazan qələm sahiblərimiz öz istedadları çərçivəsində kiçik yaşlı oxucuların təlim-tərbiyəsinə, mənəvi dəyərlərinin inkişafına və formalaşmasına təsir edən əsərlər yaratmağa çalışmışlar. Xüsusilə, müstəqillik illərindən sonra uşaq ədəbiyyatı sahəsində yeni motivli əsərlərin yaradılmasına meyl xeyli artmışdır. Son illər milli uşaq ədəbiyyatımızın inkişafında İlyas Tapdıq, Zahid Xəlil, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Sevinc Nuruqızı, Reyhan Yusifqızı və digər qələm sahiblərinin yaradıcılığını görürük. Çap olunmuş Azərbaycan uşaq ədəbiyyatını nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, kiçik yaşlı oxucular üçün yazan qələm sahiblərimiz istedadlarının imkanları çərçivəsində yeni nəslin təlim-tərbiyəsinə, milli mənəvi dəyərlərinin inkişafına

və formalaşmasına təsir göstərən əsərlər yaratmağa cəhd göstərmişlər. Son onilliklərin uşaq ədəbiyyatına diqqət yetirdikdə belə bir qənaətdə olursan ki, söz sənətimizin bu sahəsinin məhsuldarlığı əvvəlki illərdən az olsa da, bu ədəbiyyatın mövzu və ideyalarında, fikri ifadə tərzində müstəqil inkişafda olacaq bir ədəbi prosesin ilkin cücərtilərini görə bilirik".

Fizuli Əsgərli ədəbi prosesin içində olan tənqidçidir. O, yalnız arabir görünüb yada düşmək üçün çalışmır. O, uşaq ədəbiyyatının bir qədər xaotik, nizamsız, pərakəndə inkişaf dövrünü daima nəzarətdə saxlayır. "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" adlı monoqrafiyasında Fizuli Əsgərli Azərbaycan uşaq ədəbiyyatını bütün inkişaf tarixi boyu elmi mənbələrə istinad edərək tədqiq etmişdir. O, ədəbiyyatların qarşılıqlı tərcüməsini zəruri hal kimi qiymətləndirmiş və müasir ədəbi prosesin inkişafında buna böyük ehtiyac olduğunu vurğulamışdır. Monoqrafiyada qeyd edilir ki, milli mənlik şüurunun inkişafı ilə bağlı millətlərarası münasibətlərin mürəkkəbləşdiyi bir şəraitdə ədəbi əlaqələrin inkişafı qayğısına qalmaq olduqca zəruridir.Təsadüfi deyildir ki, Füzuli Əsgərli özü də uzun illər bədii tərcümənin nəzəri problemlərn ilə yaxından məşğul olmuş, bir sıra dünya xalqlarının (türkmən, eston, litva, rus, qazax, rus, gürcü və sair) bədii nümunələ-

rini Azərbaycan dilinə tərcümə etmişdir. Ədəbi tərümə məsələlərinə olduqca ciddi yanaşan müəllif monoqrafiyada qeyd edir: ”Ədəbi əlaqələr zəminində yaranan hər bir əsər, o cümlədən, uşaq əsərləri tarixin bizə bəxş etdiyi mirasdır və bu sahənin inkişafında düzgün istiqaməti qoruyub saxlamaq məsuliyyəti ədəbi ictimaiyyətin üzərinə düşür”.

Uşaq ədəbiyyatında bədii forma, bəşəri mövzu və milli yanaşma tərzi, yeni ideya istiqamətləri axtarışında olan Füzuli Əsgərli monoqrafiyada bədii tərcümə sahəsində ədəbi tənqidin də rolunu yüksək qiymətləndirir. Ədəbi tənqid həm tərcümənin, həm də bədii yaradıcılığın bir növ hərəkətverici, yönləndirici qüvvəsidir. Bu baxımdan, tədqiqatçının ədəbi tənqidin rolunu qabartması təqdirediləndir.

Bizə yalnız müasir dövr uşaq ədəbiyyatının inkişafında təsadüf edilən mənfi və müsbət amillərin tədqiq edilməsi kimi şərəfli bir işi böyük məmnuniyyətlə öz üzərinə götürən ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərliyə bu çətin və məsuliyyətli işin gələcək inkişafında uğurlar arzulayırıq.

“Naşir” jurnalı, 2015, aprel

REYHAN YUSİFQIZI,
uşaq yazıçısı, fantast

Məni uşaqlıq illərimə qaytaran adam Yaxud ədəbiyyatşünas-tənqidçi və mahir tərcüməçi

Ədəbiyyatşünas alim Füzuli Əsgərli ilə ilk dəfə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında qarşılaşıb tanış olmuşiq. Bu gülərüz və xoşsifət insanı mənə təcrübəli müəllim, bədii tərcüməçi və uşaq ədəbiyyatı araşdırmaçısı kimi təqdim elədilər. Uşaq ədəbiyyatı ilə məşğul olanların hamısının üzündə, uşaqların məsumluğunu, saflığını xatırladan bir ifadə olduğunu mən o zaman artıq yəqin eləmişdim. Füzuli müəllimlə tanışlığım bu qənaətimi bir az da artırdı.

Füzuli Əsgərli ədəbiyyatşünaslıq, ədəbi-tənqid sahəsində bir sıra qiymətli monoqrafiyaların, elmi tədqiqatların və məqalələr toplusunun müəllifi olan bir alimdir. Onun iri həcmli ”Sənətkarın uşaq dünyası”, “Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı”, “Ömrün sözü, sözün ömrü”, “Bədii təhlil və ədəbi tənqid”, “Bədii tərcümə prinsipləri”, “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları”, “Sehrli

dünyanın memarı” monoqrafiyaları, “Ədəbi düşüncələr”, “Problemlər, düşüncələr” məqalələr toplusu, ali və orta ixtisas məktəbləri üçün “Uşaq ədəbiyyatı” dərsliyi, “Azərbaycan uşaq ədəbiyyatı” və “Dünya uşaq ədəbiyyatı” dərs vəsaitləri həm bakalavr, həm magistrlər, həm ədəbiyyat dahəsində çalışan mütəxəssislər, həm də ədəbiyyatla sadəcə maraqlananlar üçün sadə, elmi, eyni zamanda asan anlaşılan səlis dillə yazılmış qiymətli əsərlərdir.

Fikrimcə, Füzuli müəllimin gündəlik fəaliyyətində elmi-tədqiqat işlərindən başqa tərcümə etdiyi bədii əsərlər də xüsusi əhəmiyyətə malikdir.

Hər xalqın öz mədəniyyəti, öz ədəbiyyatı var. Amma milli ədəbiyyatı ayrıca, dünya ədəbiyyatından təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyildir. Başqa xalqların ədəbiyyatı ilə biz yalnız bədii tərcümələr vasitəsilə tanış oluruq. Bu baxımdan tərcüməni ədəbi fəaliyyətin ən mühüm və məsuliyyətli növü hesab edirəm.

“Dünya xalqları ədəbiyyatının ən yaxşı nümunələrinin dilimizə tərcümə edilməsi həmişə təqdirəlayiq bir iş kimi qiymətlənditilmiş və dövrümüzə qədər bədii tərcümənin imkanlarından geniş istifadə olunmuşdur”, - “Bədii tərcümə prinsipləri” kitabında belə yazan Füzuli müəllim dünya miqyasında tərcümə nəzəriyyəsi meydana gələndən sonra Azərbay-

canda bu sahədə elmi-tədqiqat işləri aparmaqda olan alimlərdən biridir.

Füzuli Əsgərli maraqlı ədəbiyyat nümunələrini – rus, eston, qazax, gürcü və digər xalqların yazıçılarının bir sıra bədii əsərlətini böyük ustalıqla, Azərbaycan dilinin zəngin imkanlarından məharətlə istifadə edərək dilimizə çevirmişdir. Düşünürəm ki, onun bu işləri gənc tərcüməçilərə örnək olmalıdır.

Füzuli müəllimin maraqlı bədii tərcümə əsərlərindən ikisi haqqında qısaca danışmaq istəyirəm.

Norveç yazıçısı Anne Vestlinin 1957-ci ildə yazmış olduğu "Ata, ana, nənə, səkkiz uşaq və yük maşını" povestləri bizim nəslin ən çox sevilən və oxunan kitablarından biri idi. Mən bu əsəri rus dilində oxumuşdum. Azərbaycan dilinə tərcümə olunduğunu, xüsusilə də, tərcümənin Füzuli müəllim tərəfindən edildiyini biləndə çox sevindim. Hökmən kitabı alıb oxumağa qərar verdim.

"Biri vardı, biri yoxdu, olduqca böyük bir ailə vardı: ata, ana və səkkiz uşaq. Uşaqların adı belə idi: Maren, Martin, Marta, Mads, Mona, Milli, Mina və Balaca Morten.

Onlarla bir yerdə hamının ən çox sevdiyi balaca bir yük maşını da yaşayırdı. Onu necə də sevməyəydilər – axı, bu yük maşını bütün ailəni dolandırırdı!"

Füzuli müəllimin tərcüməsini böyük zövqlə oxudum. Əsər məni uşaqlıq illərimə qaytardı. Böyük ailənin gündəlik həyatında baş verən hadisələr, onların qayğıları sadə, inandırıcı, səlis dillə, o qədər mükəmməl tərcümə olinmuşdu ki, zaman-zaman əsəri orijinaldan oxuduğumu zənn edirdim.

Haqqında danışmaq istədiyim ikinci kitab Füzuli Əsgərlinin yeni tərcüməsidir. Söhbət rus yazıçısı və fantastı Yan Larrinin "Kariklə Valyanın qeyri-adi macəraları"ndan gedir. F.Köçərli adına Uşaq Kitabxanadakı növbəti götüşümüzdə Füzuli müəllim bu əsər haqqında o qədər maraqla danışdı ki, kitabın nəşr edilməsini gözləməyə səbrim çatmadı. Əsərin elektron variantını xahiş eləyib aldım və oxudum.

Kitab 1937-ci ildə yazılmış olsa da, nəinki balaca oxucuların, hətta böyüklərin də zövqünü oxşayan, macəra janrında yazılmış bu əsər çox maraqlıdır və bu gün də öz aktuallığını itirməmişdir. Burada balaca uşaqların fantastik səyahəti fonunda bir çox bitki və həşəratlar haqqında maraqlı məlumatlar verilir və bədii təsvir olunur. Əsərin dili isə xüsusi söhbətin mövzusudur. Çox şadam ki, Füzuli müəllim əsəri mükəmməl tərcümə etmiş, kitabdakı əhvalruhiyyəni saxlamağa bütövlükdə nail ola bilmişdir.

"Ana ağappaq süfrəni masanın üstünə salanda, nənə nahar üçün çörək doğrayanda, bu vaxt ol-

duqca qəribə, heyrətamiz və ağılasığmaz əhvalat baş verirdi. Elə bu vaxt Karik ilə Valya artıq şəhərin üzəri ilə naməlum bir dünyaya doğru uçurdular və burada onları qeyri-adi macəralar gözləyirdi".

Karik və Valya bacı-qardaşdılar. Valya çox ağlağan və dözümsüzdür. Karik isə cəsur və qorxmazdır. Professorun düzəltdiyi eleksiri içərək qarışqa boyda balacalaşan uşaqların başına nələr gəldiyini isə Füzuli müəllimin yüksək səviyyədə tərcümə etdiyi bu kitabı oxuyanda bilmək olar.

Bu əsər əsasında cizgi filmi və bədii film də çəkilib, amma onların heç biri kitabın özü qədər maraqlı alınmayıb. Belə bir əsəri tərcümə etməyin məsuliyyətini Füzuli müəllim öz üzərinə götürdüyü üçün ona dərin təşəkkürümü bildirirəm. Gənc oxucularımıza ürəklə deyə bilərəm ki, Azərbaycan dilində bədii tərcümələr siyahısına olduqca maraqlı və eyni zamanda ciddi bir uşaq əsəri də əlavə olundu.

Füzuli müəllim! Sizi yubiley yaşınız münasibətilə ürəkdən təbrik edirəm! Sizə can sağlığı, həyat və yaradıcılığınızda böyük uğurlar diləyirəm. Yaxşı ki, varsınız! Yaxşı ki, dünya ədəbiyyatının belə gözəl nümunələrini dilimizə belə gözəl tərcümə etmisiniz! Çox sağ olun!

"Bizim yol" qəzeti, 2015, 12 mart.

FƏXRƏDDİN YUSİFOV,
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Ömrünün 70-ci baharına xoş gəlmisən, qardaş!

Mən bu günlərdə olduqca çətin bir imtahan qarşısında qaldığımı hiss edirdim. Ona görə yox ki, imtahanlardan qorxuram. Hiss edirdim ki, bu imtahan və sınaq digərlərinə qətiyyən bənzəmir. Çünki dost haqqında söz söyləmək, uzun illərdən keçib gələn münasibətlər barəsində söz açmaq, onlardan daha hansının mühüm olunası seçimini etmək hamı kimi mənə də çox çətin görünürdü. Füzuli müəllimin yaradıcılığı barədə danışmaq, pedaqoji fəaliyyətindən söz açmaq o qədər də asan bir iş deyildir. Bunun üçün gərək onun elmi yaradıcılığına, tərcüməçilik və pedaqoji fəaliyyətinə, üstəgəl insani keyfiyyətlərinə dərindən bələd olasan.

Onu da deyim ki, Füzuli müəllimlə birlikdə artıq 35 ildir bir kafedrada çalışıram. Bu, az bir müddət deyildir. Bu illər ərzində mən Füzuli müəllimin əlində ancaq qələm görmüşəm. Gərgin zəhməti hesabına ərsəyə gətirdiyi elmi yaradıcılığı ilə ədəbiyyatımıza sanballı töhfələr vermişdir. Onun bədii tər-

cümə sahəsində işlərini isə ədəbi əlaqələrimizə bir qiymətli töhfə kimi saymaq olar.

Füzuli müəllimin zəngin və mənalı işləri ilə ziyalılar arasında, işlədiyi kollektivdə böyük hörmət və nüfuz qazanmışdır. Universitetimizin ictimai həyatında yaxından iştirak edən Füzuli müəllim öz intizamı, dəqiqliyi, öz işinə məsuliyyəti ilə seçilmişdir. Təsadüfi deyildir ki, bu xüsusiyyətlərinə görə universitetimizin "İlin alimi" və "İlin müəllimi" müsabiqələrində müxtəlif zamanlarda – 2009 və 2013-cü illərdə mükafata layiq yerləri tutmuşdur. Onun ali və orta ixtisas məktəbləri üçün qələmə aldığı "Uşaq ədəbiyyatı" dərsliyi, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" adlı dərs vəsaiti xüsusi əhəmiyyət daşıyır.

Məhsuldar əməyi nəticəsində respublikanın bir sıra ictimai təşkilatlarının nüfuzlu mükafatlarına, "Qızıl qələm" mediya mükafatı laureatı və "İlin nüfuzlu ziyalısı" fəxri adına layiq görülmüşdür.

Füzuli müəllim bir alim, bir vətəndaş, bir yoldaş, bir həmkar, bir müəllim kimi həmişə universitet rəhbərliyinin, professor-müəllim heyətinin, dərs dediyi bakalavr tələbələrin və magistrlərin diqqətini cəlb etmişdir.

Onun elmi yaradıcılığında qaldırdığı nəzəri problemlər, ədəbiyyatşünaslığa dair apardığı dərin

araşdırmalar hələ nə qədər gənc tədqiqatçılarımıza örnək olacaqdır. “Sənətkarın uşaq dünyası”, “Ədəbi düşüncələr”, “Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı”, “Ömrün sözü, sözün ömrü”, “Bədii tərcümə prinsipləri”, “Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları”, “Bədii təhlil və ədəbi tənqid”, “Sehrli dünyanın memarı”, “Problemlər, düşüncələr” və sair əsərlərini qeyd edə bilərəm.

Füzuli müəllimin keçdiyi ömür yolu bizə imkan verir deyək ki, əziz gənclərimiz, əgər sizlər də səmərəli fəaliyyət göstərmək, həyatda öz yerinizi və nüfuzunuzu artırmaq istəyirsinizsə, filologiya üzrə fəlsəfə doktoru, gözəl insan və böyük ədəbiyyatşünas alim, tərcüməçi kimi fəaliyyəti ilə seçilən Füzuli Əsgərlinin ömür yoluna, ədəbi və elmi fəaliyyətinə bir qədər də yaxın olun. Çünki bu ömür yolunda alimliklə müəllimlik, elmiliklə insaniyyətlik, nüfuzla səmimiyyət, elmi axtarışlarla məsuliyyət bir-birinə elə qovuşmuşdur ki, onları bir-birindən heç cür təcrid etmək olmur, bir sintez halındadır.

Böyük alim, səmimi dost və gözəl insan olan dosent Füzuli Əsgərliyə can sağlığı və yaradıcılıq uğurları arzulayırıq. Həmişə olduğu kimi daim irəli, qardaş! 70-ci bayramın mübarək!

02 mart 2015-ci il.

SƏRDAR ALLAHYARLI,
Pespublikanın əməkdar müəllimi, Beynəlxalq layihə iştirakçısı

Uşaqlıq dostum, ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərliyə Açıq məktub

Əziz dostum, hörmətli alimimiz, çoxsaylı elmi məqalənin, iri həcmli monoqrafiyaların müəllifi, mənim uşaqlıq illərimin həmdəmi, gənclik illərimin sirdaşı, ahıllıq illərimin dərd ortağı Füzuli müəllim, bu gün 70 illik yubileyində səni yaşıl talanın kənarında gövdəli palıda söykənərək nəfəsini dərən və müqəddəs yolda xoşbəxtlik zirvəsinə ucalan bir fateh kimi görürəm.

Çox sevinirəm ki, o fateh, o müdrik insan mənim uşaqlıqdan bəri dostumdur. Sədaqətinə, etibarına, səmimiliyinə inandığım, təmənnasız dostum. Biz bir məkanda dünyaya gəldik, bir məktəbə getdik, bir ali təhsil ocağında oxuduq. Sonra yollarımız ayrıldı. Ürəklərimiz isə heç ayrılmadı...

Sən uşaqlıqdan çox mütaliə edən, qərəzsiz, iddiasız, lakin prinsipial bir oğlan idin. Sən mütaliə

etdikcə sanki öz daxili dünyamızı yaradırdın. O dünya yarandıqca sən nurlanırdın, işıqlanırdın, daha çox sevilirdin. Hər adamı qəbul edə bilmirdin. Bəlkə də bizim yaxınlığımızın səbəbi dünyaya baxışımızın eyni olması, emosionallığımız, ətrafımızdakı insanları məkr və xəyanətdən uzaq olan bir dünyaya aparmaq istəyimiz oldu.

Füzuli müəllim, sən çapdan çıxan bütün kitablarının ilk nüsxəsini mənə – sadə bir əyalət müəlliminə, dəqiq elmlər sahəsində çalışan bir insana göndərəndə nə qədər sevindiyimi ifadə etmək çox çətindir. Fikirləşirdim ki, əsərlərini də özün kimi anlayacağına əminsən. Bu əminlik mənə olan etibarından gəlirdi və mənə xoş duyğular, xoş anlar bəxş edirdi. Uğurların məni sevindirirdi. Yaxşı bilirdim ki, uğurlarında sənə dəstək ola biləcək yeganə adam həyat yoldaşınız Elmira xanım və səni böyük məhəbbətlə sevəcək, çəkdiyin əziyyətlərə dəyər verən övladların – Şəfa, Cavid və Ceyhundur. Sən sadəcə ailəsinə bağlı olan insan deyil, fədakar ailə başçısısan. Həyatda nəyin varsa yalnız o sənə məxsusdur, sənin zəhmətinin nəticəsidir. Hər bir insanın həyatda ən böyük missiyası elə bu olmalıdır. Dostum, ona görə hər zaman başını uca tut, sən fədakar valideyn, dəyərli alim-filoloq, qələminə, xalqına, millətinə ürəyini verən böyük bir insansan, hər bir gəncə, qoca-

ya, ahıla nümunə olası bir ömür yaşayırsan. Səninlə qürur duyuram. 70 yaş yaradıcı insan üçün nədir ki?! Məni 100 saylı dayanacaqda gözlə. Sonrasını Allahın izni ilə yenidən sayarıq.

Nə vaxtsa yazdığım bu şeirlə fikrimi bitirmək istəyirəm:

Oturmuşam ata yurdun ocağının başında,
Odu sönüb, kül içindən bircə qor axtarıram.
Açı tüstü sakitləşir gözlərimin yaşında
Bu dünyanı dərk etməkçün ümid-nur axtarıram.

Nə edim ki, axar sular bir daha geri dönməz
Bu torpağı yetim qoyub, mən haraya gedim bəs?!

Darvazanın ağzındakı tənha çinar qocalıb
Qəribsəyib həsrət ilə yollardadı gözləri.
Elə bil ki, dünyaməzə duman alıb, çən alıb
Çəkilibdir bu torpaqdan oğulların izləri.

Hər oğulun işi deyil, qəm yükün çəkə bilməz
Bu torpağı yetim qoyub, mən haraya gedim bəs?!

Sevincimin şəriki çox, qəmi təkcə mənimdir
Qəm üstünə qəmi tökən, axı, kimdi, siz deyin.
Torpaq mənim, səma mənim, var-bərəkət mənimdir.

Bu torpağa şırım çəkən, axı, kimdi siz deyin
(İçinizdə qovrulmayın, yana-yana düz deyin).

Ocaq dərdi heç bir zaman ürəyimdən silinməz,
Bu torpağı yetim qoyub, mən haraya gedim bəs?!

Bu torpaqda atam, babam qeyrətiylə tanınıb,
Yanan olub el-obaya, hörmətiylə tanınıb.
Mən o nəslin övladıyam, dönəmmərəm yolumdan,
Yıxılanda saxlayınız, yapışınız qolumdan.

Gedənlərdən xəbər yoxdur, gedən geriyə dönməz
Bu torpağı yetim qoyub, mən haraya gedim bəs?!

R.S. 70 mrümüzün sınaq dövrüdür, bu sınaqdan üzüağ çıxdıq. Hədəfimiz 100-dür. İnşallah 100-də görüşüb dağlara çıxarıq. Zirvədən aşağı baxıb düşünərik, götür-qoy edərik... Öpürəm səni, sükanı belə saxla!

Dərin hörmətlə
Uşaqlıq dostun, səninçün sadəcə Sərdar.

10 mart 2015-ci il.

NURƏDDİN ULUXANLI,
Əcnəbilərlə iş üzrə şöbənin müdiri, dosent

Ömrün müdriklik zirvəsi

Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin dəyərli müəllimlərindən olan Füzuli Əsgərlini çoxdan tanıyıram. Azərbaycanın dilbər guşələrindən biri olan Masallı rayonunda böyüyüb boya-başa çatan Füzuli müəllimlə ilk tanışlığım mənim Azərbaycan Dövlət Pedaqoji Universitetində işləməyə başlamağımdan sonra yarandı. Füzuli müəllim əcnəbilərin hazırlığı şöbəsində "Azərbaycan ədəbiyyatı" fənnini tədris etməyə başladıqdan sonra onu daha yaxından tanımağa başladım. O, Pedaqoji Universitetin, ümumilikdə isə Azərbaycanın tanınmış ziyalılarından biridir. Tələbələrin sevimlisi olan Füzuli müəllim istər azərbaycanlı tələbələrin, istərsə də əcnəbi tələbələrin xüsusi hörmətini qazanmış insandır. Öz işinə məsuliyyətlə yanaşan Füzuli müəllim Azərbaycan ədəbiyyatının yüksək səviyyədə tədris olunması üçün əlindən gələni əsirgəmir. Füzuli Əsgərlini insanlara sevdirən mühüm cəhətlərdən biri də onun səmimi və dürüst insan olmasıı ilə bağlıdır.

Füzuli Əsgərli ümumi ədəbiyyatın çətin bölmələrindən biri olan uşaq ədəbiyyatının tədris və tədqiqinə vaxt ayırmaqla yanaşı, bu sahədə bir sıra yeniliklərə imza atmışdır. O, rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi problemləri ilə bağlı ciddi tədqiqatlar aparmış və bu sahədə ilk araşdırma aparan alimlər sırasında qərarlaşmışdır. Füzuli Əsgərli bu sahəni inkişaf etdirməklə bir sıra dəyərli dərsliklər, monoqrafiyalar, elmi məqalələr ərsəyə gətirmişdir. Onun müəllifi olduğu monoqrafiyalarla və elmi-publisistik məqalələrlə yaxından tanış olduqdan sonra bu insana olan rəğbətim daha da artdı. Füzuli müəllimin müəllifi olduğu monoqrafiyaların hər biri gərgin yaradıcı və elmi əməyin məhsulur desəm yanılmaram.

Füzuli müəllim "Uşaq ədəbiyyatı" adlı dərsliyin, "Sənətkarın uşaq dünyası", "Ədəbi düşüncələr", "Ömrün sözü, sözün ömrü", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehrli dünyanın memarı" və sair monoqrafiyaların müəllifidir. Onun müəllifi olduğu kitablar tələbələr və müəllimlər üçün mühüm bir bilik mənbəyidir. Bundan əlavə, Füzuli Əsgərli "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" adlı dərs

vəsaitlərinin də müəllifidir. Füzuli müəllimin fəaliyyəti bununla məhdudlaşmır. O, hər zaman axtarışdadır, öz üzərində çalışır və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün əlindən gələni əsirgəmir. Rəhbəri olduğum fakültədə təhsil alan türkiyəli tələbələrin türkçülük, turançılıq və vətənpərvərlik ruhunda tərbiyə olunması üçün Füzuli müəllim dərslərini yüksək səviyyədə tədris edir. Tələbələr də Füzuli müəllimdən olduqca məmnundurlar.

Füzuli müəllim həm də gözəl ailə başçısıdır, ləyaqətli ata, dəyərli həyat yoldaşı və sevimli babadır. Qohumları arasında xüsusi hörmətə layiq olan Füzuli müəllim həmkarları arasında da xüsusi nüfuz və hörmət sahibidir. Tələbə və müəllim yoldaşlarının hörmətini qazanmış bu dəyərli ziyalımıza mənim də xüsusi rəğbət və hörmətim vardır. Şərəfli müəllim adını daşıyan Füzuli Əsgərli "müəllim" adının müqəddəsliyini qorumaqla yanaşı, əsl ziyalı kimi Azərbaycan elminə xidmət göstərir. Onun elmi yaradıcılığı Azərbaycanın ədəbiyyatşünaslıq elmi tarixində xüsusi bir mövqedə qərarlaşmışdır. Uşaq ədəbiyyatına dair tədqiqlər apardığına görə Füzuli müəllim uşaq psixologiyasına, ümumilikdə insan mənəviyyatına dərindən bələddir. Necə deyərlər, Füzuli müəllim hər kəsi anlamağı bacarır. Başqa cür ola da bilməz. İnsan təfəkkürünə dərindən bələd olan dəyərli

ziyalımız Füzuli Əsgərli ümumilikdə insan psixologiyasına, insanın daxili dünyasına yaxından bələd olduğu üçün bu sahədə çətinlik çəkmir. Füzuli müəllim nüfuzlu alimdir, dəyərli ziyalıdır, bütövlükdə kamil bir insandır.

Bildiyimiz kimi, ədəbiyyat sözü "ədəb, mərifət" mənasını verir. Füzuli müəllim də bu ədəb və mərifətə xidmət göstərən, daxili və zahiri dünyası bir-birini tamamlayan şəxsiyyət, əsl ziyalıdır. Füzuli müəllim bu ziyasından tələbələrə nur paylayan hörmətli müəllim, şərəfli alimdir. Əminəm ki, onun ürfan işığından nur alan tələbələr də gələcəyin savadlı ziyalıları olacaqdır. Füzuli müəllimə bu çətin və şərəfli ömür yolunda uğurlar arzulayır, ulu tanrıdan can sağlığı diləyirəm. Arzu edirəm ki, bu dəyərli ziyalımızın ziyası, nuru, ürfan işığı heç bir zaman sönməsin!

14 mart 2015-ci il.

KAMİL BƏŞİROV,
filologiya üzrə elmlər doktoru

70 yaşlı cavan Füzuli müəllim

Doğrusu, eşidəndə ki, Füzuli Əsgərlinin 70 yaşı tamam olur, inana bilmədim, çünki biz onunla təxminən eyni vaxtda ali təhsil almışıq, yəni məndən bir, ya da iki kurs yuxarı oxuyurdu. İndi isə məlum olur ki, Füzuli müəllim məndən təxminən on yaş böyükdür. Amma öz aramızdır, ona bu yaşı vermək olmur, maşallah olsun, yaşından çox cavan görünür...

Elə tələbəlik illərində də bu yaş fərqini demək olar ki, hiss etməmişdim. Biz hələ keçən əsrin 70-ci illərinin əvvəllərindən tanışıq. Yaxşı yadımdadır, o vaxt Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinin birinci kursunda oxuyurdum . Bir gün dekan müavini, mərhum müəllimimiz Quşdan Bağırov yanında cavan bir oğlanla auditoriyamıza daxil oldu və onu bizə təqdim etdi. Dedi ki, Füzuli fakültənin nəzdində fəaliyyət göstərən dram dərnəyinin rəhbəridir. Fikri var ki, bu yaxınlarda dramaturq Altay Məmmədovun “Həmyerlilər” komediyasını tamaşaya qoysun. Ona görə də, bu tamaşada iştirak etmək üçün uyğun tələbələr seçirik, kimin həvəsi və bacarığı varsa, irəli çıxıb adını yazdırsın. Bir neçə

nəfər bu arzuda olsa da, Füzuli müəllim qrupdan yalnız ikimizi – məni və Malik Qədimovu seçdi. Dərsdən sonra ona yaxınlaşdıq və hərəmizə bir rol tapşırdı, mənə şair Maşallah rolu düşdü. Biz elə həmin gündən digər tələbə yoldaşlarımızla birgə məşqə başladıq. Baş rolda – Gümüşov rolunda təbii ki, Füzuli Əsgərli özü oynayırdı. Çox ciddi çalışmalar nəticəsində qısa bir müddətdə tamaşanı hazırlaya bildik. Əsər institutun böyük akt zalında tamaşaya qoyulmalı idi. Tamaşadan bir az əvvəl Füzuli müəllim bizi xəbərdar etdi ki, baxış əvvəlcə yalnız fakültə müəllimləri və tələbələri üçün nəzərdə tutulsa da, sonra bütün institut üçün oynayacağıq, o cümlədən, institutun rəhbərliyi, şəxsən də rektor professor Haşım Ağayev də zalda tamaşaçı qismində iştirak edəcək. Bu bizi bir az həyəcanlandırdı, yəqin elə buna görə də uşaqların birindən rolda istifadə üçün borc aldığım və neçə vaxt cibimdə gəzdirdiyim qalstuku itirdim, hara qoyduğumu bilmədim. Elə bu vaxt fakültəmizin komsomol təşkilatının (indi "gənclər təşkilatı" adlanır – K.B.) katibi Ramazan Qafarlı səhnə arxasına keçdi (hazırda o, filologiya üzrə elmlər doktoru, professortdur). Gözümü boynundakı qəşəng qalstukdan çəkə bilmədiyimi dərhal hiss elədi və bir söz soruşmadan qalstuku çıxarıb mənim boynuma taxdı və əlavə etdi:

– Şair, əgər ifa etdiyin rol xoşuma gəlsə, bu qalstuku sənə bağışlayacağam.

Sonda elə də eləddi. Tamaşa çox uğurla keçdi, bütün zal bizi alqışladı. Səhv etmirəmsə, fakültə dekanı professor Afad Qurbanovun təşəbbüsü ilə bizə pul mükafatı da verildi…

Füzuli müəllim institutu bizdən tez bitirdi, bir müddət onu görmədim. İkinci dəfə isə onu 1980-ci ildə, mən aspiranturaya qəbul olandan sonra görə bildim. Səhv etmirəmsə, o institutun bədii özfəaliyyət kollektivinin – "Məşəl" tələbə dram teatrının bədii rəhbər vəzifəsində çalışırdı. Bir az sonra isə indi dosent kimi çalışdığı "Ədəbiyyat və onun tədrisi metodikası kafedrası"na keçdi, "Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi problemləri (1950-1980-ci illər)" mövzusunda alimlik dissertasiyası müdafiə etdi. Bir müddət filologiya fakültəsində dekan müavini vəzifəsində çalışdı. Xeyli dəyərli elmi monoqrafiya, dərslik və dərs vəsaitləri ortaya qoydu, respublikada və ondan kənarda elmi məclislərdən səsi-sorağı gəldi və bu gün də gəlməkdədir.

Füzuli müəllim dərs dediyi tələbələri çox sevir, ona görə də gənclər onun ən çox sevdiyi söhbət və tədqiqat mövzusudur.

Görünür, gözəl müəllim və gözəl baba olmağının da sirri məhz elə bundadır, necə deyərlər sevməsən, sevilməzsən. Allahın bəxş etdiyi istedad, obyektivlik, xeyirxahlıq, səmimilik, zəhmət və insansevərlik Füzuli müəllimin bir insan kimi şəxsiyyətinin ən xarakterik cəhətləridir. Çox müsbət auraya malik olan çöhrəsi ilə hər dəfə rastlaşanda, ondakı sonsuz nikbinlik duyğusu mənə də təsir edir və hələ bir neçə metr məsafədən onu salamlamaqdan özünü saxlaya bilmirəm:

– Salam, Əsgərli!

– Salam, Bəşirli, necəsən?

– Mən yaxşıyam, Sizin də həmişə sağlam və nikbin olmağınızı arzu edirəm. Allah sizi qorusun, Füzuli müəllim!

29 mart 2015-ci il.

QÜDRƏT UMUDOV,
filologiya üzrə fəlsəfə
doktoru, dosent

Bədii rəhbər və rejissor kimi

Füzuli Əsgərli ədəbiyyatşünas alim, tərcüməçi və ustad müəllim olmaqla yanaşı teatr sənətinin də vurğunu və fədaisidir. Əgər Füzuli müəllim ədəbiyyatşünaslığa və pedaqoji fəaliyyət sahəsinə gəlməsəydi, yəqin ki, teatrı seçəcək, çox məşhur aktyor və ya yaradıcılıq özəllikləri ilə seçilən görkəmli rejissor olacaqdı...

Mən Füzuli Əsgərlinin istedad və qabiliyyətinin daha çox bu istiqamətindən bəhs etmək istəyirəm.

Füzuli Əsgərlinin ədəbiyyata, onunla üzvi surətdə bağlı olan teatra vurğunluğu kiçik yaşlarından başlayıb. Onun atası Feyruz kişi ədəbiyyat maraqlısı idi. Atasının və ədəbiyyat müəllimlərinin təsiri kiçik Füzulinin kitablara olan həvəsinin xeyli artmasına səbəb olmuşdur. Oxuduğu bədii kitablarda cərəyan edən hadisələri və qəhrəmanları Füzuli təsəvvüründə canlandırar, xəyalında onlara quruluş verər, özünü və dostlarını da orada görərdi.

Təhsil aldığı müddətdə məktəblərində keçirilən bədii gecələr və səhnəciklər, poeziya və səhnə tədbirləri Füzulisiz olmurmuş. Yuxarı siniflərdə oxuyarkən müəllimləri bütün mədəni tədbirləri onun öhdəsinə buraxmışdılar. Füzulidən sonra da bu ənənəni onun davamçıları uzun müddət estafet olaraq yaşatmışlar.

Füzuli müəllim elmə və ədəbiyyata həyatın içindən görə-görə gəlib. Tələbəlik həyatı orta məktəbi bitirən kimi baş tutmayan Füzuli üç il Uralın şərqində əsgəri xidmətdə olmuş, sonra isə Bakıya qayıdaraq əvvəlcə Bakı şin, sonra isə leytenant Şmidt maşınqayırma zavodlarında istehsalatda çalışmışdır. O, fəhləlik dövründə də "dinc" durmayıb, işlədiyi müəssisələrin mədəni-kütləvi həyatında fəallıq göstərmişdir.

ADPİ-nin (indiki ADPU-nun) filologiya fakültəsinin əyani şöbəsinə daxil olanda (1969) Füzulinin 24 yaşı vardı. Elə ilk günlərdən o həm təhsildə, həm də fakültənin ictimai həyatında fəallığı ilə seçilməyə başladı. Bu istedadlı gəncin gəlişi ilə vaxtilə institutda yaradılmış, lakin tənəzzül dövrünü yaşayan "Məşəl" tələbə teatrında (qeyd edim ki, tələbə teatrına bu adı Füzuli müəllim vermişdir) canlanma başladı. Qısa bir zaman ərzində respublikada tələbə teatrları arasında birinciliyi qazanan bu yaradıcılıq

studiyası sonrakı inkişafı və nəaliyyətləri üçün Füzuli müəllimə borcludur. Onun istedad və bacarığını görən institut rəhbərliyi Füzuli Əsgərlini maaşla tələbə teatrına və bədii özfəaliyyət dərnəklərinə bədii rəhbər təyin etdi. "Məşəl"i o zaman Azərbaycanda fəaliyyət göstərən ən yaxşı "Xalq teatrı" səviyyəsinə qaldıran da Füzuli Əsgərli oldu.

Mən Füzuli müəllimlə 1974-cü ilin dekabrında tanış olmuşam. Filologiya fakültəsinə yenicə daxil olmuşdum. Mənim bu tələbə teatrına marağım böyük idi. Fakültəmiz institutun əsas binasından aralı – başqa ünvanda yerləşdiyi üçün əvvəllər "Məşəl"in varlığından xəbərim yox idi. Bir gün keçdiyimiz auditoriyaya filologiya fakültəsinin komsomol komitəsinin katibi Famazan Qafarlı ilə (o indi həmin fakültənin professorudur) birlikdə dəblə geyinmiş, qara saçlarını səliqə ilə yana daramış, 25-26 yaşlarında, ilk baxışdan ciddi görkəmli, ucaboy bir gənc daxil oldu. Mən onu görən kimi nədənsə şəkillərini teatrların foyelərində gördüyüm Hüseyn Ərəblinskiyə, Ülvi Rəcəbə, bəlkə də XX əsrin əvvəllərində yaşamış əcnəbi aktyorların hansınasa bənzətdim. Zənnim məni aldatmamışdı. Təqdimatdan sonra məlum oldu ki, bu gələn səhnə adamıdır...

Sözə başlayan komsomol təşkilatının katibi fakültəmizdə teatr dərnəyinin təşkil olunacağı, onu

“Gənclik” adlanacağını elan etdi. O, yanında dayanan gənci göstərərək bu işin təşkili üçün fakültə rəhbərliyinin Füzuli Əsgərlini dəvət etdiyini bildirdi. Mən də həvəslə dərnəyə üzv yazıldım. Dekabrın əvvəlləri idi. Dərsdən sonra yığılan dərnək üzvlərinə Füzuli müəllim dedi ki, vaxt azdır, Yeni il üçün biz nəsə göstərməliyik, ona görə də, kiçik səhnəciklərə, pyeslərdən parçalara müraciət etməliyik. Qızğın gedən məşqlər və Füzuli müəllimin səriştəsi bəhrəsini verdi. Oynadığımız bu səhnəciklər tamaşaçıların çox xoşuna gəldi...

Füzuli müəllim yorulmaq bilmədən çalışırdı. O, institutun akt zalında “Məşəl”in yeni-yeni tamaşalarına quruluş verməklə yanaşı, doğma fakültəsinin “Gənclik” dram dərnəyinə də rəhbərlik edirdi.

Füzuli müəllim daha istedadlı tələbə-aktyorları “Məşəl”ə apardı. Mən də onların arasındaydım. Hələ orta məktəbin yuxarı siniflərində oxuyarkən məktəbdə və 300 nəfərlik yer tutan kənd klubunda qoyulan tamaşalarda bir çox rollar oynamışdım. Deyilənə görə, bir balaca istedadım var idi. Füzuli müəllim bunu sezmişdi. Mənə deyirdi: “Sənin yüksək tonda bariton səsin və olduqca ciddi görkəmin var, oynayacağın obrazı yaxşı hiss edirsən, onun daxilinə girə bilirsən, onun xarakterini yetərincə açırsan, səhnədə doğru yer seçir, təbii inandırıcı jestlər edə

bilirsən. Bütün bunlar isə aktyor üçün vacib şərtlərdən biridir”.

“Məşəl”də istedadlı gənclər çox idi. Onlardan dramatik rolların əsas ifaçılarından Ramiz Novruzovu və komik obrazların mahir ifaçısı Laçın Əsgərlini qeyd etmək lazımdır. İndi Pespublikanın xalq artisti, görkəmli teatr və kino aktyoru kimi məşhur olan Ramiz Novruzovla bir fakültədə , bir kursda, bir birləşmədə oxuyurduq. Yeri gəlmişkən qeyd edim ki, Ramiz də filologiya fakültəsinə istehsalatdan gəlmişdi. Ramiz birinci kursu bitirəndən sonra Azərbaycan Dövlət İncəsənət institutuna köçürüldü.

Laçin isə Füzulu müəllimin kiçik qardaşı idi, komik tipləri çox məharətlə yaradırdı. Biz onu Bəşir Səfəroğlu ilə müqayisə edərdik.

Füzuli müəllim müxtəlif mövzulu əsərlər seçərdi. O gah duzlu-məzəli məişət antipodlarını satira atəşinə tutan görkəmli komedionəvslərin əsərlərini səhnəyə qoyur, gah da ağır dramatik pyeslərə müraciət edərdi. Bu onu göstərir ki, rejissor tələbə aktyorların potensial imkanlarına dəyərləndirir, onlara inanırdı. Çünki truppamızda hansı səbəbdənsə yolu İncəsənət institutundan, peşəkar aktyorluqdan kənar düşmüş istedadlı gənclər vardı.

Yaxşı yadımdadır, Füzuli müəllim 1975-ci ilin mayında faşizm üzərində qələbənin 30 illik yu-

bileyi ilə əlaqədar M.Hüseyn və İ.Əfəndiyevin birgə yazdıqları "İntizar" pyesini tamaşaya qoydu. Tamaşaçıların və mətbuatın rəylərinə görə uğurlu bir tamaşa alınmışdı.

Füzuli müəllim komediya janrına daha çox meyl edirdi. Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", Altay Məmmədovun "Həmyerlilər", "Kişilər", Anatoli Safronovun "Kişilərə inanmayın", Əfqan Əsgərovun "Qız atası" və sair əsərləriin tamaşaları anşlaqla keçirdi. Onlar haqqında pespublika mətbuatlarında yazılar gedirdi.

Füzuli müəllim "Toy" komediyasındakı Kərəmov obrazını mənə tapşıranda dedi: "Aktyor bir ampluada çıxış etməməlidir. Gəl səni komik rollarda da sınayaq". Tamaşa əla keçdi. Tamaşadan sonra Füzuli müəllim məni təbrik edib dedi ki, mən səni Kərəmov kimi kəşf etdim.

70-ci illərdə tələbələrə ikinci ixtisas vermək məqsədilə ADPİ-də "İctimai peşələr fakültəsi" açıldı. Füzuli müəllimin təşəbbüsü və rəhbərliyilə "Teatr və aktyorluq" kursu da təşkil edildi. İki illik nəzəri və praktiki məşğələlərdən sonra bizə ikinci ixtisas diplomu verildi. Bu kursda həmçinin Füzuli müəllimin dəvət etdiyi, sonralar "Xalq artisti" fəxri adı almış Yaşar Huri və Tarıyel Qasımov burada fəaliyyət göstərdilər.

O illər Füzuli müəllimin tamaşaya qoyduğu və mənim xatirimdə dərin iz buraxan əsərlərdən biri də Nazim Hikmətin “Unudulan adam” pyesi idi və baş rolu – Doktor obrazını yaratmağı mənə həvalə etmişdi. Füzuli müəllim hər bir obrazın xarakterini açırdı. O, mənimlə daha çox söhbət edirdi, deyirdi: “Qüdrət, tamaşanın uğuru səndən asılıdır”. Elə bil mən dönüb Nazim Hikmətin Doktoru olmalıydım. Tamaşa gözlədiyimizdən də uğurlu alındı.

Bu, Füzuli müəllimin bizimlə tamaşaya qoyduğu son əsər oldu. Ondan niyə belə olduğunu soruşanda: “Elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq istəyirəm. Kifayətdir, yaş ötür”, – dedi.

Bu gün Füzuli müəllim universitetimizin nüfuzlu və tələbələr tərəfindən çox sevilən müəllimlərindən biridir. O, bir çox monoqrafiya, dərslik, dərs vəsaiti və 100-dən artıq elmi-nəzəri, publisistik məqalənin, bir çox bədii tərcümələrin müəllifidir.

70 yaşın mübarək! Ömrün uzun olsun, ustad!

25 mart 2015-ci il.

ŞÖHRƏT MƏMMƏDOVA,
filologiya üzrə fəlsəfə doktoru

Ömrünün müdriklik çağını yaşayan insan

Əsgərli Füzuli Feyruz oğlunun adı və imzası uşaq ədəbiyyatı dünyasında bu gün kifayət qədər tez-tez səslənən adlardan, nəzərə çarpan imzalardandır. Yaradıcılığının və həyatının ən məhsuldar illərini yaşayan, ölkənin elmi-ictimai proseslərində fəal iştirak edən Füzuli Əsgərli işinə məsuliyyətli insan, gözəl pedaqoq, ustad müəllimdir. Öz işinə hədsiz tələbkarlığı, yolrulmadan yaradıcılıqla məşğul olması onun "İlin müəllimi" (2009, 2013) "İlin nüfuzlu ziyalısı" (2010) kimi yüksək fəxri adlara layiq görülməsinə səbəb olmuşdur. Füzuli müəllimin çoxşaxəli, geniş mündəricəli, çoxçalarlı yaradıcılığı da dövlət tərəfindən diqqətdən kənarda qalmamış, "Qızıl qələm" kimi yüksək bir mükafata layiq görülmüşdür.

70 illik ömür yolunda dolğun və mənalı yaradıcılıq yolu keçən Füzuli müəllim 100-dən çox elmi-nəzəri və publisitik məqalələrin, dərslik və dərs vəsaitlərinin, iri həcmli monoqrafiyaların müəllifidir. Sınaqlarla dolu olan keçməkeşli həyat yolunda bütün

çətinliklərə sinə gərə-gərə addımlayan Füzuli Əsgərli uşaq ədəbiyyatı sahəsində özünəməzsus izi və sözü olan alimlərimizdəndir. Elm sahəsində təsadüfi bir alim olmadığını sübut edən Füzuli Əsgərlinin böyük bir zəhmətinin, neçə-neçə yuxusuz geclərinin bəhrəsi olan dərs vəsaitləri, monoqrafiyaları əvəzsiz tədqiqatlar kimi hər zaman bizə gərək olub. "Sənətkarın uşaq dünyası", "Zahid Xəlilin sənət dünyası", "Ömrün sözü, sözün ömrü", "Sehrli dünyanın memarı" və sair kimi kitabları şəxsən mənim neçə ildir elmi işimi yazarkən bəhrələndiyim ən qiymətli mənbələrdən biri olub.

Uzun illər bədii tərcümənin nəzəri problemlərilə məşğul olan, dünya xalqlarının bir çox ədəbi nümunələrini doğma ana dilimizə tərcümə edən istedadlı və yorulmaz alim Füzuli Əsgərli Azərbaycan uşaq ədəbiyyatına çox dəyərli töhfələr vermişdir. "Ədəbi düşüncələr" (2004), Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" (2009), "Bədii tərcümə prinsipləri" (2009), "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları (2010), "Bədii təhlil və ədəbi tənqid" (2010) kimi neçə-neçə monoqrafiyaları dediklərimizə əyani sübutdur.

Uşaq ədəbiyyatı və onunla əlaqəli nəzəri-estetik fikirləri kifayət qədər mənimsəyib tədqiqatlarında tədqiq edən Füzuli müəllim hansısa bir uşaq

sənətkarının yaradıcılığına toxunursa həmin sənətkarın uşaq əsərlərinin özünəməxsusluğunu, spesifik bədii çalarlarını, fərdi dil-üslub xüsusiyyətlərini, ədibin bəhrələndiyi mənəvi-etik qaynaqlarını daha dərindən tədqiq edib, onun fərqli məqamlarını, ümumi cəhətlərini üzə çıxarmağı bacarmışdır. Bu söz gəlişi və ya təsadüfi deyilmiş bir fikir deyildir. Mən Füzuli müəllimin Azərbaycan uşaq nəsrinin Anderseni adlandırdığı, Canni Rodarinin davamçısı kimi qiymətləndirdiyi uşaq sənətkarı Zahid Xəlilin yaradıcılığını tədqiqat obyektinə çevirdiyi "Sehrli dünyanın memarı" monoqrafiyasını nəzərdən keçirərkən belə bir qənaətə gəldim.

Bu gün ömrünün ən gözəl çağını, müdriklik dövrünü yaşayan ədəbiyyatşünas alim, gözəl tərcüməçi Füzuli Əsgərliyə yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki, onun uşaq ədəbiyyatı sahəsində dərin məzmunlu və dəyərli araşdırmaları daha da intensiv şəkildə davam etsin, bizim kimi gənc alimləri yeni-yeni əsərləri ilə sevindirsin.

17 mart 2015-ci il.

SİMUZƏR ƏLİYEVA,
filologiya üzrə fəlsəfə doktoru

İstedadlı alim, səmimi insan

Mən Fizuli müəllimi 90-cı illərdən tanıyıram. O zaman mən Pedaqoji Universitetə yenicə işə qəbul olunmuşdum. Fizuli müəllim isə filologiya fakultəsinin dekan müavini və eləcə də "Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının dosenti vəzifəsində çalışırdı. Elə o vaxtlardan Fizuli müəllimi öz işinə olduqca məsuliyyətlə yanaşan, universitetin professor- müəllim heyətinin və tələbələrin arasında böyük nüfuza malik olması mənim də diqqətimi cəkmişdi.

Ömrünün ən mənalı çağlarından bu günə qədər elmi yaradıcılıqla və gənç nəslin təlim-tərbiyəsi ilə məşğul olan Fizuli Əsgərli uşaq ədəbiyyatının tədqiq olunmasında və bədii tərçümə sahəsində səmərəli işlər görmüş, bir çox dünya xalqlarının ədəbi nümunələrini dilimizdə səsləndirmişdir. O, "Rus uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi problemləri (1950-1980-ci illər) mövzusunda dissertasiyası müdafiə etmişdir. Həmçinin, ali və orta ixtisas məktəbləri üçün "Uşaq ədəbiyyatı" dərsliyinin, "Sənətkarın uşaq dünyası", "Ədəbi düşüncələr", "Ömrün sö-

zü, sözün ömrü", "Azərbaycan uşaq ədəbiyyatının mərhələləri inkişafı", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehrli dünyanın memarı" monoqrafiyalarının, tərtib etdiyi "Zahid Xəlilin sənət dünyası", "Problemlər, düşüncələr" məqalələr toplusunun, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" dərs vəsaitlərinin, 100-dən çox elmi-nəzəri və publisistik məqalənin müəllifidir. Elmi-pedaqoji və bədii tərcümə yaradıcılığındakı ardıcıl fəaliyyətinə görə "Qızıl qələm" mükafatı laureatı, "İlin müəllimi" (2009, 2013), "İlin nüfuzlu ziyalısı" (2010) fəxri adlarına layiq görülmüşdür.

Fizuli müəllim gözəl ailə başçısı və səmimi bir insandır. Bu səmimiyyətini istər onu əhatə edənlərdən, istərsə tələbələrindən hec vaxt əsirğəmir, hamıya öz köməyini göstərir. Hazırda mən Fizuli müəllimlə bir kafedrada işləyirəm və çalışıram ki, istər elmi sahədə, istərsə də tədris sahəsində onun dəyərli məsləhətlərindən bəhrələnim.

Əziz Fizuli müəllim, bu gunlərdə Sizin 70 illik yubileyiniz qeyd ediləcək. 7 müqəddəs rəqəmdir. Allahdan arzum budur ki, bu rəqəm Sizi 100 rəqəminə catdırsın. Sizə çan sağlığı, ailədə övlad fəxarəti və yeni-yeni zirvələr arzulayıram!

YEGANƏ QƏHRƏMANOVA
(ERGİN),
filologiya üzrə fəlsəfə doktoru

Şərəfli ömrün sözü

Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinun dosenti Füzuli Feyruz oğlu Əsgərli haqqında danışarkən onun müəllim, ədəbiyyatşünas alim, publisist və mahir tərcüməçi kimi çoxcəhətli yaradıcılıq fəaliyyətini xatırlamamaq mümkün deyil. Bu fəaliyyət sahələrinin hər birində özünəməxsus dəsti-xətti olan Füzuli Əsgərli mənim nəzərimdə, ilk növbədə, əsl müəllim və gözəl insan kimi canlanır. Hər dəfə onunla qarşılaşarkən üzünün səmimi və doğma ifadəsi məni istər-istəməz tələbəlik illərinə aparır, xəyalımda o illərin xoş xatirələri canlanır.

Dəyərini bilənlər üçün müəllimlik həmişə şərəf işi sayılıb. Əsl müəllim olmaq ömrünü elm və bilik aşılamaq uğrunda şam kimi əritmək, özünü cəmiyyətin mənəvi tərbiyəsinə həsr etməkdir. Əsl müəllim həm də öz dəyişməz xarakteri ilə gənclərin ürəyində ümid çırağı yandırmağı bacarmalıdır. Füzuli Əsgərli də məhz belə müəllimlərdən biridir.

1993-cü ildə ölkəmizdə baş verən siyası hadisələr və hakimiyyət dəyişikliyi səbəbindən ali məktəblərə qəbul imtahanları gecikmişdi. Həmin ildə tələbə adını qazananlar ilk dərs gününə sentyabrın 15-də yox, dekabrın 6-da başlamalı olmuşdular.

Hamı həyəcan içində idi. İllərlə həsrətini çəkdiyimiz ali məktəb auditoriyalarında bizləri kimlərin və nələrin gözləyəcəyini düşünə-düşünə ətrafımızı gözdən keçirirdik. Elə bu vaxt əlində bir neçə sənəd tutmuş orta yaşlı, uca boylu bir nəfər bizə yaxınlaşıb özünü təqdim etdi: "Filologiya fakültəsinin dekan müavini Füzuli müəllim". O, hər birimizi tələbə adı almağımız münasibəti ilə təbrik etdikdən sonra bizimlə elə səmimi söhbət apardı ki, bayaqdan hamını narahat edən həyəcan hissi tədricən aradan qalxmağa başladı. Elə ilk söhbətdən Füzuli müəllim həm özünü, həm də universitetimizi bizim üçün doğmalaşdırdı. Tələbəlik illərinin sonuna qədər də onu həmişə eyni xarakterdə gördük, səmimi, cəsarətli və haqqı müdafiə edən. Ən çətin vəziyyətlərdə bizə düzgün yol göstərdi, lazım olanda haqqımızı tələb etməyə cəsarətləndirdi. Tələbkarlığı və ciddiyyəti ilə yanaşı, həssas qəlbə malik olması onu hər birimizə sevdirdi.

Artıq uzun illərdir ki, Füzuli müəllimlə eyni kollektivdə çalışırıq. Onunla hər dəfə qarşılaşanda ürəyim qürur hissi ilə döyünür. Çünki bu illlər ərzin-

də dəyişənlər, hər vəziyyətdə fərqli simalara düşənlər çox olub. Lakin Füzuli müəllim həmişə öz simasını qoruyub. O, şəraitə uyğunlaşanlardan deyil, şəraiti öz dünyagörüşünə uyğunlaşdırmağa çalışan əsl ziyalılardandır. Onun ali və orta ixtisas məktəbləri üçün qələmə aldığı "Uşaq ədəbiyyatı" dərsliyi, "Ədəbi düşüncələr", "Ömrün sözü, sözün ömrü", "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı", "Bədii tərcümə prinsipləri", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Sehirli dünyanın memarı" monoqrafiyaları, "Zahid Xəlilin sənət dünyası" məqalələr toplusu, "Azərbaycan uşaq ədəbiyyatı" və "Dünya uşaq ədəbiyyatı" adlı dərs vəsaitləri, yüzdən artıq elmi-nəzəri və publisistik məqalələri, dünya ədəbiyyatından etdiyi bədii tərcümələri zəngin və çoxşaxəli yaradıcılıq fəaliyyətinin bəhrəsidir.

"Qızıl qələm" mükafatı laureatı, "İlin müəllimi" və "İlin nüfuzlu ziyalısı" fəxri adlarına layiq görülmüş Füzuli müəllimə can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Mən fəxr edirəm ki, doğma və ləyaqətli müəllimlərimin yolunu davam etdirənlər sırasındayam.

25 mart 2015-ci il.

AYNURƏ ƏLİYEVA,

Şərəfli müəllim ömrü

Müəllim adı hər zaman hamı üçün doğma və əziz olub. Bu adı şərəflə daşımaq isə müəllimlərin müqəddəs borcu sayılır. Bizim hər birimizin həyatında müəllim əməyi var və hər birimiz müəllim əməyinin, müəllim sevgisinin bəhrələriyik. Adına, peşəsinə hörmət gətirən, həyatını dəyərli işinə həsr edən müəllimlərimiz az deyil. Onlardan biri də şəxsiyyətinə dərin hörmət bəslədiyim gözəl insan, tanınmış alim və pedaqoq Füzuli Əsgərlidir.

Mən Füzuli müəllimi tələbəlik illərindən tanıyıram. İllər elə tez ötüb keçir ki, biz onun fərqinə belə varmırıq. Elə bil dünən idi, Azərbaycan Dövlət Pedaqoji Universitetinun filologiya fakültəsinə qəbul olunduğum gün. Ali məktəbə test üsulu ilə verdiyim imtahanın cavabını yanlışlıq üzündən gec bildiyim üçün dərslərin başlamasına bir gün qalmış anamla Bakıya gəldik. ADPU-nun filologiya fakültəsinin dekanlığına sənədlərimi təqdim etmək üçün yaxınlaşdıq. Burada bizi qədd-qaməti çinar ağacıtək düz, ucaboy, ciddi görkəmli bir şəxs qarşıladı. Öyrəndim

ki, o, dekan müavini Füzuli Əsgərlidir. Təmkinlə sənədlərimi alıb baxdı. Sənədlərdən birini – test imtahanına buraxılış vərəqini gətirməyi unutmuşdum. Daha doğrusu, bu sənədin lazım olacağını bilmirdim. Füzuli müəllim mehribancasına məndən soruşdu: - "Niyə belə kecikmisiniz? Bu gün sənəd qəbulunun sonuncu günüdür. Bir sənədin də çatmır", – dedi. Biz gecikmə səbəbini danışdıq. Füzuli müəllim bizi çox anlayışla qarşıladı: "Mən sizə inanıram. Əsas sənədlər yerindədir, bir-iki günə də digər sənədləri çatdırarsınız", – dedi. Elə o vaxtdan Füzuli müəllim həm oxuyacağım elm ocağı, həm də oranın müəllimləri haqqında xoş təəssürat yaratdı ki, sonradan yanılmadığımın şahidi oldum. Təhsil aldığım mühit, bizə dərs deyən müəllimlərin xarakteri, mən də daxil olmaqla, tələbə yoldaşlarımın əksəriyyətini həyata hazırladı.

Dekan müavini kimi Füzuli Əsgərli öz işinin öhtəsindən çox ustalıqla gəlirdi. O, vəzifəsinin vurğunu idi. Hər zaman işinin başında olmağı sevirdi. Füzuli müəllim tələbələrdə ilk olaraq məsuliyyət hissini aşıladı. Baxmayaraq ki, bizim tələbə adını qazandığımız il filologiya fakültəsinə qəbul olan tələbələrin sayı digər illərə nisbətən daha çox idi. Füzuli müəllim bütün tələbələrə özü nəzarət edirdi. Zəng vurulan vaxtı üçüncü mərtəbənin dəhlizinə çı-

xar, bütün otaqlara göz yetirərdi. Necə iş idi bilmirəm, kim geciksə idi, mütləq Füzuli müəllimlə rastlaşırdı. Ona görə də, altı qrup tələbədən ya bir, yaxud iki nəfər gecikər ya gecikməzdi. Biz tələbələr ondan qorxmurduq, böyük görmət bəsləyirdik. Gecikdiyimizi görəndə utanırdıq. O özünü tələbələrinə sevdirməyi bacarmışdı. Bunun üçün o, xüsusi canfəşanlıq etməzdi, hər kəsə eyni qayğı ilə yanaşır, eyni münsibət göstərirdi. Hər zaman bizi görəndə nəsihət edər, biz də əməl edərdik. Füzuli müəllimin sözü tələbələr üçün sanki qanun idi. Nə qədər işinə ciddi, tələbkar, məsuliyyətli idisə, bir o qədər də həssas, qayğıkeş idi. Füzuli müllim gözəl yaddaşa malikdir. Altı qrup tələbənin hər birinin adını, soyadını, hətta atasının adını da bilir, heç bir yanlışlığa yol verməzdi. Füzuli Əsgərli həm də gözəl müəllimdir.

Onun 70 illik ömür yolunda müəllimlik müqəddəs bir peşədir. İstər bizim ilin tələbələri, istərsə də indiki tələbələr onu öz fənninin bütün incəliklərinə dərindən bələd olan müəllim kimi dəyərləndirirlər. O, vəzifəsində olduğu kimi müəllimlik fəaliyyətində də məsuliyyətliliyi və obyektivliliyi ilə seçilir. Onun orijinal mühakimələri, aydın bir dildə dərsi izah etmək bacarığı, fənninin bütün dərinliklərini bilməsi az müddət ərzində tədris etdiyi “Ifadəli oxu” və “Uşaq ədəbiyyatı” fənnini bütün tələbələrə

sevdirdi. Yadımdadır ki, onun dərs saatını bütün tələbələr səbirsizliklə gözləyirdi. Füzuli müəllim keçəcəyi mövzunu o dərəcədə ətraflı, səlis və hərtərəfli izah edirdi ki, sual verib nəyisə aydınlaşdırmağa ehtiyac qalmırdı. Ürəklə deyirəm ki, onun 70 illik ömür yolunda müəllimlik elə bir müqəddəs peşədir ki, bu gün də bu peşəni böyük uğurla və şərəflə yerinə yetirir.

Füzuli Əsgərli həm də tanınmış filoloq- alimdir. Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinun filologiya fakültəsinin "Ədəbiyyat və onun tədrisi metodikası" kafedrasının dosenti kimi çalışır. "Uşaq ədəbiyyati" və "Ədəbi əsərlərin təhlili" fənləri üzrə fəaliyyətini davam etdirən Füzuli Əsgərli 100-dən artıq elmi-pedaqoji və publisistik məqalənin, ondan çox kitabın müəllifidir. O, öz sahəsinin bilicisi, görkəmli ziyalıdır. Füzuli Əsgərlinin "Sənətkarın uşaq dünyası" (2003), "Ədəbi düşüncələr" (2004), "Uşaq ədəbiyyatı" (dərslik) (2007, 2009, 2011, 2012). "Ömürün sözü, sözün ömrü" (2008), "Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı" (2009), "Bədii tərcümə prinsipləri" (2009), "Bədii təhlil və ədəbi tənqid" (2010), "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları" (2010), "Problemlər, düşüncələr" (2012), "Azərbaycan uşaq ədəbiyyatı" (2012), "Dünya uşaq ədəbiyyatı" (2012) və

sair kitabları alimin tədqiqtçılıq istedadının göstəriciləridir.

Füzuli müəllimin qəddi-qamətitək məramı da, məqsədi də, əməli də düzdür. Düzlük, həqiqət, ədalətlilik və obyektivlik onun həyat amalıdır. Bir müəllim kimi Füzuli müəllimin mənim üzərimdə əməyi çox böyükdür. Hər zaman o faydalı məsləhətlərini, gərəkli tövsiyələrini məndən əsirgəməyib. Bu tövsiyə və məsləhətlər hər vaxt çətin anlarımda mənə dayaq olublar. O dəyərli tövsiyələrini bu gün də məndən əsirgəmir.

Əziz və hörmətli Füzuli müəllim! Sizi 70 yaşınızın tamam olması münasibəti ilə səmimi qəlbdən təbrik edir, ulu Tanrıdan Sizə möhkəm can sağlığı, ailənizlə birgə firavan həyat, ömrünüzün bu gözəl müdriklik çağında yeni-yeni uğurlar arzulayıram.

27 aprel 2015-ci il.

HƏBİB ƏHMƏDOV,
qohum, şair

Gözəl insan, xoşbəxt alim baba

Hər Bakıya ezamiyyətə gələndə qardaşım oğlu – Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Yusif Əhmədovla bu universitetdə tez-tez görüşərdik. Bu universitet mənim yaddaşımda ulu bir elm-təhsil mərkəzi kimi qalmışdır. Üç övladımın da buranı bitirməsi bu universiteti bir az da mənə doğmalaşdırmışdı. Universitetin həyətində Yusif müəllim ilə görüşən adamların kim olduğunu ondan soruşardım. Doğrusu kollektivdə gözəl xasiyyətli, maraqlı söhbətləri, alicənablıqları ilə xoş təsir bağışlayan alimlər çox idi. Onların arasında cavanyaşlı, gümrah bədənli, ağır və şux yerişli bir alim nəzərimi daha çox cəlb etmişdi. Özü ilə şəxsi söhbətim olmasada Yusif müəllimin onun haqqında mənə dedikləri onu mənim nəzərimdə daha da ucaltmışdı. O, universitetin dosenti, filologiya üzrə fəlsəfə doktoru Füzuli Əsgərli idi. Doğrusu mən Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini, üstəlik Ali Partiya məktəbini bitirsəm də, cavan vaxtlarımdan ədəbiyyata meylim tükənməz olub, elə indinin özündə də

belədir. Buna görə, Füzuli müəllimin yaradıcılığı ilə daha yaxından tanış olmaq həvəsinə düşdüm, oxuduqca əsərlərini oxumağa marağım artdı. Buna görə də Füzuli Əsgərliyə bir könüldən min könülə vurulmuşdum. Yeri gəlmişkən onu da deyim ki, Füzuli müəllimin dərin məzmunlu satirik şeriləri də vardır.

İndi Respublikada tanınmış ədəbiyyatşünas alim, əsl insan, sevimli bir valideyn kimi tanınır. Filologiya üzrə fəlsəfə doktoru, işlədiyi universitetin dosenti, onlarla əsərin, yüzdən çox məqalənin müəllifir. "Qızıl qələm" mükafatı laureatıdır, "İlin müəllimi", "İlin nüfuzlu ziyalısı" fəxri adların daşıyıcısıdır. Uzun illərdir ki, dünya uşaq nəsrinin tərcüməsi ilə məşğuldur. Sevinirəm ki, Füzuli müəllimin 70 illik yubileyini təbrik etmək mənə də nəsib olub.

Füzuli müəllim xoşbəxt bir ailənin babasıdır. Və həyat elə gətirdi ki, o xoşbəxtlikdən bir pay da mənə qismət oldu. Füzuli müəllimin üç qız nəvəsinin bir baba daşıyıcısı da mən oldum.

Əziz dostum, qardaşım, gözəl insan, yorulmaz alim Füzuli Əsgərli! 70 illik yubileyinizi ürəkdən, səmimi qəlbdən təbrik edirəm! Həmişə qibtə etdiyim əsərlərinizin sayının artmasını, bu yolda daha böyük kəşflərə malik zirvəyə ucalmağınız üçün Sizə uzun ömr, can sağlığı, ailə xoşbəxtliyi arzulayıram!

18 mart 2015-ci il.

ASİMAN İSGƏNDƏROV,
magstr

Hörmətli Füzuli müəllimə Səmimi məktub

Həzrəti Əli demişdir, bəzi insanlar vardır ki, oxuduqları elm tez bir zamanda onların yaddaşlarına həkk olunur. Belə insanlarda ilahi istedad var. Bəziləri də var ki, onların oxuduqları elm xeyli əziyyət çəkəndən sonra yaddaşlarında qalır. Səbəbi isə ondan ibarətdir ki, birinci qrupa daxil olan insanlar ilahi kamillik üçün elm oxuyurlar və öyrəndiklərinin də faydasını tez və ya gec bir zamanda görürlər. İkinci qrupa daxil olan insanlar ilahi kamillik üçün elm oxumadıqlarına görə elm onların yaddaşında gec qalır. Yaddaşlarına köçürsələr belə onların elmi ilahi kamilliyə məqsəd almadıqca oxuduqlarının faydasını görməzlər. Füzuli müəllim, məncə Siz birinci qrupa daxil olanlardansınız.

Mənim Sizinlə tanışlığım bu yaxın zamanlarda olsa da, Sizə qarşı hörmətim tez bir zamanda sonsuzluq zirvəsinə qalxdı. Sizə olan hörmətim, sevgim təkcə Sizin xeyli dünyəvi biliyə sahib olmağınıza görə deyil, sahib olduqlarınızı həyatda yaşamağınıza

görədir. İnsan bu dünyaya gizlin ədaləti aşkar etmək üçün gəlmişdir. Gizlin ədalət də ancaq elmlə aşkar edilə bilər. Füzuli müəllim, Siz də qəlbinizdəki həmin gizlin ədaləti sirli saxlayanlardansınız. O gizlin xəzinədə bizimlə paylaşdığınız elmi, anları, paylaşa bilmədiyiniz neçə-neçə ağrılarının sirri vardır. Sizin bizə danışdıqlarınız xəstələrə məlhəm kimidir. Bu cümləni bədiilik yaratmaq üçün demədim. İnsan bu dünyada sağalmayan "qəlb xəstəliyinə" tutulur. O xəstəliyin yaranma səbəbi bitməyən dünyəvi arzular, ehtiraslardır. Bu xəstəlik nəticəsində qəlb qaralır, göz korlaşır. Sonda isə insan əyrini düz, düzü isə əyri görməyə başlayır. *Müsibət oluruq biz, səhv düşəndə yerimiz.*

Deyirlər ki, insanın qiyməti onun haqqı demək onun üçün ziyanlı olan vaxtda deməsiylə və ya deyə bilməsiylə ölçülür. Danışığın biliyindən artıq olmasın gərək. *"O, bizə yaradan, biz ona bəndə, biz onun yolunda ölməyə gəldik"*, – deyən şair insanı cismən öldürməyi göstərmirdi. Dilimizdə sevdiyi bir şeyə "uğrunda ölür", "ondan sarı ölür" ifadələri var. Deməli, Bəxtiyar Vahabzadənin "ölməyə gəldik" ifadəsini də biz "onun uğruda yaşamağa gəldik" ifadəsi kimi də anlaya bilərik. İnsanın yaşaması onun haqqın yanında, batilin qarşısında olmasıyla bilinər. Füzuli müəllim, mən bəzən batil üçün yaşayacağımdan qor-

xuram. Çünki bir az elm oxumaq, bir az nədənsə xəbərdar olmaq insanı bəzən eqoistləşdirir, laqeydsizləşdirir. Ətrafında baş verənlərə boş münasibət bildirir. Çayın axarı istiqamətiylə üzməyə başlayır. Görəsən, çayın istiqamətiylə yaşamaqçün üzmək insanı qəhrəman edirmi ?! Demə, elə şair düz deyirmiş ki, *ölümlər də cürbəcür kimi yaşamaqçün ölür, kimi ölməkçün ölür*. Görən, bizimçün həyatından keçənlərin – Müşfiqlərin, Cavidlərin, Sabirlərin, Ruhulla Axundovların və sairlərin sirrinə agah ola biləcəyikmi?! İndi bizim onlara daha çox ehtiyacımız var. Dədə Qorqud müdrikliyinə, Xəqani qəlbinə, Nizami nizamına, Nəsimi arifliyinə, Xətayi təəssübünə, Füzuli feyzinə, Koroğlu mərdliyinə, Vaqifinə, Zakirinə, Mirzə Fətəli Axundzadənin qüdrətli qələminə, Aşıq Ələsgərin nəsihətinə, Mirzə Cəlil sözünə, Sabirin tənqidinə, Cavidin yanan ürəyinə, Cəfər bəyin Oqtayına, Əhməd Cavada, Məhəmməd Hadiyə, Şəhriyarın sözlərinə həsrət qaldıq. Tez tərk elədilər bizi. Görəsən, onların arzularını yerinə yetirə biləcəyikmi?! Yəqin ki, heykəl qoyacağıq. Axı, başqası da deyir ki: *Gilası mürəbbə, qoyunu kabab, şairi heykəltək xoşlayan adam, Yox, heykəl olmağa yoxdu həvəsim, heykəl olub heç ulu Füzulinin də yanında durmağa yoxdu həvəsim.* Axı biz, "yaşamaq üçün" yollar axtarırıq. Dünyada yaşamaqçün qanlar tökü-

lür, ölkələr dağıdılır, xalqa xərclənəsi pullar israf olunur. Firavan yaşamaqçün göydələnlər, maşınlar, yazlıqlar, qışlıqlar, iflasa uğramasından qorxulan sərvətlər, dollarlar, markalar və sair lazım deyilmi?! Lazımdır. Bəs, insan necə bunlara əlinin tərsinə salıb, əcələ yoldaş olar?! Başqası da deyir ki: *Mən küsüb gedirəm, qoy hamı qalsın; Nə Allah dünyaya bağlaya bildi, nə atam, nə anam, nə balam məni*. Bu, nə təzaddır?! Bəlkə də belədir, *bu dünya bir sirdir qapısı bağlı, nə bir sahibi var, nə açar düşür, Günəş diləyirsən, yerə qar düşür.* Onu bilirəm ki, bu təzadlar axırımıza çıxacaq. Eh, müəllim, cavab vermirsiniz, bir vaxt Babək oldunuz, qılınc oynatdınız, Koroğlu olaraq aşiq oldunuz, Nizami olub söz oynatdınız, gah da Fərhad olub qaya çapdınız , indi siz niyə yuxulu arzularım kimi susursunuz?! Yadıma bir əhvalat düşdü. Nəmrud İbrahim peyğəmbəri yandırmaq üçün ucsuz-bucaqsız ağac yığdırıb, od yandırtdı. Hamı gözlədi ki, İbrahim yansın, amma o yanmadı. Çünki inamı odu cənnətə döndərdi. Bir qarışqa da odu söndürmək üçün ağzına su götürüb, oda tərəf gedirdi. Bunu görən qarğa qarışqaya gülərək: “Sənin suyunla bu od sönərmi heç?” – dedi. Qarışqa isə cavabında bildirdi ki, mənim suyumla od sönən deyil. Amma suyu ona görə aparıram ki, safım (yolum) bəlli olsun. Müəllim, İbrahim susan kimi sussanız

da, qarışqa kimi bu sözlərimlə odunuza su tökürəm ki, kimin yanında olduğum bilinsin.

Deyirlər ki, iki yeyən doymaz. Birinci, elm axtaranlar və arzusunda olanlardır. Onlara hər nə qədər məsələ aşkar olsa da, yenə də məchulu məlum etmək istəyər. Mən sizdə onu gördüm. Sizi əvvəllər tanımasam da, yaşım az olsa da, ariflərin sözünə dayanaraq deyə bilərəm ki, siz gəncliyinizi qəlbinizə elm əkməklə keçirmisiniz. Çünki gəncin qəlbi boş tarla kimi olur, cavanlıqda nə əksə, qocalıqda barını götürər. İkinci qrupa daxil olanlar dünya istəyənlərdir ki, hər nə qədər dünya malı əldə etsələr də, yenə də digər şeylər əldə etmək istəyərlər. Özümü hələ heç birində görməsəm də, sizi birinci qrupda görmək mənə həvəs verir. Sizə ən qiymətli hədiyyələr almaq, gül dəstələri ilə yubileyinizi təbrik etmək istərdim. Amma bilirəm ki, nə sizin qiymətli hədiyyələrə meyliniz var, nə də mənim imkanım. Ən şirin insan ömrünün belə bir sonu varsa, hansı hədiyyə sonsuzluğa qədər qala bilər?! Maddi olaraq heç nə. Mənəvi olaraq isə sonsuzluğa qədər gizli ədalətin sirri. 100 il əvvəl biz yox idik, 100 il sonra da olmayacağıq. 100 il əvvəl siz olmasanız da, mən əminəm ki, 100 il, 1000 il sonra da siz bu mənəvi irslə ürəklərdə, yaddaşlarda yaşayacaqsınız. Sizi bir daha təbrik edirəm, müəllim!!!

Füzuli Əsgərli - 70

Azərbaycan uşaq ədəbiyyatının tanınmış tədqiqatçısı, ədəbiyyatşünas alim və tərcüməçi Füzuli Əsgərlinin 70 yaşı tamam olur!

O, "Ömrün sözü, sözün ömrü", "Uşaq ədəbiyyatı: qarşılıqlı yaradıcılıq qaynaqları", "Bədii təhlil və ədəbi tənqid", "Problemlər, düşüncələr", "Sehrli dünyanın memarı" və digər kitabların müəllifidir.

Ona uzun ömür, can sağlığı, yaradıcılığında uğurlar arzulayırıq!

"Tumurcuq" uşaq mətbuatının kollektivi, 2015, aprel

ƏDƏBİYYATŞÜNAS ALİM FÜZULİ ƏSGƏRLİNİN ƏSƏRLƏRİ HAQQINDA

HİMALAY ƏNVƏROĞLU,
filologiya üzrə elmlər doktoru, professor

“Ömrün sözü, sözün ömrü” monoqrafiyası haqqında

Müasir Azərbaycan uşaq ədəbiyyatı sahəsində çalışan şair və yazıçılar haqqında qəzet və jurnallarda, radio və televiziya verilişlərində geniş bəhs edilsə də, onların yaradıcılığı monoqrafiya səviyyəsində az tədqiq və təhlil edilmişdir. Buna səbəb heç də müasir uşaq yazıçılarımızın yaradıcılığının sənətkarlıq baxımından aşağı olması deyildir. Sadəcə olaraq, bu zəruri sahəyə bəslənilən soyuq və etinasız münasibət, əslində, müharibə şəraitində yaşadığımız bir vaxtda, daha çox ehtiyacımız olduğu, vətənpərvərlik duyğuları aşılayan milli uşaq ədəbiyyatımıza geniş prizmadan baxılmaması, obyektiv qiymət verilməməsi kimi başa düşülməlidir.

Uzun illər bu sahəyə soyuqluq gətirən “buz qatları” nəhayət ki, tədqiqatçı Füzuli Əsgərlinin yeni elmi yanaşması və araşdırması nəticəsində əriməyə başladı. Müəllifin bu cəhdi milli uşaq ədəbiyyatı

sahəsinə əsl elmi baxışların daha da formalaşdığını və müasir ədəbiyyatşünaslıqda bu sahəyə nəzəri marağın gündən-günə artdığını göstərir.

Zənnimcə, müəllifin tanınmış uşaq yazıçısı Zahid Xəlilin bədii yaradıcılığına həsr etdiyi "Ömrün sözü, sözün ömrü" adlı bitkin monoqrafiyası gələcəkdə müasir uşaq yazıçılarımızın ardıcıl və hərtərəfli tədqiq olunmasına doğru yeni addımın və elmi cığırın açılmasına bir işarədir.

Tədqiqatçı bu monoqrafiya ilə bir daha göstərir ki, təkcə iri həsmli əsərlərin müəlliflərini tədqiqata cəlb etməklə ədəbiyyatımızı və ədəbiyyat tarixi-mizi zənginləşdirmək mümkün deyildir. Eyni zamanda, ədəbiyyatımızın bütün mərhələlərində uşaq oxusu və uşaq ədəbiyyatı kimi mövcud olan, yarandığı vaxtdan dövrümüzə qədər nəsillərin bir şəxsiyyət kimi formalaşmasında əvəzsiz rol oynayan bu sahəni genişləndirməyin və tədqiq etməyin vaxtı artıq gəlib çatmışdır. Çünki hər hansı bir xalqın dünyagörüşü, həyata, cəmiyyətə, ictimai hadisələrə baxışı və münasibəti yalnız iri həcmli əsərlərdə deyil, həmçinin, daim inkişafda olan mütərəqqi ədəbiyyatımızın və incəsənətimizin bütün növ və janrlarında təzahür edir.

"Ömrün sözü, sözün ömrü" monoqrafiyası beş fəsildən ibarətdir və hər fəsildə Zahid Xəlilin tədqiq

olunmuş müxtəlif janr yaradıcılığı (poeziya, nəsr və dramaturgiya və sair) öz əksini tapmışdır.

"Uşaq aləmini kəşf edən poeziya ustası" adlı birinci fəsildə müəllif Zahid Xəlilin uşaq şeirində lirizm və obrazlılıq, bədii üslubda poetiklik kateqoriyasının bir filoloji problem kimi ortaya qoyulması, üslubi vasitələrin dilimizin estetik faktoru kimi təzahür etməsi, ümumiyyətlə, söz sənətində bədiilikdən əlavə zəruri olan illüstrativlik və əyaniliyin, dəqiq müqayisə və sair səciyyəvi xüsusiyyətləri özündə əks etdirdiyini geniş təhlil yolu ilə məharətlə göstərə bilmişdir.

"Uşaq nəsri yaradıcılığında novator yazıçı kimi" adlı ikinci fəsildə isə Zahid Xəlilin nəsr əsərlərinin orijinallığını önə çəkən müəllif araşdırdığı hər bir bədii materialda bir yenilik görə bilir, dünya uşaq ədəbiyyatının işığında yaradıcılıq yolu keçmiş və özünə orijinal fərdi üslub qazanmış nasirin sənətkarlıq xüsusiyyətlərini uyarlı misallar gətirməklə aşkar edir. Tədqiqatçının yüksək elmi-nəzəri hazırlığı, mükəmməl filoloji biliyə malik olması ona, yazıçının uşaqları əfsunlayan nəsr əsərlərinin bədii-estetik mahiyyətini, onların cəlbedici qüvvəyə malik olmasının səbəblərini, mətn şəkilli obrazlılığın məharətlə bədii təsvir və ifadə vasitələrinin meydanına gətirilmə ustalığını, fərdi bədii üslubunun bənzərsizliyini və sair

yaradıcılıq imkanlarını məharətlə açmasına imkan vermişdir.

Üçüncü fəsildə müəllif Zahid Xəlilin dramaturgiya sahəsindəki fəaliyyətinə nüfuz etmiş, folklor motivlərindən bəhrələnərək qələmə aldığı “Lampacıq”, “Küp” və mövzusu müasir həyatdan götürülmüş "Ata ocağı" pyeslərinin sənətkarlıq xüsusiyyətlərini üzə çıxarmış, gerçək həyatın mürəkkəb məsələlərinin bədii inikasını verməyə çalışan dramaturqun uşaq və gəncləri ən ciddi suallar ətrafında düşünməyə dəvət edən problem məsələlərin qabarıq təhlilinə geniş yer ayırmışdır.

Müəllif həmçinin, sonrakı fəsildə (“Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu”) sənətkarın dünya xalqları arasında qarşılıqlı ədəbi əlaqələrin yaranmasındakı fəaliyyətini geniş işıqlandıraraq obyektiv qiymətini vermiş, xüsusilə onun rus uşaq şair və yazıçıları ilə fərdi görüşünü, onlarla apardığı yaradıcılıq mübadiləsinin milli uşaq ədəbiyyatımızın inkişafına böyük təsirini xüsusi qeyd etmişdir. Bununla yanaşı, tədqiqatçı Zahid Xəlilin bədii tərcümə yaradıcılığını da təhlilə cəlb etmiş, bu sahənin milli uşaq şeirimizin poetik inkişafında açıq-aşkar görünən təsirini inamla vurğulamışdır.

“Zahid Xəlilin ədəbi tənqiddə və tədqiqatda yeri” adlanan son fəsildə tanınmış Azərbaycan-rus

tənqidçiləri və tədqiqatçılarının sənətkarın yaradıcılığına verdiyi qiymət, onların araşdırdıqları müxtəlif janrlı əsərlərin təhlili və bu təhlillərə müəllifin fərdi elmi münasibəti diqqəti cəlb edir. Görkəmli tənqidçilərin – Məmməd Cəfər, Bəkir Nəbiyev, İqor Motyaşov, Marianna Yampolskaya, Pavel Ulyaşov və digər söz sərraflarının söylədiyi fikirlərə obyektiv münasibət bildirən müəllif, öz elmi mülahizələrilə bu sahənin milli uşaq ədəbiyyatımızın inkişafına verdiyi qiymətin əhəmiyyətindən söz açmış, bu tənqidçilərin Zahid Xəlilin yaradıcılığına bəslədikləri obyektiv, qərəzsiz münasibəti müasir Azərbaycan uşaq ədəbiyyatına verilən qiymət kimi dəyərləndirmişdir.

Onu da qeyd edək ki, Zahid Xəlilin monoqrafiyaya əlavə olunan bir sıra müsahibələri əbəs yerə verilməmişdir. Burada milli uşaq ədəbiyyatımızın keçdiyi şərəfli yol və gələcək inkişafı haqqında söylənilən fikir və mülahizələrin özü də polemik araşdırma xarakteri daşıdığına görə olduqca maraq doğurur. Həmçinin, dünyanın müxtəlif ölkələrindən yazıçıya ünvanlanmış ayrı-ayrı görkəmli sənətkarların çoxsaylı teleqram və məktubları, burada nəzərə çarpan elmi-ədəbi polemikalar, fikir və mülahizələr Zahid Xəlilin zəngin yaradıcılığa malik olduğunu bir daha təsdiq edir.

Monoqrafiya müəllifi zəruri problemlərin elmi təhlilində dünyanın görkəmli alim və sənət adamlarının (Aristotel, Vissarion Belinski, Maksim Qorki, Aleksey Tolstoy və başqaları) bədii yaradıcılıqla bağlı söylədikləri elmi-nəzəri baxışlarına istinad etmiş, mükəmməl tədqiqat əsərlərindən misallar gətirərək Zahid Xəlilin yaradıcılığına bütün spesifikliyi ilə yanaşmağa çalışmışdır.

Biz inanırıq ki, ədəbiyyatşünas alim Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası Azərbaycan uşaq ədəbiyyatının tədqiqi istiqamətində əvəzsiz mənbə rolunu oynayacaqdır.

Himalay Ənvəroğlu. Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində. – Bakı, "Elm və təhsil", 2011, səh.302-305.

HƏYAT RÜSTƏMZADƏ,
AYSEL MEHDİYEVA

“Sənətkarın uşaq dünyası”

Uşaq dünyasını yaradan sənətkarın şəxsiyyəti ilə daha yaxından maraqlanmaq istəyənlər tədqiqatçı alim Füzuli Əsgərlinin ilk monoqrafiyasında tanış ola bilərlər. Bu kitabı filologiya elmləri doktoru, professor, sevimli uşaq yazıçımız Zahid Xəlil haqqında vaxtında yazılmış bir elmi əsər kimi xüsusi qiymətləndirmək lazımdır.

Füzuli müəllim iyirmi ildir ki, müasir ədəbiyyatımızın görkəmli şəxsiyyətləri, onların yaradıcılığı barədə yazıb-yaradır, dünya ədəbiyyatını dilimizdə səsləndirərək səmərəli tərcüməçilik fəaliyyəti göstərir. Onun ən yaxşı monumental əsəri Azərbaycan Dövlət Pedaqoji Universitetinun nəşriyyatı tərəfindən çap edilmiş “Sənətkarın uşaq dünyası” monoqrafiyasıdır. Uzun illər Zahid Xəlil yaradıcılığı ilə yaxından məşğul olan alim “Ballıca”, “Salam, Cırtdan!”, “Zəngin aləm”, “Uşaqları söz sehrinə salan şair” kimi məqalələri ilə dövr mətbuatının qəzet və jurnallarında müntəzəm çıxış edib. Bu baxımdan ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərlinin çəkdiyi

böyük zəhmətin məhsulu kimi mövcud tədqiqat əsəri olduqca diqqətəlayiqdir.

Müəllif bu kitabı yeddi fəslə bölüb: “Ön söz”, “Uşaqları söz sehrinə salan şair”, “Azərbaycan uşaq nəsrinin Anderseni”, “Dünyaya açılan pəncərə”, “Uşaqların sevimlisi, böyüklərin həmdəmi”, “Müsahibələr, teleqramlar”, “Zahid Xəlilin yaradıcılığına həsr edilmiş məqalələr”.

Təhlil və tədqiqat üslubuna sadiq qalan Füzuli müəllim Zahid Xəlilin yaradıcılığını duya-duya, sevə-sevə yazaraq onu nəcib, yumşaq təbiətli bir insan, zəhmətkeş bir alim kimi tərənnüm etmişdir.

“Dünyaya açılan pəncərə” fəslində Respublikanın və onun hüdudlarından kənarda yaşayan tanınmış söz ustalarının, tənqidçi alim və şairlərin Zahid müəllim haqqında söylədiyi dəyərli fikirlərdən nümunələr verməklə hörmətli sənətkarımızın necə bir görkəmli şəxsiyyət olduğunu, onun intellektual aləmini diqqət mərkəzində saxlamışdır.

Azərbaycan ədəbiyyatının ağsaqqalı Bəkir Nəbiyev Zahid Xəlilin əsərlərindən aldığı təəssüratı belə səciyyələndirir: “Şeirləri ilə balacaları riqqətə gətirən Zahid Xəlil “Ballıca” adlı yeni kitabındakı nağıl və hekayələri ilə onları bir daha sevindirdi. Bu əsərlər uşaqlar üçün “Məlik Məmməd” və “Cırtdan”, Andersen və Qrimm qardaşlarının nağılları kimi

cazibədar və ürəkaçandır” sözlərini deməsi, Zahid Xəlilin Avropa ədəbiyyatının ən uca pilləsində duran danimarkalı yazıçı, “nağıllar kralı” Andersen və folklorşünas alimlər Qrimm qardaşları ilə müqayisə etmişdir. Bu Zahid müəllim üçün böyük bir şərəfdir. O, Azərbaycan torpağının yetirdiyi tanınmış, qüdrətli qələm sahiblərindən Süleyman Sani Axundov, Abbas Səhhət, Rəşid bəy Əfəndizadə, Sultan Məcid Qənizadə, Mikayıl Müşfiq, Səməd Vurğun, Rəsul Rza kimi korifeylərin ənənələri ilə püxtələşmişdir. Onların yaratdığı töhfələr Zahid Xəlil üçün təməl daşı rolunu oynamışdır. Yaradıcılıq bünövrəsini, ilhamı, gücü-qüdrəti xalqından alan sənətkarımız xarici ədəbiyyatın kəhkəşanı sayılan alimləri ilə yarışa girir. Bu baxımdan, Zahid Xəlilin etiraflarına diqqət yetirsək, “kimi özümə müəllim sayıram” sualının: “Cırtdan və Məlikməmməd obrazlarını yaratmış xalqımı” cavabı ilə qarşılaşırıq. “O cümlədən, Canni Rodari və Hans Xristian Anderseni. Mən Hans Xristian Andersenin adi uşaq kitablarından insan həyatı barəsində dediyi fəlsəfi fikirlərə heyrət edirəm. Canni Rodarinin yumor və fantaziyasına valeh oluram. Bəlkə də bu, təvazökarlıqdan bir qədər uzaqdır. Amma sizə bir sirr açım. Mən yazarkən öz müəllimlərim ilə yarışa girirəm və həmişə də özümü məğlub olmuş sayıram”.

Özünü “bu yarışda” məğlub sayan sevimli yazıçımız üçün Azərbaycan uşaq ədəbiyyatı bir simvoldur. Bu simvolu müasir dövrdə zənginləşdirən Zahid Xəlil yaradıcılığı isə çox əhatəlidir. Onun qələmə aldığı “Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri” mövzusunda doktorluq dissertasiyası və “Azərbaycan uşaq ədəbiyyatı” monoqrafiyası elmi axtarışların zirvəsi deməkdir. Düşüncənin ağırlığı, məntiqin pərvazlığı ilə Avropa uşaq ədəbiyyatı korifeyləri ilə milli dəyərlərimizin birgə sintezi, mürəkkəbliyi, kamilliyi, sadəliyi nəticəsində sahmanlaşıb ərsəyə gəlmiş Zahid Xəlilin əsərləri ədəbiyyatşünas alimlərin diqqət mərkəzində olmuşdur. Onun yazdığı “Azərbaycan uşaq ədəbiyyatı”nın rus dilinə tərcümə edilərək M.Lomonosov adına Moskva Dövlət Universitetində ikinci bir vəsait kimi tədris olunması fərəhli haldır. Təsadüfi deyil ki, professor Əziz Şərif bu kitabı akademik M.Arifin “Azərbaycan xalq ədəbiyyatı” kitabından sonra bu gərəkli vəsaitin Universitetdə keçilməsi milli mədəniyyətimizə olan məhəbbətin təzahürü kimi qiymətləndirmişdir. Həmçinin, Zahid Xəlil istedadı rus və Pribaltika ədəbi mühitinin obyektiv fikri ilə təsdiq olunmuşdur.

“Azərbaycan uşaq ədəbiyyatı” kitabında təkcə zəhmət və öz işini dərindən dərk etmək bacarığı du-

yulmur, eyni zamanda, istedadlı tədqiqatçının ürəklə ərsəyə gətirdiyi bir elmi iş görünür. Bu fikir litvalı ədəbiyyatşünas alim V.Aurilaya məxsusdur. Onun uşaq əsərləri Pribaltikanın, Orta Asiyanın, Zaqafqaziyanın, Moldovanın, hətta YUNESKO-nun yüksək qiymət verdiyi "Beynəlmiləl Baruzdin kitabxanası"nın qızıl fonduna daxil olub. "Arzu edərdim ki, mənim qəhrəmanlarım xalqın istəklərini, ən müqəddəs əməllərini özündə birləşdirə bilsin" söyləyən Zahid Xəlilin nəinki qəhrəmanları sevilib, hətta pərəstişkarları üçün fantastik bir sayda iki milyon tirajla "Günəbaxanlar böyüyəcək" kitabı (1992) nəşr olunub. "Mavi dəniz üzərində", "Salam, Cırtdan!" əsərləri (1986), "Azərbaycan hekayələri", "Su borusu", "Pendir dəlikləri", "Sərçələrin nəğməsi", "Kəpənəklər", "Tut bağında" kimi poetik şeirləri Q.Kobetskayte, Y.Kuşak, İ.Motyaşov, X.Myand, M.Yuxma kimi istedadlı tərcüməçi-şair və alimlər tərəfindən rus, eston, moldav və başqa dillərə tərcümə olunaraq kiçik oxuculara ərməğan edilib. Bu tərcümələrlə Azərbaycan xalqının yaşayış tərzi, adət və ənənələri nümayiş olunub. El qaynaqları ilə bəzənən Zahid Xəlil yaradıcılığı uşaqların könlünə yol tapıb. Rus tənqidçisi İqor Motyaşovun ürəkdən gələn söz düzümü şairin sənətinə verilən qiymətin ən yüksək ölçüsüdür: "Zahid Xəlilin şeirlərində dünya olduqca

mərhəmətli, işıqlı, rəngarəngdir. Gur səsli harmoniyadır… Zahid Xəlil ona görə diqqəti cəlb edir ki, o təkcə ədəbiyyat tarixçisi və tənqidçisi deyil, hər şeydən əvvəl, yaxşı uşaq yazıçısıdır. Zahid Xəlilin uşaq ədəbiyyatına gəlmə səbəbi isə onun novaturluğu ilə bağlıdır. Bu isə Azərbaycan uşaq ədəbiyyatında daha tipik səslənir…"

Biz Zahid Xəlilin tərcümələrini qəzet və jurnallarda çox oxumuşuq. Uşaqlar üçün apardığı verilişləri də dönə-dönə dinləmişik. Hətta gənclik illərindən bu sahənin yol yoldaşına çevrilən yazıçının tərcüməçiliyi ilə bağlı yaradıcılığından bir sanballı monoqrafiya yazmaq olar. O tələbəlik illərindən Azərbaycan radiosunun "Sandıqca" verilişində baş redaktorun göstərişi ilə maraqlı dünya nağıllarından tərcümə etməyə başlayıb. Bu haqda Zahid Xəlil özü belə deyir: "…Mən rus dilini öyrənəndən sonra qarşımda yeni bir aləm açıldı. K.Çikovski, S.Marşak, S.Mixalkov, A.Barto, A.Qaydar, N.Nosov, M.Prilejayeva… Mən onda başa düşdüm ki, bu gün ədəbiyyat uşaqlara daha çox lazımdır…"

Zahid müəllim öz oxucularını dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərilə tanış etmək üçün səmərəli işlər görmüşdür. İşin ən böyük sahəsi isə tərcüməçiliyidir. Bu, şair və yazıçının istedadını daha da qabarıq göstərir. Onun rus şairi Y.Ku-

şakdan etdiyi tərcümələrdən biri lirik sujetli “Gecə hadisə” şeirinin məzmunu belədir: Uşaqlar qardan adam yaradırlar, başına vedrə qoyur, ona ağac qollar düzəldir, əlinə də süpürgə verirlər. Uşaqlar oradan gedən kimi qar adam bir yerdə durmaqdan bezir və küçələri dolaşmağa başlayır. Uşaqlar səhər tezdən gəlib qar adamı yerində tapmırlar. Yenə qar topalayıb, həmin əşyalarla adam düzəldirlər. Təkcə bir oğlan dünənki qar qızı sevdiyindən üzünü yana çevirir:

… Düzəldək təzəsini
Gəlin yığaq çoxlu qar.
Deyərək işləməyə
Başladılar uşaqlar.
Təkcə bir nəfər oğlan,
Üzünü yan çevirdi.
Axı oğlan dünənki
O qar qızı sevirdi.

Lirik şair Zahid Xəlilin tərcüməsi sayəsində rus xalqının sevimlisi Y.Kuşakın necə şair olduğunu görmək mümkündür. O, tərcümələrini təbii boyalarla canlandıraraq təqdim edir, şeirin üslubunu, özünəməxsus yığcamlığını qorumağa çalışır, bəzi hallarda isə şeirin poetik xeyrinə uğurlu dəyişikliklər etmişdir. Ona görə də, şairin inadlı bədii yaradıcılıq axtarışları bu imkanların hüdudlarını genişləndirərək əsl münbit, bərəkətli bir zəmin yarada bilir. Aqniya

Bartonun “Zina” adlı şeirini Zahid Xəlil yeni qolqanadla cilalamışdır. Bartonun şeir ənənəsinə sadiq qalaraq, onu öz tərcüməsində daha da inkişaf etdirməyə çalışmışdır:

Bazar günü bazardan
Bir rezin qız aldılar.
Zərli-bəzəkli qızı
Bir zənbilə saldılar
Bu rezin qız sürüşdü
Zənbildən zığa düşdü…

Yüksək dəqiqlik, sözə qarşı həssaslıq, sənətkarlıq vərdişlərinə riayət edən istedadlı mürtəcim müəllifin şeirinə yeni ruh və nəfəs vermişdir. Ona görə Aqniya Barto: “Zahid Xəlil gözəl şair, həm də gözəl tərcüməçidir” sözləri ilə Zahid müəllimin əsərlərini uca tutmuş, onu yaxşı mənada dəyərləndirmişdir.

Füzuli müəllimin kitabın bir bölümünü “Dünyaya açılan pəncərə” adlandırması əbəs yerə deyilmiş. Monoqrafiyada Zahid Xəlil yaradıcılığının eldən-elə, dildən-dilə gəzməsinin şahidi olduq. Füzuli Əsgərli təhlil zamanı nəsr əsərləri və şeirlər arasında müqayisələr aparır. Kitabda yeri gəldikcə mövzu və sənətkarlıq baxamından başqa dünya xalqlarına məxsus əsərlər arasında maraqlı paralellər aparmış, oxşar cəhətləri açıq şəkildə nümunələrlə göstərmişdir.

“Qırmızıpapaq və canavar nağılı” görkəmli fransız uşaq yazıçısı Şarl Perronun əsərlərindən fərqlənir. Yazıçı Qırmızıpapağı Cırtdan kimi müasirləşdirir, onu bu günümüzə gətirir. O, böyük bir qızdır və heyvanxanada işləyir, heyvanları tutur, maşina qoyub əhliləşdirməyə gətirir.

Yaxud, “Qədirin nağılı”na diqqət yetirək: “Siz pendir və ya pivə çəni görmüsünüzmü? Eni ilə uzunu bərabər olan bu çənlər mağazalır qabağında birbirinin üstünə qalanıb bəzən aylarla qalır. Bax, Qədir yeddi yaşına çatanda eynilə həmin o çənlərə oxşayırdı. Kənardan baxanda ayaqlarının harada qurtardığını, qarnının haradan başladığını müəyyənləşdirmək çox çətin idi. O, yumru, qəşəng bir çən idi, durmuşdu”. Qədir özünün zahiri görkəmi ilə bir növ fransız yazıçısı Fransya Rablenin Qarqantuasını xatırladır.

Kitabda Füzuli Əsgərli Zahid Xəlilin yaradıcılığındakı yeni çalarları, insan psixologiyasındakı tam incəlik duyumunu analitik təhlildən keçirərək, daha çox həvəs göstərdiyi mövzuların kökünü izah etmişdir. Bu, Zahid Xəlilin sənətkarlıq xüsusiyyətlə rinin güclü tərəfidir.

Tədqiqatçı Füzuli Əsgərli “Detskaya literatura” jurnalının baş redaktoru Sergey Alekseyevin Azərbaycan Dövlət Mükafatları komitəsinə yazdığı

rəsmi məktubunu verərək “düşünən uşaq yazıçısı”nın başqa xalqlar tərəfindən sevilməsindən, onun dəyərli bir şəxsiyyət olmasından danışmışdır. Biz isə belə hesab edirik ki, Zahid Xəlil bu mükafatı çoxdan alıb. Vətənpərvər şair, el-obasına bağlı olan yazıçı, tərcüməçi, publisist, jurnalist, gözəl pedaqoq, professor Zahid Xəlil üçün ən böyük mükafat xalq məhəbbətidir. Arzu edək ki, əsərlərinizin xalqa, xalqın isə sizə olan məhəbbəti əksik olmasın, Zahid müəllim.

Tədqiqatçı Füzuli Əsgərliyə isə tutduğu yaradıcılıq yolunda müvəffəqiyyətlər arzulayırıq.

Uşaq dünyasının Zahid Xəlili

Bəzən gözləyirik ki, hansısa şairə, yazıçıya fəxri ad verilsin, təntənəli yubileyi keçirilsin və bundan sonra həmin qələm sahibi barədə tutarlı bir söz deyək, qalın kitab yazaq.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, filoloji problemlərə dair xeyli elmi məqalənin müəllifi Füzuli Əsgərli belə gözləmə mövqeyinə üstünlük vermədi. O, tanınmış uşaq şairi Zahid Xəlil yaradıcılığına həsr etdiyi "Sənətkarın uşaq dünyası" monoqrafiyası ilə buzu sındırdı.

Hörmətli dinləyicilər, monoqrafiyanın məziyyətləri, Zahid Xəlil yaradıcılığının özünəməxsusluğu barədə müəllifin fikirlərini bilmək sizin üçün də maraqlı olacaq yəqin.

Əməkdaşımız Ələmdar Quluzadə ilə Füzuli Əsgərlinin söhbətlərinə sentyabrın 24-də saat 9.35 dəqiqədə səsləndirəcəyimiz "Qanadlar" verilişində qulaq asa bilərsiniz. "Araz" proqramının dinləyiciləri həmin verilişin təkrarına ertəsi gün saat 10.35 dəqiqədə qulaq asa biləcəklər.

"Ekran-efir" qəzeti, 2003, 22-28 sentyabr.

FƏXRƏDDİN YUSİFOV,
ADPU-nun dosenti

Sehrli dünyanın bələdçisi

Füzuli Əsgərli. "Sənətkarın uşaq dünyası", Bakı, ADPU-nun nəşriyyatı, 2003

Həyatı uca bir ağaca, romantikanı isə onun yaşıl libasına bənzədənlər heç də yanılmırlar. Həyatda insanı saxlayan, onun yaşamasını maraqlı və mənalı edən də məhz bu romantikadır. Bir çox sənətkarlarımızda bu romantika əlvan, çeşidli hisslər palitrasından təşkil olunduğundan, onların yaratdıqları hər bir ədəbi nümunə bizim hisslərimizi oxşayır və həyatı daha cəlbedici, daha maraqlı qurmağa sövq edir. Belə söz ustalarından biri də böyüklərin və uşaqların sevimlisi olan Zahid Xəlildir.

Zahid Xəlil ədəbiyyata gəlməyi, şeir və hekayələr yazmağı qarşısına bir məqsəd kimi qoymamışdı. Əgər bu cür etsəydi, bəlkə də istədiyini yerinə yetirə bilməzdi. Tamamilə başqa bir işin qulpundan yapışardı. Amma günlərin bir günündə qəlbini bürüyən vətən istəyinin balaca bir şeir formasında ərsəyə gəldiyini hiss etdi. Şair özü bu barədə belə deyir: "Vətənim" şeirim "Yeni Yevlax" qəzetində çap olu-

nanda onuncu sinifdə oxuyurdum. O illərdə keçirdiyim sevinc indi də canımdadır”. Və beləcə böyük yolun yolçularından birinə çevrildi. Şair fikirləşdi ki, sözü sinədə saxlamaq olmaz:

Qoyma qala sinədə söz,
Duyğuları şerinə düz.
Atlas donlu bu bağ, bu düz
Səndən yeni söz istəyir.

Təbiətindəki sadəlik, sənətindən aldığı zövq, onun taleyini birdəfəlik olaraq uşaqlara bağlayacaq. Onların məsum baxışları, ətraf aləmə qeyri-adi münasibətləri, hər şeyi tez öyrənmək istəmələri üçün böyüklərə aramsız suallar vermələri Zahid müəllimin diqqətli nəzərlərindən yayınmayacaq. Uşaqların sadəlövh sualları, eləcə də verilən suallara bu cür də cavab vemələri onun düşüncələrini ən məsul və şərəfli bir işə – uşaqların duyğu və düşüncələrinin tərcümanına çevirəcək. Həm nəzmlə, həm də nəsrlə uşaqların sehrli dünyasına qədəm qoymağa başlayacaq. Bir-birinin ardınca “Uçan çıraqlar” (1969), “Qarışqalar” (1971), “Mən rəngləri tanıyıram” (1972), “Göydən üç alma düşdü” (1974), “Quşlar, quşlar” (1977), “Torağaylar oxuyur” (1979), “Ballıca” (1981), “Çıraq nənənin nağılları” (1983), “Cırtdanla Azmanın yeni sərgüzəştləri” (1986), “Mavi

dəniz sahilində” (1986), “Salam, Cırtdan!” (1986) və başqa kitabları çap etdirəcəkdir.

Mən burada gözəl alim, uşaq ədəbiyyatımızın həm nəzəriyyəçisi və yaradıcısı, həm də mahir təbliğatçılarından olan professor Zahid Xəlillə bağlı fikirlərimə ara vermək istəyirəm. Buna səbəb isə hazırda əlimdə tutduğum kitabdır. Yuxarıda qeyd olunan düşüncələrin əmələ gəlməsinin baiskarı da həmin monoqrafiyadır. Onu qələmə alan Azərbaycan Dövlət Pedaqoji Universitetinun dosenti, filologiya elmləri namizədi Füzuli Əsgərlidir. Uzun müddət filoloji problemlərin çözülməsi ilə məşğul olan tədqiqatçı alim Füzuli Əsgərli tanınmış şair və nasir, gözəl alim və müəllim, professor Zahid Xəlilin bədii yaradıcılığına və elmi fəaliyyətinə həsr olunmuş “Sənətkarın uşaq dünyası” (2003) adlı monoqrafiyasını çap etdirmişdir.

Kitab yeddi bölmədən ibarətdir. Bölmələrin məzmunu ilə yaxından tanışlıq onu göstərir ki, ədəbiyyatşünas-tənqidçi Füzuli Əsgərli Zahid Xəlilin həyat və yaradıcılığını diqqətlə nəzərdən keçirmiş, bədii irsini ətraflı şəkildə təhlilə cəlb etmişdir.

Ön sözdə Zahid Xəlilin həyat və yaradıcılığına dair maraqlı məlumatlar verilir. “Uşaqları söz sehrinə salan şair” bölməsində Zahid Xəlilin şeir yaradıcılığı, “Azərbaycan uşaq nəsrinin Anderseni” böl-

məsində bədii nəsri, “Dünyaya açılan pəncərə” bölməsində onu əhatə edən ədəbi mühiti, “Uşaqların sevimlisi, böyüklərin həmdəmi” bölməsində böyüklər üçün yazdığı şeirləri barədə geniş söhbətlər açılmış, şairin sənətə baxışları diqqətlə araşdırılmışdır.

Müəllif Zahid Xəlil irsini səciyyələndirmək üçün həm Respublikamızın, həm də keçmiş sovetlər ittifaqının bir sıra tənqidçilərinin fikirlərinə istinad edir, yeri gəldikcə bədii əsərlərdən nümunələr verməklə bu fikirləri davam və inkişaf etdirir. Zahid Xəlilin bədii yaradıcılıq məsələləri barədə onun gəldiyi qənaətlər, bu sahədə atılan ilk və tutarlı addım kimi səciyyələnməlidir.

Monoqrafiyada əksini tapan bədii nümunələr də çox uğurlu seçilmişdir. Onlar ədibin poetik düşüncələr aləmi ilə oxucunu ətraflı şəkildə tanış etməyə imkan yaradır:

Keçib neçə kənddən
Şəhərdən gəlib
Payız düz bir illik
Səfərdən gəlib…
Meyvələrin üzünə
Toxunur dodaqları
Həyasından qızarır
Almanın yanaqları…

Belə nümunələrin sayını istənilən qədər artırmaq mümkündür.

Kitabda verilmiş “Müsahibələr”, “Məktublar, teleqramlar”, “Zahid Xəlilin yaradıcılığına həsr edilmiş məqalələr” bölmələri, fotoşəkillər də xeyli maraq doğurur.

Dosent Füzuli Əsgərlinin sözügedən monoqrafiyası həm elmiliyinə, həm də tərtibatına görə diqqəti cəlb edir. O, filologiya elmimizə layiqli bir töhfə kimi Zahid Xəlil yaradıcılığının – sehirli dünyasının müdrik bələdçisinə çevirir.

“Ədəbiyyat qəzeti”, 2004, 16 aprel.

AYSEL MEHDİYEVA

Uşaqların sevimli sənətkarı

Zahid Xəlilin yaradıcılığı uşaq ədəbiyyatının ən yaxşı ənənələrinə söykənərək onu daha da inkişaf etdirmişdir. O, istedadı ilə milli dəyərlərə də, dünya ədəbiyyatına da yaxşı bələd olmuş, uşaq dünyasını əsil sənətkar kimi hiss etmiş, balalarımızın ürəyinə yol tapmış, sevindirmiş və onların sevincinə çevrilmişdir. Eyni zamanda, alim və pedaqoq, uşaq ədəbiyyatının tədqiqatçısı kimi hörmət qazanmışdır...

Bu səmimi sözlər gözəl nəsr əsərlərinin müəllifi, xalq yazıçısı Elçinindir. Doğrudan da, əsl istedadı müxtəlif mövqedən qiymətləndirmək olar. Zahid Xəlil gözəl müəllimdir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin qaynar həyatında rahatlığın nə olduğunu bilməyib. Taleyini 1970-ci ildən ən böyük elm, mədəniyyət ocağına – Azərbaycan Dövlət Pedaqoji Universitetinə bağlayıb. Burada redaktorluqdan dekan vəzifəsinə, baş müəllimlikdən professor adına qədər şərəfli bir ömür yolu keçən Zahid Xəlilin ədəbi və jurnalistlik fəaliyyəti "Qızıl qələm" ilə mükafatlandırılıb. Bu gözəl müəllimin Respublikamızın bütün bölgələrində tələbələri var. Auditoriyadakı mü-

hazirələrini, televiziyadakı çıxışlarını elə rəvan söyləyir ki, onun dediklərinə heç bir düzəliş etmədən mətbuatda çap etmək olar. Zahid Xəlilin müxtəlif janrlı əsərləri ölkəmizdə və onun hüdudlarından xaricdə işıq üzü görmüş, müəllifinə böyük şan-şöhrət gətirmişdir. Ömrünün keçən illərində qara saçları gümüşlənib, təbiəti də yazıları kimi şairanədir.

Mən onu kiçik yaşlarımdan televiziyada gedən "Sizin sevimli yazıçınız", "Məktəblilərin kitabxanası", "Çıraq", "Sərbəst düşüncə studiyası" verilişlərinin aparıcısı kimi tanıyırdım. Əsərlərindən Cırtdan və Azmanla bağlı verilən sərgüzəştlərinə, nağıl səhnəciklərinə baxmışam. Bu gün isə Azərbaycan Dövlət Pedaqoji Universitetinun II kurs tələbəsiyəm. Dərs əlaçısıyam. "Sərbəst düşüncə studiyası"nda bir neçə dəfə çıxış etmişəm və bütün bunlar mənə Zahid Xəlil kimi alimi, müəllimi yaxından tanımaq qisməti verib. Bir oxucu kimi də əsərlərini izləyirəm. Onlar mənim stolüstü kitablarımdır. Bunların sırasına yeni bir əsər – ədəbiyyatşünas alim Füzuli Əsgərlinin "Sənətkarın uşaq dünyası" da daxil oldu.

Uşaq dünyasının məhəbbət və ehtiramını qazanan sənətkar Zahid Xəlildir. İstəklə yaranan sənət nümunələri isə həmişə uzunömürlü olur. Bu kitab zəhmətli, şərəfli alim əməyinin uğurlu bəhrəsi kimi tədqiqə layiqdir. Çox gözəl tərtibatla verilmiş mavi

rəngli kitabın üzündə yazıçının mehriban, xoş çöhrəsi, həssas və düşüncəli, qayğılı baxışları, ağır təmkini, vüqarlı siması əks olunmuşdur. Kitabın arxasında isə müəllif Füzuli Əsgərlinin foto-şəkli ilə bərabər, onun həyat və yaradıcılığı haqqında qısa məlumat verilmişdir. Füzuli müəllimin təhlil etdiyi məsələlər geniş və rəngarəngdir. Bu rəngarənglikdə Zahid Xəlilin vətəndaşlıq hissindən, müxtəlif mövzulu əsərlərindən xəbərlər kəsb edən şərhlər göstərilmişdir. O, Zahid Xəlilin lirikasını "Uşaqları söz sehrinə salan şair" bölümü ilə şairin poeziyaya qədəm qoyduğu uşaqlıq illərindən bu günkü günə qədər yaradıcılıq seşməsinin saf, axarlı poeziyasının incəliklərindən söz açmışdır. Mən də sevimli sənətkarın poetik dünyasından danışaraq, kiçicik yazımla fikirlərimi bölüşmək istərdim.

Könlünü, qələmini poeziya ilə bağlayan şair günbəgün, ilbəil yazıb yaradıb, püxtələşib, şöhrətlənib əlinə qələm alan gündən anaya, Vətənə, xalqına, təbiətə poetik şeirlər həsr edib, gələcəyimiz sayılan uşaqlar üçün əsərlər yaradıb. Zahid Xəlil yaradıcılığının ən uca zirvəsində özünə yer tutan mövzu isə ana və ona olan sonsuz məhəbbət olmuşdur:

Eşqin ürəyimdən silinən deyil,
De, kim bağlamış məhəbbət sənə?

O, ağ saçlarına baxdım elə bil
Gümüş tac bəxş edib təbiət sənə…

- deyən şair bu müqəddəs varlığı səmimi bir övlad hissi ilə ülviləşdirib. Ananı Vətəndən ayırmayan şairin bu sevgisi Azərbaycana olan məhəbbətlə birləşib, vətəni min fərəhlə şeirlərində tərənnüm edib.

Zahid Xəlil bahar oğludur. O, 1942-ci il martın 20-də baharla qoşa doğulub. Ona görə şeirlərində yaz qoxusu ətir saçır. Baharda konkret olaraq gözə görünən bütün varlıqlar elə bil Zahid Xəlil şeirlərinə hopub. Şeirlərini sanki çəmənzarlığın ən gözəl məkanında yazıb. Təbiət lövhələri ilə əks olunan "Çəmən", "Çəmənin xalı", "Qırxbuğum", "Baldırğan", "Gicitkan", "Çaşır", "Cincilim", "Göbələk", "Quşəppəyi" adlı şeirləri daha diqqətəlayiqdir:

Çimib yaz yağışında
Sərələn bu çöllərə.
Kol dibində bitirsən
Elə bil ki, çətirsən…

Zahid Xəlil yazda göbələklərin kol dibində bitməsini, onların kiçik çətirə bənzəməsini əlvan boyalarla təsvir edib:

Başında ağ çiçəklərdən
Çətiri var…
Baldırğanda ilk baharın
Ətiri var.

Çöl bitkiləri, gül-çiçək şairin qələmilə necə də büllurlaşır, gözəlləşir. İlin ən zərif qızı olan, baharın çiynindən sürüşüb düşən çəmən Zahid Xəlil qələminin ecazkar qüdrətindən süzülür, poeziyamıza yeni naxışlar vurur. Bu mahir rəssamın tablosunun füsunkarlığına diqqət yetirək:

Bizim bağçamıza
Bir çəmən düşüb.
Sürüşüb baharın
Çiynindən düşüb.

Könlümüzü oxşayan bu şeir bir rəssamın əlvan boyası ilə yaratdığı tablosunu xatırladır. Zahid Xəlil isə nə rəssamdır, nə də memar. O, bədii söz ustasıdır. Əsərləri də tərifəlayiq bir nümunədir. Təsvirləri ilə uşaqlara yazda bitən ləzzətli bitkilərin xeyirli cəhətlərini də aşılamağı unutmayan şair:

Quşəppəyi sərilib
Çəmənliyə, yamaca
Duza batıb yeyəsən
Dadlı olar yamanca –

deyərək quşəppəyinin görünüşünü də incəliklə verməyə müvəffəq olumşdur. Təbiidir ki, hər fəslin də öz hüsnü var. Payızın gəlişini Zahid Xəlil uşaqların dilində əzbər olan "Səfərdən gəlir" şeir parçasında çox gözəl vəsf etmişdir:

Keçib neçə kənddən
Şəhərdən gəlib.
Payız düz bir illik
Səfərdən gəlib…
Meyvələrin üstünə
Toxunur dodaqları.
Həyasından qızarar
Almanın yarpaqları…

Qızılı payızın gəlişi ilə meyvələrin yetişməsini, onlarla görüşərkən almanın yanaqlarının qızarması yüksək şeiriyyətlə təsviri şairin bədii idrakının məhsulu kimi diqqətəlayiqdir. Yer, göy, dağ, dəniz, günəş Zahid Xəlilin lirikasında əsas obyektdir:

Ay səmadan sürüşüb,
Mavi dənizə düşüb.
Onu çin-çin ləpələr
Qucağında oynadar.
Dəniz sanki anadır…
… Ay qopmayıb yerindən
Xəzərin sularında
Onun əksidir düşən.

Mavi dənizin ləpələrində ayın oyanmasını, sulara düşən əksini olduqca sadə şəkildə vermişdir. Mirvari tək söz düzümünə çevrilən bu cür deyimlər poetik qələmlə cilvələnərək Zahid Xəlil yaradıcılığında bir silsilə təşkil edir:

Sular göy kimi əngin,
Səma dəniz rəngində
Gör neçə ulduz yanır
Dənizin çələngində.
Buludlardan ay çıxır
Sulara ağ şam düşür
Dənizə axşam düşür.

Mavigözlü dənizdə dalğaların nərə çəkməsi, nəhəng qağayını xatırladan ağ yelkənli qayıqlar, büllur şəfəqli Günəşin axşamlar neçə min çalarlı işıqla əvəz olunması, ləpələrdə qağayıların rəngi məharətlə ifadə olunmuşdur. Ulduzların dənizində əksini ağ şam kimi təsvir etmək şair gücünün, məharətinin, bacarığının təzahürüdür.

Şairin sevimli mövzuları, zəngin obrazlar aləmi var. Bütün bunlar Füzuli Əsgərlinin monoqrafiyasında öz əksini tapır. Zahid Xəlilin sənətə baxışı, bədii dil xüsusiyyətləri, xalq dilindən istifadə etməsi şeirlərinin poetikası, vəzni barədə geniş təfsilat vermiş Füzuli müəllim, eyni zamanda, yazıçının sənətkarlıq sirlərini meydana çıxarmağa müvəffəq olmuşdur. Bu kitabı Zahid Xəlil sənətini təhlil etmək baxımından ən mühüm bir addım hesab edirik. Füzuli müəllimə belə xeyirxah iş üçün minnətdarlığımızı bildirir, yaradıcılıq uğurları diləyirik.

Sevimli müəllim, gözəl alim Zahid Xəlilə güclü enerji dolu iş qabiliyyəti arzu edirəm. Yaradıcılığına həsr olunan məqalələrin sayı 50-dən çoxdur. O gün olsun ki, haqqında yazılan monoqrafiyanın sayı 50-nin yarısı qədər olsun. Adına, şəxsiyyətinə hörmət etdiyim, neçə-neçə kitabın müəllifi, filologiya elmləri doktoru İmamverdi Əbilovun Zahid Xəlilə yazdığı dəyərli sözləri ilə yazımı bitirmək istəyirəm və biz də bu istəyə qoşuluruq: "Gülab nəfəsli balalarımıza türk ruhu, islam əqidəsi təlqin edən təzə əsərlərlə pərəstişkar oxucularımızı istiqlalın, istiqbalın müjdəli üfüqlərinə səsləyən, bu şərəfli yolda yorulmayın…"

"Gəncənin səsi" qəzeti, 2004,08 mart.

ELMAN ƏBDÜLOV,
"Azərbaycan müəllimi"
qəzetinin məsul katibi,
ŞAMXƏLİL MƏMMƏDOV,
Respublikanın əməkdar jurnalisti

Ömrü sözə köçürülmüş sənətkar

Azərbaycan ədəbiyyatı korifeylərini səciyyələndirən cəhətlərdən biri onların yaradıcılığındakı ədəbi-nəzəri fikirlərin mövcudluğudur. Klassiklərin irsində bu mülahizələr obrazlı şəkildə ümumiləşdirilərək ifadə olunmuşdur. İctimai şüurun bu xüsusi formasında olan fikirlər sənət barədə mədəni-ədəbi, tarixi-estetik dəyərini saxlamaqdadır. XIX əsrdən sonra ədəbi-tarixi şəxsiyyətlər söz sənətimizi zənginləşdirən əsərlər yaratmaqla yanaşı, ədəbiyyatşünaslıq baxımından dəyərini, ictimai-estetik əhəmiyyətini itirməyən məqalələr yaratmışlar.

Ötən əsrin 30-40-cı illərində yaradıcılıq sahəsində tanınmış Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov kimi sənəkarlar həm də öz məqalələrində ədəbiyyatşünaslığın bu və ya digər məsələlərinə toxunmuşlar. Artıq XX əsrin 70-ci illərində

Rəsul Rza, İsmayıl Şıxlı, Anar, Elçin, Qasım Qasımzadə, Atif Zeynallı kimi sənətkarlar ədəbi-nəzəri və ədəbi-tənqidi məqalə və kitabları ilə geniş oxucu auditoriyası qazanmışdılar.

Belə ədəbi simalardan biri Zahid Xəlil (Zahid Abdulla oğlu Xəlilov) bədii və elmi yaradıcılıq sahələrini pedaqoji fəaliyyətlə tamamlayan görkəmli uşaq yazıçısı, filoloq-alim və tanınmış pedaqoqdur.

Ədəbiyyat tariximiz indiyə qədər geniş şəkildə öyrənilib nəşr olunmuşdur. Etiraf edək ki, ədəbiyyatşünaslıq elminin tarixinin öyrənilməsi və nəşri sahəsində hələ görüləsi işlər çoxdur. Bu istiqamətdə görülmüş hər bir iş təqdirəlayiq sayılmalıdır.

Filologiya elmləri namizədi, dosent Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası Pedaqoji Universitetin nəşriyyatında buraxılmışdır.

392 səhifəlik kitab filologiya üzrə elmlər doktoru, professor Himalay Qasımovun yazdığı "Ön söz"lə başlayır. Professor Himalay Qasımov yazır: "Füzuli Əsgərlinin uşaq yazıçısı Zahid Xəlilin bədii yaradıcılığına həsr etdiyi "Ömrün sözü, sözün ömrü" adlı bitkin monoqrafiyası gələcəkdə müasir uşaq yazıçılarımızın ardıcıl və hərtərəfli tədqiq olunmasına doğru yeni elmi cığırın açılmasına bir işarədir".

"Milli uşaq ədəbiyyatının tədqiqi istiqamətində əvəzsiz mənbə" kimi dəyərləndirilən monoqrafiya

giriş və beş fəsildən ibarətdir. Girişdə Zahid Xəlilin özünəməxsus həyat yolu – uşaqlıq və gənclik illəri, mətbuatda çalışdığı dövr, ali məktəbdə göstərdiyi fəaliyyət mərhələləri yığcam şəkildə, zəngin fakt və hadisələr əsasında təsvir və şərh olunmuşdur. Bu faktlardan biri, sözün əsl mənasında, qürur doğurur. 1987-ci ildə Moskvada nəşr olunmuş "Detskaya literatura Azerbaydjana" monoqrafiyası M.Lomonosov adına Moskva Dövlət Universitetində akademik Məmməd Arifin "Azərbaycan xalqının ədəbiyyatı" (1958) adlı dərsliyindən sonra ikinci bir dərslik kimi qəbul edilmişdir.

Zahid Xəlilin uşaq ədəbiyyatı yaradıcılığı müxtəlif janrlı və rəngarəng formalıdır. O, bədii yaradıcılığa şeirlə başlayıb. İldən-ilə şeirlər mövzuca zənginləşmiş, ideya-bədii cəhətdən də kamilləşmiş, məzmun baxımından müxtəlifliyi ilə seçilmişdir. Bu bədii-psixoloji yaradıcılıq prosesini diqqətlə izləmiş Füzuli Əsgərli fakt və detalları, ayrı-ayrı poetik parçaların təhlili olan səhifələri "Uşaq aləmini kəşf edən poeziya ustası" fəslində bir araya gətirmişdir.

Azərbaycan uşaq nəsri XX əsrin 60-cı illərində və sonrakı onilliklərdə mövzu dairəsi genişlənmiş, bəşəri mövzular milli uşaq nəsrinə yeni çalarlar gətirmişdir. Bu yaradıcılıq mərhələsinin tədqiqatçısına çevrilmiş Zahid Xəlil həm də sələflərinin, müasirlə-

rinin ənənələrinə söykənmiş, bədii yaradıcılıq aləminə qədəm qoymuş, ilk nəsr kitabı başlığı ilə həm öz oxucularının, ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir.

Füzuli müəllim bir ədəbiyyatşünas, alim-pedaqoq olaraq Zahid Xəlilin kiçik hekayələrdəki dərinliyi, sadəliklə üzvi şəkildə ifadə olunan məzmun zənginliyini çox ustalıqla aşkara çıxarmış, müəllifin nəsr əsərlərindəki orijinallığı, obrazlar sistemindəki yenilik faktlarını, dil-üslubdakı, ümumiyyətlə Zahid Xəlil nəsrinin poetikasındakı yenilikləri novatorluq səviyyəsində dəyərləndirmişdir.

Zahid Xəlil bədii yaradıcılığın dramaturgiya sahəsində də qələmini sınamış, əsərləri tamaşaçı marağı qazanmışdır. Füzuli Əsgərli kitabın üçüncü fəslini bu məsələlərin şərhinə həsr etmiş, Zahid Abdulla oğlunun dramaturji fəaliyyətinin təhlilinə ayrıca səhifələr həsr etmişdir.

Filologiya üzrə elmlər doktoru, professor Zahid Xəlil qədim və zəngin tarixi olan ədəbi əlaqələrin zənginləşməsində, bədii tərcümə nümunələrinin kəmiyyət və keyfiyyət dəyişmələrində əmək sərf etmişdir. Bu məsələlər isə dördüncü fəsildə əhatə olunmuşdur.

Elmi yaradıcılıqla bədii yaradıcılıq sahələrini üzvi şəkildə əlaqələndirən, özü elmi-ədəbi və bədii-

estetik fəaliyyət sahələrini tədqiq edən şair, yazıçı-dramaturq Zahid Xəlilin əsərləri rus və Azərbaycan ədəbi tənqidində ayrıca mövzu olmuşdur. Bu məsələnin tarixi, ayrı-ayrı qələm məhsulları beşinci fəsil üçün obyekt olmuşdur: "Rus və Azərbaycan ədəbi tənqidi Zahid Xəlilin yaradıcılığı haqqında".

İrihəcmli monoqrafiyadakı fikirlərini nəticədə ümumiləşdirən dosent Füzuli Əsgərli oxucuların işini asanlaşdıraraq professor Zahid Xəlillə aparılmış müsahibələri toplamış, alim-yazıçının ölkə yazarlarının VII qurultaydakı məruzəsini, Azərbaycan yazıçılarının X qurultaydakı çıxışını, müxtəlif teleqram və məktubları monoqrafiyanın sonuna əlavə etmişdir. Zahid Xəlilin yaradıcılığı ilə bağlı məqalələr, alim-yazıçının valideynlərinin fotoları, Zahid Xəlilin müxtəlif zamanlarda ayrı-ayrı elm, sənət adamları ilə vətəndə və xaricdə çəkdirdiyi şəkillər monoqrafiyanın tarixi-xronikal, sənədli-mədəni dəyərini daha da artırmışdır.

Bütövlükdə, filologiya elmləri namizədi, dosent Füzuli Əsgərlinin "Ömrün sözü, sözün ömrü" monoqrafiyası ömrünü bədii sözə köçürmüş sənətkar və alimə sağlığında ucaldılmış abidədir. Kitab filoloqlar, bakalavr və magistrantlar üçün dəyərli mənbədir.

"Azərbaycan müəllimi" qəzeti, 2008, 26 dekabr.

XURAMAN ƏSGƏROVA,
filoloq-psixoloq

Bədii tərcümə prinsipləri

Bizə yaxşı məlumdur ki, dünya ədəbiyyatının qarşılıqlı əlaqələr istiqamətində inkişafı müəyyən mərhələlərdə tərcümə vasitəsilə formalaşmış, çoxsaylı xalqlar arasında geniş yayılmasına səbəb olmuşdur. Ayrı-ayrı dövrlərdə bu sahənin daha düzgün şəkildə inkişafı üçün tərcümə nəzəriyyəçiləri meydana gəlmiş, bu sahənin nəzəri imkanları daha da genişlənmişdir. Müxtəlif illərdə Azərbaycanın bir sıra tərcümə nəzəriyyəçiləri – Mikayıl Rəfili, Məmməd Arif, Cümşüd Əzimov, Əkbər Ağayev, Həbib Babayev, Ənvər Məmmədxanlı, Cəlal Məmmədov, Bayram Tahirbəyov, Fəridə Vəlixanova, Tamilla Xəlilova, Gültəkin Sultanova və digər ədəbiyyatşünas-nəzəriyyəçilər öz əsərləri ilə bu sahənin inkişafına düzgün istiqamət verməyə səy göstərmişlər.

Lakin son illərdə bu zəruri sahə demək olar ki, diqqətdən kənarda qalmış, xüsusilə milli ədəbiyyatımızın inkişafına təkan verən tərcümə əsərlərinin geniş yayılması üçün əsas rol oynayan nəzəri məsələlər müəyyən mənada unudulmuşdur. Bu boşluğu hiss

edən ədəbiyyatşünas alim Füzuli Əsgərli böyük zəhmət hesabına ərsəyə gətirdiyi “Bədii tərcümə prinsipləri” monoqrafiyasını (2009, elmi redaktor, professor Zahid Xəlil, redaktorlar Şəfa Əhmədova, Xuraman Məmmədhüseyn qızı) çap etdirmişdir. Bizə elə gəlir ki, bu gərəkli monoqrafiya bu günümüzə qədər çap edilmiş nöqsanlı tərcümə əsərlərinin təshih olunmasında və dünya ədəbiyyatının yenidən dilimizə tərcüməsində böyük əhəmiyyətə malik olacaqdır.

Monoqrafiya beş fəsildən ibarətdir və hər fəsil zəruriyyət tələb edən problemlərin elmi baxımdan aydınlaşmasına xidmət edir. Müəllif giriş hissəsindən sonra birinci fəsildə (“Qarşılıqlı ədəbi əlaqələr və tərcümə tarixindən”) Azərbaycanda yaranmış tərcümə sənətinin mərhələli inkişafını geniş şərh etmiş, müxtəlif illərdə fəaliyyətdə olmuş bir sıra maarifçi-yazıçıların (Abbasqulu ağa Bakıxanov, Abbas Səhhət, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Abdulla Şaiq və sair) bu sahədə gördüyü işlərə xüsusi yer ayırmışdır. Əsasən, XIX əsrin dördüncü onilliyindən Abbasqulu ağa Bakıxanov tərəfindən təməli qoyulmuş tərcümə sənətinin müasir dövrümüzə qədər olan inkişaf prosesinin faktlar əsasında şərhi daha çox maraq doğurur. Monoqrafiyanın üstün cəhətlərindən biri də budur ki, tərcümə sahəsində gedən bütün proseslərin real məziyyətləri öz əksini

tapmış, hər bir tərcümə olunan əsərə əsl ədəbiyyatşünas münasibəti bildirilmişdir. Həmçinin, bu monoqrafiya bu sahəyə həsr olunacaq gələcək elmi-tədqiqatlar üçün bir mənbə rolunu oynaya bilər.

Əsərin ikinci fəsli daha maraqlı bir problemə həsr edilmişdir. Bədii tərcümənin ən başlıca məziyyətlərindən biri təsvir edilmiş obrazların mənəvi-psixoloji aləminə nüfuz etmək, bu obrazların daxili xarakterik xüsusiyyətlərini orijinala məxsus olan tərzdə açmaqdan ibarətdir.

Tərcümə sənətkarlığı məsələlərindən biri kimi tədqiqata cəlb edilmiş bu problem "Obrazların mənəvi-psixoloji aləminin təcəssümü" fəslində öz geniş əksini tapmışdır. "Orijinal əsər müəllifi bir dilin, tərcüməçi isə iki dilin bilicisi olmalıdır" prinsipini əldə rəhbər tutmuş müəllif bütün bədii tərcümə məsələlərinin həllinə bu kontekstdən yanaşmış, tərcüməçilərə təklif etdiyi prinsiplərdə bunun əsas olduğunu sübut etməyə çalışmışdır. Zahiri və mənəvi portret yaratmaq orijinal müəllifindən sənətkarlıq tələb etdiyi kimi, tərcüməçidən də böyük ustalıq tələb etdiyini onların nəzərinə çatdırmışdır. Müəllif haqlı olaraq qeyd edir ki, obrazların canlılığı və kamilliyindən asılı olaraq həmin əsərin sanbalı, bədii dəyəri, ümumiyyətlə isə, müəllifin yaradıcılığı haqqında söz demək mümkün olur.

Ədəbiyyatşünas alim-nəzəriyyəçi Füzuli Əsgərli haqlı olaraq, tərcümə prosesində obrazların real canlandırılması üçün üç əsas şərtə əməl etməyi: obrazların zahiri və mənəvi portretini yaratmağı, onların fəaliyyət dairəsinin ictimai mühitlə əlaqəli təsvirini və danışıq dilinin (nitqinin) canlandırılmasına xüsusi fikir verməyi zəruri sayır. Həmçinin, tərcümə prosesində buraxılan xətaları qruplaşdıran müəllif, obrazların zahiri portretinin orijinaldan uzaq salınmasını, başlıca xarakterik cizgilərinin, Azərbaycan dilinin zəngin leksik imkanlarının və obrazlılığın ən mükəmməl formalarından istifadə edilməməsini, mühitin və məişət şəraitinin, zahiri görünüşün və geyimlərin və sair məqamların natamam təsvirini nümunələr gətirməklə şərh etmiş, bunların düzgün variantını inandırıcı göstərmişdir.

Əsərin üçüncü fəsli "Bədii tərcümədə üslub orijinallığı" adlanır. Məlumdur ki, üslub hər bir sənətkarın yaradıcılığına xas olan, əsərində başlıca ideya-bədii xüsusiyyətlərin məcmusu və məzmununu müəyyən edən fərdi ifadə tərzi, yaradıcılıq prosesində onun temperamentinin aşkarlığı kimi səciyyələnir. Bunu nəzərə alan Füzuli Əsgərli yazır ki, Qorkini Qorki sintaksisi ilə, Kiplinqi Kiplinq sintaksisi ilə, Qaydarı Qaydar sintaksisi ilə, Nosovu Nosov sintaksisi ilə, Tolstoyu isə onun özünün mürəkkəb,

çoxpilləli nitq layları ilə və eləcə də müasir yazıçıları onların üslubunun bütün xüsusiyyətləri ilə tərcümə etmək lazımdır.

Tərcümə zamanı yazıçıların fərdi üslubunu yoxsullaşdıran xətaların meydana gəlməsinin səbəblərini söz və ifadələrin yerində işlənməməsində, sintaktik xüsusiyyətlərə məxsus olan söz düzümündə ekspressivlik və emosionallığın zəif təzahüründə görən müəllif bunun düzgün islah yollarını göstərmişdir. Həmçinin, orijinalın bədii üslubuna xələl gətirən səbəbləri qruplaşdıraraq düzgün nəticəyə gəlmişdir. Hərfi tərcümələrdən, lüzumsuz söz artırmalarından, ifadələrin yanlış tərcüməsindən, sintaktik düzümün pozulmasından və şəxs əvəzlikləri və sual ədatı sonluqlarının yersiz istifadə edilməsindən törənmiş üslub xətalarını dəqiqliklə müəyyən edən tədqiqatçı Füzuli Əsgərli bunların ciddi təshih olunması ilə gələcək bədii tərcümələrin keyfiyyətinə tam zəmanət vermişdir.

Orijinal əsərlərin milli xüsusiyyətlərinin bədii tərcümə zamanı saxlanılması əsas zəruri məsələlərdən biridir. Monoqrafiyanın “Tərcümədə milli xüsusiyyətlərin saxlanılması” adlı dördüncü fəslində Füzuli Əsgərli bu məsələyə münasibət bildirərək yazır ki, milli kolorit öz qabarıq əksini obrazlı ifadələrdə tapmış xalq təfəkkürü sistemidir. Ona görə, hər bir

xalqın tarixi, məişəti, dini təriqəti, coğrafi mühiti, adət-ənənələri, etnik-etik və digər xüsusiyyətləri milli koloritin yaranmasına xidmət edir. Bu xüsusiyyətlərin dərindən dərk olunaraq müxtəlif dillərdə verilməsi üçün tərcüməçinin yaradıcılıq laboratoriyası ciddi fəaliyyətdə olmalıdır. Hər bir dünya xalqının özünəməxsus məişəti, adət-ənənəsi vardır ki, bütün bu fərqlər onları bir-birindən ayırmaq xüsusiyyətinə malikdir.

Müəllif bunları qeyd etməklə, müxtəlif illərdə tərcümə edilmiş nəsr əsərlərində buraxılmış xətalara öz münasibətini bildirmişdir. Tərcümə prosesində milli koloritin saxlanılmasının əsasən üç kateqoriyada mümkün olduğunu qeyd edən nəzəriyyəçi, milli həyat tərzi ilə bağlı olan bayramları, dini və matəm mərasimlərini, toponimləri, dövrü əks etdirən müxtəlif realiyaları, milli kolorit komponentli, spesifik dil strukturlu atalar sözlərini, məsəlləri, idiomları, vulqar sözlər və dialektik ifadələri, həmçinin, əsas kateqoriyalardan biri olan, bu və ya digər xalqa məxsus xarakter və psixologiyanı əks etdirən amilləri, xalqın təfəkkür tərzini, fəaliyyət dairəsini və sair məqamları haqlı olaraq əsas götürmüşdür.

Müəllif adların tərcümə olunması probleminə xüsusi münasibət bildirilmişdir. Bəzi hallarda adların tərcüməsində və ya onların ekvivalentinin verilmə-

sində tərcüməçilərin hədlərini aşmalarına, mövcud tərcümə prinsipləri çərçivəsindən kənara çıxmalarına ciddi yanaşan müəllif, bütün bunların mövcud prinsiplərə zidd olduğunu qeyd etmiş və bunların optimal variantını göstərmişdir. Fəslin sonunda bitkin nəticə əldə edən Füzuli Əsgərli tərcümə zamanı orijinalın süni şəkildə milliləşdirildiyini və milli koloritin kölgədə qaldığını, realiyaların orijinallıqdan çıxdığını, milli-sosial psixologiyanın zəif dərk edildiyini, orijinalın milli frazeoloji şəklinin əks etdirilməməsi, ona uyğun gələn ekvivalentlərin axtarılmamasını və sair əlamətləri bu sahənin uğursuzluğu kimi qələmə vermişdir.

"Atalar sözü, məsəl və idiomlardan istifadə üsulları" adlanan beşinci fəsil daha çox maraq doğurur. Bədii ədəbiyyatda milli xüsusiyyətlərin təzahür formaları kimi öz yeri olan bu komponentləri tərcümədə də canlandırmaq əsərin orijinallığını, bədii dəyəri və sənətkarlıq xüsusiyyətlərini özündə saxlaya bilir.

Müəllif tərcümə əsərlərində istifadəsi və dəqiq verilməsi zəruri olan, frazeologiyanın semantik-ekspressiv imkanları haqqında bitkin təsəvvür yaradan atalar sözü və məsəlləri müxtəlif kateqoriyalara: forma və məzmuna görə başqa dillərdə ekvivalenti olan, məzmunca uyğun gələn, lakin formaca fərqlənən və

nə məzmunca, nə də formaca uyğun gələn bölmələrə ayıraraq daha çox nöqsanları üzə çıxarmağa çalışmışdır. Müəyyən etmişdir ki, bəzi tərcüməçilər orijinaldakı atalar sözü, məsəllər və idiomların ekvivalentini dürüst verə bilməmiş, bədii təsvir və ifadə vasitələrinə düzgün yanaşmadıqlarına görə fikir və məna təhrifləri özünü göstərmiş, bəzi hallarda idiomatik ifadələr adi sözlərlə əvəz edilmiş, yaxud, hərfi tərcüməyə məruz qalmışdır.

Müəllif son nəticədə tərcümə zamanı aşağıdakı prinsipləri əsas götürməyi zəruri hesab etmişdir: bədii tərcümə orijinal əsər səviyyəsində anlaşıqlı və oxunaqlı olmalıdır, orijinal müəllifinin fərdi üslubuna xələl gəlməməli, hər bir xalqın milli koloriti olduğu kimi saxlanılmalı, obrazların mənəvi-psixoloji aləminə və xarakterik xüsusiyyətlərinə dərindən nüfuz edilməli, bədii təsvir və ifadə vasitələrinin dürüstlüyünə diqqətlə yanaşılmalı, orijinalın əsas ideyasının saxlanılması əsas məziyyətlərdən biri olmalı, lüzumsuz əlavələrə (qondarmalara) və ya ixtisarlara yol verilməməlidir.

Ədəbiyyatşünas Füzuli Əsgərli fikrini bir daha qüvvətləndirmək üçün antik yunan natiqi Demosfenin bir ifadəsini işlədərək qeyd edir ki, yaxşı tərcümə həyatın ən qiymətli xəzinəsidir, ona görə ki, o sənə

zənginlik bəxş edir. Pis tərcümə isə çirkin adamdan da betərdir.

Cəsarətlə qeyd edə bilərik ki, ədəbiyyatşünas Füzuli Əsgərlinin “Bədii tərcümə prinsipləri” monoqrafiyası bu gün öz imkanı səviyyəsində çıxış edə bilməyən bədii tərcümə prosesinin gələcək inkişafı üçün olduqca böyük əhəmiyyət daşıya bilər. Ali məktəblərdə, xüsusi açılmış kurslarda tərcüməçi kadrlarının hazırlığında və bədii tərcümə sahəsinin daha geniş şəkildə inkişafında bir mənbə rolunu oynaya biləcək bu əsərin böyük tirajla çap edilməsinə zəruri ehtiyac vardır.

“Türküstan” qəzeti, 2010, 21-27 aprel

Füzuli Əsgərli: "Bədii tərcümə prinsipləri".

Uşaq ədəbiyyatı üzrə dərsliklər müəllifi kimi tanınan Füzuli Əsgərlinin "Bədii tərcümə prinsipləri" adlı yeni kitabı işıq üzü görüb. Kitab ADPU-nun nəşriyyatında çap olunub. Monoqrafiyanın elmi redaktoru, filologiya elmləri doktoru, professor Zahid Xəlildir.

Kitab beş fəsildən ibarətdir. Birinci fəsil "Qarşılıqlı ədəbi əlaqələr və tərcümə tarixindən" adlanır. Bu fəsildə Azərbaycanın görkəmli tərcüməçilərindən, onların tərcümə özəlliklərindən, dünya ədəbiyyatının dilimizə tərcümə olunması haqqında çox dəyərli məlumatlar verilir.

"Obrazların mənəvi-psixoloji aləminin təcəssümü" adlanan ikinci fəsildə obrazlar, onların dili və tərcümə prosesi haqqında danışılır. Üçüncü fəsil "Bədii tərcümənin üslub orijinallığı" adlanır. Bu fəsildə xüsusi üslubu olan yazıçıların tərcümə zamanı üslublarının saxlanılması haqqında söhbət açılır. Dördüncü fəsil "Bədii tərcümədə milli xüsusiyyətlərin saxlanılması"dır. Bu fəsil əsasən informasiya zənginliyinə görə fərqlənir. Sonuncu fəsil isə "Ata-

lar sözü, məsəllər və idiomlardan istifadə üsulları” adlanır.

İstifadə olunmuş ədəbiyyatdan da məlum olur ki, müəllif kitabın üzərində uzun illər işləyib. Sonda onu da qeyd edək ki, sözü gedən kitab tərcümə fakültəsində təhsil alan tələbələr üçün dəyərli dərs vəsaiti sayıla bilər.

“Mədəniyyət” qəzeti, 2009, 25 sentyabr

“Bədii təhlil və ədəbi tənqid”

Hamımıza yaxşı məlumdur ki, müxtəlif illərdə qələmə alınmış çoxjanrlı Azərbaycan ədəbiyyatı ciddi fəaliyyət göstərən ədəbi tənqidin diqqətini cəlb etmiş, görkəmli tənqidçilər bu əsərlərin bədii təhlili, onun poetik zənginliyi və sənətkarlığı müstəvisi üzərində elmi-nəzəri fikirlərini söyləmişlər. Pedaqoji Universitetin “Ədəbiyyat və onun tədrisi metodikası” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru, istedadlı tədqiqatçı Füzuli Əsgərli “Bədii təhlil və ədəbi tənqid” kitabında bu ədəbi proses haqqında daha geniş təsəvvür yaratmaq üçün janrlar üzrə bədii təhlillərə geniş yer vermiş, tənqidi fikirlərə öz münasibətini bitirmişdir. Həmçinin, kitaba bir sıra məqalələr və xatirələr də daxil edilmişdir.

Eyni zamanda, monoqrafiya müəllifin müxtəlif illərdə olunmuş kitabları haqqında yazılan məqalələr də daxil edilmişdir. Monoqrafiyanın elmi redaktoru, professor Zahid Xəlil, rəyçiləri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, professor Nizami Cəfərov və filologiya elmləri doktoru, professor Himalay Qasımovdur.

“Gənc müəllim” qəzeti, 2010, dekabr, №10.

ŞAMXƏLİL MƏMMƏDOV,
ELMAN ƏBDÜLOV

“Zahid Xəlilin sənət dünyası”

Həyatda hər kəsin öz yolu, hərənin öz tale payı var. Biri yaşayış binası ucaldır, biri bağ salır, başqa birisi elm yolunun yolçusuna çevrilir. Sənət yolu fərqlidir, özəllikləri ilə seçilir, “bədii yaradıcılıq bütövlükdə sənət ixtirasıdır, novatorluqdur, poetik kəşflər sistemidir, obrazlar dünyasıdır” (Füzuli Əsgərli) və sənətkar bu kəşflər sistemi ilə yaşayır, obrazlar dünyasındakı surətlərin mənəvi-əxlaqi xüsusiyyətlərində özünü təmsil edir. Bu baxımdan, uşaq yazıçısının həyatı və yaradıcılıq yolu bir sıra özəllikləri ilə seçilir.

Zahid Xəlilin taleyinə ulu Tanrının payı ikiqat düşüb: bir tərəfdən uşaq ədəbiyyatının lirik və epik növlərində əsərlər yaratmaq, o biri tərəfdən də özünəqədərki Azərbaycan ədəbiyyatının tədqiqatçısı olmaq. Beləcə elmi və bədii yaradıcılıq qollarını bir yaradıcı şəxsində birləşdirmək, üstəlik müəllim hazırlayan ali məktəbdə alim-pedaqoq kimi çalışmaq özü böyük bir xoşbəxtlikdir.

“Zahid Xəlilin sənət dünyası” adlı məqalələr toplusu (elmi redaktoru, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov, tərtib edən filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərlidir) şair, yazıçı, publisist, ədəbiyyatşünas alim Zahid Xəlilin elmi-pedaqoji və ədəbi fəaliyyəti haqqında aydın təsəvvür yaradan oxunaqlı, məzmunlu materiallar məcmusudur.

Kitabda Füzuli Əsgərli, Əzizxan Tanrıverdi, İlyas Tapdıq, Bilal Muradov, Şəlalə Nəbiyeva, Əli Rza Xələfli, Musa Adilov və Vaqif Mərdanov, Hikmət Ziya, Dursun Məmmədov, Aydın Hacıyev, Rafiq Yusifoğlu, Hidayət, Fəxrəddin Yusifov, Bilal Həsənli, Soltan Əliyev, Elman Əbdülov, Şamxəlil Məmmədov, Cəmilə Məhərrəmova və başqalarının müxtəlif zamanlarda qələmə aldıqları yazılar verilmişdir.

Tərtibçi Füzuli Əsgərli həm də İqor Motyaşov, Marianna Yampolskaya, Marina Vlasova, Natalya Filonova və başqa rus tədqiqatçılarının məqalələrini də kitaba daxil etməklə Zahid Xəlilin ədəbi-bədii əsərlərinin keçmiş SSRİ məkanında maraq doğurması haqqında təsəvvür yaradır.

Ümumilikdə, məqalələr toplusu öz poetik dünyası, püxtələşib sabitləşmiş üslubu, təkrarolunmaz

obrazlar yaradan, folklor və uşaq ədəbiyyatı problemi və sair elmi mövzularda əsərləri ilə ədəbiyyatşünaslıqda özünə mövqe qazanan Zahid Xəlil dünyası haqqında zəngin informasiya qaynağıdır.

"Azərbaycan müəllimi" qəzeti, 2010, 02 iyul.

AYƏTXAN ZİYAD,
HACI TOFİQ SEYİDZADƏ

“Sehrli dünyanın memarı” kimdir Bu tədqiqat işi ədəbiyyatşünas alim, fəlsəfə doktoru, dosent Füzuli Əsgərlinin təqdimatında

Altmış altı illik yaşamının 30 ilini Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsinə (tədqiqinə) həsr etmiş, ali və orta ixtisas məktəbləri üçün “Uşaq ədəbiyyatı” (2007, 2009, 2011-ci illər) dərsliklərinin, yeddi monoqrafiyanın, “Zahid Xəlilin sənət dünyası” məqalələr toplusunun, 100-dən artıq elmi-nəzəri və publisistik məqalənin, “Qızıl qələm” mükafatı laureatı Füzuli Əsgərlinin “Sehrli dünyanın memarı” adlandırdığı SAHİB – Azərbaycan ədəbi mühitinin hər şeydən öncə uşaq yazıçısı olaraq tanıyıb-qəbul etdiyi, uşaqların, eləcə böyüklərin də yaradıcılığını sevə-sevə izlədiyi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Zahid Xəlildir. Lirika, ritm, yaddaqalımlıq, məhz azyaşlı uşaqların dərk edib heyrətlənə biləcəyi fəlsəfə! Azərbaycan uşaq ədəbiy-

yatında çoxdan öz sözünü demiş, ona məxsus zirvəni çoxdan fəth etmiş şair, yazıçı, dramaturq Zahid Xəlil yaradıcılığının ana xəttini təşkil edən başlıca leytmotiv budur.

Zahid Xəlilin anadan olmasının 70 illik yubileyinə həsr etmiş olduğu monoqrafiyasında Füzuli Əsgərli şairin poeziya, nəsr və dramaturji yaradıcılığını elmi-nəzəri aspektdə araşdırmış, tədqiqata cəlb etdiyi əsərlərin ideya-bədii və sənətkarlıq məziyyətlərinin açılmasına xüsusi diqqət yetirmişdir. Kitabda Zahid Xəlil poeziyasının musiqi ilə ahəngdarlığı, tərcümə yaradıcılığı və qarşılıqlı ədəbi əlaqələri geniş yer almış, Azərbaycan və rus ədəbi tənqidinin şairin yaradıcılığına münasibətini əks etdirən məqalələr toplanmışdır.

Kitabın elmi redaktoru akademik Bəkir Nəbiyev, rəyçilər filologiya üzrə elmlər doktoru, pro- fessor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Nizami Cəfərov və filologiya üzrə elmləri doktoru Rafiq Yusifoğludur.

Cəmiyyətimizin gələcək qurucularının bir vətəndaş kimi formalaşmasında əvəzsiz rol oynayan uşaq ədəbiyyatının tədqiqi (öyrənilməsi) işində “Sehrli dünyanın memarı”, professor Himalay Qasımovun qeyd etdiyi kimi, “Bitkin elmi-tədqiqat əsəri”, “Müasir milli uşaq yazıçılarımızın tədqiqi istiqamə-

tində əvəzsiz mənbə", onların yaradıcılığının "ardıcıl və hərtərəfli tədqiq olunmasına doğru açılan yeni elmi-tədqiqat cığırı"dır. Monoqrafiya Zahid Xəlil yaradıcılığına sadəcə bir baxışdırmı? Heç də yox! Zahid Xəlil poeziyasını təhlil etməklə tədqiqatçı alim əslində XX əsrin 50-ci illərindən sonrakı dövr Azərbaycan uşaq ədəbiyyatı haqqında söz demişdir. Bu üzdən XX əsrin 60-70-ci illərini Azərbaycan uşaq ədəbiyyatının Qızıl Dövrü səviyyəsində qəbul etsək, Füzuli Əsgərlinin Zahid Xəlil poeziyasının təhlili əslində bu dövrün uşaq ədəbiyyatına bir baxış dəyərindədir. Həmin illərin uşaq yazıçılarını xatırlayaq: İlyas Tapdıq, Tofiq Mütəllibov və başqaları. Kitabı diqqətlə oxuyan kəs Zahid Xəlil haqqında deyilən SÖZ-ün (monoqrafiyanın) bir növ XX əsr 60-70-ci illər Azərbaycan uşaq ədəbiyyatının təhlili təsiri bağışladığını aşkar görmək mümkündür.

"Sehrli dünyanın memarı"na kəlmə-kəlmə, misra-misra nüfuz etdikcə, Zahid Xəlil yaradıcılığına bələd oxucu kimi içimdə bir sual özünə cavab istədi: Zahid Xəlildə uşaq dünyasına bu həzinlikdə bələdlik, nüfuz, fitrən bu görüm hardandır? Necə oldu ki, Zahid Xəlil yüzlərin, minlərin sırasından ayrıldı və bu ZİRVƏ-ni fəth etdi? Cavab tədqiqatçı ömrünün otuz ilini Zahid Xəlil yaradıcılığının öyrənilməsinə həsr

etmiş Füzuli Əsgərlinin eynilə mənim fikirlərimlə səsləşən qənaətində:

1.Zahid Xəlil uşaqlar üçün yazdıqlarını həmişə ciddi iş hesab edib;

2.Zəngin xalq ədəbiyyatını və klassik ədəbiyyatı bütün incəliklərinə qədər dərk edə bilib, onun bədii ruhunu qavrayıb, poetik ahəngini ürəkdən duyub;

3.Uşaqlara məxsus saflığı, şirinliyi, heyrəti bütün yaş hədlərində vücudunda qoruyub saxlaya bilib.

Azərbaycan uşaq ədəbiyyatının tədqiqatçısı olaraq özünü çoxdan təsdiq etmiş Füzuli Əsgərli bu kimi sorğuları cavablandırmaqla əslində ədəbiyyata gələn gənclik üçün bələdçi rolunu oynayır. Onlara demək istəyir ki, öz xalqının şifahi ədəbiyyat boxçasını bilmədən, dünya ədəbiyyatını öyrənmədən və İlahidən gələn vergiyə sahib olmadan da yazı yazmaq mümkündür, ancaq belə yazmaq, belə yazı sadəcə sözlər yığını olacaq, xalq beləsini “şair”, “yazıçı” deyib qəbul etməyəcək, sənətkar, bu işin sahibi kimi yaddaşında saxlamayacaq. Çünki (bu mənim qənaətimdir) poeziya – heyrətdən doğur, heyrət hissin tükəndikcə – yaradıcılıq da yoxdur, yazdıq- ların sadəcə yan-yana düzülmüş, bir-birini izləyən söz yığınıından qeyri bir zad olmayacaq.

Sorğumuza təkrarən cavab axtaraq: uşaqlıq və yeniyetməlik yaşını İkinci Dünya müharibəsinin aclıq, səfalət dolu böhranlı illəri ilə göz-gözə durmuş, bütün bu aclıqları canında yaşatmış bir insanda (Zahid Xəlildə) uşaq dünyasına bir qədər heyrət, diqqət, məhəbbət, bu qədər nüfuz haradandır?

Füzuli Əsgərli Zahid Xəlil yaradıcılığında bu məqamların heyrətini görür və gördüklərini ədəbiyyatşünas alim təfəkkürünün süzgəcindən keçrib oxucusunu da Zahid Xəlil yaradıcılığını məhz onun gördüyü baxışda, təhlil etdiyi görümdə oxumağa, qəbul etməyə istiqamətləndirir.

"Sehrli dünyanın memarı" monoqrafiyasını qələmə almaqla müəllif Azərbaycan uşaq ədəbiyyatında Zahid Xəlil zirvəsinin var olduğunu bir daha müasir oxucuya xatırlatdı. Mənə elə gəlir ki, bu kimi vaxtında "xatırlamalar", "yadasalmalar" nəinki gərəkdir, əksinə, yazılı ədəbiyyata meylin öləzidiyi indiki zamanda olduqca vacibdir.

Bu, mənim mövqeyimdir:

Füzuli Əsgərlinin Zahid Xəlil yaradıcılığının tədqiqat istiqamətinə diqqət yetirək: "Uşaqları söz sehrinə salan şair", "Həm də böyüklərin həmdəmi", "Uşaq şeirləri musiqi qanadlarında", "Milli uşaq nəsrinin novatoru", "Milli uşaq ədəbiyyatımızda ilk macəra romanı", "Uşaq dramaturgiyasının inkişafın-

da fəaliyyəti”, “Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu” və “Azərbaycan-rus ədəbi tənqidi bədii yaradıcılığı haqqında”.

Filologiya elmləri doktoru, professor, Himalay Qasımov kitab haqqında “Bitkin elmi-tədqiqat əsəri” adlı söz yazmış, kitabın müəllifi, fəlsəfə doktoru Füzuli Əsgərlinin “Giriş” adlandırdığı Ön Sözdə onu Zahid Xəlil yaradıcılığına müraciət etməyə sövq edən məqamları açıqlamışdır. Kitabda, həmçinin, Zahid Xəlilin ayrı-ayrı mətbuat orqanlarına verdiyi müsahibələri, Azərbaycan yazıçılarının VII və X qurultaylarındakı məruzə və çıxışı, Azərbaycanın və dünyanın bir çox tanınmış yazıçı və şairlərinin Zahid Xəlilə və kitabın müəllifi Füzuli Əsgərliyə ünvanladıqları məktub və teleqramlar, rus ədəbi tənqidinin Zahid Xəlil yaradıcılığı haqqında yazdıqları elmi məqalələr də toplanmışdır. Kitab ümumilikdə 444 səhifədən ibarətdir.

Bütün bunlardan sonra şəxsən məni illərlə düşündürən məqam: Füzuli Əsgərli (yaxud istənilən digər tədqiqatçı) doktorluq dissertasiyası olaraq Zahid Xəlil yaradıcılığına müraciət etmiş olsaydı, kitabda göstərilən tədqiqət istiqamətlərindən qeyri daha hansı məsələləri araşdırmalı idi ki, elmi ad almış olsun?

Fikrin axarı yeni sual meydana çıxarır: alimlik dərəcəsi alan ziyalının elm aləmində töhfə olaraq nəyi qalır? Aspiranturaya (doktoranturaya) qəbul imtahanları, verdiyi minimumlar, yoxsa əmə- yinin nəticəsi olan təqqiqat işi? Təbii olaraq cavab birmənalıdır: elm üçün yadigarlıq qoyduğu tədqiqat! Mən Füzuli Əsgərlinin "Görkəmli uşaq yazıçıları" silsiləsindən təqdim etdiyi "Sehrli dünyanın memarı" adlı monoqrafiyasını bu siqlətdə, bu dəyərdə gördüm.

Axı, bu qism monoqrafiyaların (istər fəlsəfə doktoru, istərsə də elmlər doktoru adı almaq üçün) birbaşa elmi iş kimi təsdiq olunması dünya praktikasında mövcud olduğu kimi, elm məbədgahımız Azərbaycan Milli Elmlər Akademiyasının da təcrübəsində var və olmuşdur. Bu xüsusda Respublikamızın tanınmış professorları və AMEA-nın müxbir üzvləri ilə fikir mübadilələrimiz olub. Hər biri ayrı-ayrılıqda mənim mövqeyimi təqdir edir. Elə isə bu "mexanizmin işə düşməsini" əngəlləyən nədir? Sorğunu zamanın axarına ünvanlayıb oxucu ilə son qənaətimi bölüşürəm: pas atmış, qıfıllanmış mexanizmi neçə illik fasilədən sonra yenidən hərəkətə gətirmək!

Ola bilsin hansı zaman civarında mənim bu mövqeyimə ehtiyac olmayıb. Amma, gəncliyin təhsilə, elmə biganəliyinin məqam-məqam kəskinləşdi-

yi indiki zamanda bu mülahizənin gündəmə gətirilməsi həlli vacib məsələ kimi özünü təzahür etdirir.

Son olaraq: Oxucum olan hər kəsi Füzuli Əsgərlinin "Sehrli dünyanın memarı" monoqrafiyasını oxumağa dəvət edirəm. Mülahizələrimin təsdiqi, yaxud inkarı məhz bu məqamdan sonra oxucumun mühakiməsində.

Hər birinizin gəldiyi qənaətə hörmət və ehtiramla.

"Yeni Azərbaycan" qəzeti, 2012, 27 yanvar.

ƏDALƏT DAŞDƏMİRLİ,
jurnalist

“Sehrli dünyanın memarı”

Ədəbiyyatşünas-tənqidçi, fəlsəfə doktoru Füzuli Əsgərlinin “Sehrli dünyanın memarı” (Bakı, Pedaqoji Universitetin nəşriyyatı, 2012, 444 səhifə) adlı monoqrafiyası sevimli uşaq yazıçısı Zahid Xəlilin 70 illik yubileyinə həsr edilib. Müəllif bu monoqrafiyasında yazıçının ədəbi yaradıcılığını – poeziya, nəsr və dramaturgiyasını geniş təhlil edib. Tanınmış yazıçının yaradıcılığını elmi-nəzəri aspektdə araşdıran müəllif, tədqiq etdiyi müxtəlif janrlı əsərlərin ideya-bədii və sənətkarlıq xüsusiyyətlərinin açılmasına xüsusi diqqət yetirib. Bu bitkin monoqrafiyada yazıçının şeiriyyatının musiqi ilə bağlılığı, qarşılıqlı ədəbi əlaqələr və tərcümə prosesindəki fəaliyyəti, Azərbaycan və rus ədəbi tənqidinin Zahid Xəlil yaradıcılığına olan münasibəti hərtərəfli işıqlandırılıb.

Elmi redaktoru akademik Bəkir Nəbiyev, rəyçiləri filologiya elmləri doktorları, professorlar Nizami Cəfərov və Rafiq Yusifoğlu olan “Sehrli dünyanın memarı” monoqrafiyası səkkiz fəsildən

ibarətdir və hər bir dolğun fəsildə Zahid Xəlilin tədqiq olunmuş müxtəlif janrlı zəngin yaradıcılığı – poeziya, nəsr, dramaturgiya və həmçinin, digər ədəbi sahələr özünün geniş əksini tapıb.

Bu dəyərli monoqrafiyanın ilk səhifəsi filologiya elmləri doktoru, professor Himalay Qasımovun "Bitkin elmi-tədqiqat əsəri" adlı yazısı ilə açılır. O, bu məqaləsində yazır: "Zahid Xəlil şeirlərindəki təbiilik, uşaq qəlbinə və körpə dünyasına bələdlik, səmimi hisslər daha qabarıqdır, müəllifin incə, həssas müşahidələrinin poetik ifadəsidir. Fərəh doğuran hal budur ki, şair uşaqlara məxsus saflığı, şirinliyi, gəncliyə məxsus enerjini və həvəsi öz içində və yaradıcılığında daim qoruyub saxlaya bilmişdir. Şairin bu gün də eşidilən gur səsi, təravətli nəfəsi bizə bu qənaətə gəlməyə tam haqq verir".

Eyni zamanda Himalay müəllim monoqrafiyanın "Uşaqları söz sehrinə salan şair", "Həm də böyüklərin həmdəmi", "Uşaq poeziyası musiqi qanadlarında", "Milli uşaq nəsrində ilk macəra roman janrı", "Uşaq dramaturgiyasının inkişafında fəaliyyəti", "Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu" və "Azərbaycan-rus ədəbi tənqidi Zahid Xəlil yaradıcılığı haqqında" adlı hər bir fəslini ətraflı təhlil edib...

Bütün bunlarla bərabər, monoqrafiya ilə tanış olan hər bir oxucu Zahid Xəlilin indiyi Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdiyi, həyatını bütövlükdə uşaq ədəbiyyatına həsr etdiyi, onun "Uçan çıraqlar", "Qarışqalar", "Mən rəngləri tanıyıram", "Göydən üç alma düşdü", "Quşlar, quşlar...", "Torağaylar oxuyur", "Ballıca", "Çıraq nənənin nağılları", "Cırtdanla Azmanın yeni sərgüzəştləri", "Mavi dəniz üzərində", "Odlar yurdunun paytaxtı", "Dünyanın ən balaca nağılları" və sair kitablarının müxtəlif yaşlı uşaqların, o cümlədən, gənclərin təlim-tərbiyəsində, bədii-estetik zövqünün formalaşmasında, bilik dairəsinin daha əhatəli şəkildə genişlənməsində, mənəvi-əxlaqi dəyərlərin bütövləşməsində mühüm rol oynadığı, Zahid Xəlilin 1970-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında tələbələrə mühazirələr oxuduğu, filologiya elmləri doktoru olduğu və sair barədə ətraflı məlumat ala bilər. Eyni zamanda, Zahid Xəlilin ədəbi yaradıcılığı dünya xalqlarının bir çox dillərinə – rus, Belorus, Litva, latış, eston, moldav, Ukrayna, gürcü, özbək, qazax, türkmən, eləcə də, alman, fin, yuqoslav, holland, hind və sair dillərə tərcümə olunaraq çoxmillətli oxucular arasında daha geniş miqyasda tanındığı halda da dəyərli məlumatlar əldə edə bilərlər.

İnanırıq ki, ədəbiyyatşünas alim Füzuli Əsgərlinin geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitabının məziyyətlərini onu oxuyub bəhrələnənlər daha aydın görəcəklər.

"Azərbaycan müəllimi" qəzeti, 2012, 27 yanvar.

GÜNEL,
jurnalist

Zahid Xəlil "Sehrli dünyanın memarı" kimi

Ədəbiyyatşünas alim Füzuli Əsgərlinin qələmə aldığı "Sehrli dünyanın memarı" adlı kitab işıq üzü görüb. Monoqrafiyada görkəmli uşaq yazıçısı Zahid Xəlilin ədəbi yaradıcılığı geniş təhlilə cəlb edilib. Yazıçının yaradıcılığını elmi-nəzəri aspektdə araşdıran müəllif tədqiq etdiyi müxtəlif janrlı əsərlərinin ideya-bədii və sənətkarlıq xüsusiyyətlərinin açılmasına diqqət yetirib. Monoqrafiyada Zahid Xəlilin şeiriyyatının musiqi ilə bağlılığı, qarşılıqlı ədəbi əlaqələr və tərcümə prosesindəki fəaliyyəti də işıqlandırılıb, Azərbaycan və rus ədəbi tənqidinin yaradıcılığına olan münasibəti burada öz əksini tapıb.

Səkkiz fəsildən ibarət "Sehrli dünyanın memarı" monoqrafiyasında Zahid Xəlilin poeziya, nəsr, dramaturgiya, həmçinin, digər yaradıcılıq yönləri haqqında məlumatlar oxuculara təqdim edilib.

Monoqrafiyanın birinci fəslində Zahid Xəlilin uşaqlar üçün qələmə aldığı şeirlərində oxucunun diqqətini çəkən lirizmin və obrazlılığın, bədii üslubda poetiklik kateqoriyasının bir filoloji problem kimi

ortaya qoyulması, üslubi vasitələrin dilimizin estetik faktoru kimi təzahür etməsi, ümumiyyətlə, söz sənətində bədiilikdən əlavə illüstrativlik və əyaniliyin dəqiq müqayisəsi və sair xüsusiyyətləri təhlil olunub.

"Həm də böyüklərin həmdəmi" adlanan ikinci fəsildə müəllif şairin böyükləri də unutmadığını, lirik-poetik misralarla onların qəlbini ovsunladığını qeyd edib.

"Uşaq poeziyası musiqi qanadlarında" adlanan üçüncü fəsildə kitab müəllifi ayrı-ayrı bəstəkarların musiqisi ilə birləşən Zahid Xəlil əsərlərinin uşaqlarda heyrət doğuran ahəngdarlığını, melodik zənginliyini, ecazkarlığını xüsusi qeyd edib və uyarlıqların sintezində yaranan mahnıların bu gün də populyar olduğunu vurğulayıb.

"Milli uşaq nəsrinin novatoru" adlı dördüncü fəsildə isə Zahid Xəlilin nəsr əsərlərinin orijinallığını önə çəkən müəllif, araşdırdığı hər bir bədii materialda yenilik aşkarlayaraq, dünya uşaq ədəbiyyatı işığında yaradıcılıq yolu keçmiş nasirin sənətkarlıq xüsusiyyətlərini uyğun misallar gətirməklə vurğulayır.

"Milli uşaq nəsrində ilk macəra roman janrı" adlanan beşinci fəsildə tədqiqatçı yazıçının "Orxan və dostları" əsərini təhlilə cəlb edib, bu əsərin roman olduğu qənaətinə gələrək, dünya ədəbiyyatı korifey-

lərinin uşaq əsərlərindən misallar gətirərək fikrini nəzəri baxımdan əsaslandırıb.

"Uşaq dramaturgiyasının inkişafında fəaliyyəti" adlı altıncı fəslində isə Zahid Xəlilin dramaturgiyasına nəzər salınır, müasir həyatdan və milli folklor motivlərindən bəhrələnərək qələmə aldığı "Lampacıq", "Küp", "Ata ocağı" pyeslərinin sənətkarlıq xüsusiyyətləri üzə çıxarılır.

"Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu" adlı yeddinci fəsildə sənətkarın dünya xalqları arasında qarşılıqlı ədəbi əlaqələrin yaranmasındakı fəaliyyətindən bəhs edilir. Eyni zamanda, Zahid Xəlilin bədii tərcümə yaradıcılığına güzgü tutulur.

"Azərbaycan-rus ədəbi tənqidi Zahid Xəlil yaradıcılığı haqqında" başlıqlı səkkizinci fəsildə tanınmış Azərbaycan-rus tənqidçilərinin sənətkarın yaradıcılığına verdiyi qiymət, Məmməd Cəfər, Bəkir Nəbiyev, Əziz Şərif, Elçin, İqor Motyaşov, Marina Vlasova, Marianna Yampolskaya, Pavel Ulyaşov, Natalya Filonova, Tofiq Ağayev kimi söz sərraflarının bu barədə söylədikləri fikirlər yer alıb.

"525-ci qəzet", 2012, 18 yanvar.

GÜLAYƏ KÖNÜL,
jurnalist

Uşaq ədəbiyyatı haqqında dəyərli monoqrafiya

Uşaq ədəbiyyatı ədəbi yaradıcılığın son dərəcə çətin və əhəmiyyətli sahələrindən biridir. Çətindir, ona görə ki, bu yaradıcılıq sahəsi müəllifdən tələb edir ki, əsərlərin mövzusu, dili, üslubu uşaq psixologiyası, uşaq zövqü və marağı ilə üst-üstə düşsün. Belə əsərlərdə uşaqların səviyyəsinə uyğun sadəlik və şirinliklə yanaşı, qeyri-adi nağılvari süjetlər də tələb olunur. Əhəmiyyətlidir, ona görə ki, uşaqların maraqlarının, şəxsi keyfiyyətlərinin, zövqlərinin düzgün tərbiyəsi bütövlükdə cəmiyyət məsələsidir. Ömrünü çox səmərəli şəkildə bu vacib sahəyə həsr edən görkəmli yazıçı, şair, dramaturq, alim, publisist, tərcüməçi Zahid Xəlilin yaradıcılığı son dərəcə qiymətlidir. Zahid müəllim bu vəzifələrin öhdəsindən uğurla gəlmişdir. Ona görə uğurla gəlmişdir ki, o, uşaq qəlbinin həssaslığını, uşaq maraqlarının həm kövrəkliyini, həm də ciddiyyətini nəzərə almış və əsərlərinin mövzusunu, məzmununu, dil-üslub xüsusiyyətlərini uşaq ədəbiyyatının özünəməxsus cəhətlə-

ri ilə birləşdirə bilmişdir. Bu işdə Zahid müəllimin özünün bir insan kimi şəxsi keyfiyyətləri, dünyagörüşü ilə yanaşı, onun bir yazıçı kimi ustalığı, bir pedaqoq-tərbiyəçi kimi məharəti, professional səviyyəsi əsas rol oynamışdır.

Zahid Xəlil həm uşaqlar, həm də böyüklər üçün yazılan çoxsaylı və müxtəlif janrlı əsərlərin müəllifi olmaqla yanaşı, eyni zamanda uşaq ədəbiyyatının nəzəri və təcrübi məsələlərinə həsr olunmuş dəyərli elmi-tədqiqat əsərlərin də müəllifidir. "Azərbaycan uşaq ədəbiyyatı" monoqrafiyası bunun ən yaxşı örnəklərindən biridir. Zahid Xəlil çox geniş oxucu auditoriyası olan yazıçıdır. Onun əsərləri yalnız Azərbaycanda deyil, keçmiş SSRİ məkanında da yaxşı tanınmış və dəyərləndirilmidir. Həm yazıçı kimi populyarlığını, həm də əsərlərinə verilən qiyməti göstərmək üçün iki faktı qeyd etmək kifayətdir. Yazıçının "Günəbaxanlar böyüyəcək" (1992) kitabı Moskvada rus dilində iki milyon tirajla çap olunmuşdur. "Salam, Cırtdan!" (1986) kitabı isə "Ən yaxşı uşaq kitabı" adlı ümumittifaq müsabiqəsinin qalibi olmuşdur.

Zahid Xəlilin otuz ildən artıq bir müddətdə televiziya kanallarında "Bizim sevimli yazıçılarımız", "Məktəblinin kitabxanası", "Çıraq", "Sərbəst düşüncə studiyası" verilişlərinin aparıcısı kimi də

uşaq ədəbiyyatının inkişafına, uşaqların intellektual-mədəni səviyyəsinin yüksəlməsinə xidmət etmişdir. Zahid müəllimin həm bədii, həm də elmi yaradıcılığı istər Azərbaycanda, istərsə də onun xaricində rus tənqidçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Lakin bütövlükdə Azərbaycan uşaq ədəbiyyatı, o cümlədən də, Zahid Xəlilin yaradıcılığı akademik tədqiqatın mövzusu olmamışdır. Bu baxımdan ədəbiyyatşünas alim Füzuli Əsgərlinin "Sehrli dünyanın memarı" adlı tədqiqat əsəri son dərəcə faydalı bir monoqrafiyadır. Böyük həcmli bu monoqrafik tədqiqat əsərində Zahid Xəlilin bütün yaradıcılığı, onun ədəbi, elmi, pedaqoji, publisistik, tərcüməçilik fəaliyyəti düzgün elmi-metodoloji aspektdə, geniş ədəbi, elmi-nəzəri material əsasında Azərbaycan uşaq ədəbiyyatının ümumi inkişafı kontekstində təhlil edilmiş, müəllifin nəsri, poeziyası, elmi yaradıcılığı, pedaqoji fəaliyyəti ətraflı araşdırılmış və ümumiləşdirilmiş elmi nəticələr əldə olunmuşdur. Bu tədqiqat əsərinin elmi dəyəri Zahid Xəlilin çoxsahəli fəaliyyətinin dolğun işıqlandırılması ilə məhdudlaşmır. Bu tədqiqat, eyni zamanda, bütövlükdə uşaq ədəbiyyatının ədəbi-estetik və nəzəri problemlərinə işıq salır və bu ədəbiyyatın ayrı-ayrı nümayəndələrinin yaradıcılığına digər tədqiqatçılarının da diqqətini yönəldir. Kitaba əhatəli elmi müqəddimə yazan filologiya

üzrə elmlər doktoru, professor Himalay Qasımov məsələnin məhz bu cəhətinə diqqət yetirərək yazmışdır: “Uzun illər boyu bu zəruri sahəyə soyuqluq gətirən “buz qatları” nəhayət ki, ədəbiyyatşünas-tənqidçi, fəlsəfə doktoru Füzuli Əsgərlinin problemə yeni tərzdə elmi yanaşmaları, analitik araşdırmaları nəticəsində əriməyə başladı”.

Fikrimizcə, müəllif bu qənaətində tamamilə haqlıdır.

“Respublika” qəzeti, 2012, 11 fevral.

MEHPARƏ ƏLİZADƏ,
"Tələbə-press" qəzetinin
baş redaktoru

70 yaşlı alimin ömür kitabı: "Sehrli dünyanın memarı"

Milli-mənəvi varlığı, folkloru, bədii ədəbiyyatı, zəngin mənəviyyatı, tarixi abidə və sərvətləri ilə dünyada öncül yerlərdən birini tutan doğma Azərbaycanimiz bu gün də, yəni yeni qərinənin aparıcı yerlərindən birini tutur. Dövlətin dəstəyi sayəsində öz dünənki, bugünkü, eləcə də gələcək varlığını qoruyub saxlayan Azərbaycan ədəbiyyatı daim inkişaf edir, gələcək nəsillərə örnək olan, yol göstərən, milli-mənəvi varlığını, yaradıcılıq ideyalarını ötürən bir sivil idioloji yol kimi daha da təkmilləşir.

Azərbaycan dövləti də bu yolda gələcək nəsillərə lazım olan hər şeyin, tariximizin, milli mentalitetimizin, incəsənətimizin, ədəbiyyatımızın varlığını qoruyub saxlamaq üçün səylərini əsirgəmir. Bu nöqteyi-nəzərdən çap olunan əsərlər də öz aktuallığını, öz gərəkliyini qoruyub saxlamaqla deyilənlərə bariz nümunə kimi bu gün də var, sabah da olacaq.

Yuxarıda söylənilənlərə əsasən qeyd edə bilərik ki, son dövrlər nəşr olunan əsərlər içərisində görkəmli alim, tədqiqatçı Füzuli Əsgərlinin "Sehrli dünyanın memarı" adlı kitabı öz spesifik xüsusiyyətlərinə görə fərqlənir. Yəni bu mövzuda, daha doğrusu, mövzuya aid ədəbiyyatda müxtəlif yazı nümunələri olsa da, bu kitab mükəmməl bir məcmu, bitkin bir monoqrafiya, yaradıcılıq məhsuludur. Füzuli Əsgərlinin böyüklüyü ondadır ki, elmi-publisistik ədəbiyyatda, ədəbiyyatın müxtəlif növlərində qələmini sınayan, çoxlarının nail ola bilmədiyi yüksəkliyi fəth edən Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının böyük siması Zahid Xəlil yaradıcılığına təmas etmiş, öyrənmiş, böyük şəxsiyyət və ədəbiyyatşünaslığın mövqeyini təhlil etmiş, bitkin bir əsəri ədəbi ictimaiyyətə çatdırmışdır.

Mərhum akademik Bəkir Nəbiyevin redaktorluğu, akademik Nizami Cəfərov və professor Rafiq Yusifoğlunun rəyi ilə işıq üzü görən bu kitabın: "Sehrli dünyanın memari" əsərinin müəllifi Füzuli Əsgərli Zahid Xəlil yaradıcılığının təhlilini, onun Azərbaycan ədəbiyyatında yerini, mövqeyini bədii boyalarla, elmi-publisistik kontekstdə oxuculara çatdırmaqla bitkin bir elmi-tədqiqat əsəri yaratmağa nail olmuşdur.

Kitabın ön sözünün müəllifi, professor Himalay Qasımov yazmışdır: “Müəllifin Zahid Xəlilin zəngin bədii yaradıcılığına və bu prosesin inkişafı üçün göstərdiyi və ədəbi fəaliyyətinə həsr etdiyi “Sehrli dünyanın memarı” adlı bitkin monoqrafiyası yaxın gələcəkdə müasir uşaq yazıçılarımızın ardıcıl və hərtərəfli tədqiq olunmasına doğru yeni elmi-tədqiqat cığırının açılmasına bir işarədir”.

Füzuli Əsgərlinin bu qiymətli əsəri haqqında müxtəlif elm və ədəbiyyat xadimlərinin, tənqidçilərinin yüzlərlə maraqlı fikirləri öz əksini tapıb. Bu qiymətli əsər 8 fəsil və nəticədən ibarətdir. Hər bir fəsil uşaq yazıçısı Zahid Xəlil yaradıcılığının müxtəlifliyini, genişliyini, mövzu zənginliyini özündə əks etdirir.

Rəngarəng çalarları ayrı-ayrı fəsildə qruplaşdıran müəllif böyük şairin yaradıcılığının bütün məqamlarını göstərməklə öz istəyinə nail olmuş, bitkin bir elmi əsər səviyyəli kitabı ərsəyə gətirmişdir:

Uşaqları söz sehrinə salan şair;

Həm də böyüklərin həmdəmi;

Uşaq şeirləri musiqi qanadlarında;

Milli uşaq nəsrinin novatoru;

Milli uşaq ədəbiyyatımızda ilk macəra roman janrı;

Uşaq dramaturgiyasının inkişafında fəaliyyəti;

Qarşılıqlı ədəbi əlaqələrin, bədii tərcümənin inkişafında rolu;

Azərbaycan-rus ədəbi tənqidi bədii yaradıcılığı haqqında.

Fəsillərin adları elə müəllifin Zahid Xəlilin yaradıcılığını hərtərəfli əks etdirməsindən xəbər verir.

Kitabın ön sözündə də yazıldığı kimi, "Sehrli dünyanın memarı" kitabı bitkin elmi-tədqiqat əsəri kimi çox qiymətlidir.

Ədəbiyyatşünas-tədqiqatçı Füzuli Əsgərli tanınmış uşaq yazıçısı Zahid Xəlilin 70 illik yubileyinə həsr etdiyi bu monoqrafiyada milli uşaq ədəbiyyatı tarixinin araşdırılmasında, o cümlədən, müasir milli uşaq yazıçılarımızın tədqiqi istiqamətində əvəzsiz rolunu oynayacaqdır.

Bu da gələcəkdə uşaqlarımızın milli-mənəvi dəyərlərimizə sahiblənməsinə, qorunmasina böyük təkan verəcəkdir.

"Tələbə-press" qəzeti, 2012, 08 oktyabr.

MƏKTUBLAR, TELEQRAMLAR, DƏVƏTNAMƏLƏR

Əzizim Füzuli!

Düzünü deyim ki, hekayəm çap olunmuş Azərbaycan dilində olan jurnalı alanda çox təsirləndim (bu, “Odur, yoxsa...” povestimin birinci fəslidir). Çox şadam ki, “Uşaqlığın son gecəsi” hekayəm də xoşunuza gəlib və onu da tərcümə edəcəksiniz. Bu kitabda mənim bir hekayəmi də görəcəksiniz – “İyirmi ikinci palataya iki məktub”. Bu mənim birinci hekayəm olduğu üçün onu çox sevirəm. Axı, ilk körpə hamısından sevimli olur.

Xeyli vaxt idi ki, heç nə yaza bilmirdim. İndi isə hələ başlığını qoymadığım povestimin son nöqtəsini qoymuşam. Buna baxmayaraq, üç uzun məqalə yazmışam: “Uşaq kitabının illüstrasiyası. Dörd paradoks”, “Uşaq ədəbiyyatının doğuluşu və ölümü” və “Uşaq ədəbiyyatında qurd obrazı”. Bu mənim işimin yekunudur. Keçən ilin payızında və qışında mən YUNESKO-nun təqaüdünü alırdım və AFR-da Münhen Beynəlxalq gənclər ədəbiyyatı kitabxanasında işlədim.

Bu ilin sentyabrında Çexoslavakiyaya getməli olacağam. Eston uşaqları arasında slovak uşaq ədəbiyyatını təbliğinə görə Slovakiya respublikasının Mədəniyyət Nazirliyi bizim redaksiyanı Fəxri medalla təltif edib. Sonra isə uşaq və gənclər ədəbiyyatının eksperti kimi Parisə gedəcəyəm. İndi bizim nəşriy-

yatın kitablarından seçirəm ki, ədəbiyyatımızı xarici naşirlərə təqdim edim.

Özüm haqqında daha nə yazım? Hə, yadıma düşdü, avqust ayında mənim balaca bir "yubileyim" oldu – "Eesti raamat" nəşriyyatının uşaq və gənclər ədəbiyyatı redaksiyasının müdiri vəzifəsində olduğum altı illiyimi qeyd etdilər. Buna kimi "Tyaxeke" və "Pioner" uşaq jurnalı redaksiyasında işləmişəm.

Sabir Azərinin povestini bizim nəşriyyatın planına daxil edə bilərəm. Amma bunun üçün mənə povestin Azərbaycan dilində mətni və annotasiyası lazımdır. Məncə o, buna öz razılığını verəcək.

Bir də, hələ subayam, amma yaxşı bir mənzil aldım. Belə ki, Sizi evimə qonaq dəvət edə bilərəm. Ən yaxşı vaxt baharın sonu, ya da yay ay- larıdır. Gələn il yayda olimpiya reqatasından əlavə maraqlı bir tədbir – ümumeston mahnı bayramı keçiriləcək. Baxımlı tədbir olacaq! Xoş gəlmisiniz deyirəm!

Hörmətlə, Andres
05. VIII. 1979.
Tallinn.

Ünvanım: 2000035, Estoniya SSR. Tallinn şəhəri, Iysmyae tee küçəsi, ev 20, mənzil 71.

RS. Mən sizə "Samıye luçşiye rebyata" toplusunu göndərmişəm, ya yox?

***

Əzizim Füzuli!

Səni və sənin ailəni Yeni il münasibətilə ürəkdən təbrik edirəm, can sağlığı və tərcüməçilik sevincləri arzu edirəm!

Andres Yaaksoo
28. XII. 1979.
Tallinn.

***

Əzizim Füzuli!

Yeni il münasibətilə mənim ürəkdən gələn təbrikimi qəbul et! Qoy bu il sənə və ailənə ən xoşbəxt günlər və tam yaradıcılıq üğürları nəsib olsun!

Sənin Andresin
dekabr, 1980
Tallinn.

R.S. Uzun sürən ezamiyyətdən yenicə qayıtmışam. Macarıstanda oldum. Qayıdanda Sabir Azərinin imza edilmiş müqaviləsini tapdım. Tərcümə edəcəyəm. Qalanlarını məktubla yazacağam.

***

Əzizim Füzuli!

Səni və sənin ailəni qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm!

Andres.
dekabr,1981.
Tallinn.

***

Əzizim Füzuli!

Ətraflı məktubuna görə çox sağ ol! Əvvəlcə səni və sənin ailəni yeni evə köçməyiniz münasibətilə ürəkdən təbrik edirəm, hərçənd ki, belə vaxtlarda yeni-yeni problemlər ortaya çıxır (məsələn, elə mebel problemi!) Yalnız bir neçə il keçəndən sonra bilirsən ki, sənin də öz mənzilin var.

Eston dilini öyrənmək istəyin olduqca gözəldir. Sənə lüğət (kiçik də olsa) taparam. Rusca eston dili dərsliyi ya bu il, ya da 1982-ci ilin əvvəlində çıxacaq. Biz hələlik ayrı cür məşğul olarıq. Mən sənə eston dilini öyrədərəm, sən də mənə Azərbaycan dilini. Razısanmı? Mən razıyam.

Sabir Azərinin kitabının eston dilinə tərcüməsində problem yoxdur. Bu barədə danışarıq. Əgər onun sətri tərcüməsi varsa, qoy mənə evə göndərsin. 1982-ci ildə növbəti toplumuz "Qızılı Günəş altında" adı ilə çıxacaq (uşaqlar və gənclər üçün). Mən Sabir Azərinin bir hekayəsini ora daxil edərəm. Bu haqda danışmaq lazımdır.

Bilirsən ki, keçən il Macarıstana getmişdim. Bu, işgüzar səfər idi, orada eston kitablarının sərgisini təşkil etməli idim. Macar naşirləri və Macarıstanın Müəllif Hüquqları agentliyinin nümayəndələrilə görüşdüm. Bununla bərabər, Macarıstanı gəzib do-

laşdım. Hava çox pis idi – yağış, qar. Məhsulun çoxu tarlada qalmışdı. Danışmalı çox şey var. Tallinə gələrsən, bu barədə sənə danışaram. Ümidvaram ki, gələcəksən. Çalış may ayında gəlmə, o vaxt mən Rumıniya və Bolqarıstanda olacağam. Ən yaxşısı iyun, ya da iyul ayıdır. Gözləyəcəyəm səni.

Keçən ilin iyununda çap olunmuş kitabımı və bu kitabdan rus dilinə tərcümə olunmuş bir neçə hekayəmi (yuxarı sinif və 7-8-ci sinif şagirdləri üçün) sənə göndərirəm. Eston dilində çıxmış "Odur, yoxsa..." povestim çoxdan qurtarıb (kitab elə bu povestlə də başlayır), amma rus dilinə tam tərcüməsi hələ yoxdur, yəqin ki, tezliklə olacaq. Onda göndərərəm.

Hamıya salam göndərirəm!

Andres Yaaksoo

14. II. 1981.

Tallinn.

***

Hörmətli Füzuli!

Məktubunuzu aldım. Mənim yaradıcılığıma olan diqqətinizə görə çox sağ olun. Yəqin ki, bu hekayə hansısa topluda çap olunacaq.

"Jazdın bir keşində" adlı hekayəmin orijinalını Sizə göndərirəm. Mənim bu kitabıma eyni adlı üç hekayə daxil edilib (triptix). Triptixi bütövlükdə

göndərirəm ki, tam təsəvvürünüz olsun. Ümumiyyətlə, bu fəsillər 1983-cü ildə işıq üzü görəcək "Koktübə" adlı təzə romanımdandır.

Bir də mənimçün doğma olan bir uzun hekayəmi göndərirəm (orijinalı, tərcüməsi). Sadəcə tanışlıq üçün.

Hörmətlə

Kaldarbay Naymanbayev
1982, Alma-ata.

***

TELEQRAM

Bakı, Əhmədli qəsəbəsi, 2-ci Şəhərətrafı küçəsi, ev 21, mənzil 53, Əsgərli Füzuliyə

"Ortabab amerikalı qadın" pyesimin Əsgərli Füzuli Feyruz oğlunun Azərbaycan dilinə tərrcümə etməsinə müəllif razılığımı verirəm. Razılığımı yazılı şəkildə poçtla göndərirəm.

Albertas Laurinçükas.
20.III.1982.
Vilnüs.

***

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin
Repertuar Kollegiyasına

Mən, Laurinçükas Albertas Kazeviç mənim "Ortabab amerikalı qadın" pyesimi tərcüməçi Əs-

gərli Füzuli Feyruz oğlunun Azərbaycan dilinə çevirməsinə müəllif razılığımı verirəm.

Albertas Laurinçükas
20. III. 1982.
Vilnüs.

***

Salam, Füzuli!

Sizin məktubunuz məni çox sevindirdi. Sual doğur, əgər "çox sevindirdi" boş ifadə deyilsə, bəs onda özün niyə məktub yazmırdın. Yəqin ona görə, mən o adamam ki, "cəhənnəmə yol yaxşı niyyətlə çəkilmişdir".

Bu yaxınlarda tələbəlik vaxtı göndərmədiyim bir neçə məktubu oxudum və heyrətə gəldim ki, kağız bu qədər boş və axmaq sözlərə necə dözürmüş. Onda məktub yazmaq asan idi. Əlbəttə, Sizin kimi məntiqli və qətiyyətli adamın öz tərəfmüqabilini başa düşmək çətindir.

Filosofluq etməzdən əvvəl onu Sizə deməliyəm ki, Andres Yaaksoo nə xəstələnib, nə də harasa köçüb. Mən bu gün səhər onu öz redaksiyasında oturan görmüşəm. Mən ona deyəndə ki, səndən ötrü narahat olanlar var, o isə özünü günahkar bilmədi. Ümidvaram ki, bu yalnız kübar dairələrinə məxsus bir görüntüdür, o, yəqin ki, Sizə tezliklə məktub yazacaq.

Çoxlu tərcümə etdiyinizə görə Sizə həsəd aparıram. Bu il mənim işim düz gətirmədi. Bunun da, necə deyərlər, üzürlü səbəbləri var – anam möhkəm xəstələndi və sair. Amma özüm yaxşı bilirəm ki, əsl səbəblər həmişə daxildə olur. Siyirmədə xeyli bitirmədiyim, ya da başladığım hekayələr, hətta başladığım pyes yatır. Keçən ilin dekabr ayında 7-8 şeir çap etdirmişəm, vəssalam. Pyesi yazmağa çəkinirəm, axı, bu çox zəngin mətn tələb edir, amma bununla belə, maraqlı olardı. Ola bilsin ki, baş rolda ağlını itirmiş bir adam çox da orijinal görünməsin. Remarkın "Qara abidə" əsəri yadınızdadır – öz əhatəsində ağlını itirmiş bir adamın yürytdüyü yeganə ideya həqiqəti dediyi üçün cəlbedicidir. Hərdən mənə elə gəlir ki, bu süjet və eskizlərimi bu məsələni işləyə bilən dostlarımın birinə hədiyyə edim. Amma təəssüf ki, mən istədiyim bu cür köçürmələr mümkün deyil və mən özüm oturub işləməliyəm.

Tallində Ümumittifaq kino festivalı gedir, amma az baxmışam, bircə Klimovun "Aqoniya" filminə. Bu yaxınlarda vəfat etmiş rəfiqəmin şeirlər toplusunu tərtib etmişəm, bu da çox uzun iş idi. İndi istirahət edirəm – əlbəttə, nisbətdə götürəndə.

Sizə xoş günlər arzulayıram! Məktub yazın! Sabir Azəriyə məndən salam deyin!

Bu Andresin kabinetinin yox, çox vaxt olduğu redaksiyanın telefonudur: 44-32-68.

R.S. Andres mənə Rusalkanın qarşısında üçlükdə çəkdirdiyiniz foto-şəkli verdi. Yəni bundan xəbərim var. Əlbəttə, mən orada olmadığım üçün təəssüf edirəm!

Linda Ruud
21. IV. 1982.
Tallinn.

***

Əzizim Füzuli!

Mənim yaradıcılığım üzərində çəkdiyiniz zəhmətə görə çox sağ olun. "Ulduz" jurnalı ilə birgə məktubunu da aldım. Bu mənim Azərbaycan dilində tərcümə olunan ilk əsərimdir. Ümidvaram ki, sonuncu olmayacaq. Sabirin kitabını göndərin.

Öz yeni kitabımı göndərirəm. Ola bilər ki, sizin naşirləri maraqlandırsın. Hörmətlə,

Kaldarbay
dekabr, 1982.
Alma-ata.

***

Əzizim Füzuli!

Məktub üçün qəlbən təşəkkür edirəm. Sizin keçmiş bayramınızı təbrik edirəm! Bu Yeni ildə də Sizə yaradıcılıq uğurları arzulayıram. Mənim yara-

dıcılığıma göstərdiyiniz diqqətə görə minnətdarlığımı bildirirəm.

20-25 dekabr 1983-cü il tarixdə jurnalistlərin seminarında iştirak etmək üçün Bakıda olacağam. Sizinlə görüşməyimə çox şad olardım. Mənim gəlişim barədə Azərbaycan Jurnalistlər İttifaqı İdarəsindən məlumat ala bilərsiniz (370088, Bakı, Kirov prospekti, 18). Əgər gəlməli olsam "Azərbaycan" mehmanxanasında yerləşəcəyəm.

Sizə telefonla necə zəng etmək olar? Mənə yazın.

Xoşbəxtlik arzulayıram!

Sizin Albertas Laurinçukas

28. XI. 1983.

Vilnüs.

***

Hörmətli Fizuli Feyruz oğlu, salam!

Məktubunuzu aldım, əlbəttə ki, əvvəlcə təəccübləndim. "Oğullar" adlı hekayəm Sizin əlinizə hardan düşüb? Mən çox sevinirəm ki, hekayəm Sizin xoşunuza gəlib və onu respublika radiosu ilə səsləndirmisiniz. Əgər jurnalda çap etdirsəniz, bir nüsxə mənə göndərin. Yaxşı?

Bu yaxınlarda Moskvada hekayələrim toplu halında – "Tanış yerlərdə" adı ilə çap olunub. Bir nüsxəsini Sizə göndərirəm. Əgər hər hansı bir heka-

yəni öz dilinizə tərcümə etməyi lazım bilsəniz, etirazım yoxdur.

Keçən il “Sovremennik” nəşriyyatında mənim “Bülbüllər oxumayan vaxt” povestim çıxıb. Ondan əvvəl isə “Mən Kolyanı sevirəm” adı ilə iki povestim çap olunub. Amma bu kitablardan məndə artıq nüsxə qalmayıb, ona gərə Sizə göndərə bilmirəm. Cavabı gecikdirdiyim üçün məni bağışlayın. Kislovodskda istirahət edirdim.

Sizə yaradıcılıq uğurları, can sağlığı və ürəyinizdən keçənləri arzulayıram. Ailənizə məndən salam deyin.

Aleksey Osipov
27.XI. 1983.
Ryazan, Zaborye kəndi.

***

Əzizim Füzuli!

Sizi bayram münasibətilə təbrik edirəm və yaradıcılıq uğurları arzulayıram! Ona da çox sevinirəm ki, Respublika Televiziyası mənim “Ortabab amerikalı qadın» pyesimi Sizin tərcümənizdə qəbul edib.

Hörmətlə Albertas
1983.
Vilnüs.

***

Əzizim Füzuli Feyruz oğlu!

Yazdığınız məktuba və mənim pyesimi, “Veçnıye beryozı” əsərimdən bir parçanı Azərbaycan dilinə tərcümə etdiyinizə görə Sizə ürəkdən öz minnətdarlığımı bildirirəm. Bu mənim üçün böyük bayramdır. Mən çox şadam ki, Azərbaycan oxucusu da mənim fikirlərimdən xəbər tutur.

Sizə yaradıcılıq uğurları arzulayıram!

Ümid edirəm ki, biz tezliklə görüşəcəyik... ümid edirəm.

Sizin Albertas
08. II. 1983.
Vilnüs.

***

Əzizim Füzuli!

Məktubunuza və “Ulduz” jurnalına görə Sizə qəlbən təşəkkür edirəm. Sevinirəm ki, bu jurnal mənim əsərimi çap edib. Çox sağ olun!

İnanıram ki, Arxangelskə səfəriniz uğurlu keçib. Bizdə indi payız fəslidir. Yay olduqca yaxşı keçdi. Qarşıdakı qış fəslini və Sizi Vilnüsdə gözləyirik.

Sizə daha çox yaradıcılıq uğurları arzulayıram! Əlinizi bərk-bərk sıxıram!

Sizin Albertas Laurinçukas
12. X. 1983.
Vilnüs.

***

Çox hörmətli Füzuli!

Mənə 06 dekabr 1983-cü il tarixdə yazdığınız məktuba görə çox sağ olun. Bu məktubunuzu xəstəxanada aldım... ciyərlərim soyuqladığı üçün xəstəxanada yatıram. Bu gün öyrəndim ki, Bakıda keçiriləcək seminar 1984-cü ilin martına kimi təxirə salınıb. Sizin Günəşli Bakını görmək imkanım var! Hələlik – 2-3 həftə xəstəxanada yatacağam. Əgər mənə məktub yazmalı olsanız redaksiyaya yazın: poçtu mənə gətirirlər.

Sizə yaradıcılıq uğurları arzulayıram!

Sizin Albertas.

14. XII. 1983.

Vilnüs.

***

Hörmətli Füzuli!

Bir vaxtlar Siz mənim "Qonşular" povestimlə maraqlanırdınız, ona görə mən onu türkmən dilində Sizə göndərdim. Onu tərcümə etmisinizsə, harda çap etdirmək fikrindəsiniz? Mənə xəbər edərsiniz, hər halda mənim üçün də çox maraqlıdır ki, əsərim başqa qardaş respublikada çap olunur. Əgər tərcümə etmisinizsə, mən çap olunmasına kömək edə bilərəm? Mən Azərbaycan Yazıçılar İttifaqında bir çox

yolaşlarla yaxınam, o cümlədən, İsmayıl Şıxlı müəllimlə. Sizin məktubunuzu gözləyirəm.

Sizin Berdinəzər ağa Xudaynəzərov

744025, Aşqabad, 5 mikrorayon, ev 14, mənzil 17.

01. V. 1984.

***

Füzuli, salam!

Andresə çox ciddi şəkildə məzəmmət elədim və Sizin mənə verdiyiniz suallarınızı ona ötürdüm. Mən özüm çox məşğulam, anam da ağır xəstədir. Lakin Sizin məktubunuz və Taamsaareyə olan marağınız məni sevindirdi. Vəziyyət düzələn kimi öz kitabımı Sizə göndərəcəyəm. Güman etmirəm ki, düz yolda olan müstəqil qadın haqqında olan bir əhvalat Azərbaycan oxucusunu maraqlandırmasın. Sizə uğurlar diləyirəm!

Linda Ruud

07. X. 1984.

Tallinn.

***

Əziz dostum!

Məktubunuza və pyesimi Azərbaycan dilinə tərcümə etdiyinizi xəbər verdiyinizə görə Sizə ürəkdən təşəkkür edirəm! Bu yaxınlarda “Ortabab amerikalı qadın” pyesimi Yermolov adına Moskva teatrı tamaşaya qoydu. Bu əsər çox yaxşı qarşılandı.

“Vrata straxa” adlı yeni kitabımı Sizə göndərirəm. Yadımda deyil, “Veçnıe beryozı” kitabımı Sizə göndərmişəmmi? Məktubunuzu gözləyirəm.

Sizin Albertas Laurinçukas.

04. XII. 1984.

Vilnüs.

***

Salam, əzizim Füzuli!

Çox sağ olun ki, vaxtaşırı bizi xatırlayırsınız. Şadam ki, Azərbaycanda belə sədaqətli dostum var.

Sabir Azəriyə gəlincə, əlbəttə, yadımdan çıxmayıb. Onu mənim əsərimi rus dilinə tərcümə edən V.Komissarovun tərcümə etdiyi “Tolçok” əsərindən tanıyıram. Sizdə əsl istedadlı nasirlər az deyil və Sabir də mənin xoşuma gələn yazıçılardan biridir.

Mənim hərarətli salamımı Sabir Azəriyə yetirin və deyin ki, imkan daxilində onun əsərini dilimizə tərcümə olunmasını təşkil edəcəyəm. Düzdür, poliqrafiya imkanlarımız bir qədər məhduddur, amma yenə də bu işin baş tutmasına çalışacağam. “Tolçok” əsəri məndə var, amma qalan şeylər yoxdur.

Görsəniz, Nəriman Həsənzadəyə və İsmayıl müəllimə məndən salam deyin.

Sizin Berdinəzər.

20. III. 1985.

Aşqabad.

***

Hörmətli Füzuli Əsgərli, salam!

Mənimçün xoş sürpriz oldu ki, tanış olmayan bir adamdan məktub alıram və o, mənə xəbər verir ki, sənin kitabını Azərbaycan dilinə tərcümə edirəm.

Zahid Xəlili mən 1976-cı ildən tanıyıram. O vaxt mən Bakıya Ümumittifaq uşaq və gənclər kitabı həftəsinə dəvət olunmuşdum. Zahidlə tanış olduq və o, mənim çox xoşuma gəldi. Mən çox Azərbaycan yazıçıları ilə dostluq əlaqəsi saxlayıram, lakin Zahid mənim ən yaxşı dostumdur, xoşxasiyyət, səmimi insan və gözəl uşaq yazıçısıdır.

Mən olduqca şadam ki, kitabımı tərcümə edirsiniz və inanıram hər şey yaxşı olacaq. Çünki mən Zahid Xəlilə inanıram. Ona da inanıram ki, onun seçdiyi tərcüməçi yaxşı olar. Mənim indiyəcən bir çox uşaq kitablarım, onlarla şeir toplum, poemam və nağıllarım çap olunub. Sizin tərcümə etməyə başladığınız kitab isə sənədlidir. Hekayələr sadə, səmimi və həqiqətə uyğundur. Çalışmışam ki, bu hekayələrdə müharibədə həlak olmuş, mənim dövrümdə yaşamış uşaqların taleyini olduğu kimi təsvir edim. Hekayələrin süjetini tərəfimdən düşünmək lazım gəlməyib, özüm də heç nəyi düzüb qoşmamışam. Axı, bəzən belə şeylər də olur ki, həyat hadisələri yazıçının düşündüyündən daha güclü təsir bağışlayır.

Belə hesab edirəm ki, mənim kitablarımın əsasını uşaq şeirləri, poemaları və nağılları təşkil edir. “Bizi unutmayın, insanlar”, “Parla, ulduz!” və sair povest və hekayələrdən ibarət toplulların müəllifinə oxuculardan yüzlərlə gələn məktublar bunları təsdiq edir.

Bilmək istərdim ki, tərcümə edəcəyiniz hekayələri hansı jurnalda çap etdirmək istəyirsiniz? Bir xahişim var: mümkünsə “Bizi unutmayın, insanlar” kitabının adında nida işarəsi qoyulmasın.

Sizinlə şəxsən tanış olmağıma çox sevinərdim. Kişinyova gəlsəniz, telefonla zəng edib bizə buyurun.

Zahid Xəlilə məndən çoxlu salam söyləyin. Sizə xoş arzularımı bildirirəm və yaradıcılıq uğurlar arzulayıram! Hörmətlə, telefonum: 55-39-88.

Filip Mironov
10. 12. 1984.
Kişinyov.

***

Salam, hörmətli Füzuli!

Sizdən məktub alanda şad oldum. Məktubunuzdan məlum oldu ki, kitabımın tərcüməsində işləriniz yaxşı gedir. Əgər tərcümə etdiyiniz hekayəm dərc olunmuş qəzeti mənə göndərsəniz Sizə minnətdar olaram. Mənimçün gözlənilməz sürpriz o oldu ki,

Zahidlə qəhrəman moldav uşaqları haqqında televiziya verilişi hazırlamaq fikrindəsiniz, hətta mənim yaradıcılığım haqqında da.

Ətraflı tərcümeyi-hal yazmaq mənimçün çox çətindir. Mən onu heç vaxt yazmamışam, yəqin ki, heç yazmayacağam da. Qısaca bir şey yazaram. Haqqımda məlumatı (tərcümeyi-halı) mənim kitablarımın birində ("Bahar harada yaşayır?") tapa bilərsiniz. İlk səhifəsində "Qızıl beşik" adı ilə verilib. Yeri gəlmişkən, bu kitab Moskvada çap olunub. Zahidə demişəm, tərcümədən razı deyiləm. 1986-cı ildə çıxacaq rus dilinə tərcümə olunmuş şeirlərim ondan yaxşıdır.

Deməli, 1928-ci ildə Moldova respublikasının Dubassarı rayonunun Dubovo kəndində anadan olmuşam. Kənd orta məktəbini bitirəndən sonra pedaqoji məktəbdə oxumuşam. Tiraspolda (Moldova) Müəllimlər İnstitutuna qəbul olmuşam, oranı bitirmişəm. Sonra 1952-ci ildə Kişinyovda İon Kryanqe adına Pedaqoji İnstititunun "Moldav dili və ədəbiyyatı" şöbəsində təhsil almışam. Dörd il məktəbdə dil və ədəbiyyatdan dərs demişəm, məktəbdə tədris hissə müdiri işləmişəm. 1953-cü ildən jurnalistika ilə məşğul olmağa başlamışam. Uzun illər respublikanın qəzet və jurnal redaksiyalarında: "Tinerimya Moldovey" ("Moldaviya gəncliyi"), "Tınerul leninist"

(“Gənc leninçi”) qəzeti və “Skınteya leniniste” (“Lenin iskrası”) jurnalında çalışmışam.

Uzun illər Moldova Yazıçılar İttifaqında ədəbi məsləhətçi olmuşam, sonra 1977-ci ildən 1978-ci ilin sonuna kimi “Literatura artistike” nəşriyyatının baş redaktor müavini vəzifəsində işləmişəm. 1978-ci ilin dekabr ayından indiyə qədər heç yerdə işləmirəm, yalnız yaradıcılıqla məşğul oluram.

Otuz illik yaradıcılıq fəaliyyətim dövründə moldav və rus dillərində otuzdan çox kitab çap etdirmişəm. Uşaqlar üçün şeirlər, nağıllar, poemalar yazmışam, həmçinin, uşaq və yeniyetmələr üçün hekayə və povestlər qələmə almışam: “Baharın ünvanı” (şeirlər), “Boranıcığaz və fil balası” (nağıl-poema), “Leylək haqqında ballada” (nağıl-poema), “Günəş” (şeirlər, nağıllar, poemalar); “Bizi unutmayın, insanlar”, “Parla, ulduz!”, “Zəngə yeddi zərbə”, “Uşaqlıq illərinə iki bilet” və sair moldav dilində nəsr əsərləri hələ rus dilinə tərcümə edilməmişdir.

Keçən il nəşriyyatın sifarişi ilə “İlanı öldür” adlı hekayəmin əsasında “Üç dost yaşayırdı” povestini yazmışam. Təəssüflər olsun ki, hələ də rus dilinə tərcümə olunmayıb, amma yaxşı nəşr olunmasa da Sizə göndərirəm. Bundan əlavə, “Uşaqlıq illərinə iki bilet”, “Bahar harada yaşayır?” və Sizin tərcümə etdiyiniz kitabın davamı olan “Parla, ulduz!”u Sizə

göndərirəm. Bu kitabdakı hekayələr digər oğlan və qızlar haqqındadır. Yeri gəlmişkən, bu kitabda "Xarap Albanın bacısı" hekayəsinin ikinci hissəsi tam şəkildə verilmişdir ki, bu, "Bizi unutmayın, insanlar"da yoxdur. Çox heyfsilənirəm ki, yaxşı foto şəklim yoxdur, ona görə məndə olan üç balaca şəkli Sizə göndərirəm. Mən bunların birini böyütdürə bilərdim, ancaq hazırda xəstəyəm, evdən bayıra çıxmıram.

Bir şeyi də bildirmək istəyirəm ki, bir neçə dəfə Raisa Zubritskayaya zəng vurdum, amma dəstəyi götürən olmadı. Deyirəm bəlkə məzuniyyətdədir? İstədim Sizin xahişinizi yerinə yetirim, amma alınmadı. Bəlkə də gəlib çıxacaq, bir də zəng edərəm.

Əgər bu televiziya verilişi üçün nəsə lazım olsa mənə yazın. Gələn məktubunuzda bir az da özünüz haqqında yazın. Kitab tərcüməsindən əlavə nə ilə məşğul olursunuz?

Mənim ən səmimi salamımı və arzularımı Zahidə yetirin. Mən çox şadam ki, o, televiziyaya yol tapıb və maraqlı verilişlər hazırlayır. Füzuli, ola bilər ki, televiziya verilişi üçün moldav dilində kitablar lazım olsun.

Bir xahişim də var: mənə müxtəlif respublikalardan uşaq qəhrəmanlar haqqında hekayələr la-

zımdır. Olsa Azərbaycandan da balaca bir sənədli hekayə verərdik. Bu, bizim nəşriyyatda planlaşdırılmış bir toplu üçün lazımdır. Belə bir hekayə olsa, çox yaxşı olardı.

Sizə xoş diləklər, işinizdə uğurlar arzulayıram!

Hörmətlə

Filip Mironov
24. 02. 1985.
Kişinyov

***

Əzizim Füzuli!

Məktubunuza uzun müddət cavab vermədiyimə görə xahiş edirəm məni bağışlayasınız. Əldən düşüb xəstələndim. Qoyun əvvəlcə bütün insanlara sevinc gətirən bayramlardan başlayım. Sizi və ailənizi gözəl günlər olan – Bir May və Qələbə bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə can sağlığı, xoşbəxtlik və işinizdə uğurlar arzulayıram!

Mən çox şadam ki, Siz böyük şövqlə bədii tərcümələr üzərində işləyirsiniz. Mən Sizi üzdən görməsəm də, amma onu bilirəm ki, xeyirxah qəlbiniz var, tükənməz energiyaya malik adamsınız. Bunu yazdığınız məktublardan, işlətdiyiniz ifadələrdən də görmək olur.

Mənə xoşdur ki, kitabımın tərcüməsini qurtarmısınız, Zahidlə televiziya verilişi hazırlayırsınız.

İndi də Sabir Azəri barəsində. Etiraf edim ki, mən onu şəxsən tanımıram. Onun adına “Litera- turnaya qazeta”da rast gəlmişəm. Yəqin ki, istedadlı yazıçıdır. Əlbəttə, hansısa bir yazıçını tərcümə etmək mumkundur, lakin nəşriyyatın planına salmaq çox çətindir. Bu o qədər də asan deyil. Gərək o əvvəlcə SSRİ Dövlət Nəşriyyat komitəsinin zəmanət siyahısına düşə (yerli orqanın, deyək ki, Azərbaycan Dövlət Nəşriyyat komitəsinin təqdimatı əsasında).

Onun uşaq kitabları varmı? Əgər varsa, qoy moldav dilinə tərcümə olunmaq üçün xahişlə nəşriyyatın ünvanına göndərsin. Mən də öz tərəfimdən onun plana salınmasına çalışaram. Qabaqcadan söz vermirəm ki, nəsə əldə edə bilərəm, amma səy göstərərəm. 1988-ci ilin planında hələlik Zahid Xəlildir. Sonrakı illərin planında Azərbaycan yazıçılarından kimin olduğunu bilmirəm.

Sizdən yaxşı xəbərlər gözləyəcəyəm! Zahidə məndən salam yetirin!

Əzizim Füzuli, Sizə ən xoş günlər arzulayıram!

Hörmətlə Filip Mironov.
26. IV. 1985.
Kişinyov.

***

Əzizim Füzuli, salam!

Məktubunuza və qəzetə görə çox sağ olun! Sizin can yandıraraq tərcümə etdiyiniz və Azərbaycan dilində çap olunmuş öz hekayəmi qəzetdə görəndə çox sevindim. Sizin məktubunuzla birgə eyni vaxtda Tofiq Mahmuddan da məktub aldım və o, qəzeti də göndərmişdi. Özünün yazdığına görə, o da qəzetdə hekayəmi görən kimi mənə göndərib.

Zahid Xəlilin mənim yaradıcılığım haqqında hazırladığı televiziya verilişi barəsində verdiyiniz xoş xəbərə görə çox sağ olun. Heyif ki, buradan, Kişinyovdan Bakını "tuta" bilmirəm. Yoxsa o eynəkli yaraşıqlı kişini, ciddi akademik görkəmli Zahid Xəlili görərdim. Mən onu təsəvvürümdə canlandırıram və bununla da kifayətlənirəm.

İndi də öz işlərim barədə. Bu ay əsasən ev tutduğum kənddə olacağam, sevdiyim təbiətin qoynunda təmiz havadan udacağam. Əgər imkan tapsam bəlkə bir az işlədim də.

Sizdən bir xahişim var. O qadının telefon nömrəsini təkrar mənə göndərin ki, zəng edib Sizin salamınızı ona yetirim. Onun telefon nömrəsini itirmişəm. Bütün günü axtarmışam, amma tapa bilməmişəm. Əlbəttə, əgər istəyirsinizsə. Düşünürəm ki, Sizin salamınızı almaq ona xoş olacaq. Belə şeylər həmişə xoş təsir bağışlayır, xüsusilə qadınlara.

Sizə öz şəxsi işinizdə, tərcüməçilik fəaliyyətinizdə uğurlar diləyir və xoş günlər arzulayıram!

Hörmətlə

Filip Mironov.
30. VI. 1985.
Kişinyov.

***

Əzizim Füzuli!

Aldığım məktubunuzdan mənim yaradıcılığım haqqında televiziya verilişinin getdiyini biləndə çox şad oldum. Sizə, Zahidə və Tofiq Mahmuda sonsuz təşəkkürümü bildirirəm. Belə şeylər heç vaxt unudulmur. Mənim üçün xoş sürpriz budur ki, artıq Siz mənim əlyazmamı tərcümə etmisiniz və redaktə edərək nəşriyyata təhvil vermisiniz. Hamınıza çox sağ olun deyirəm.

İndi də bir az özüm haqqında. İyun ayından Kişinyovdan 37 kilometr məsafədə yerləşən Kapriyana kəndində yaşayıram. Bir köhnə kənd evi almışam, özümü xalq təbabəti üsulu ilə müalicə edirəm. Bu müddətdə bir neçə dəfə Kişinyovda olmuşam, ona görə də Sizin məktubunuzu ala bilməmişəm. Rica edirəm, diqqətsizliyimə görə məni bağışlayasınız. Mənim işlərim o qədər də yaxşı deyil, yenə xəstələnmişəm. Xəstəxanaya qoymaq istəyirlər, mənsə onun dərdindən kənddə gizlənirəm.

Bir həftə bundan əvvəl evə getmişdim, məktubunuzu tapmışam və mən öz "sığınacağımdan" Sizə cavab yazıram. Otlarla və asta-asta fiziki əməklə müalicə olunuram. Lakin başqa çətinliklərlə qarşılaşıram, çünki rahatlığı olmayan kənd həyatına adət edə bilmirəm. Yəqin ki, tezliklə öz komamı bağlayıb, şəhərə köçməli olacağam. Xoşa gəlməyən hal budur ki, yaradıcılıqla məşğul ola bilmirəm. Amma düşünürəm ki, bu müvəqqəti haldır.

Məktuba və xoş xəbərə görə bir də sağ olun deyirəm. Mənim kiçicik yaradıcılığımın təbliğində xeyirxahlıq göstərdiklərinə görə bütün dostlarıma öz salamımı yetirirəm. Sizə yaradıcılıq uğurları, ən xoş günlər arzulayıram.

Sizin Filip.
19. 09. 1985.
Kapriyana kəndi.

***

Əzizim Füzuli!

Sizi və ailənizi üzümüzə gələn Yeni il – 1986-cı il münasibətilə ürəkdən təbrik edirəm! Sizə ən böyük can sağlığı, səadətli günlər və çoxlu-çoxlu qış sevincləri arzulayıram! Hörmətlə

Filip Mironov.
22. XII. 1985.
Kişinyov.

***

Əzizim Füzuli!

Mən çox sevinirəm ki, bir çox ədəbiyyatçılar tərəfindən bəyənilən kitab Sizin gözəl tərcümənizdə çap olunub. Böyük zəhmət sərf etdiyinizə görə Sizə sonsuz minnətdarlığımı bildirirəm. İndi mən kitabı böyük səbr- sizliklə gözləyəcəyəm. Məktubunuzdan belə başa düşdüm ki, kitabı mənə Zahid Xəlil göndərəcək.

Bu məktubu Sizə Kişinyovdan yox, Kapriyana kəndindən yazıram. Həkimlərin məsləhətilə burada yaşayası olmuşam. Kişinyova çox az-az gedirəm, iki gündən sonra da qayıdıram geri. Nə etmək olar, olan şeydir. Bu il ay yarım xəstəxanada yatmalı oldum, belə ki, əhvalım elə də yaxşı deyildi. İndi bir az özümə gəlmişəm və gələcək işlərim haqqında düşünürəm. Onu doğru deyirsiniz ki, mən Sizə çoxdandır məktub yazmıram, amma onu da deyim ki, bütün aldığım məktublarınıza cavab vermişəm.

Moldovada bərk quraqlıq keçir, yağış yağmır, məhsul çöldə məhv olub gedir. Bu məni, həmçinin kəndliləri də yaman narahat edir. Quraqlıqdan savayı başqa təhlükə də gözlənilir.

Məni Bakıya dəvət etdiyiniz üçün çox sağ olun. Hələlik xəstəliyimə görə bunu mümkün eləyə ə bilmirəm. Siz Kişinyova gəlin. Necə deyərlər, Sizin-

lə üzbəüz yaxından tanış olmağıma şad olardım. Sizə xoş günlər arzulayıram!

Filip Mironov.
21.V.1986.
Kapriyana kəndi.

***

Hörmətli Füzuli!

Təəssüf ki, Sizin məktubunuz mənə çox gec gəlib çatdı, çünki indi mən başqa ünvanda yaşayıram. Belə ki, gec cavab yazdığıma görə məni bağışlayın. Tərcüməniz barəsində eşitmək mənə çox xoş oldu, amma onu deyim ki, Sizin əlinizə mənim ən zəif əsərim düşüb. Bu əsər naşirlər tərəfindən pis hala salınıb, demək olar ki, yarıbayarı ixtisar edilib, nəticədə əsər öz fantastik-sosial süjetini itirib. Nə etmək olar.

Gələcək əməkdaşlığımızdan söhbət gedirsə, mənim bir neçə adda əsərlərim var:

"Kees Admiral Tülpanov" – uşaqlar üçün yazdığım XVI əsr Niderland inqilabı tarixindən bəhs edən povest;

"Borodino oyanışı" – 1812-ci il Vətən müharibəsi dövründən bəhs edən gənclər üçün tarixi povest;

"Bizi apar, Peqas!" – ABŞ-dakı Vətəndaş müharibəsinə həsr olunmuş tarixi povest;

“Əlvida, yarğan!” – sərgərdan itlər haqqında ibrətamiz nağıllar. Son vaxtlar bir çox teatrlarda “İtlər” adı ilə tamaşaya qoyulmuşdur.

“Gecikmiş payız günləri” – məhəbbət haqqında povest (məncə yaxşı kitabdır);

“Dağda ev” – valideyn qayğısından məhrum olan uşaqlar haqqındadır.

Başqa kitablarım da var, lakin onları Sizə tərcümə üçün tövsiyə etməyə cəsarət etmirəm. Eh, lap yadımdan çıxmışdı! Son günlərdə yazdığım povest “Kseniya” adlanır. Rusiyanın iğtişaşlı dövründə yaşamış çar Boris Qodunovun bədbəxt qızı haqqında hekayətdir. Gördüyünüz kimi, siyahı çox uzundur. Əgər vaxtınız və istəyiniz olsa xoşunuza gələnin birini seçin. Mən üç kitabı seçə bilərəm: “Gecikmiş payız günləri”, “Əlvida, yarğan!” və “Kseniya”.

Əgər bu əsərlərdən seçə bilsəniz mən Sizə göndərməyə çalışaram. Heyf ki, özümdə demək olar bir kitab da qalmayıb.

Yaradıcılıq arzusu ilə, Konstantin Sergiyenko

R.S. Məktubu makinada yazdığıma görə məni bağışlayın, çünki xəttim çox pisdir.

İndiki ünvanım – 111396, Moskva, Fryazevskaya 13, mənzil 230. Tel: 303-00-34.

03. VIII. 1988.
Moskva.

***

Əzizim Füzuli!

Mənim “Billi” adlı hekayəmi dilinizə tərcümə edib çap etdirdiyinizə görə Sizə təşəkkür edirəm. Uzun müddət məktub yazmadığıma görə üzr istəyirəm, ezamiyyətdə olmuşam. Yazırsınız ki, mənim əsərlərimi tərcümə etməkdə davam edirsiniz. Qəlbən minnətdarlığımı bildirirəm. Sizə öz “Nevidimıye neboskrebı” adlı yeni kitabımı göndərirəm. Mən indi daha redaksiyada işləmirəm. Peşəkar yazıçı kimi fəaliyyət göstərirəm. Ümidvaram ki, Vilnüsdə və ya Bakıda görüşəcəyik. Uğurlar arzulayıram!

Sizin Albertas Laurinçukas.

03. VI. 1989.

Vilnüs.

R.S. Kitabı ayrıca göndərirəm.

Yeni ünvanım: Vilnüs, Rudens küçəsi, 4, mənzil 9. Tel: 35-16-21, yaxud: 66-26-02 (qızımın).

***

Hörmətli Füzuli!

Sizin “Rus bədii uşaq nəsrinin Azərbaycan dilinə tərcüməsi tarixindən” məqalənizi diqqətlə oxuduq. Hazırda tərcümə probleminə həsr edilmiş material topladığımız üçün məqalə bizi maraqlandırdı və xoşumuza gəldi. Təəssüf ki, Sizin məqalənizi bütövlükdə çap edə bilmirik, azacıq ixtisar et-

məli olacağıq. Biz məqalənin redaktə və ixtisar olunmuş variantını bu ilin payızında Sizə göndərəcəyik (çapı 1991-ci ilin yayına planlaşdırılır) və bu mətnə olan iradınızı nəzərə alacağıq. Jurnalımıza olan diqqətinizə görə Sizə təşəkkür edirik. Xoş günlər arzusu ilə,

L.Y.Zvonaryova,
filologiya elmləri namizədi,
SSRİ Yazıçılar İttifaqının
üzvü, ədəbi əməkdaş.
03. IX. 1990.
Moskva.

***

Çağ Öyrətim İşlətmələri Qafqaz Universiteti, Azərbaycan Yazıçılar Birliyi, Türkiye Yazarlar Birligi, Türksoy – Türk Kültür ve Sanatları Ortak Yönetimi

Hörmətli dosent Füzuli Əsgərli!

Sizi Türk Xalqları Ədəbiyyatı (II) Beynəlxalq uşaq ədəbiyyatı konqresinin açılış mərasimində görməkdən məmnun olardıq.

Prof. Dr. Ahmet Sanıç – Çağ Öyrətim İşlətmələri Qafqaz Universitetinin rektoru

Anar – Azərbaycan Yazıçılar Birliyinin sədri

İbrahim Ülvi Yavuz – Türkiye Yazarlar Birligi Yönetim Kurulu Genel Başkanı

Dr. Firat Purtaş – Türksoy Türk Kültür ve Sanatları Ortak Yönetimi Genel Müdürü

Tarix: 13 noyabr 2008-ci il, cümə axşamı

Yer: M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, saat: 11-30.

***

Hörmətli dos.Əsgərli Füzuli Feyruz oğlu.

Sizi Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimə dəvət edirik.

Yubiley tədbirinin rəsmi açılışı 2012-ci il aprel ayının 20-də saat 10:00-da ADPU-nun Böyük akt zalında olacaqdır.

***

Azərbaycan Respublikası Mədəniyyət
və Turizm Nazirliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası

Hörmətli Füzuli müəllim!

F.Köçərli adına Uşaq Kitabxanası Sizi "Kitab. Dünya. Uşaq" adlı dəyirmi masaya dəvət edir. Tədbir 2 may 2012-ci il saat 12:00-da kitabxananın oxu zalında keçiriləcəkdir.

Ünvan: S.Vurğun, 88. Əlaqə telefonu: 597-08-51; 597-09-86; 597-08-79.

Təşkilat komitəsi.

***

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika uşaq Kitabxanası

Hörmətli Füzuli Əsgərli!

Sizi Beynəlxalq mükafatlar laureatı, görkəmli yazıçı, uşaq ədəbiyyatının mahir tədqiqatçısı, filologiya üzrə elmlər doktoru, professor, ADPU-nun kafedra müdiri Zahid Xəlilin anadan olmasının 70 illik yubileyinə dəvət edirik!

Proqram:

1.Giriş sözü:

Fizurə Quliyeva, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

2. "Zahid Xəlilin sənət dünyası", məruzəçi Füzuli Əsgərli (filologiya üzrə fəlsəfə doktoru)

3.Yazıçıların, müəllimlərin, kitabxana işçilərinin və məktəblilərin təbrikləri

Gəlsəniz sevinərik!

Tarix: 17.04.2012, saat: 11:00

Məkan: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Bakı, S.Vurğun küçəsi, 88.

***

Hörmətli Füzuli Əsgərli!

Sizi II Beynəlxalq Türk Xalqları Uşaq Ədəbiyyatı Konqresinin açılış mərasimində görməkdən məmnun olardıq.

Prof.Dr.Misir Mərdanov – Azərbaycan Respublikasının təhsil naziri

Prof.Dr.Ahmet Saniç – Qafqaz Universitetinin rektoru

Anar – Azərbaycan Yazıçılar Birliyinin sədri

İbrahim Ülvi Yavuz – Türkiye Yazıçılar Birligi Yönetim Kurulu Genel Başkanı.

Yer: Qafqaz Universitetinin Akt Zalı;

Tarix: 11 oktyabr 2012-ci il; Saat: 11:00.

***

Hörmətli Füzuli Əsgərli!

Sizi "Yeni uşaq mahnıları – 2013" Ümumrespublika Mahnı Müsabiqəsinin Yekun Konsertinə dəvət edirik.

Konsert 19 dekabr 2013-cü il tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında keçiriləcəkdir.

Konsert saat 17:00-da başlanacaqdır.

ELS Müstəqil Araşdırmalar Mərkəzi İctimai Birliyi

Azərbaycan Pespublikası Prezidenti yanında QHT-rə Dövlət Dəstəyi Şurası.

***

Hörmətli Füzuli müəllim!

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası Sizi

görkəmli şair, ictimai xadim, Dövlət Mükafatı laureatı Teymur Elçinin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş tədbirə və “Teymur Elçin. Biblioqrafiya” kitabının təqdimatına dəvət edir.

Tədbir 15 aprel 2014-cü il saat 14.00-da Milli Kitabxanada keçiriləcəkdir.

***

Hörmətli Füzuli müəllim!

Avropa Azərbaycan Cəmiyyəti və “TEAS Press” Nəşriyyat Evi Sizi məşhur uşaq yazıçısı Mo Uilyemsin (ABŞ) iştirakı ilə “Üç alma” uşaq ədəbiyyatı nəşriyyatının təqdimat mərasiminə dəvət edir.

Təqdimat mərasimi 13 noyabr 2014-cü il, saat 18.00-dan – 20.00-dək keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Azadlıq meydanı, 674.

Marriott Abşeron otelinin “Şərq” zalı.

RSVP: baku@ teas.eu

***

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası

Türkiyə İş Birliyi və Koordinasiya Agentliyi

Hörmətli Füzuli müəllim.

F.Köçərli adına Respublika Uşaq kitabxanası Sizi 2-6 mart 2015-ci il “Türk uşaq ədəbiyyatı həftəsi”nin

açılış mərasiminə dəvət edir. Tədbir 02 mart saat 11:00-da Rəşid Behbudov adına Mahnı Teatrında olacaqdır.

Ünvan: Rəşid Behbudov küçəsi, 12
Əlaqə telefonu: (012) 597 08 51;
(012) 597 09 86.

Kitabın içindəkilər

Tərtibçidən.....3

Ədəbiyyatşünas alim Füzuli Əsgərli haqqında ürək sözləri

Nizami Xudiyev. Uşaq ədəbiyyatının dəyərli tədqiqatçısı, tələbələrin sevimli müəllimi.....6

Zahid Xəlil. Ömrün yetmişinci yazı.....16

Himalay Qasımov. Öz inamına bağlı ədəbiyyatşünas.....21

Yaqub Babayev. Bir alim ömrünün hekayəti, yaxud 70-ci ilin baharı.....31

Buludxan Xəlilov. Yaxşı müəllim, yaxud alim olmaq qəhrəmanlıqdır.....44

Fərrux Rüstəmov. Ziyalı ömrü.....52

Əzizxan Tanrıverdi. Filologiyamızda Füzuli Əsgərli imzası.....60

Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatının keşiyində dayanan əsgər.....66

Nəbi Əsgərov. Yaddaşlarda qalan ziyalı ömrü.....73

İbrahim Bayramov. Sənətinin vurğunu.....78

Vaqif Əliyev. Xeyirxah insan, səmimi dost, gözəl pedaqoq-alim.....82

Məlahət Babayeva. Füzuli Əsgərli bədii tərcümə nəzəriyyəçisi və ustadı kimi.....86

Ələmdar Quluzadə. Füzuli səltənətinin əsgəri.....94

Qəşəm İsabəyli. Ədalət hissi və ya ədəbiyyat-
şünas-tənqidçi Füzuli Əsgərli.....98
Şəhla Qənbərova. Uşaq ədəbiyyatı tədqiqatçısı,
bədii tərcümə ustası.....108
Sevinc Nuruqızı. Uşaq ədəbiyyatında və ədəbi
tənqiddə Füzuli Əsgərli imzası.....116
Reyhan Yusifqızı. Məni uşaqlıq illərinə
qaytaran adam.....125
Fəxrəddin Yusifov. Ömrünün 70-ci baharına
xoş gəlmisən, qardaş!.....130
Sərdar Allahyarlı. Uşaqlıq dostum, ədəbiyyat-
şünas-tənqidçi Füzuli
Əsgərliyə Açıq məktub.....133
Nurəddin Uluxanlı. Ömrün müdriklik zirvəsi.....137
Kamil Bəşirov. 70 yaşlı cavan Füzuli müəllim.....141
Qüdrət Umudov. Bədii rəhbər və rejissor kimi.....145
Şöhrət Məmmədova. Ömrünün müdriklik çağını
yaşayan insan.....152
Simuzər Əliyeva. İstedadlı alim, səmimi insan.....155
Yeganə Qəhrəmanova. Şərəfli ömrün sözü.....157
Aynurə Əliyeva. Şərəfli müəllim ömrü.....160
Həbib Əhmədov. Gözəl insan, xoşbəxt
alim baba.....165
Asiman İsgəndərov. Hörmətli Füzuli müəllimə
Səmimi məktub.....167
“Tumurcuq” uşaq mətbuatının təbriki.....172

Ədəbiyyatşünas alim Füzuli Əsgərlinin əsərləri haqqında

Himalay Ənvəroğlu. “Ömrün sözü, sözün ömrü”
kitabina ön söz.....174

Həyat Rüstəmzadə. “Sənətkarın uşaq dünyası”.....180
Aysel Mehdiyeva.
Dövlət radiosunda. Uşaq dünyasının Zahid
Xəlili.....190
Fəxrəddin Yusifov. Sehrli dünyanın bələdçisi.....191
Aysel Mehdiyeva. Uşaqların sevimli sənətkarı.....196
Elman Əbdülov. Ömrü sözə köçürülmüş sənətkar...204
Şamxəlil Məmmədov.
Xuraman Əsgərova. Bədii tərcümə prinsipləri.....209
Redaksiyadan. Füzuli Əsgərli: “Bədii tərcümə
prinsipləri”.....218
Redaksiyadan. “Bədii təhlil və ədəbi tənqid”.....220
Şamxəlil Məmmədov. “Zahid Xəlilin sənət
Elman Əbdülov. dünyası”.....221
Ayətxan Ziyad. Sehrli dünyanın memarı kimdir.....224
Hacı Tofiq Seyidzadə.
Ədalət Daşdəmirli. “Sehrli dünyanın memarı”.....232
Günel. Zahid Xəlil “Sehrli dünyanın memarı”
kimi.....236
Gülayə Könül. Uşaq ədəbiyyatı haqqında
dəyərli monoqrafiya.....239
Mehparə Əlizadə. 70 yaşlı adamın ömür kitabı:
“Sehrli dünyanın memarı”.....243
Məktublar, teleqramlar, dəvətnamələr.....247

BİR ALİM ÖMRÜNÜN HEKAYƏTİ
BAKI – 2015